Cabbar Məmmədov

*İthaf olunur taleyimdə əvəzedilməz rolu olmuş, bütün Azərbaycan xalqının bugünkü rifah və inkişafında sonsuz böyük zəhməti və payı olan, Ulu öndərin yaxın dostu mərhum Xoşbəxt müəllim Yusifzadəyə*

# TURAN QILINCI

*(Bədii tarixi-siyasi roman)*

Bakı - 2023

© **Cabbar Manaf oğlu Məmmədov**

**TURAN QILINCI**

*(Bədii tarixi-siyasi roman)*.

Bakı, 2023

293 səhifə.

**Elektron qrif:** GGKEY:P8GPD7ZJTXC

*Kitabın müəlliflik hüququ qorunur.*
*Kitabdan hər hansı formada istifadə zamanı,*
*o cümlədən televiziya, qəzet müsahibələrində istifadə edərkən kitaba istinad edilməsi mütləq zəruridir.*

İstinad üçün daimi ünvan:
http://books.google.com/books?vid=v9vqEAAAQBAJ

Rəy və təkliflər üçün müəlliflə əlaqə:
j.m.mammadov(a)mail.ru

## ANNOTASİYA

Əsərdə Ulu öndərin bioqrafiyası bədii janrın tələbləri üzrə işlənir və burada o, hələ SSRİ dövründən o taylı bu taylı Azərbaycanın azadlığı və birləşməsi uğrunda xalqımızın bütün düşmənləri ilə mübarizə aparan bir qəhrəman obrazında canlandırılır. Ayrı-ayrı epizodlarla dolayısı ilə ifadə olunur ki, o nəinki tək Azərbaycan xalqının, hətta bütün türk dövlətlərinin vahid hərbi, siyasi, iqtisadi blok formasında birləşməsi və güclənməsi amalı ilə yaşayıb.

Bu məqsədə nail olmaq üçün onun məlum bioqrafiyasına selektiv yanaşaraq *(bir çox halda xronologiyaya ciddi riayət etmədən)*, bioqrafıyasındakı hamıya bəlli millətçi elementlər – dissidentləri qoruması, Ermənistana torpaq verilməsinin qarşısını alması, Cənubi Azərbaycan mövzusunu respublika ideologiyasına çevirməsi, istedadlı insanlara qayğısı və s. xüsusi koloritlə canlandırılır. Əleyhinə indiyə kimi səsləndirilənlər – məsələn, onun Rusiyaya, Ermənistana işləməsi, Azərbaycanda demokratiya, söz azadlığı olmaması, və s. – xarici kəşfiyyat orqanlarının psixoloji diversiya proqramı çərçivəsində ona qarşı qarayaxma əməliyyatlarının bəhrəsi olduğu nümayiş etdirilir. Adətən neytral kimi görünən bir çox məqamlarsa xüsusi interpretasiya edilərək, onlara yeni məna verilir.

Əsərdə dramatikliyə nail olmaq üçün o, daim Azərbaycanın düşmənləri ilə – Azərbaycanda millətçiliyi boğmaq istəyən Sovet rəhbərləri, Azərbaycandan Rusiya və İrana qarşı bir alət kimi istifadə etmək istəyən Qərb kəşfiyyat dairələri, daxili düşmənlər və b. ilə konfrontasiyada, mübarizələrdə əks olunur və hər bir qarşıdurmadan da öz yüksək intellekti, diplomatiyası, natiqliyi və ən nəhayət vətənpərvərliyi ilə qalib obrazında çıxır. Əsərdə daxili düşmən obrazında hamıya məlum müxalifət üzvləri yox *(əsərdə onlar H.Əliyevlə birgə çalışırlar)*, hansısa mücərrəd 5-ci kalon təsvir edilir. Oxucuların diqqətini yeknəsəklikdən qorumaq və qəhrəmanın daxili zənginliyini, geniş mənəvi diapazonunu açmaq üçün o, ən ziddiyyətli situasiyalarda – detektiv, dramatik vəziyyətlərdən tutmuş, romantik, lirik-duyğusal vəziyyətlərə qədər ən kontrastlı durumlarda təsvir olunur.

Əsərdə əsas ideya – Ulu öndərin obrazını ideallaşdırmaq, bütləşdirmək, Azərbaycan xalqının bir qeyri-adi qəhrəmanı obrazında canlandırmaq yolu ilə yeni nəslə ziyalılıq, vətənpərvərlik, milli təəssübkeşlik, ərənlik şüurunu aşılamaqdır. Qəhrəmanın bu xüsusiyyətləri “məddahlıqla” yox, konfliktlərdə, konfrontasiyalarda qazandığı uğurları, dramatik vəziyyətləri bir şahmat oyunu kimi oynayıb qrossmeystercəsinə necə maraqlı həll etmələri, məğlub olan rəqiblərinin qəzəbi, aqressiyası vasitəsilə ifadə olunur.

Kitab, Heydər Əliyev şəxsiyyətinə maraq göstərən, Azərbaycan tarixinin Heydər Əliyev dövrü ilə maraqlanan hər kəs üçün faydalı ola bilər.

# Mündəricat

Mündəricat ........................................................................................ 5
▣ 1-Cİ HİSSƏ ..................................................................................... 1
I fəsil: Əziz Əliyevlə tanışlıq.................................................................. 2
II fəsil: Heydər Əliyev İranda................................................................ 14
1. Huzistan arxivinin oğurlanması əməliyyatı ............................................. 14
2. Əməliyyatın nəticəsinin SSRİ rezidensiyasında müzakirəsi....................... 19
III fəsil: Kislovodskidə Zərifə Əliyeva ilə tanışlıq ..................................... 28
IV fəsil: Əziz Əliyevin evində ................................................................ 38
V fəsil: Əziz Əliyev ailəsi ilə əlaqəyə görə Heydər Əliyevin işində problem ........................................................................................ 46
VI fəsil: Zərifə Əliyeva ilə parkda romantik görüş .................................... 53
VII fəsil: Heydər Əliyev Azərbaycan SSR DTK-sının rəhbəri kimi.......... 58
VIII fəsil: Heydər Əliyev Azərbaycan SSR-nin rəhbəri kimi...................... 64
IX fəsil: Heydər Əliyev millətçi fəaliyyətinə görə Moskvaya çağırılır..... 69
X fəsil: 1977-ci ildə Moskva tərəfindən Dağlıq Qarabağın Ermənistana verilməsi qərarına qarşı Heydər Əliyevin mübarizəsi.................................... 95
1. Həmin Qərarın Bakıda Heydər Əliyevin bağında Azərbaycanın bir sıra rəsmi dövlət xadimləri ilə müzakirəsi............................................................ 95
2. Həmin qərarının Heydər Əliyevin Moskvada Brejnevlə müzakirəsi........ 103
3. Həmin qərarın Heydər Əliyevin Moskvada Ponomoryovla müzakirəsi... 114
XI fəsil: 1985-ci ildə SSRİ rəhbərliyinə kimin gətirilməsi ilə bağlı NATO Qərargahında müzakirə............................................................................ 122
XII fəsil: Zərifə Əliyevanın ölümü. Qürub............................................. 133
XIII fəsil: 20 yanvarda Bakıya qoşun yeritmək planı ilə bağlı Qorbaçovla Əliyevin mübahisəsi................................................................................ 137
XIV fəsil: Qorbaçovun vədinə rəğmən Bakıya qoşun yeritmək əmri verməsi xəbəri Heydər Əliyevə çatır ........................................................................ 143
▣ 2-Cİ HİSSƏ ..................................................................................... 154
XV fəsil: İlham Əliyev gizli yolla Heydər Əliyevi xəstəxanaya çatdırır.. 155
XVI fəsil: 20 yanvar hadisəsi baş verir ..................................................... 157
XVII fəsil: Heydər Əliyevin siyasi blitzkriklə 20 yanvar qırğınını dayandırır ........................................................................................ 158
XVIII fəsil: Heydər Əliyevin Azərbaycana qayıdışı .................................... 168
XIX fəsil: NATO generalları Heydər Əliyevin Azərbaycana qayıdışını müzakirə edirlər ........................................................................................ 176
XX fəsil: Azərbaycan elitası Heydər Əliyevi ölkə rəhbərliyinə aparır..... 178
XXI fəsil: Heydər Əliyev 2-ci dəfə hakimiyyətdə .................................... 194

XXII fəsil: NATO qərargahında H.Əliyevin 2-ci dəfə hakimiyyətə gəlməsinin müzakirəsi ........................................................................................ 196
XXIII fəsil: Heydər Əliyevə qarşı terror...................................................... 202
XXIV fəsil: Heydər Əliyevin müxbirlərlə görüşü ........................................ 206
XXV fəsil: NATO Heydər Əliyevin aradan götürülməsi barədə son və qəti qərar verir ........................................................................................ 242
XXVI fəsil: NATO-nun Azərbaycan və Türkiyə qarşısında öz məğlubiyyətini etiraf etməsi................................................................................................ 244
Bütün fəsllərin qısa xülasəsi ........................................................................ 266

# 1-Cİ HİSSƏ

# *I fəsil:* Əziz Əliyevlə tanışlıq

1941-ci ilin avqust ayında SSRİ və Böyük Britaniya İrana öz qoşunlarını yeritmişdilər. Sovet qüvvələri əsasən Türkmənistan və Sovet Azərbaycanı ərazisindən daxil olub, bəzi qonşu şəhərlər də daxil olmaqla əsasən İran Azərbaycanı ərazisini, Britaniya qüvvələri isə İrak ərazisindən daxil olub – bəzi qonşu şəhərlər də daxil olmaqla Huzistan vilayətini öz təsiri altına aldılar. Həmədanın 160 km. qərbindəki Sənəndəc *(İran Kürdistanının paytaxtı)* və Tehranın 300 km. qərbində yerləşən Qəzvin şəhərləri 2 müttəfiq orduların sərhəd şəhərləri idi.

İlkin mərhələ üçün bu müdaxilədə məqsəd aşağıdakılar idi:

1) ABŞ-dan SSRİ-yə gələcək yardımlar üçün ən uyğun marşrut olan Transiran marşrutunun təhlükəsizliyini təmin etmək

2) İndiyə qədər Almaniya şirkətlərinin nəzarətində olan zəngin İran neftini Hitler Almaniyasının əlindən almaqla, onu enerji resurslarından məhrum etmək

Bu plan realizə edildikdən sonra, zamanca hər 2 dövlətdə müəyyən əlavə iddialar da ortaya çıxdı ki, bu baxımdan SSRİ-nin həmin bu 2-ci dərəcəli iddiaları sırasında – zəngin İran neftinə hər nə cürsə sahiblənmək də daxil idi. Yaranmış vəziyyətdən Azərbaycanın o vaxtkı rəhbərliyi də əlavə olaraq yararlanmaq məqsədilə İrana Azərbaycan KP MK-nın 3-cü katibi polkovnik-komissar Əziz Əliyevin rəhbərliyi ilə öz əlavə qüvvələrini göndərdi. Əsas vəzifəsi İranın neft yataqlarının araşdırılması, SSRİ-nin işğalı altında olan zonada qarışıqlığın qarşısını almaq, orada normal iqtisadi fəaliyyəti təmin etmək

olan 52 briqadadan – 3816 nəfərdən ibarət olan bu qüvvələrə Bağırov şəxsən 2-ci bir tapşırıq da vermişdi:

**M.C.Bağırovun İrana ezam edilən şəxsi heyət qarşısındakı çıxışından bir parça**[1]**:**

— Sizin vəzifəniz çox məsul və şərəflidir. Siz böyük iş görəcəksiniz. Əgər bu vəzifənin öhdəsindən gəlsəniz, bu, Azərbaycan xalqı qarşısında böyük xidmət olacaqdır. Bu vəzifənin öhdəsindən gəlməklə siz ikiyə bölünmüş xalqın çoxdankı arzusunu həyata keçirmiş olacaqsınız. Siz parçalanmış ürəkləri, sevgiləri, hissləri birləşdirəcəksiniz. Bu, namus, sədaqət, məhəbbət məsələsidir...

Bağırov bu planı Moskva ilə qismən razılaşdırsa da, amma Moskvanın maraqları ilə tam üst-üstə düşmürdü:

Əvvəla, Stalin İranın tək bir hissəsində yox, hamısında Sosializm qurmaq, bununla da bütün İranı SSRİ-nin təsiri altına almaq istəyirdi *(Necə ki, 1979-cu ildə SSRİ bunu bir başqa formada həyata keçirdi)*

İkincisi isə – M.C.Bağırovun milli kartı Stalinə əsasən İran hökumətinə təzyiq aləti kimi lazım idi və istədiyini əldə edəndən sonra da oyundan çıxardı

Belə ki, 29.01.1942 tarixdə üçtərəfli İngiltərə-SSRİ-İran müqaviləsi imzalandıqdan sonra Moskva Əziz Əliyev qrupunun fəaliyyətini dayandırdı və geri çağırıldı. Bu məsələdə həm də 1942-ci ilin Almaniya cəbhəsində SSRİ-nin durumunun çox ağır olması və ABŞ-İngiltərə cütlüyünün SSRİ-yə təzyiqi faktoru da əhəmiyyətli rol oynadı. Həmin vaxt (07.04.1941–06.03.1944) Azərbaycan SSR Ali Sovetinin sədri olan Əziz Əliyev, İrandan geri çağırılandan sonra paralel olaraq həm də

[1] M.C.Bağırovun İrana ezam edilən yoldaşlarla söhbəti. 12-25.09.1941.//ARPİİ SSA, f.l, s.162, i.28, v.19

Dağıstan vilayəti KP MK-nın I Katibi təyin edildi *(29.09.1942 - 03.12.1948).* Orada hakimiyyətdə olduğu müddətdə Sovet Dövləti tərəfindən düşmən elan edilmiş, Dağıstan xalqınınsa öz milli qəhrəmanı hesab etdiyi İmam Şamilin irsinin öyrənilməsi və təbliğinə xüsusi diqqət verdi, eləcə də 1944-cü ildə Stalinin əmri ilə 600 min Qafqaz xalqı sürgün edildiyi vaxt, Əziz Əliyevin sayəsində bu siyasət Dağıstan əhalisindən yan keçdi.

1944-cü ildə Almaniya cəbhəsində SSRİ-nin vəziyyəti nisbətən yaxşılaşandan sonra Stalin İran məsələsinə yenidən qayıtdı və bu dəfə artıq bütöv İranı sosialistləşdirmək planından əl çəkib, onun heç olmasa neftlə zəngin olan şimal hissələrini – Cənubi Azərbaycanı İrandan ayırıb SSRİ-yə birləşdirmək planına start verdi. Bu mərhələdə İrana xüsusi seçilmiş çekist qrupu göndərildi ki, onların da əsas məqsədi Cənubi Azərbaycanda milli ruhu oyandırmaq və orada milli azadlıq hərəkatının baş qaldırmasına nail olmaq idi. Məşhur Pişəvəri hərəkatı məhz bu qrupun fəaliyyəti nəticəsində meydana çıxdı və Heydər Əliyev də siyasi fəaliyyətə məhz bu qrupun tərkibində leytenant rütbəsi ilə başlamışdır.

* * *

1944-cü il, Fevral ayı. Ali Sovetin sədrinin qəbul otağı. Katibə xanım. Köməkçi oğlan və bayaqdan qəbul gözləyən bir gənc.

Bu məqamda Ali Sovetin sədri Əziz Əliyev kabinetdən çıxır və katibə xanıma sərt və tələsik sözlərlə:

— Если что, я в ЦК.

Bu məqamda bayaqdan növbə gözləyən gənc ayağa qalxıb:

— Извините товарищь Әлиев. Я уже три день приходил. Меня Иран отправляют. Пожалуста, напишите подпись.

**Əziz Əliyev:**

— Молодой парень. Видите, что я тороплюсь. Приходите, пожалуйста в понедельник.

**Heydər Əliyev:**

— Пожалуста, понеделник мы должны отправит Иран. 5 минут пожалуста, делайте подпис.

**Əziz Əliyev:**

— Молодой парень, я уже сказал, меня ждут, это не игрушечное дело, чтобы подписать на ходу. Я даже не знаю кто вы, зачем вам Иран, какие у вас намерения. Короче говоря, в данный момент я полностью забит делами, в стране война, на минуту нет времени на мелочи.

Bunu deyib Əziz Əliyev qəbul otağını tərk edir. Gənc oğlan əlində sənədləri bir növ şok vəziyyətində, sanki nə edəcəyini bilməyərək məyus vəziyyətdə donub qalır. Bayaqdan da katibə xanımdan soruşmuşdu, o da bildirmişdi ki, sabah-birigün Ali Sovetdə iş günü deyil, bu gün alınmasa, bir də qalır 1-ci günə, onda da səhər 9-da bütün çekist heyəti İrana yola salınırdı. Bu – son şans idi və onun da alınmaması bu gəncin bütün arzularının alt-üst olması demək idi. Bu anda bayaqdan ayaq üstə durub bu söhbətə qulaq asan köməkçi oğlanın səsi eşidilir:

— Mən sizə kömək edərəm. narahat olmayın. Əgər sizi ora yollamağı məsləhət biliblərsə, deməli vətənimizə, xalqımıza. böyük Sovet dövlətimizə gərəkli biliblər ki, sizi seçiblər. İndi bir imzaya görə bu şansı buraxmaq olmaz.

Qəfildən şokdan ayılan gəncin üzü bir minnətdarlıq təbəssümü ilə doldu:

— Allah sizdən razı olsun, mən nə edim indi?

— 1 saata bura zəng edin, mən sizə bir məlumat verərəm. – bunu deyib köməkçi oğlan qələm və vərəq götürüb nömrə yazdı və bu oğlana uzatdı. – Əziz müəllimin oğlu Tamerlan müəllim bizim dostumuzdu. Mən ona deyərəm, aparıb evdə qol çəkdirib çatdırar sizə.

Cavan oğlan, taleyi üçün əvəzolunmaz bu şansda ona bu cür dəstək göstərən bu xeyirxah insana necə təşəkkür edəcəyini bilmədən, yaxınlaşıb əlini sıxdı və bir neçə dəfə təşəkkür ifadə edib, nömrəni aldı və xanıma da təşəkkür edərək otağı tərk etdi.

1 saat tamamında verilən nömrəyə zəng etdi. Nömrənin o başındakı oğlan nəzakətlə bildirdi.

— Bəli müəllim, danışdım. Sabah günorta saat 12 tamamda olun Mərdəkanda Əziz müəllimin bağ evində. Sizi oğlu özü qarşılayacaq, sənədlərinizə qol çəkdirib verəcək sizə.

Cavan oğlanın sevincinin hədd hüdudu yox idi. Dönə-dönə minnətdarlıq edərək, avtomat telefon köşkündən uzaqlaşdı

## 1 GÜN SONRA

Həmin gənc deyilən vaxtda deyilən ünvana çatdı. Yaxınlaşıb qapının düyməsini basdı, qapıya özü ilə demək olar ki həmyaşıd olan bir yaraşıqlı oğlan çıxdı. Gənc oğlan özünü təqdim etdi

— Heydər Əliyev, İrana ezam edilən qrupun üzvü. Mənə Ali Sovetdə dedilər ki, sizlə görüşüm, sənədimlə Əziz müəllimi tanış edəcəksiniz.

Ev sahibinin oğlu Tamerlan Əliyev gülərüz bir görkəm alıb, qonağı salamladı və həyətə apardı, həyətdəki süfrə ətrafında oturdular.

— Bir az gözləməli olacağıq, atam Ali Sovetdədir, indi bir saatlıq nahara gəlməlidir, özünə demişəm, burda da həll edəcəyik, narahat olma

**Heydər Əliyev:**

— Bəs axı dedilər ki, o bu gün işləmir, bilsəydim işə gedəcək, heç narahat etməzdim sizi, ora gedərdim.

Ev sahibi oğlan gülümsədi:

— O hər gün işdə olur, ta ki, gecə saat 10-a kimi, bəzən hətta 12-yə, 1-ə kimi.

Bu məqamda yaşlı bir qadın çay gətirdi, süfrə ətrafında işdən, müharibədən, yoldaş Stalinin ağıllı və uzaqgörən siyasəti nəticəsində Sovet dövlətinin daxili və xarici düşmənləri üzərində tam qələbə qazanmağa az qalması barədə ürək dolusu bölüşdülər. Bu məqamda qapıda qara rəngli Zim avtomobilinin dayanmasının səsi gəldi, ev sahibi oğlan ayağa durub darvaza tərəfə getdi ki, "Atam gəldi"

Darvazanı açıb, həyətə girincə Tamerlan Əliyev atasına bildirdi ki, dünən dediyin oğlan da artıq gəlib, səni gözləyir. Gənc Heydər Əliyev də ayağa qalxıb irəli getdi, əl uzadıb rusca bildirdi ki:

— Извините, вы сын сказал мне помогут вы. Я поэтому суда приходил.

Əziz Əliyev salamı alıb, keçib süfrədə əyləşdi və işarə etdi ki, gənc oğlan da otursun. Əziz Əliyev başda, Heydər Əliyev ondan 2-3 stul sağ tərəfdə, onunla üzbəüzdə də stolun əks tərəfində Tamerlan Əliyev əyləşdilər.

Əziz Əliyev bu dəfə azərbaycan dilində soruşdu:

— Sən harada bitirmisən orta məktəbi?

— Naxçıvanda

— Ata-anan kim olub?

— Atam adi dəmiryolçudur. Əslimiz Zəngəzurdandı. Coomərdli kəndindən. Amma Naxçıvanda dəmir yol tikilməsi ilə əlaqədar, yəni işi ilə bağlı atam Naxçıvana köçüb, mən də orda təhsil almışam.

— Hə, o vaxt dəmir yol tikintisi ilə bağlı orda iş yerləri çox idi, hamı hər tərəfdən axışıb gəlirdi ora. Biz də mən məktəbi bitirən vaxt Hamamlıdan köçüb gəlmişdik ora, 1-2 il Şahtaxtda yaşadıq, sonra atam bizi götürüb gəldi Bakıya. Siz orda hansı məhəllədə idiz?

— Zaviyə məhəlləsində, Cümə məscidindən bir qədər yuxarıda, indiki Puşkin küçəsində. Anam da o məscidə gedirdi.

— Aha. Naxçıvanda axı mən bilən yaxşı məktəblər var. Rus dili müəllimin kim olub ki, böyük Sovet dövlətinin dilini sənə belə pis öyrədib?

—Bağışlayın, biz rus dili keçməmişik məktəbdə?

—Niyə?

—O fənn üzrə müəllim yox idi.

—Bəs sən harada öyrənmisən rus dilini?

—Partiya məktəbində.

—Axı orda rus dili cəmisi 3 ay keçilir. Sən bu qədər bazanı sıfırdan başlayıb o 3 ayda mənimsəmisən?

—Bəli, yoldaş Əliyev. Hətta bir az fars dili də öyrəndik orda.

— Yaxşı…. Yaxşı. ......(pauza). Orda Naxçıvanda məktəblərin hansındasa bizim Şahtaxtdan bir müəllim olmalı idi, Allahverdi müəllim. Sovet ədəbiyyatından öyrədirdi o. Sizin məktəbdə deyildi ki?

—Bəli, bizim məktəbdə idi. Hətta Sizin qəbul otağınızdakı rəfdə onun bir kitabı da var idi

—Axı rəf sənin yanında idi. Necə oldu orda onun kitabı olması sənin diqqətinə düşə bildi?

— Qarşıdakı portretdən əks olunurdu rəf, ordan da yoldaş Marksın, Engelsin, Leninin, Stalinin kitablarını seyr etdim, aşağı gözdə də Allahverdi müəllimin kitabı.

— Orda başqa hansı kitab tanış gəldi sənə?

— Vallah, düzünü deyim ki, heç biri, amma özümə söz verdim ki, əgər onlar burda varsa, deməli əhəmiyyətli kitablardı və nə zamansa kitabxanadan tapıb oxuyum

—Orda Sovet yazıçılarının, ədəbiyyatçılarının, tarixçilərinin, marksizm-leninizm fəlsəfəsi klassiklərinin əsərləri var idi. Yəni demək istəyirsən ki, sənin ədəbiyyat, tarix, marksizm barədə bilgilərin yoxdur?

—Xeyr, o mənada yox, oxumuşam, amma Azərbaycan yazıçılarının, şairlərinin, tarixçilərinin kitablarını.

—Hansı Azərbaycan yazıçı-şairlərini tanıyırsan bəs?

—Nizami, Nəsimi, Füzuli, Vaqif, Sabir, Səməd Vurğun, Müş..... Müştaq, Cəfər Cabbarlı....

—Müştaq kimdir?

—19-cu əsrdə yaşayan bir şairlərimizdəndir. Firudin bəy Köçərlinin kitabında şeirləri var.

—Sən bilirsən ki, Fürudin bəy dövlətimizin düşməni olub və Sibirə sürgün edilib?

**H.Əliyev** bir an duruxaraq.

—Xeyr, bilmirdim.... Bayaq yadımdan çıxdı əlavə edim, məktəbimizdə yazlçıların əsərlərindən səhnəciklər təşkil edilirdi, mən hətta Vaqif rolunda da çıxış etmişdim.

—Vaqif kimdi?

— 18-ci əsrdə yaşamış böyük Azərbaycan şairidi. Doğma ana dilimizdə gözəl şeirlər yazıb, həm də Qarabağ xanının veziri olub.

— Şeirlərindən yadında qalanı var?

— Bəli, çox şeirini əzbər bilirəm.

— Yaxşı..... Vaqifin dövrü, ondan sonrakı ərəfələrdə Azərbaycan tarixi barədə nə bilirsən, nə yadında qalıb? Ələlxüsus 1813-1828-ci illər barədə nə bilirsən?

— Vaqifin dövründə Azərbaycan bir neçə xırda xanlıqlara bölünmüşdü və onlar arasında da daim intriqa, nifaq var idi. Bu rəqabətdə üstünlük qazanmaq üçün onlardan bəziləri Rusiya ilə, digərləri isə İranla separat danışılara gedirdilər. Nəticədə Şimali Azərbaycan xanlıqları bir-bir Rusiyanın, Cənubi Azərbaycan xanlıqları isə İranın təbəəliyinə keçdilər və qardaş-qardaşdan uzaq düşdü.

— Belə çıxır ki, Azərbaycanın böyük Rusiya dövlətinin himayəsi altına keçməsini sən məyusluqla qarşılayırsan? Əgər o dövrdə baş verənlər olmasaydı, biz bu gün böyük Sovet ailəsinin xoşbəxt bir üzvü ola bilərdikmi?

—Mən o mənada demədim... Elə mən də onu demək istəyirdim ki, gərək o taylı bu taylı Azərbaycanın hamısı birlikdə keçəydi böyük Rusiya dövlətinin tərkibinə və o taydakı qardaşlarımız da bizim kimi azad Sovet vətəndaşı olardılar və kommunizm quruculuğunda bizlə çiyin-çiyinə iştirak edəydilər. Bu gün biz həyatımız riskə ataraq, yoldaş Stalinin rəhbərliyi altında məhz o illərin səhvini düzəltmək üçün İrana gedirik və mən də bu işə böyük həvəslə başlamışam, dövlətimizin ümidlərini doğruldacağıma da söz verirəm.

Bu vaxt bayaqkı qadın çay gətirir. Heydər Əliyev ayağa durmaq istəyir:

— Vallah, mən gedim, siz sənədlərimlə tanış olun, gəlib oğlunuzdan götürərəm, mane oldum, siz allah üzrlü bilin.

Əziz Əliyev əli ilə oturmasını işarə edir. Oturandan sonra bildirir:

— Mən səni bura gətizdirmişdim ki, sərbəst bir mühitdə bölüşə biləsən düşüncələrini bizimlə və mən də həm yaşca, həm vəzifəcə və həm də bu işdə təcrübə baxımından səndən xeyli irəlidə olan bir şəxs kimi öz tövsiyyələrimi verə bilim. Olarmı?

**H.Əliyev:**

— Təbii ki, yoldaş Əliyev. Mənə çox xoş olar sizin təcrübələrinizdən bəhrələnmək.

**Əziz Əliyev:**

— İlk iradım o ki, "Vallah", "Allah haqqı", "Məscid", "Anam məscidə gedib" kimi sözləri tərgit. Bayaqdan 4-5 dəfə bunları işlətmisən. Biz yoldaş Marksın, Engelsin, Leninin, Stalinin yolu ilə gedirik və inanıram ki, sən xalqımız, dövlətimiz üçün hələ çox işlərdə böyük Sovet dövlətimizə xidmət edəcəksən. O pillələrin hər birində yeni ifadələr, danışıq qaydaları öyrənəcəksən. O pillələrdə bu din terminlərinin sənə ziyan gətirdiyini anlayacaqsan.

İkincisi isə – "xalqımız", "millətimiz" sözlərini biraz az işlət. Biz böyük Sovet ailəsinin tərkib hissəsiyik, burada cılız milli düşüncələrə qapılıb qalmaq olmaz. Anladın məni?

— Bəli, yoldaş Əliyev

— Mən dünən də Mərkəzi Komitəyə dəyib 1 saata qayıtdım işə, bu gün də işdə idim və bir azdan yenə qayıdacağam işə. Mən özüm tapşırmışdım orda uşaqlara ki, səni evə yönəltsinlər, belə səmimi mühitdə daha rahat şəkildə tanıya bilim, öz tövsiyələrimi verə bilim sənə. Yoldaş Bağırov İrana

ezamiyyət üçün seçilmiş namizədləri, əsasən, bizim o vaxt Təbrizdə nəşr etdirdiyimiz "Vətən yolu" qəzetinin baş redaktoru Mirzə İbrahimovun, onun redaktor müavini Mehdixan Vəkilovun və b. yanına göndərirdi, səninlə birlikdə 4 nəfəri də məsləhət görmüşdü ki, şəxsən mən özüm araşdırım. Sizin hər birinizin sənədi 20 gün bundan əvvəldən mənim masamın üzərindədi. O cümlədən, hətta 43-cü ildə sən Naxçıvan Xalq Daxili İşlər komissarlığında işləyən vaxt bir Türkiyəli casusun işinin istintaqını sənə həvalə etdiklərini, amma yarıyolda sənin *"Türkiyə dilini yaxşı bilmirəm, buna görə də agentin cavablarını anlaya bilmirəm, suallarımı ona türkiyə dilində çatdıra bilmirəm"* raportu ilə bu işdən imtina etdiyini də o sənədlərdən oxumuşdum. O birilərin də şəxsi işlərində bu tip diqqətimi cəlb edən məqamlar olmuşdu. Ona görə bu namizədlərin hər birini bir bəhanə Ali Sovetdən kənarda harasa aparıb, daxili dünyası ilə məni daha yaxından tanış etmələri üçün hər birinə bu cür sərbəst şərait yaradıram və sonra da öz tövsiyyələrimi verirəm. Onlardan birininsə belə məsuliyyətli bir işə göndərilməsini ümumiyyətcə məsləhət görmədim. Amma açığını deyim ki, sən o 4 nəfər içərisində mənə ən yaxşı təsir bağışlayan gənclərdən oldun. Sovet dövlətimizin sənin kimi perspektivli gənclərə çox ehtiyacı var.

Bunu deyib Əziz Əliyev ayağa qalxıb, sağollaşmaq üçün əlini uzatdı. Heydər Əliyev tez-tələsik, əlindəki papkanı qurcalamağa, içərisindən imza atılmalı olan sənədi cıxartmağa çalışdı.

**Əziz Əliyev:**

— Mən bayaq dedim axı ki, sənin əsl sənədlərin 20 gündür mənim masamın üstündədir və gedib imzalayacam. Səndəkilər saxtadılar. Apar onları at getsin.

Özünü bir qədər uyğunsuz vəziyyətdə hiss edən Heydər Əliyevin üzü – uzaq gələcəyin risklərilə dolu həyatının acıları ilə onların hər birində qazanacağı qələbələrin sevincindən ibarət qarışıq ifadə ilə dolmuş bir vəziyyətdə əlini Əziz Əliyevə uzadıb, bir cümlə *“Təşəkkür edirəm! Əmin olun ki sizin və partiyamızın, böyük Sovet dövlətimizin ümidlərini doğruldacağam!"* dedi və Tamerlan Əliyevlə birlikdə üzü darvazaya sarı yönəldi. Birdən arxadan Əziz Əliyevin səsi eşidildi:

— Oğul, sən bilirsən o bir nəfərin sənədlərinə mən niyə qol çəkməmişdim?

— Xeyr, – deyə Heydər Əliyev ayaq saxlayıb, tərəddüdlü, bir az da maraq dolu baxışlarla ona baxdı.

— Ona görə ki, o, “Allah haqqı”, “Məscid”, “Millətimiz”, “Xalqımız” sözlərini məndən çox əvvəldən tərgitmişdi. Get, Allah özü sənə yar olsun. Sən xalqımızın 150 illik ağrı-acısına dərman tapmaq üçün gedirsən. Bu işdə böyük Sovet dövləti sizlərin arxasındadır. İranda da yəqin rastlaşacaqsan, kommunist yoldaşlar var. Seyid Cəfər Pişəvəri, Məhəmməd Biriya, Cəfər Kavian və b. Yəqin görüşəcəksən və görüşəndə məndən onlara salam de.

# *II fəsil:* Heydər Əliyev İranda

## 1. Huzistan arxivinin oğurlanması əməliyyatı

**1944-cü il. Iran.**

1941-ci ildə SSRİ və İngiltərə qoşunları İrana daxil olduqda Sovet qoşunları əsasən Cənubi Azərbaycanı və onunla qonşu bəzi əraziləri, İngilis qoşunları isə Huzistan vilayəti və ona qonşu bəzi əraziləri öz nəzarətləri altına götürmüşdülər. 1926-cı ilə qədər paytaxtı Şüştər şəhəri olan Huzistanın paytaxtı həmin ildə İranın o vaxtkı şahı Məhəmməd Rza Pəhləvi tərəfindən Ahvaz şəhərinə yenicə köçürülmüş, buna görə də bir sıra dövlət orqanları, o cümlədən Huzistan vilayətinin arxivi hələ də Şüştər şəhərində fəaliyyət göstərirdi. İngilislər Huzistanı öz nəzarətinə alandan sonra İran hökuməti mümkün strateji obyektləri İranın nisbətən şərq vilayətlərinə təxliyə etmiş, edə bilmədiklərini Huzistan ərazisində kamuflyaj etmişdi. Belə obyektlərdən biri də Huzistanın dövlət arxivi idi.

* * *

Şüştər Muzeyinin adi gündəlik həyatı.

Bu an 2 əliavtomatlı ABŞ əsgəri muzeyə daxil oldu. Bu anda bayaqdan muzeydə eksponatlara baxan ingilis ziyarətçi də cibindən tapança çıxarıb mühafizəçilərə tuşladı. Muzeyin hər 3 mühafizəçisi tələsik silahı yerə qoyub əllərini göyə qaldırdılar. İngilislərdən biri qışqırdı:

— Who here speaks English? *(Burada ingilis dilini bilən kim var?)*

Muzeydə bələdçi vəzifəsində çalışan bir bəy və bir xanım irəli çıxdı.

İngilislər bəyi özlərinə sarı çağırdılar, xanımı sıraya geri qaytardılar. Onunla öz aralarında nəsə danışdılar. Həmin şəxs tərcümə etdi:

— Dostlarımız deyirlər ki, heç kim narahat olmasın. Bizə yalnız bu muzeydə gizlədilən bəzi sənədlər lazımdır, onları götürüb gedirik, kimsə ilə işimiz yox. Hamı durduğu yerdə qalsın, yerindən tərpənməsin”

Gələn əliavtomatlılardan 2-si aşağıda qaldı, o biri isə rəhbərliyin olduğu 2-ci mərtəbəyə qalxdı oradan muzeyin direktorunu və onun müavini xanımı da düşürdü.

İngilislər nəsə dedi, tərcüməçi tərcümə etdi:

— Deyirlər ki muzeyin bütün əməkdaşları burda düzülsün.

3 mühafizəçi, 1 muzeyin sürücüsü, 1 qadın və bir kişi olmaqla daha 2 bələdçi və 2 rəhbər işçi bir sırada durdular. İngilislər tərcüməçi vasitəsilə hər birindən vəzifəsini soruşdular. Bundan sonra sürücünü və ingilis dilini bilən bələdçi bəyi irəli çıxardılar. Tərcüməçi vasitəsilə bildirdilər ki, “bizimlə gəlin”.

Hər 2 şəxs sükutla razılığını bildirdilər. Bundan sonra ingilislər soruşdu: “Burda xadimələrin otağı hardadı? Bizi aparın ora”

Bələdçi və sürücü onların 2-si ilə getdi, qalan əməkdaşlar burda digər 2 ingilislə qaldı. Məlum oldu ki, xadimələr otağının aşağısında zirzəmi var imiş və orda da taxta mərmi qablarına yığılmış nəsə əşyalar. Sürücünü və bələdçini zirzəmiyə saldılar, və tapşırdılar ki, bunları öz avtomobilinə daşı. Beləliklə bu ingilisin müşayiəti ilə bələdçi və sürücü taxta mərmi qablarına doldurulmuş yükləri bir-bir daşıdılar muzey sürücüsünün avtomobilinə.

Sonuncu qabı da aparandan sonra muzey direktoruna üzünü tutub deyir:

— Gedək sənin otağına, seyfi ac.

Yuxarı qalxa-qalxa direktor deyinir

— Vallah, orda heç nə yoxdur, nə varsa hamısı muzeyin öz işinə aiddir

İngilis onun dediklərinə diqqət vermədən hər 3 şəxsi avtomatın qarşısında qaldırır direktorun otağına. Seyf acılır, oradan bir necə adi sənədləri götürürlər. İngilis direktora sual verir ki, otağın və ya Muzeyin başqa harasında nə sənədlər var? Direktor and-aman edir ki, başqa heç yerdə. Onda ingilis sürücü və bələdçiyə tapşırır ki, otağı yaxşı yaxşı axtarın. Şkafların arxası, divarlar hamısı yoxlanılır, şübhəli heç nə görünmür. Beləcə otağı tərk edirlər.

Aşağıya düşəndə ingilislər öz aralarında nəsə danışır, ingilislərdən 2-si sürücü və bələdçiyə işarə edirlər ki, gedək, o biri ingilis bunlar uzaqlaşınca burda qalanların səssiz dayanmaları üçün onların yanında qalır. Muzeydən çıxırlar, 2 ingilis və 1 tərcüməçi arxa oturacaqda oturur və avtomobil sürətlə muzeyin həyətindən çıxır.

Yolda ingilislər rabitə aparatları çıxarıb harasa əməliyyat barədə ingilis dilində məlumat verirlər və tərcüməçi vasitəsilə sürücüyə marşrutu izah edirlər. Muzeydən cəmisi bir-neçə km. uzaqlaşmışdılar ki, arxadan İran polisinin avtomobili görünür. İngilislər tərcüməçi vasitəsilə sürücüyə tapşırıq verirlər ki, sürəti maksimum artırsın, biz artıq izlənirik. İngilislər öz rabitə aparatı ilə özlərininkinə məlumat verirlər. Ordan nə məlumat alırlarsa sürücüyə bildirirlər ki, istiqaməti dəyişirik, filan tərəfə sür. Yükləri təcili ora boşaldacağıq, siz azdırmaq üçün yolu

davam etdirəcəksiz, biz orda qalacağıq. Bu müddətə artıq arxada İran polisi avtomobillərinin sayı bir neçə olur. Sürücü var gücü ilə onların diqqətindən yayınmağa çalışır. İngilislər tez tez sürücüyə “tez ol, tez ol” deyir. Bu məqamda ingilislərə ratsiya ilə nəsə məlumat bildirilir. İngilislər əsəbi halda qışqırır: qabaqdakı çayın üzərindəki körpünü bağlayıblar, sür çayının kənarı ilə bax o meşəyə, bizi orda helikopter qarşılayacaq, istəsəz siz də bizimlə gedərsiz, Amerika dövləti sizin xidmətinizi layiqincə qiymətləndirər.

Burdakı müharibədən çoxdan bezən, yorulan, və indi ABŞ-da gözəl həyat vəd edən bu təklifi bütün bu problemlərdən əla xilas yolu kimi dəyərləndirən sürücü dərhal dillənir:

— Çox yaxşı olar bizi bu ölkədəki bəlalardan uzaqlaşdırsanız, Amma bəs orda sürücü işləyib sonra valideynlərimi də nə yollasa apara bilərəmmi ora özümlə?

İngilislər bildirir ki, siz bizimlə axıra qədər əməkdaşlıq etsəniz, biz də sizinlə hər probleminizdə əməkdaşlıq edəcəyik axıra kimi.

Sonra sürücü azərbaycan dilində tərcüməçiyə:

— Yəqin ki, sən də öz razılığını ifadə etməlisən. Qalan qərarı orda verəcəyik — gedişata baxıb. Anladın?

Tərcüməçi heç nə anlamayaraq deyir.

— Oldu, belə də deyərəm — və ingilislərə nəsə deyir.

Çayın kənarı ilə torpaq yolla meşəyə gedərkən bu anda avtomobilin mühərriki dayanır. Sürücü var qüvvəsi ilə avtomobilin mühərrikini işə salmağa çalışır, amma əbəs. İngilislər onu nə qədər tələsdirsələr də avtomobil heç vəchlə sözə qulaq asmaq istəmir. Bu müddətə polis avtomobilləri də əsas yoldan enərək torpaq yolla bunlara sarı gəlməyə başlayır. İngilislər

Ratsiya ilə özlərininkilərə nəsə deyirlər, ondan sonra tərcüməçi vasitəsilə deyirlər.

— Avtomobildən düşün, sənədləri yandırıb, özümüz ayaqla qaçmalıyıq meşəyə. Helikopter artıq yaxınlaşır ora. Bu sənədlər artıq kimsənin əlinə düşməməlidi.

Əliavtomatlı ingilislər, və bayaqkı qablarda nəyin olduğunu bilməyən sürücü və bələdçi avtomobildən düşür, ingilislərin tapşırığı ilə sürücü avtomobildəki benzin kanistirini götürüb, baqajdakı bayaq yüklənən qabların üstünə tökməyə başlayır. İngilislər və sürücüsə uzaqlaşa-uzaqlaşa buna baxır, bunu tələsdirir ki, tez həll elə, gəl çat bizə. Sürücü benzini töküb qurtarandan sonra kibriti çəkib sənədlərə od vurmaq istəyir, kibrit yanmır. Bir-neçə cəhd edir. Vəziyyət eyni. Tez tərcüməçiyə qışqırır ki, “Bax gör orda kimdə kibrit var, məndəki yanmır”. Tərcüməçi ingilislərin birindən kibrit alıb qaca-qaca buna çatdırır, Sürücü qablara od vurur, lakin qaçıb ingilislərə çatmaq əvəzinə bələdçi ilə birlikdə avtomobilin arxasında gizlənir. İngilislər bunların gəlmədiyini, İran polislərininsə artıq xeyli yaxınlaşdığını görüb sürətlə qaçırlar. Sürücü və tərcüməçi cəld çayın kənarındakı dərəyə düşür. İran polisi isə avtomobilin alov içində olduğunu, onu yandıranlarınsa meşəyə sarı qaçdığını görüb, onların dalıyca yolunu davam etdirir.

## 2. Əməliyyatın nəticəsinin SSRİ rezidensiyasında müzakirəsi

Bir gün sonra. Sovet kəşfiyyatının Təbrizdəki rezidensiyası. Səhər saat 10:00. Heydər Əliyevin rəhbərliyinin iş otağı. Bu an bir əməkdaş daxil olaraq bildirir:

Yoldaş mayor, kəşfiyyatçılarımız sağdılar, tapıldılar, bu saat burdadılar, icazənizlə qəbulunuza dəvət edim.

Mayor sanki eşitdiklərinə inanmırmış kimi ani bir sevinclə:

— Bu nə gözəl xəbər, nə danışırsan, bu saat gətir yanıma!

Bir qədər sonra sürücü və tərcüməçi mayorun kabinetinə daxil olur. Hərbi salam verərək məruzə etməyə icazə istəyirlər. Mayor yaxınlaşaraq hər ikisini qucaqlayır və bildirir:

— Heç bir məruzəyə ehtiyac yoxdur, rəhbərlik məni gözləyir, orda məruzə edəcəyik. Bütün gecəni yatmayıb sizin yolladığınız sənədlərlə tanış olmuşuq. Orda nələr yoxdur: yoldaş Stalin barədə, Tehran görüşü barədə, daha nələr???!!!

Bunu deyib, telefonun dəstəyini qaldırdı:

— Yoldaş polkovnik, üzrlü bilin yanınıza qalxmaqda ləngidim. Ciddi səbəb var idi: kəşfiyyatçılarımız tapılıblar. Onlara görə yanınıza qalxammadım. Hazırda yanımdadılar. İcazə verirsinizsə onlarla birlikdə gəlim.

Telefonun o başından razılıq alandan sonra dəstəyi yerinə qoyub, işarə etdi ki, “gedək”

Yuxarı mərtəbədə polkovnikin kabinetinə daxil olurlar. Polkovnik kreslosundan qalxaraq qapıya qədər gəlib bunların hər ikisini qucaqlayır, bağrına basır, keçib oturmağı tapşırır və

hamı öz yerində əyləşəndən sonra Mayor bunları Polkovnikə təqdim edir:

— Yoldaş polkovnik, bildiyiniz kimi Rza şah Pəhləvi Huzistan vilayətinin paytaxtını Şüştərdən Ahvaza dəyişəndən sonra bir sıra dövlət idarələri hələ də əvvəlki paytaxtında fəaliyyət göstərirdi, o cümlədən vilayətin arxivi də. 1941-ci ildə ingilislər Huzistanı ələ keçirəndən sonra İran hökuməti tərəfindən bir sıra vacib obyektlərin ərazidən təxliyyəsi həyata keçirilir və mümkün olmayanlar o ərazilərdə bir başqa yerlərdə gizlədilirdi. O cümlədən Huzistan vilayətinin arxivi də az şübhə doğuran Şüştər muzeyinə köçürülür və orada məxfi şəkildə öz fəaliyyətini indiyə qədər də davam etdirirdi. O cümlədən burada ingilislər bu əraziyə daxil olandan sonra keçirilən bütün əməliyyatlar, amerikanlılarla, almanlarla və elə ingilislərin özü ilə İran hökumətinin gizli danışıqları, 1943-cü ildə yoldaş Stalin, Ruzvelt və Çörçilin Tehranda görüşü barədə İran hökumətinin məxfi sənədlərinin bu əraziyə aid hissəsi də burada saxlanılırdı. Orada məxfi sənədlərin gizlədildiyinə dair lazımi məlumat alan kimi biz dərhal əməliyyat planı hazırladıq. Bir neçə variantları nəzərdən keçirdik: Rüşvətlə muzey rəhbərliyindən kimisə ələ alıb, onun əli ilə o materialları ordan çıxarmaq, Birbaşa muzeyə hücum edərək materialları zor yolu ilə ordan götürmək və s. Lakin heç bir variant ağlabatan görünmədi, çünki o muzey adi muzey deyildi, orada strateji əhəmiyyətli sənədlər saxlanıldığına görə rəhbərliyi birbaşa İran kəşfiyyat idarəsi tərəfindən təyin edilmiş və xəfiyyə zabiti rütbəsi daşıyırdı. Üstəlik də nəinki o, hətta adi bir muzey gücləndirilmiş mühafizə ilə təmin edilib və hamısı da birbaşa İranın xəfiyyə idarələri tərəfindən təyin edilib, daim onlarla əlaqədə. Birbaşa hücumsa həm bu faktlara görə, və həm də o ərazinin

Böyük Britaniya qoşunlarının nəzarəti altında olması, iş plan üzrə getməsə əməliyyatçılarımızın həm Britaniya və həm də İran hərbçiləri ilə toqquşmaya getməsi demək idi, hansı halda ki, biz nə əməliyyatçılarımızı nə də həmin sənədləri xilas etmək üçün İngiltərənin nəzarəti altında olan bir zonaya heç bir əlavə dəstək göndərə bilıməyəcəkdik. Beləliklə biz həm kəşfiyyatçılarımızı itirəcəkdik və həm də o sənədlərin ingiltərə kəşfiyyatının əlinə keçməsinə imkan yaradacaqdıq, hansında ki, nəinki İran-Britaniya gizli danışıqları, həm də İran-SSRİ, İran-ABŞ, İran-Almaniya gizli danışılqarına qədər hər cür məlumat var idi, və bu sonuncular Britaniya kəşfiyyatı üçün də böyük maraq doğururdu.

Şöbəmizin əməkdaşı həmin bu kiçik leytenant Heydər Əliyev təklif verdi ki, bəlkə ABŞ kəşfiyyatını bu işə qoşaq. Bununla biz həm əməliyyat planı qurmağa sərf edəcəyimiz resursların 50%-indən azad oluruq, yəni işin bir hissəsini onların üzərinə atmış oluruq, həm də İngiltərənin təsir zonasında amerikanlarıların rahat fəaliyyət göstərmək üçün imkanları daha böyükdü, nəinki bizim. Plan pozulduqda isə avtomatla muzeyə hücum edən amerikanlılar həbs olunacaqdı, zor altında bu işə cəlb edilən sürücü yox. Həmin plan o vaxt hamıya çox maraqlı və ağlabatan göründü, lazımi yoldaşlarla, o cümlədən sizinlə müzakirə olundu, Moskvadan da dəstəklənəndən sonra bu ideyanın müəllifi kiçik leytenant Heydər Əliyev özü bu əməliyyata rəhbər təyin edildi. Qalanını da özünüz bilirsiz: Bu əməliyyatın sayəsində İran dövlətinin son bir-neçə 10 ildə ABŞ və İngiltərə ilə olan bütün gizli əlaqələrinini, gizli danışıqlarını əks etdirən bütün arxiv bu gün bizim əlimizdə.

Polkovnik bu uğurdan eyforiya yaşayan bir baxışlarla üzünü sürücüyə tutdu:

— Yoldaş Əliyev, buyurun, danışın görək nə baş verdi, necə keçdi əməliyyat, yaralanıb eləməmisiz ki?

H.Əliyev ayağa qalxaraq:

— Xeyr yoldaş polkovnik, əməliyyat çox uğurla başa çatdı. Biz tərəfdən hər hansı itki, xəsarət alan olmadı

Polkovnikin razılıq dolu baxışları altında davam edir:

— Yoldaş polkovnik, vaxtilə Tudə partiyasının üzvü olmuş həmin bu Ağayi Həmidi onun işlədiyi həmin bu muzeydə belə bir sənədlərin gizlədilməsinə dair bizə məlumat çatdırandan sonra məlumatın doğruluğunu yoxlamaq üçün müəyyən iş aparıldı. Məlumat öz təsdiqini tapandan sonra əməliyyat planı hazırlandı. Biz bu işi öz imkanlarımız hesabına da həyata keçirə bilərdik. Lakin yoldaş mayorun da sadaladığı səbəblərə görə bu variantın zəhməti də, riski də sonsuz böyük idi. Biz bunu Britaniya kəşfiyyatının əli ilə də həyata keçirə bilərdik, lakin bu da riskləri böyük, zəmanəti “0” həddə olan bir variant idi. Belə ki, o ərazi tam şəkildə Britaniyalıların öz nəzarətində olduğu üçün rahat şəkildə öz qoşunları ilə gəlib zorla sənədləri ordan götürüb öz zirehli avtomobillərinə yığıb bir neçə yüz əsgərin müşayiəti ilə də aparacaqdılar. Nə İran polisi onların qarşısını kəsə bilməyəcəkdi, nə Sovet, nə ABŞ.

Bizə lazım idi ki, o sənədlərdə marağı olan, amma o zonada zəif olan bir qüvvə ilə birləşək İran və İngiltərə kəşfiyyatına qarşı. Bizüm üçün ən vacibi o idi ki, o sənədləri alınmaz qala kimi mühafizə olunan həmin muzeydən çıxaraq. Yolda onu amerikanlıların əlindən almaq işin ən asan tərəfi idi: ya onların özünü yolda öldürməklə, ya başqa üsulla. Beləliklə ABŞ kəşfiyyat dairələrinə mənim adımdan həmin sənədlər, onların yeri barədə lazımi məlumat çatdırılır. Onlar mənimlə görüş təyin

etdilər, mən bildirdim ki, vaxtilə Şüştərdə həmin arxivdə sürücü işləmişdim, o sənədlər indiki yerinə mənim avtomobilimlə daşınıb, sonra o arxiv daşınandan sonra mən işsiz qalmışam. Adı gedən muzeydə işlə təmin olunmağıma yardımçı olsaz, mən daxildən də hər məlumatı öyrənib sizə çatdıraram və əməliyyat üçün əhəmiyyət kəsb edən başqa da işlər həyata keçirərəm. Beləliklə onlar öz əlaqələrindən istifadə edərək məni orda sürücü vəzifəsinə təyin etdirdilər, mən Xəfiyyə idarələri ilə əlaqəli olan 3 mühafizəçidən birini bu işə cəlb etmək üçün onun orada bələdçi vəzifəsində çalışan bacısı ilə yalançı eşq macərası qurdum, və beləliklə o mühafizəçini də bu plana qoşa bildim. Nəticədə ingilislər əliavtomatlı vəziyyətdə Muzeyə daxil olarkən, həmin mühafizəçi masanın altında olan düyməni basmaqla lazımi dairələrə xəbər vermək əvəzinə, dərhal ayağa durub əlini qaldırdı və o biri mühafizəçilərə sarı gedərək, "əlinizi qaldırın, əlinizi qaldırın, yoxsa bizi öldürəcəklər" deməklə, onları da çaşdırdı. Bunun qorxaqlığı onlara da sirayət etdi və onlar düyməni basmaq əvəzinə təsirə düşüb bunu təqlid edərək stoldan uzaqlaşdılar və əllərini göyə qaldırdılar. İngilislər ora gəlməzdən əvvəlsə biz nəzərə aldıq ki, onlar sənədləri mənim yox, öz avtomobillərinə yığa bilərlər. Bunun qarşısını almaq üçün Muzeyin girişinə avtomobilləri elə düzdük ki, onlar muzeyin həyətinə öz avtomobilini keçirə bilməsin. Nəinki burda, hətta yolun bu tərəfinə də avtomobilləri elə düzdük ki, onlar ümumiyyətcə öz avtomobillərini yolun əks tərəfində saxlamağa məcbur qalsınlar. Belə olan halda Muzeydən ora sənəd daşımağı onlar heç ağlına da gətirməyəcəkdi – 1 addımlıqda mənim avtomobilim dura-dura. Hətta hansısa formada sənədləri öz avtomobillərinə yığmış olsalar belə o hal üçün yolda həmin avtomobilə hücum edib

sənədləri onlardan almaq sadə bir məsələ idi və planda bu da nəzərdə tutulmuşdu. Mənim avtomobilimin yanında isə bir başqa avtomobil yerləşdirdik ki, biz sənədləri içəridən daşıyıb gətirib mənim avtomobilimə yığıb qayıdanda, onlar sənədləri burdan götürüb öz avtomobillərinə keçirə bilsinlər. Biz qabacadan həmin zirzəmidə deşik acıb sənədlərin İran artirreliya mərmiləri üçün olan taxta qablarda qablaşdırıldığını müəyyən etmişdik. Buna görə həmin qonşu avtomobildə həmin qablara yalançı kağızlar doldurub qoymuşduq. Mənim avtomobilimdən hər qab o biri avtomobilə keçiriləndə, ordan da qaytarıb bura bunun əvəzinə bir başqa eyni qab qoyulurdu. Amerikanlılara yalandan məlumat ötürmüşdüm ki, sənədlərin bəziləri də muzey direktorunun öz şəxsi kabinetindəki seyfdə saxlanılır. Çünki bilirdim ki, orda onsuz da nəsə olmalıdı. Əvəzində onlar sonuncu qab sənədi də mənim avtomobilimə yerləşdirəndən sonra bir daha direktorun seyfindəki sənədlər üçün geri qayıtmalı olacaqdılar, və bu da bizə imkan verdi ki, sonuncu qaba qədər bütün sənədləri öz avtomobilimizə keçirə biləк. Muzey direktorunun otağından gətirdikləri cüzi sənədlərisə heç nəyə yaramırdı və elə öz ciblərində də apardılar, heç baqaja qoymadan.

Yolda biz tərəfdən təşkil olunmuş saxta İran Polisi avtomobilləri bizə qovmağa başladı. Onların əməliyyatdakı rolu həm əsl İran polislərinin işinə mane olmaq, və həm də Amerikanlıları çaşdırmaq, seytnot vəziyyətinə salmaq və buralardan maksimum uzaqlaşdırmaq idi. Əgər onlar sənədləri öz avtomobillərinə yığmış olsaydılar, bu yalançı polislərin vəzifəsi onları həqiqətən mühasirəyə almaq, və ya elə özlərini güllələyərək, sənədləri ələ keçirmək idi.

Belə seytnot vəziyyəti yaratmaqla biz həm də körpüdən təxminən 3 km. əvvəl məscidin yaxınlığında hardasa Amerikanlıların öz rezidentinin olduğunu müəyyən etdik, çünki yarıyolda işin plan üzrə getmədiyini görəndə onlar B variantına keçib, marşrutu həmin yerə dəyişməyi tələb etdilər. Konkret ünvanı yalnız o ərazidə ayrıca müşahidə əməliyyatı keçirməklə müəyyən edə bilərik gələcəkdə. Yarıyolda əsl iran polisi də bu əməliyyat qoşuldu və körpünü bağladı və bizi izləməyə başladı. Bütün bu müddətdə yol boyu Amerikanlıların bir-biri ilə və öz qərargahı ilə apardığı söhbətləri yazmaq üçün də avtomobildə 3 mobil maqnitofon quraşdırılmışdı: biri avtomobilin özündə, digər 2-si isə Ağayi Həmidi və mənim cibimdə. Bu da kasetləri, sag-salamat gətirib çıxarmışıq lazımi şöbələr araşdırar.

Beləliklə bütün fikirləri əsas yükdən yayındırmaq üçün və amerikanlıları buralardan maksimum uzaqlaşdırmaq üçün hər yola əl atdıq. Planımız yarıyolda avtomobili saxta yüklə birlikdə onların özünə təhvil verib, bir bəhanə ilə avtomobildən çıxıb qacmaq idi. Lakin İran polisi körpünü bağlamaqla planımızı pozdu, bizi əsas yoldan çıxıb, kimsəsiz torpaq yolla meşəyə sarı getməyi tapşırdılar. Onda da mən qabaqcadan bu tip ekstremal vəziyyət üçün qabacadan avtomobilə quraşdirilmış xüsusi düymə ilə avtomobili xarab etdim, və yalandan onu işə salmaq üçün əlləşməyə başladım. Vəziyyətin tupik olduğunu görən amerikanlılar sənədlərin nə İran, nə İngilis, nə də Sovetlərin əlinə keçməməsi üçün yandırmağı tələb etdilər, çünki orda onların özü barədə də Sovet və Britaniya kəşfiyyatının əlinə keçməsi məsləhət olmayan xeyli məxfi sənədlər var idi. Mən yandırmağı da bir az ləngidərək onların bizdən bir qədər uzaqlaşmasına nail oldum, və yandıran kimi də ağayi

Həmidi də özümlə dartaraq avtomobilin arxasında gizləndik, cünki bilirdik ki, onlara sənəd lazım idi, biz yox, biz artıq şahid kimi, aradan götürüləsi idik. Qalanı isə Sizin özünüzə bəlli. Gəlib qərargahımıza çıxdıq və sevindik ki, həmin digər avtomobil bizdən sonra arxivi sağ salamt gətirib çatdıra bilib.

Bayaqdan bəri böyük heyranlıqla qulaq asan **polkovnik** maraq dolu baxışlarla:

— Gözəl bir əməliyyat. Siz təsəvvür etməzsiz ki, bu əməliyyatın Sovet dövlətinin İrandakı fəliyyətinə nə qədər faydası olacaq. Burada İran hökumətinin İngiltərə və ABŞ-la Sovet dövlətinə qarşı apardığı bütün gizli danışıqlar var. Biz bunlardan həm də İngiltərə və ABŞ-ın bir-biri ilə aralarını vurmaq üçün də istifadə edə biləcəyik. Gözəl bir əməliyyat icra etmisiz, sizi təbrik edirəm. Özünüz hardansız, nə işlə məşğul idiniz İrana gəlməmişdən əvvəl?

— Yoldaş polkovnik, Naxçıvan Pedoqoji məktəbini bitirmişəm, Sənaye institutunda oxuyurdum ki, müharibə başladı, oxuya-oxuya dövlət orqanlarında işə düzəldim, Bir müddət Naxçıvanda Xalq Daxili İşlər Komissarlığında çalışdım, sonra Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsinə təyin olundum. Keçən ildən də DTK-ya keçmişəm;

— Afərin, afərin – deyərək Polkovnik ayağa qalxır, onunla birlikdə də hamı. Polkovnik deyir.

— Bir daha təbrik edirəm və belə uğurlu əməliyyat üçün sizə öz dərin minnətdarlığımı bildirirəm. Gecə sənədlər gəlib bizə çatandan Moskva bu işdən xəbərdardır, və güman edirəm ki, bu əməliyyatın hər bir iştirakçısı dövlətimiz tərəfindən layiqincə dəyərləndiriləcək.

Bundan sonra kiçik leytenant Heydər Əliyev və iranlı Ağeyi Həmidi kabinetdən çıxır. Polkovnik üzünü mayora tutub deyir.

— Çox perspektivli, bacarıqlı bir gəncdir. Mənim çox xoşuma gəldi. Dünən də onun əvvəlki uğurlu əməliyyatlarından danışdız. Bizim Sovet dövlətimizin bu cür qabiliyyətli, bacarıqlı gənclərə ehtiyacı çoxdur. Onu öz diqqətinizdə saxlayın və orden-medalla təltif etmək üçün mənim adıma bir təqdimat hazırlayın, çalışacam Moskva bu təşəbbüsə müsbət yanaşsın və bu gənc də bilsin ki, dövlətimiz bu cür qəhrəmanlıqları dəyərləndirir. Gəncdir, diqqətsiz qaldığını görüb həvəsdən düşməsin, əksinə zəhmətinin dəyərləndirildiyini görüb dövlətimiz, xalqımız üçün daha çox işlər görməyə həvəslənsin, ruhlansın.

Arayış: 1945-ci ildə Heydər Əliyev bu və daha bir-neçə işinə görə dalbadal 2 medalla təltif edildi: **“1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə”** və **“1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə”** medalları ilə

## *III fəsil:* Kislovodskidə Zərifə Əliyeva ilə tanışlıq

| |
|---|
| Müharibədən sonra. Kislovodsk. Heydər Əliyev öz böyük qardaşı Həsən Əliyevlə Kislovodsk bulvarında gəzişirlər |

**Həsən Əliyev:**

— Burda da başını salıb aşağı gəzirsən. Başını qaldır bir ətrafa bax, bəlkə bəxtin elə burda açılacaq? Gör nə qədər gözəl qızlar var ətrafda?! O boyda Azərbaycanda axtarıb tapa bilmədin, bəlkə burda taparsan?!

**Heydər Əliyev:**

— Yox eee, nə danışırsan, özün bilmirsən ki, papa gil məni öldürər ki, bu nədi gedib başqa millətdən olan qız almısan?

— Bəs onda necə edək? O boyda Azərbaycanı qurutmusan, o boyda respublikada normal bir qız olmadı?

— Hər dəfə bu sözü deyirsən və mən də hər dəfə cavabında deyirəm ki, evlənmək sözünün başı EV sözü ilə başlayır. Yəni evin yoxsa, ailə də ola bilməz.

— Əşşi, bunu neçə dəfə demisən, demişəm ki, təki sən tapmağında ol. Ev 2 otaqdı, nəyimə lazım o biri. Gəlin qalın bizdə. Lap təzə vaxtda biz özümüz gedib qalarıq qohumlarda bir müddət. Qız evi görsün ki evin eşiyin var. O müddətə gəlinbacını da başa salarıq, sonra özümüz də qayıdarıq.

— Yox daa. Demişəm axı. Elə düz gəlmir, növbədəyəm, gec tez olacaq, onda da ailə quraram, nə qaçhaqaçdı? Həm də istəmirəm ailəmin bünövrəsi yalan-fırıldaq üzərində qurulsun.

— Sənin ev növbən çatınca da bütün yaxşı qızları alacaqlar, sənə qalacaq heç kimə lazım olmayanlar. Elə o işlədiyin yerdə kimsə bir vəzifəli şəxsin qızını al, həm hazır evi olsun, həm də gələcəkdə sənə arxa-dayaq dursun. Hərtərəfli yaxşı variant

— Elə deyirsən daa hər dəfə. Bu yol elə yaxşı idisə özün niyə o vaxt almadın xəstəxananızın direktorunun qızını, özü az qala elçi yollayırdı evimizə. Dedin, mən arvad evində yaşayammaram, qohum-əqrəba üzünə baxammaram, nə vəzifəyə getsəm qohum-əqrəba elə biləcək arvad hesabına qabağa getmişəm. Mən də o cür. Allaha şükr işim-gücüm, ev növbəm. Qismət nədir, o da olar.

Bu anda Həsən Əliyev qarşıda 1-2 nəfərlə birgə söhbət edə-edə düz onlara sarı gələn köhnə dostunu görür.

— Tamerlan, sən hara bura hara? Nə xoş təsadüf?

Dostu da bunu görüb sevincək yaxınlaşdı:

— Təsadüfə bir bax, yaxşı deyirlər ki, “dağ dağa rast gəlməsə də, insan insana rast gələr”. O boyda Bakıda neçə vaxtdı planlaşdırırıq ki, bir dəfə də olsa hamımız hardasa bir yerə yığışaq, deyək gülək, imkan edəmmirik. İndi Bakıdan nə qədər uzaqda təsadüfə bax ki, nəhayət ki, rastlaşdıq. Seyidağa gil yoxdur ki, sizlə? Murada da mən xəbər yollayaram, 1 günə gələr Bakıdan bura. Hamımız bir yerdə, ləzzətli bir istirahət olar.

Bunu deyib yanındakıları təqdim etdi.

— Elə bunlar da dostlar, qohumlardı. Bu – iş yoldaşım Ramazandı, elə onlar da ailəvi gəlib bizlə birgə. Bu da dayıoğludu. Orda özünə qız tapammayıb, mama özü ilə gətirdi bura ki, bəlkə burda tapar. İndi də mənə qoşub ki, apar gəzdir, bütün gözəl qızları göstər, hansı xoşuna gəlsə, bir bibi kimi düşüm qabağa gedim elçiliyini edim.

Hamı gülüşür. Həsən Əliyev də bayaqdan sükutla bir kənarda duran qardaşını təqdim edir onlara:

— Bu da mənim kiçik qardaşım, Heydər.

Dostu bir anda duruxdu.

— Bu sizsiz? Siz Həsənin qardaşısızmış?

Bayaqdan sakitcə bir kənarda durub bu söhbətlərə qulaq asan **Heydər Əliyev** dillənir:

— Bəli, Tamerlan müəllim. Mən bayaqdan tanıdım sizi, özüm heç nə demirdim, dedim yəqin yadınızdan çıxmış olaram. Siz Həsənlə dostsuzmuş?

Bu anda **Həsən Əliyev** də karıxmış vəziyyətdə:

— Siz tanışsızmış?

**Tamerlan Əliyev:**

— Əlbəttə tanışıq, hətta bizə də gəlib, papa o vaxt bir sənədinə qol çəkəcəkdi, Mən gətirdim evə, papa ilə oturub bağda xeyli söhbət də etdilər.

**Həsən Əliyev** sevincək baxışlarla:

— Təsadüfə bir bax. Nə yaxşı ki, gəlmişik. Yoxsa Allah bilir, siz heç vaxt bilməyəcəkdiz ki, biriniz mənim dostum, o biriniz qardaşımsızmış

Bu halda **Tamerlan Əliyev**:

— Getdik, tez gedirik bizə, mama da görsün. Buralarda boş boşuna gəzməkdən bir şey çıxmaz. (zarafatla dayoğluya işarə edərək) Bu, onsuz da, qız tapan deyil. Hamımız yığışaq bir yerə, danış görək İran səyahəti necə oldu, başına nə iş gəldi.

Bunu deyib, bunları da, yanındakıları da götürüb, gəldi qaldıqları Kislovodsk Qonaq Evinə. İçəri girib qonaqları təqdim etdi:

— Mama, bilirsən bunlar kimdir? Həsəni tanıyırsan, o vaxt sizin kənddən Sürayyə xalanın qızını istəyirdi. Allahverdi

dayı da vermədi, dedi gəlib kənddə yaşayacaqsa verirəm, yoxsa uzağa qız verəmmərəm. Allaha şükr indi Bakıda gül kimi evi, işi, ondan da yaxşı qız aldı,

Tamerlan Əliyevin anası Leyla xanım:

— Buy, a bala, hə, nə yaxşı, xoş gəldiz, bunları harada tapdın?

**Tamerlan Əliyev:**

— Onlar da istirahətə gəlibmiş.

Və qəfil Həsən Əliyevə sarı:

— Siz neçə nəfər gəlmisiz? Ailə ilə, ya elə ikinizsiz?

Həsən Əliyev dilləndi:

— Yox, elə ikimizik

**Tamerlan Əliyev:**

— Hə, mama, ondan da maraqlı olan bu biri oğlandı. Sən demə bu onun qardaşı imiş. Bilirsən bu kimdir? O vaxt papanın İranda cəbhə yoldaşı. Papa o vaxt İrana gedib-gələndə bu da gedib gəlirdi, hətta mən Şüvəlanda bağa da gətirmişdim, papa ilə bağda nə qədər söhbətləri olmuşdu. Bu günə qədər bilmirdim ki, o, Həsənin qardaşı imiş, bilsəydim deyərdim papaya ki, 2 dənə qol çək sənədlərinə, özümüzünküdü (gülümsəyirlər)

Bayaqdan söhbətə qulaq asan 2 qız qonaqlara "Xoş gəlmisiz" deyib o biri otağa keçirlər. Leyla xanım çox sevinclə gəlib hər 2 qonağın əlini sıxdı:

— Çox yaxşı, a bala, çox gözəl, keçin oturun rahat, bu saat çay gətirirəm.

Hamı keçdi masanın ətrafında oturdu. **Tamerlan Əliyev Həsən Əliyevə:**

— Qardaşının adı nə oldu?

— Heydər

Üzünü Heydər Əliyevə tutub:

— Danış görək, necə keçdi İran səfərin, indi nə işinə baxırsan?

Heydər Əliyev bir az utana-utana:

— Əla keçdi. Bir sıra vacib əməliyyatlar oldu, çox uğurlu, amma heyf ki, axırda bütün işimizin üstündən xətt çəkdilər, dedilər ki, qayıdın dala. Yoxsa ki, hər şey alınmışdı. Heyf.

Bir az durandan sonra:

— İndi də DTK-da bölmə rəhbəriyəm.

**Tamerlan Əliyev:**

— Hə, bilirəm, vallah. Eyni şey papanın da başına gəlmişdi. Onlar da nə əziyyətlə gedib orda o boyda iş gördülər, sonda nə oldusa, dedilər qayıdın. Sonra siz gedəndə papa elə sevinirdi ki, deyirdi deməli bizim zəhmətimiz hədər getməyib, partiyamızın o planı hələ qüvvədədi deməli, işimizi bu gənclər başa çatdıracaq. Sonra sizi də yarımçıq geri qaytaranda, papanın bütün ümidləri qırıldı.

**Heydər Əliyev:**

— Nə bilim vallah, dövlətimizin biz bilməyən nəsə planları var imiş yəqin. Bəs Əziz müəllim hardadı? O da gəlib sizlə bura?

**Tamerlan Əliyev:**

— Yox, elə biz gəldik, ona işdən imkan olmadı, qalası oldu orda, dedim özüm gətirərəm mamagili.

**Heydər Əliyev:**

— Eşitdim ordan işdən çıxıb. İndi hardadı?

— Hə, papanı işdən çıxardılar o vaxtdan sonra. Dəyərləndirmədilər. İndi xəstəxanada, öz peşəsi üzrə çalışır. Səhhəti də heç yaxşı deyil.

Bu məqamda Tamerlan Əliyevin anası Leyla xanım çay gətirdi, dil-ağız edə edə qonaqların qarşısına qoydu.

Heydər Əliyev bundan bir qədər məyus olaraq:

—Hardadı indi? Mən çox istəyərdim bu durumunda Əziz müəllimi görüm, ona danışım bu müddətdə başıma gələnləri.

**Tamerlan Əliyev** bir az fikirləşərək:

— Bir az məsləhət deyil. Bəlkə qismət olar, gələn il gələndə papa da bizlə gələr, onda dərdləşərsiz doyunca, yaxud qismətdə varsa, Allah özü hardasa imkan edər, danışarsız.

Leyla xanım qonaqların qarşısına çay qoya-qoya söhbətə qarışdı:

— Niyə, a bala? Elə nə vaxt istəsə evimizdə gəlib görüşə bilmir? Çox yaxşı olar, onsuz da bir az fikir edir. Tanış-bilişlərinində hamısı dönük çıxdı. Yaman ürəyinə salır bunları. İndi də görsə ki, vaxtilə dəstək olduğu adamlardan kimsə onu axtarır çox sevinər.

**Tamerlan Əliyev:**

— Mama, bu adam dövlət idarələrində işləyir, özü də DTK-da. Bunun işinə ziyan olar bu mərhələdə bilsələr ki, bizə gəlib gedir.

**Leyla xanım:**

— Hə, bala, nə deyim vallah. Mən belə şeyləri bilmərəm, özünüz baxın. Amma nə vaxt gəlsəz bilin ki, gözümüz üstdə yeriniz var, siz ki, Əziz müəllimə belə hörmət edirsiz.

**Heydər Əliyev:**

— Bu nə deməkdi ki? Demək ki insan vəzifədə olanda yanına gəlib getmək olar, vəzifədən gedəndə uzaq qaçmalısan? Mənə belə şeylər çatmır. Noolsun ki mən dövlət idarəsində çalışıram? Bunun mənim dostlarıma, tanışlarıma nə aidiyyəti? Mən hardasa kabinetlərdə işləyirəmsə ata-anamı, əmi-dayımı, məktəbimdəki müəllimimi, sinif yoldaşlarımı atmalıyam ki, siz fəhləsiz, dəmiryolçusuz, kəndçisiz özümə yaraşdırmıram

sizi? Belə şeymi olar? Mənim üçün əziz olan adamlar həmişə də əziz olaraq qalasıdı, bu ürək məsələsidi, bunu nə vəzifə, nə kiminsə göstərişi ilə dəyişə bilməz.

Bir az dayanaraq:

— Nə səbəb tutdular ki, onda, nə dedilər? Ciddi günahı olsaydı, həbs edərdilər. Etməyiblərsə, demək ki, ciddi bir səbəb tapammayıblar.

**Tamerlan Əliyev:**

— Babamgil axı bəy nəslindən olmuşdular, hətta Milli hökumətdə də vəzifə tutmuşdular. Atamın təhsilhaqqını da hətta Zeynalabdin Tağıyev ödəmişdi. Papa da bunları qeyd etməmişdi sənədlərində. Sonra hardansa öyrəniblər, deyirlər sən dövləti aldatmısan, bunu niyə bildirməmisən?

**Heydər Əliyev:**

— Sovet hökumətinə qarşı vuruşmuşdular?

— Yox ee, nə vuruşmaq? Bizim nəsil qan-qan adamı deyil. Ziyalı adam idilər, milli hökumət də onları maarif zad işlərinə cəlb etmişdi. O da alınmadı, gedib sakit həyatlarını yaşadılar. Sovet hökumətindən, hətta Milli Hökumətdən də əvvəl olmuşdu ermənilərlə münaqişə, o da onlar atam uşaq olanda onların kəndinə hücum etmişdilər, babam gil də nə edəsi idilər? Öz ev-eşikləri uğrunda nə qədər vuruşublar onlarla, axırda yenə kəndi saxlayammayıb, qaçıblar mamagilin kəndinə. Yəni, bu məsələyə ilişmirlər, əsas bəhanələri bəy nəslindən olmaq, Milli Hökumətdə iştirak və bunları gizlətməkdi. Yeri gəlmişkən, papa o vaxt deyirdi ki, sizinkilər də həmin dövrlərdə məhz həmin səbəbdən Coomərdli kəndindən köçüb getmişdilər Naxçıvana.

**Həsən Əliyev**

— Hə, Heydər yox idi onda, görməyib, mən uşaq idim, hələ də yadımdan çıxmır neçə gün qamışlıqda gizlənməyimiz ki, bəlkə nəsə edə bildi nəsil-əqrəba, qayıdaq kəndimizə. Andranik az qala bütün ordusunu tökmüşdü bizim kəndi sındırmaq üçün, qohumların yarıdan çoxu qırıldı, axırı rəhmətlik atam gil gördü heç nə edəmmirlər, qayıdıb bizi də götürüb Urut, Ortagöz kəndlərinin camaatı ilə birlikdə bütün kəndin sağ qalanları məcburi köçdü Naxçıvana.

**Heydər Əliyev:**

— Heç dəxli var? Tutaq ki, bildirəydi. Nə olacaqdı? İşə düzələ bilməyəcəkdi və Sovet dövləti də bu qədər müddətə onun gördüyü işlərdən, Sovet dövlətinə verdiyi töhfələrdən məhrum olacaqdı. Mən hələ tək İran işindən xəbərdaram. Allah haqqı, o olmayıb, başqası olsaydı, o boyda işləri görə bilməzdi İranda. Mən bunun canlı şahidi olaraq deyirəm bunu. Hələ də ordan gələn mühacir yoldaşlar deyir bunu. Noolsun ki, məlumat verməyib? Axı bu adam bütün nəslini bəraətləndirib dövlətə etdiyi xidmətləri ilə. Bunları nəzərə alıb onun bütün mənfilərini bağışlamaq olardı. Müqəddəs yalan danışıb ki, irəli gedib özünü sübut edə bilsin, nəslinə bəraət ala bilsin və onu da edib. Bu nə yanaşmadı belə?

**Tamerlan Əliyev:**

— Bilirsən, papa çox irəli getmişdi, 1-ci katib olmağın 1 addımlığında idi, Yoldaş Bağırov da, bunu hiss elədi, ona görə vaxtında Moskvanın gözündən saldırdı onu, bu yolla öz rəqibini aradan götürdü.

**Heydər Əliyev:**

— Mən DTK-dayam, bizim komitə Bakıdan az asılıdı, birbaşa Moskva ilə işləyir. Ola bilər orda müəyyən kanallarla

qaldıra bilərəm bu məsələləri, məqamı düşəndə kimlərinsə yanında xoş bir vaxtda söhbət sala bilərəm bu barədə, onlar bəlkə Moskvaya bu barədə nəsə məlumat ötürər, onlar da təzədən baxar bu işə.

**Tamerlan Əliyev**

—Bilirsən, papa özü həmişə deyir: "Bülbül gözəl səsi ucbatından daim qəfəsdə olur, tovuzquşusa gözəl lələkləri səbəbindən daim quyruğuyoluq olur. Qarğa və sərçənin heç bir hünəri olmadığından daim azad və firavandılar". Sən dediyin parametrlər də kakraz papanın ən əsas günahlarıdı. Belələrini Bağırov özünə təhlükə kimi görür.

Heydər Əliyev qeyri-müəyyən nöqtəyə tuşlanmış fikirlərlə:

— Bilmirəm, mən o kişi ilə görüşməliyəm. 1 dəfə görüşlə məni işdən çıxarmazlar. Deyərəm, bilməmişdim vurulduğunu, təsadüfən getmişdim evinə, orda bildim ki, bu cür hadisə olub. Başqa da nəsə fikirləşib taparam.

Bu arada bayaqkı 2 qızdan biri gəlib sakitcə kənarda divanda əyləşmiş Leyla xanımın qulağına nəsə deyir. Leyla xanım da deyir: "Hə, gedin, gedin". Tamerlan Əliyev soruşur:

— Noolub? Nə deyir?

**Leyla xanım:**

— Heç, deyir ki, bunlar gec gedərsə, olar Kəmalə ilə özümüz tək gedək? Rəhimə xanım gözləyir bizi bayaqdan?

**Tamerlan Əliyev:**

— Hə, başımız söhbətə qarışıb, tamam yaddan çıxıb ki, axı bunları aparmalı idik, eybi yox, Ramazan, sən apar.

Bu anda **Həsən Əliyev:**

— Yoo, narahat olmayın, elə biz də durmalıyıq, özümü-

zün də bəzi işlərimiz var idi. Çox xoş oldu rastlaşdıq, görüşdük. Onsuz burdayıq hələ 15 gün, yenə görüşərik. Siz nə vaxt qayıdırsız?

**Tamerlan Əliyev:**

— Hə, biz də hələ 1 həftə burdayıq.

Ayağa durub, sağollaşıb, ayrılırlar.

2 qardaş yan-yana gələ-gələ yolda Heydər Əliyev astadan soruşdu:

— O qız Tamerlan müəllimin bacısı idi?

**Həsən Əliyev:**

— Hansı? Leyla xalanın qulağına söz deyən qız?

Bir az sükut görüb davam edir:

— Onun anasına "mama" deyə müraciət edirdisə, məntiqlə bacısı olmalıdı, amma başqa variantların da olması istisna deyil. Hələ ki, buralardayıq, bu müddətə onların evinə daha 1-2 dəfə də getməyə bəhanəmiz var.

Bir qədər mənalı baxışlarla qardaşının üzünü süzərək:

— Yeri gəlmişkən, təmiz Azərbaycan qızı istəyirdin, bunların da nəslini kökünü tanıyıram, əsl sən deyən kimidilər və üstəlik də sən istədiyin kimi atası zadı da vəzifədə deyil, özün eşitdin. Özü də kökləri o tay Azərbaycana gedib çıxır – əsl sənin idealın.

Gənc Heydər bir qədər rəng alıb verə-verə heç nə cavab vermədən yolunu davam edir.

## *IV fəsil:* Əziz Əliyevin evində

1 ay sonra. Bakı. Əziz Əliyevin evi. Masa ətrafında Əziz Əliyev və onun ailə üzvləri. Hamı artıq Kislovodskidən bir-biri ilə nisbətən yaxından tanış olduğundan, söhbət bir ailə atmosferində gedir.

Heydər Əliyev dayanmadan İranda gördükləri, eşitdikləri, etdikləri barədə danışır, o cümlədən Əziz Əliyevin özü barədə eşitdiklərini:

— Sizin orda buraxdığınız "Vətən yolu" qəzetinin bir əməkdaşı var idi – Ağeyi Həmidi. O ümumiyyətcə sizin fanatınız idi. Gecə gündüz sizdən danışırdı: Əziz müəllim belə dedi, belə elədi. Hətta 1-2 dəfə bezib demişdim ki, Ağeyi Həmidi, mən onun qohumu deyiləm, heç qayıdandan sonra da onu görüb bunları çatdırası deyiləm. Bunları artıq 3-4 dəfə danışmısan. Biz də elə işlər görməliyik ki, bundan da yaxşı olsun. Cavab verir ki, bəs sən deyirdin gələndə sənin sənədlərinə o imza atıb? Deyirəm, noolsun, sənədimdə hər imza atanla mən sonradan da kefim nə zaman istəsə gedib görüşə bilirəm? Deyirdi ki, noolsun, hər ehtimala qarşı deyirəm, bəlkə qismət olar yenə nə zamansa o cür iş olar, rastlaşarsız. Sən demə o düz deyirmiş. Allah elə edir ki, ağlımıza belə gətirə bilmədiyimiz bir şey, başımıza gələ bilirmiş.

Bir an sükutdan sonra:

— Üzrlü bilin, Siz demişdiz biz bir başqa dövlətdə, sistemdə yaşayırıq, Allah-zad sözünü tərgit, mən hələ də tam tərgidəmməmişəm, sadəcə uşaqlıqdan dil öyrəşib, mexaniki olaraq dilə gəlir.

**Əziz Əliyev**:

— Burda olar, narahat olma. Onda dövlət adamı idim, hər yerdə dinləmə qurğusu var idi. Sənə də tövsiyyə edirdim ki, belə məsələləri həmişə nəzərində saxlayasan. Yoxsa ki, Allaha şükr, dinsiz-zad deyilik ki? Bizim özümüzün də nəslimiz kökümüz dindar bir nəsil olub, anam hicablı. İndi bir vəzifəyə görə allahımızdan dönəsi deyilik ki? Sadəcə izah etdim və elə bilirəm sən də məni anladın ki, sən çekistsənsə bilməlisən ki, siyasətçilərin dildə dedikləri ilə ürəkdə inandıqları, beyində düşündükləri heç də həmişə eyni şey olmur. Yəqin oxumusan bir müdrikin bu fikrini: "Dil – siyasətçilərə öz fikirlərini gizlədə bilmək üçün verilir". Yəni ki, Əbdürrəhman Caminin "Ya olduğun kimi görün, ya da göründüyü kimi ol!" tövsiyyəsi siyasətçilər üçün, ümumiyyətcə hətta deyərdim ki, indiki zamanda heç kim üçün keçərli deyil. Siyasət adamı daxildə necə olub-olmamaqdan asılı olmayaraq ancaq şəraitə uyğun görünməlidi, danışmalıdı. Yadında saxla, milyon illər ərzində Yer üzünə çox növdə canlılar gəlib də, gedib də. Onlar içərisində həddən artıq güclü olanı da, böyük olanı da olub. Buna baxmayaraq onların bir çoxunun bu gün heç əsər əlaməti yox. Amma bir canlı var ki, o onların hamısından əvvəl gəlib yer üzünə və hələ də yaşayır. Səncə hansıdı o?

Heydər Əliyev bir qədər düşüncəyə daldı. Əziz Əliyev vaxt gözləmədən özü verdi cavabı:

— Tısbağa! Səncə niyə görə o birilər məhv olub getdi, amma bu yaşadı?

Heydər Əliyev bir də maraqlı baxışlarla, gülümsəyərək fikrə daldı:

— Gərək bir az fikirləşim

**Əziz Əliyev**:

— Yox, fikirləşmək üçün demədim. Onsuz da tapmayacaqsan. Ona görə o qədər güclü, nəhəng varlıqlar yaşamaq uğrundakı mübarizədən sağ çıxa bilmədilər, amma tısbağa çıxa bildi, çünki onlar ətraf mühitin dəyişkənliyinə adaptasiya ola bilmədi, Tısbağasa hər mühitə uyğunlaşa bildi: isti olanda suya girdi, soyuq olanda çıxdı səhralığa. Siyasət də belədi: sən düşdüyün mühitə dərhal uyğunlaşmalısan. Məhz onda onlar səni özlərindən biri biləcək. Ondan sonra yavaş yavaş o mühiti tam şəkildə özün istəyən istiqamətə dartıb apara bilərsən. O cümlədən, həmin mühitin üzvlərini bir-bir özün tərəfə çəkməklə, bir-birinə qarşı qoymaqla, onların sənə qarşı yönələn enerjisini bir-birinə qarşı yönəldib, sənə qarşı yönələn enerjiləri bu cür neytrallaşdırmaqla. Yox əgər bu mənim "ən sonda etməlisən" dediyim bu əməliyyatı ilk əvvəldən etmək istəsən – onlar hamısı sənə qarşı birləşəcək, və sən dinozavr da olsan, məhv olacaqsan.

Bir qədər fasilə verərək:

— Yadımdadı, keçən dəfə deyəsən demişdin ki, məktəb illərində hərdən teatrda da çıxış edirsən müxtəlif rollarda. Bu, sənə bütün həyatın boyu lazım olacaq: daim özünü hansısa rolda hiss elə, və obrazına girdiyin rolu olduğu kimi canlandırmağa çalış: dost rolunu, düşmən rolunu, qalib rolunu, laqeyd rolunu, Amma daxilində özün heç vaxt bu rollar səviyyəsinə enmə, özün bu rolların rejissoru ol.

Heydər Əliyev bayaqdan bu müdrik siyasətçinin mühazirələrinə sanki ağzını açaraq qulaq asırdı. Özünü sanki müəllim qarşısında hiss edirdi və dinlədikcə də ona valeh olurdu.

**Əziz Əliyev**:

— Bayaq muzeydəki əməliyyatınız barədə danışanda

Ağeyi Həmidi barədə danışdın, Tudə partiyasının keçmiş üzvü. Amma onu yada salammadım nəsə.

**H.Əliyev:**

— Yooo, görsəydiz mütləq tanıyardız, görüşmüsüz dəfələrlə. Qarabəniz oğlandı, məndən bir az boyu qısa. Siz Təbrizdəki "Şiri-Xurşid" klubunda ordakı yoldaşlarla birgə görüşdən çıxanda, siz və yoldaş Pişəvəri bir maşına əyləşəndə o tez qabağa durub avtomobilin qapısını açmaq istəyəndə, siz qoymamısız ki, yooo, belə şeyə ehtiyac yoxdur. Sonra «Didaban» kinoteatrında başqa bir görüşünüz olub, onda da yenə yoldaş Pişəvəri ilə birgə avtomobilə minmək istəmisiz, avtomobilin qapısı nəsə xarab olub, açılmayıb, onda onu səsləmisiz ki, hardadı o oğlan, bayaq zalda idi, onu göndərin bura, indi həqəqtən onun köməyinə ehtiyac var. Orda olanlardan kim keçən dəfəki hadisədən xəbərdar idilərsə gülüşüb. O oğlan da gəlib qapını içəri tərəfdən açıb. Sonradan da rast olanda zarafatla sizə deyirmiş ki, mən məktəb vaxtı futbol komandasında həmişə qapıçı olmuşam, ona görə Qapı məsələlərini belə yaxşı bilirəm ☺

**Əziz Əliyev** gülümsəyir.

— Hə yadıma düşdü. Adı yadımdan çıxmışdı, amma özü, hə, yadımdadı, çox yaxşı uşaq idi, və vətənpərvər. Neçə ildən sonra o boyda əməliyyatda sənə yardım edibsə, və bu işdə hətta o boyda risklərə gedibsə, afərin.

**Heydər Əliyev:**

— Nəinki risk, hətta ölüm bir addımlığında idi onun həmin əməliyyatda. Deməli yoldan çıxıb meşəyə gedəndə mən çayın kənarında qabaqcadan quraşdırdığımız xüsusi açar vasitəsilə avtomobili qəsdən xarab etmişəm, və bayaq dediyim kimi ingilislər avtomobili yandırmağı tapşırıb. Deməli mən

düşmüşəm yerə və baqajı açıb, baqajdakı əşyaların üstünə benzin tökürəm ki yandırım. Özüm də qəsdən vaxtı uzadıram ki, bunlar bizdən kifayət qədər uzaqlaşsınlar. Bu da düşüb situasiyanın təsirinə, onlarla birgə qaçır meşəyə. Bilmədim bunu necə qaytarım ki ingilislər şübhələnməsin, əlimdəki kibritin kükürdlü tərəfini yox, tərsini çəkdim kibritə ki, yanmasın. 3-4 dəfə bu cür cəhd edəndən sonra qışqırdım ki, gör orda kimdə kibrit var, bu yanmır. İngilisin biri tapıb verdi və bu qaça qaça çatdırdı mənə. Çatandan sonra yavaşca deyirəm ki, ağeyi –İbrahim sən hara? Bizim ki yolumuz bu biri tərəfdədi? Özü də sanki indi ayıldı ki, doğurdan da mən hara gedirəm, mənim orda nə işim var ki? Yandıran kimi də tez bunu çəkdim avtomobilin arxasına ki, ingilislər uzaqdan bizi pistoletlə vurmaq da istəsə, artıq vurammasın. Beləcə ingilislər bizdən əlini üzüb getdilər, biz də enib gizləndik çayın kənarındakı dərədə. İran polisləri də burda yanan avtomobili, orda da qaçan o 2 nəfəri görüb düşdü onların arxasına, bir azdan da həqiqətən meşənin üstündə bir vertolyot göründü, bir az orda asılıb qalandan sonra uzaqlaşdı, ehtimal etdik ki, məhz bunlar deyən vertolyot imiş, kəndirlə bunları alıb getdi.

**Əziz Əliyev**:

— Afərin. Əla bir əməliyyat həyata keçirmisiz. Çox bəyəniləsi bir iş idi.

Heydər Əliyev (bir qədər məyus görkəmdə)

— Sonradan da onunla bir-neçə əməliyyatımız oldu. Amma təəssüf ki bunlardan birində rəhmətə getdi

— Niyə?

—O, əslən bizim ordakı Qaşqay tayfalarımızdan idi. İngilislər Huzistana girəndə Qaşqaylılar da onların ərazisində qalmışdılar. Həmin vaxt Alman kəşfiyyatı bizim həmin o

qaşqay camaatı ilə əlaqə yaradıb, onlardan bu zonaları işğal edən ingilislər barədə məlumat alırdılar. Bunların da bir çoxu həmin bu Ağeyi İbrahimin qohumları idi. Mənə dedi, mən də rəhbərliyə çatdırdım, dərhal sovet kəşfiyyatı qoşuldu bu işə. Yenə də məni bu əməliyyata rəhbər təyin etdilər, Sovet kəşfiyyatının ingilislər barədə, onların Huzistandakı fəaliyyəti barədə nə bilirdiksə həmin bu Ağeyi İbrahim vasitəsilə çatdırırdıq qohumlarına, onlar da almanlara. Onlar da almanlar vasitəsilə ingilislərdən aldıqları informasiyaları yenə də onun vasitəsilə bizə. Hansısa mərhələdə almanlar duyuq düşdü ki, həftədə 1 dəfə gecələr bu kəndə kimsə yad adam gəlib səhərə yaxın qayıdır. Pusqu qurub tutmaq istəyirlər, atışmada ölür. Dərhal onun ordakı qohumlarına xəbər yolladım ki, onlar da bunun cavabı olaraq aparıb almanları ingilislərə təhvil versinlər. Belə də etdilər. Allah rəhmət eləsin.

**Əziz Əliyev:**

— Hə Allah rəhmət eləsin. Çox təəssüf.

Bunu deyib bayaqdan kənarda üzünü onlara tutub, maraqla bu cavan, yaraşıqlı oğlanın danışdıqlarına qulaq asan qızına döndü:

— Qızım, çayımızı təzələ, baş qarışıb söhbətə, çay soyuyub.

**Heydər Əliyev:**

— Yoo, narahat olmayın, mən içmirəm

Qız böyük həvəslə ayağa duraraq:

— Baş üstə papa – deyib, sanki qol-qanad açıb uça-uça stəkanları götürüb, mətbəxə keçdi.

Əziz Əliyev bir anda sanki yuxudan ayılmış kimi, qızın bayaqdan bəri bu söhbətlərə necə həvəslə qulaq asması yalnız indi yadına düşdü. Həqiqətən də boylu-buxunlu, yaraşıqlı bir

oğlanın bu boyda riskli əməliyyatlarda iştirakı, bütün bu məcəraları bu yaşda olan istənilən qızın beynində bir qəhrəman obrazı yarada biləcəyinə indi diqqət verdi. Üstəlik də sistem işçisi, dövlət orqanlarının zabiti...

**Heydər Əliyev:**

— Mən sizin ordakı xidmətlərinzə dair eşitdiklərimi şöbəmizdəkilərə də danışmışam, və çalışacam rəhbərliyə də danışım ki, o cür partiyamıza, dövlətimizə sədaqətli, xidmətləri olan həmin insanın şəxsi ambisiyalar səbəbindən vurulub. Bizimkilər birbaşa Moskva ilə işləyir, güman edirəm ki, Moskvanın diqqətinə çatdırsalar, məsələ dəyişər.

**Əziz Əliyev** bir az gülümsəyərək.

— Bilirsən, mənin dosyemi tapıb üzə çıxaran elə məhz sizin Yemelyanov olub. Yemelyanov mənim işimdən çox yaxşı xəbərdardı. Onun yanında mənim barədə qəti heç nə demək olmaz, dərhal sənin özün də işini itirəsisən. Mən bilirəm vəziyyəti

**Heydər Əliyev** bir qədər düşünərək.

— Nə bilim, ola bilər bir başqasına, bir başqa üsulla nəsə məlumat çatdıraram, ya orda kimdənsə, elə vacib xəbər eşidə bilərəm ki, o məlumat sizin üçün əhəmiyyət kəsb edə bilər, bizim təsadüfən Kislovodskidə Tamerlan müəllimlə rastlaşmağımız, ola bilsin Allahın bir qismətidi, bu qismət Sizi bu durumdan çıxara bilər.

**Əziz Əliyev:**

— Yadındadı, mən 1-ci görüşümüzdə bəzi tövsiyyələr vermişdim. O tövsiyyələr sənin öz işini düzgün qurmağına yardım etdi?

**Heydər Əliyev:**

— Bəli yoldaş Əliyev

**Əziz Əliyev:**

— İndi də bəzi tövsiyyələrimi deyirəm: onların yanında nə mənim adımı çəkmə, nə bu gün bizdə olmağını kimsə bilməsin, nə də bura gəlib getmə. Sən xalqımıza gərəksən. Bütün xalqımıza xidməti özünə hədəf elə, bu yolda 1 nəfərin xilasına həddən artıq çox önəm versən, sən o boyda xalqı xilas imkanları əldən buraxarsan. Canavar tələyə düşəndə öz ayağını gəmirib kəsib atıb özünü xilas edir ki, qoy 1 ayağı qurban getsin, amma canı sağ qalsın. Sən də həmişə bu qaydanı unutma: 10 nəfərin xilası üçün 1 nəfəri qurban vermək qaçılmazdısa, uff demədən bunu et. Mən öz özümü, ailəmi dolandıra bilən gücdəyəm, gərək dövlət orqanı ola? İşim var işləyirəm, Tamerlan da işləyir, min şükr, dolanırıq. Sən xalqımız xilas işinə yönəlt fikrini, o zaman mən də xilas olaram.

**Heydər Əliyev:**

— Mən bayaq Sizə danışdım, Əziz müəllim: Xoy əməliyyatında əməliyyat yoldaşımın yaralanmasını və necə bir riskli ərazidən onu gizlənə gizlənə sürüyüb özümüzünkülərin yanına gətirib çıxarmağımı. Mən yoldaşlarımı yaralı vəziyyətdə yarıyolda qoyub qaçmıram, Əziz müəllim. Mən layiqli bilirəmsə ki, siz bu xalqı sevən, ona gərək ola bilən bir insansız, mən gecə-gündüz çalışacam ki, sizi bu quyudan çıxarım. Siz həqiqətən xalqımız üçün dəyərli bir insansız.

# *V fəsil:* Əziz Əliyev ailəsi ilə əlaqəyə görə Heydər Əliyevin işində problem

1950-ci il. DTK-nın binası. Heydər Əliyev işlədiyi şöbə. Şöbə əməkdaşları bu günlərdə Yuqoslaviyadan ezamiyyətdən qayıdan kapitan Heydər Əliyevin gətirdiyi məlumatları müzakirə edirlər

**Heydər Əliyev:**

— Çox məlumat öyrəndim, yerli əhali ilə, əsgər yoldaşları ilə görüşdüm. Mehdi Hüseynzadə 1941-ci ildə Tbilisidəki hərbi məktəbi bitirəndən sonra leytenant rütbəsi ilə Stalinqrad cəbhəsində minamyot vzvoduna komandir təyin edilir. 1942-ci ildə ağır yaralanaraq almanlara əsir düşür. Ukraynanın Mirqorod şəhərində əsir düşərgəsində müalicə edilir. Müalicədən sonra 1943-cü ildə Almanlar onu Azərbaycanlı əsirlərdən təşkil etdikləri və Sovet dövlətinə qarşı vuruşan 162-ci "Türk piyada diviziyasına" daxil edirlər. Bundan sonra Almaniyanın Noyhammer şəhərində legionerlər üçün təşkil etdikləri təlimlərə göndərirlər və ordan sonra Almaniyanın SSRİ-yə qarşı vuruşan 314-cü Azərbaycan polkunda Təbliğatçı vəzifəsinə təyin edilir və ona alman zabiti rütbəsi verilir. 1944-cü ildə əsir yoldaşları Cavad Həkimli və Əsəd Qurbanovla birlikdə əsirlikdən qaçaraq, Yuqoslav-İtalyan partizanlarına qoşulur. Orada da Yuqoslaviya Xalq Azadlıq hərəkatının 9-cu korpusunun Qərargahının xüsusi kəşfiyyat-diversiya komandiri vəzifəsinə təyin edilir. Sonradan da Almanların ona verdiyi rütbədən və zabit kitabçasından istifadə edərək rahat şəkildə Almaniya və italiyada alman

zabitlərinin daxil ola bildiyi istənilən yerə rahat daxil olub, həmin yerlərə minalar yerləşdirmişdir. Onun dəstəsində Almanlara qarşı vuruşan azərbaycanlılardan Mirdamət Seyidov, Cavad Həkimli, Sadıq Nadirli, Mikayıl Qulibəyov, Qasım Əmrahov, Cəmil İsmayılov, Rza Ağazadə və b. da olublar. Dövlətimiz onun 1942-1944-cü illər arasında əsir düşərgəsində olduğunu, adının legionerlər siyahısında olmasını nəzərə alıb, həmçinin ondan sonra da Sovet qoşunlarının tərkibində vuruşmadığını nəzərə alaraq ona cinayət işi açıb, ona "vətən xaini" damğası vurub, amma 1944-1945-ci illərdə Sovet qoşunlarının yox, bizə müttəfiq olan ölkələrin qoşunları, partizan dəstələri tərkibində alman faşizminə qarşı vuruşmasını və çox-çox böyük xidmətlər göstərməsini nəzərə almayıb.

**Şöbə müdiri:**

— Bilirsiz, müharibədən sonra bu cür o qədər yalançı "qəhrəmanlar" peyda olmuşdu ki, hamısının da əlində ciddi sənədlər. Güya birisi Fransada, o birisi İtaliyada, üçüncüsü Yuqoslaviyada, Polşada, Avstriyada daha nə bilim harada böyük bir partizan dəstəsi yaradıb, yüzlərlə faşist obyekti dağıdıb, minlərlə faşist qırıb. Araşdıranda bəlli olur ki, heç əslində o vaxt o, həmin ərzidə olmayıb, olsa da o ərazilərdə hər hansı partizan qruplaşması fəaliyyət göstərməyib, və ümumiyyətcə onun əlində olan sənədlərin həmin ölkələrin arxivində kökü yoxdur. Bəlli olur ki, bunların çoxunu həmin ölkələrin kəşfiyyat orqanları əməkdaşlığa cəlb edərək qaytarıb SSRİ-yə. Özlərinə də yalançı qəhrəmanlıq sənədləri düzəldib veriblər ki, burada onlar təhlükələrdən, həbslərdən qorunmuş olsunlar. Və eyni zamanda müharibə dövründəki bu xidmətlərini nəzərə alaraq dövlət onları müxtəlif hərbi sferalarda vəzifələrə irəli çəksin ki, onların agenti kimi daha dərin informasiyalara əlləri

çatsın. Özlərinə də şərt qoyulub ki, bizə işləməsəz bu sənədlərin saxtalığı dövlətinizə çatdırılacaq və siz saxta sənədlərlə dövləti aldatdığlnız üçün dərhal həbs olunacaqsınız. Mixaylo isə, başqadı. Sizin gətirdiyiniz bu sənədlərdən, şahid ifadələrindən sonra artıq bu insan barədə heç kim heç nə deyə bilməz

Bu ara bir qız otağa daxil olur, və bildirir ki, kapitan Əliyev, yoldaş Yemelyanov sizi çağırır.

Şöbədəkilər deyir ki, *"Nə əcəb Yemelyanov belə çox maraqlanır Mixaylo ilə? Heç gəlib-çatmamış maraqlandı"*. Gülüşürlər. Heydər Əliyev bəzi sənədləri götürüb onun otağına qalxır. Daxil olub, hərbi salam verərək oturmaq tapşırığı verəcəyini gözləyir. Yermolov bir az baxaraq stoldan bir şəkil götürərək ona göstərir:

— Nədi bu?

Heydər Əliyev Zərifə Əliyeva ilə görüşünün DTX tərəfindən izlənildiyini və “İngilis Bağı” deyilən yerdəki son görüşünün gizli çəkildiyini bildi. Gözləmədiyi tam başqa bir durumla rastlaşdığından bir qədər duruxaraq cavab verdi:

— Yoldaş Yemelyanov, mənim 27 yaşım var. Mən gec-tez ailə qurmalıyam. Bu xanımla da ailə qurmaq məqsədilə görüşürəm.

**S.Yemelyanov:**

— Mən bilirəm ailə qurmaq məqsədilə görüşürsən. İntəhası mən sənə dedim axı ki, bu ailədən uzaq dur, onun atası partiyamıza, dövlətimizə xəyanət etmiş bir insandır.

**Heydər Əliyev:**

— Yoldaş Yemelyanov, mən hər şeyi ətraflı araşdırmışam. O insan partiyamlıza, sovet dövlətinə qarşı heç bir fəaliyyət göstərməyib. Biz niyə görə hansısa bir sədaqətli leninçi yoldaşımızı onun ata-babalarının kimliyinə görə dəyərləndirib, dövlətimizi onun qabiliyyətindən, potensialından, göstərə biləcəyi xidmətlərdən məhrum etməliyik? O özü də deyir ki, mən bunu gizlətməklə istədim ürəklə Sovet dövlətinə xidmət edib, nəslimi-kökümü bəraətləndirim. O həqiqətən dövlətimizə, partiyamıza, yoldaş Lenin, Stalin yoluna çox sədaqətli bir insandır. O dövlətimizə hələ çox fayda verə bilərdi.

**S.Yemelyanov:**

— Bilirsən, mən bu işi çox gözəl araşdırmışam və hamısını çox yaxşı bilirəm.

**Heydər Əliyev:**

— Mən bilsəydim ki, o insanın həqiqətən böyük günahı var, dövlətimizə, partiyamıza xəyanət edib, mən həqiqətən ona yaxın durmazdım. Mən məhəbbəti də, şəxsi hisslərimi də qurban verərdim partiyamızın naminə. Amma axı bu insanın vətənimizə, partiyamıza xəyanətini görə bilməmişəm mən. Əksinə, bu gün də yoldaş Stalinin müdrik siyasətindən ağızdolusu danışır, kommunizm yolunun yeganə düzgün yol olduğunu, bütün bəşəriyyətin gec-tez bu yolla gedəcəyini ətrafda hamıya təbliğ edir, dövlətimizə sədaqətli olmağı tövsiyyə edir hər kəsə.

**S.Yemelyanov:**

— Bəs özünün düşdüyü vəziyyətlə bağlı nə deyir, kimi günahlandırır?

**Heydər Əliyev:**

— Xarici kəşfiyyat orqanlarını. Deyir ki, mən artıq İranda çalışdığım vaxtlardan burjua ölkələrinin kəşfiyyat orqanlarının diqqətinə düşmüşdüm. Sonradan da burda gördülər ki, mən bu dövlətə fayda verə bilərəm, məni partiyamızın gözündən salmaq üçün hər vəchlə çalışdılar. Bildirir ki, böyük sovet dövlətimizi zəiflətmək üçün, perspektivli şəxsləri, dövlətimiz üçün lazımlı kadrları vaxtında ya fiziki, ya da mənim kimi mənəvi olaraq aradan götürməklə bağlı onlar gecə-gündüz çalışır və onun kimi partiyamıza sədaqətli çox kadrları onlar buradakı öz agentləri vasitəsilə gözdən salıb sıradan çıxarıbar.

**S.Yemelyanov** bir qədər fikrə gedərək

— Bilirsən, sən yaxşı çekistsən, perspektivli gəncsən, mən istəmirəm sənin kimi əməkdaşları belə xırda məsələlərə görə itirim. Mən bu iradımı da səni qorumaq üçün deyirəm. Mən şəxsən bir söz demirəm, amma bu məsələ yuxarıların diqqətinə gedib çatsa, ordan mənə bu məsələ ilə bağlı tədbir görmək tapşırığı gəlsə, mən məcburam ən sərt formada tədbir görüm.

**H.Əliyev:**

— Yoldaş Yemelyanov, mən yaşda insanlar kimdənsə ilham alaraq, kiminsə idealı ola bilmək üçün özünü odlara atır, qəhrəmanlıqlar edir. Həyatında belə insan olmayanda insanın heç bir işə, qəhrəmanlığa həvəsi olmur. Mən o qızı neçə ildir tanıyıram və bir çox uğurlu əməliyyatımızı da ondan ilham alaraq etmişəm. Mən hər əməliyyatdan sonra işin bitməyini gözləyirəm ki, bunu da gedim danışım, o da məni daha böyük işlərə ruhlandırır. Mən kimlə gəldi, ailə olmaq xatirinə ailə

qursam, bu mənim işimə, uğurlarıma, xidmətlərimə də pis təsir edə biləcək, həvəssiz çalışacam.

Yermolov bir az düşünərək:

— Yaxşı, o Yuqoslaviya ezamiyyətin necə keçdi?

**H.Əliyev:**

— Çox gözəl yoldaş Yemelyanov, neçə insanla görüşdüm, dediklərini maqnitofona yazdım, nə qədər sənəd topladım, qalan sənədlərin də yerini müəyyən etmişəm, sorğu yollayıb alarıq.

**S.Yemelyanov:**

— Hə, get məşğul ol, Bağırov nəsə çox maraq göstərir bu işə, bilsə ki, sən də bu işin içində olmusan, bu işdə xüsusi xidmətlərin olub, bəlkə buna görə bağışlayar səni.

Bir qədər sükutdan sonra:

— Yoldaş Yemelyanov, icazə verirsinizsə gedim?

— Buyur, get, onsuz da iş vaxtı bitib

**H.Əliyev:**

— Bəli, həm də bir az gec gəlib çatdım işə, gətirdiyim sənədləri işləyə bilmədim. Etiraz etmirsinizsə aparım evdə işləyim, onsuz da burda elə məxfi sənədlər yoxdur, bir qəhrəmanın həyatı barədə adamların dedikləri, adi arayışlar, sənədlərin, fotoşəkillərin surətləridir.

**S.Yemelyanov:**

— Apar, intəhası nəyə lazım evdə özünə əziyyət vermək, üstəlik də bu gün nişanlınla Çaparidze bağında görüşünüz var,

onun da vaxtından keçib. Gedib, çatmayacaqsan, ondansa ona vaxt ayır, bunu sabah işdə edərsən.

Heydər Əliyev bir az duruxaraq:

— Yox, sabah axı bizim İran məsələsi ilə bağlı da iclasımız olmalıdı, mən hamısını birdən çatdırmayacam. Bunasa özümün də həvəsim var, gecə yatmayıb, həll edəcəm ki, səhərə Raport hazırlaya bilim, ondan sonra da iclasa hazırlaşım.

**S.Yemelyanov:**

— Özün bax, necə məsləhət bilirsən, elə.

# *VI fəsil:* Zərifə Əliyeva ilə parkda romantik görüş

1950-ci il. Bakı. Çaparidze bağı. Saat 20:00.

Heydər Əliyev əlində gül buketi tez tralleybusdan düşüb dayanacaqda bayaqdan onu gözləyən Zərifə Əliyevaya yaxınlaşır.

**Zərifə Əliyeav:**

— Hardasan, bəs bilmirsən ki mən burda qorxuram?

**Heydər Əliyev:**

— Bağışla, işdən buraxmırdılar. Çox problem var idi.

**Zərifə Əliyeva:**

— Əməlli başlı qorxmuşdum.

**Heydər Əliyev:**

— Kim sənə nə deyə bilər ki, tapançam da üstümdə, gəlib hamısını gülləyərdim

**Zərifə Əliyeva:**

— Zarafatı boşla, sənə görə qorxurdum, dedim yəqin sənə nəsə olub, mənə də yalandan demisən ki, ezamiyyətə gedirəm. Əslində dedim yəqin başqa nəsə var, mənə elə deyirsən. Bu gün də zəng edəndə sevindim, amma indi gəlməyəndə düşündüm yəqin zəng etdiyini bilib, səni tutublar.

**Heydər Əliyev:**

— Mən nə etmişəm ki məni tutsunlar, nəsə etsinlər? Öz işimdə-gücümdə, dövlətimizə xidmət edən adamam. Kimin mənimlə nə işi?

**Zərifə Əliyeva:**

— Noolsun ki, atam da heç kimə heç nə etmirdi, onu çıxartmadılar işdən? Dedim yəqin səni də biliblər ki, mənimlə görüşürsən, ona görə işdən çıxarıblar, mənə deməyə utanırsan

**Heydər Əliyev:**

— Noolsun çıxaranda? Gedib müəllim işləyərəm, sən də həkim, əl-ələ verib dolanarıq, birgə ev alarıq. Gərək bu iş olsun? Nə çox iş, ac qalmayacağıq ki?

**Zərifə Əliyeva:**

— Yooo, ac qalmağa görə demirəm, mənə görə sənin problemin olmasını istəmirəm. Sonra özümü bağışlayammaram heç vaxt.

**Heydər Əliyev:**

— Olsun daaa, məhəbbət qurban tələb edir, sənə görə mənə nə cəza versələr, hamısı mənə xoşdu.

**Zərifə Əliyeva:**

— Doğrudan ezamiyyətin necə keçdi? Nə edə bildin – əgər yenə də dövlət sirri deyilsə.

**Heydər Əliyev:**

— Heç, əla. Bir qəhrəmanımız var idi, İtaliyada, Yuqoslaviyada böyük işlər görmüşdü müharibə vaxtı. Gedib onun

bütün arxiv məlumatlarını tapıb gətirdim ordan. Yaxşı bir iş oldu, bəlkə ev növbəmi də bir az sürətləndirməyə kömək edər.

**Zərifə Əliyeva:**

— Bilirsən, mamam deyir ki, evlənin gedin bağ evimizdə yaşayın, onsuz da boş qalıb orda, bir evə görə niyə belə əziyyət çəkirsiz?

**Heydər Əliyev:**

— Bu qədər dözmüşük, bir az da səbr edək, inşaallah öz evim olacaq, onda da birləşəcəyik. Yoxsa ki, mən sabah qohum-tanışın dilindən qurtarammaram ki, Heydər gedib arvad evinə girdi.

**Zərifə Əliyeva:**

— Nə biim vallah, mamam da bizim üçün deyirdi ki, bizə yaxşı olsun. Görür ki, mən çox darıxıram. Bu neçə gündə də sən yox idin, lap darıxırdım. İşdə də nə qədər problem olurdu, heç kimə danışammırdım, lap pis olurdum

**Heydər Əliyev:**

— Nə problem ki?

— Nə bilim ee, qızlar xətrimə dəyirdi, bir xəstənin adamları tamam qanımı qaraltmışdı o gün, başqa da bu cür şeylər.

— Mamaya danışaydın

— Yox eee, mama məni başa düşmür, eləcə deyir ki, "Ciddiyə alma, boş şeylərdi, fikir vermə"

— Noolsun? Onsuz mən də eyni sözləri deyirəm daa

— Sən başqa, sən hər şeyi bilirsən, sən çox şeylər görmüsən, adam sənin yanında özünü rahat hiss edir, sən deyirsənsə ki, "Boş şeydi", demək ki nəyisə bilib deyirsən. Mənsə haranı görmüşəm ki, getdiyim iş, gəldiyim ev, indi-indi sən mənə tanıtmısan bu bağları da.

— Yaxşı, eybi yox, gələn dəfə bir də məni hansısa ciddi əməliyyatlara yollayanda, səni də özümlə apararam, sən də risklərdən keçib təcrübə toplayarsan

— Hara desən gedərəm səninlə, lap ölümə də olsa.

—Ölümə niyə gedirik? Allahın köməyi ilə ailəmiz olacaq, uşaqlarımız olacaq, onlarla gələcəyik bu parklara və onlara danışacağıq burda keçən macəralarımız barədə. Yeri gəlmişkən, bilirsən niyə gecikdim? Sənə sürpriz hazırlayırdım

— Nə sürpriz?

— Bu saat.

Bunu deyib Heydər Əliyev cibindən xidməti məqsədlər üçün istifadə olunan mini maqnitofonu çıxardı.

**Zərifə Əliyeva:**

— Aaaaa, sən yenə bunu işdən oğurlayıb çıxartmısan? Axır səni buna görə işdən çıxaracaqlar.

**H.Əliyev:**

— Yoooo, heç nə gizlin iş zad yoxdur. Birbaşa rəhbərliyin özündən icazə almışam. Güya Yuqoslaviyadan gətirdiyim materialları evdə işləmək üçün lazımdı. Əslində də işə aid materialların hamısını günortadan hazırlayıb qurtarmışdım. Bəzilərini özüm qəsdən ləngitdim ki, axşam bu maqnitofonu işdən çıxartmağa bəhanəm olsun. O da alındı.

Kaseti də keçən dəfədən hazırlayıb qoymuşdum, maqnitofonu çıxara biləcəyim günü gözləyirdim.

Davam etdi:

— Yadındadı, keçən dəfə Filarmoniyadakı konsertə birgə gedəmmədik, amma sənə söz verdim ki, orda nə konsert olubsa, hamısının səs yazısını əldə edib sənə qulaq asdıracam. Bu da həmin konsertin tam səs yazısı. İşdən sorğu edib almışdıq – güya nəyisə araşdırmaq üçün, bir surətini də mən götürdüm özüm üçün, daha doğrusu bu əlahəzrət xanım üçün, indi özümüz üçün rahatca qulaq asa bilərik.

Bunu deyib düyməni basdı. Müğənni həzin səslə başladı: *"Küçələrə su səpmişəm, Yar gələndə toz olmasın..."*

Zərifə Əliyeva bundan vəcdə gələrək:

— Aaaa, o gün mən dediyim mahnı. Nə gözəl. Adamın ruhuna bir şəlalə kimi yayılır!

**Heydər Əliyev:**

— Planım belə deyildi. Planımda tutmuşdum ki, səndən əvvəl gələcəm, gələn kimi də o ağacın yanındakı ağacları sulamaq üçün olan şlankla bu yolu tramvay dayanacağından bura qədər sulayacam. Sonra da sən gələndə bu mahnı sədaları altında qarşılayacam səni. İşin axırında planımı pozdular, ləngitdilər.

Parkın qaranlıq bir guşəsində bu iki gəncin dinlədiyi bir-birindən gözəl həzin Azərbaycan mahnıları *(“Hüsnün gözəl ayətləri, ey, sevgili canan”, “Alagöz”, “Üzüyünün qaşı, firuzədəndir”....)* sanki parkın özünə də bir lay-lay çalırdı...

# *VII fəsil:* Heydər Əliyev Azərbaycan SSR DTK-sının rəhbəri kimi

Stalinin ölümündən sonra SSRİ-nin bütün dövlət strukturlarında ciddi kadr islahatlarına start verildi və bu siyasətin



tərkib hissəsi kimi 1953-cü ildə Azərbaycan SSR Dövlət Təhlükəsizlik naziri, Heydər Əliyev və Əziz Əliyevin düşməni Stepan Yemelyanov, və Azərbaycan xalqının ziyalılarının Stalin repressiyasında əli olan DTK-nın bir sıra şöbə müdirləri həbs edildi, yerlərinə millətçi milli kadrlar gətirildi. O sıradan həmin vaxt 30 yaşında olan Heydər Əliyev Azərbaycan SSR-də Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi təyin edildi.

1964-cü ildə Sov. İKP MK-nın Baş katibi Nikita Sergeyeviç Xruşşov rəhmətə getdi, və 1966-cı ildə yerinə Leonid İliç Brejnev seçildi. O isə öz növbəsində vəzifəyə gələn kimi dərhal öz komandasını formalaşdırmaq üçün hər sahədə ciddi kadr islahatlarına başladı. O cümlədən, indiyə qədər Mərkəzi Komitənin katibi vəzifəsində olan Andropovu 1967-ci ildə SSRİ DTK-sına sədr təyin etdi və o da elə həmin ildə Brejnevin tövsiyyəsinə əsasən Brejnevin yerlisi və vaxtilə Moldavada onunla birlikdə müxtəlif vəzifələrdə çalışmış *(buna görə Brejnev kimi o da Ukrain və Moldavan klanlarının üzvü hesab edilən)* Semyon Kuzmiç Sviqunu özünə müavin vəzifəsinə gətirdi. S.M.Sviqunsa bu vaxta qədər Azərbaycan Nazirlər




Soveti yanında DTK-nın sədri vəzifəsində çalışırdı və Heydər Əliyev də onun müavini idi. Sviqun Moskvaya gedən kimi öz yerinə – yəni Azərbaycan DTK-sının sədri vəzifəsinə özünün yaxın dostu və müavini Heydər Əliyevi təyin etdirdi. Bu gözlənilməz xəbərisə Heydər Əliyevə ilk olaraq həyat yoldaşı Zərifə xanım çatdırdı – hansını ki, ona da oftolmoloq iş yoldaşı, Az.SSR MK I katibi Vəli Axundovun həyat yoldaşı Sara xanım çatdırmışdı.

Hələ əks-kəşfiyyat şöbəsində rəhbərliyə başladığı ilk günlərdən Heydər Əliyevin rəhbərlik qarşısında qaldırdığı ilk təşəbbüs bu oldu: II Dünya Müharibəsi dövründə almanlara əsir düşmüş və alman xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa, anti-sovet fəaliyyətinə cəlb olunduğuna, Legon tərkibində Sovet dövləti əleyhinə döyüşlərdə iştirak etdiyinə görə həbs edilmiş Vətənə xəyanət maddəsi ilə ittiham edilib, ən yüksək cəzalara layiq bilinmiş məhbusları həbsdən azad etmək və əks-kəşfiyyat fəaliyyətinə cəlb etmək. Bu, novator ideya Moskvanı maraqlandırdı və H.Əliyev Moskvaya dəvət olunaraq onun bu yeni metodu ətraflı dinlənilib, müzakirə olunandan sonra, planını həyata keçirmək üçün ona hər cür səlahiyyət verildi. İdeyasına Moskvadan hərtərəfli dəstək alandan sonra Heydər Əliyev dərhal bütün həbsxanalarda siyasi motivlərlə həbs olunub cəza çəkəən məhbusların siyahısını əldə etdi və onlarla işə başlanıldı. Onlara təklif olundu ki, ya məhbəs həyatını davam etdirmək, ya Azərbaycan DTK-sı ilə əməkdaşlıq. Demək olar ki hamısı əməkdaşlıq variantını seçdi. Bundan sonra onlara lazımi təlim keçirilərək, sənədləri dəyişdirilərək,

xüsusi tapşırıqla kəşfiyyat desantı kimi Avropanın ən müxtəlif ölkələrinə atıldılar. Hər biri hədəf nöqtəsində müəyyən müddət yaşadıqdan sonra, DTK-da onlara verilmiş təlimata uyğun olaraq müxtəlif bəhanələrlə özlərini yerli polis orqanlarının diqqətinə saldılar. Polisdə isə özlərinin müharibədən sonra SSRİ-yə qayıtmaları və orda başına gələn məsələləri gizlədərək, həyatlarının qalan hissəsini olduğu kimi etiraf etdilər: “Azərbaycan SSR-dənəm, müharibədə Legiona qoşulub, SSRİ-yə qarşı vuruşduğuma görə müharibədən sonra SSRİ-yə qayıtmağa qorxdum, beləcə o vaxtdan qaldım vətənimdən uzaqlarda”. Polis bütün bu məlumatları əldə edəndən sonra bunları öz dövlətinin təhlükəsizlik orqanlarına təhvil verdi və onlar da Azərbaycan DTK-sının proqnozlaşdırdığı kimi, onları əməkdaşlığa cəlb etmək planı qurdu. Plana görə onlar ən müxtəlif üsullarla, o cümlədən sənədlərindəki legionda xidmət etmələri ilə bağlı qeydlərin silinməsi, bunun əvəzində onların həmin dövrdə Şərqi Avropanın müxtəlif regionlarında partizan qoşunları tərkibində almanlara qarşı vuruşmaları barədə saxta sənədlər düzəldilir və ən müxtəlif kanallarla onlar geriyə – Azərbaycana çatdırılır. Onlara şərt qoyulur ki, əgər ora çatandan sonra bizə işləmək fikrindən əl çəksəniz sizin bizdə olan əsl sənədləriniz SSRİ-yə ötürüləcək və sizin ailənizlə birlikdə 20-30 illik Sibirə sürgün edilməniz qaçılmaz olacaq. Bu şantajla onları özlərindən asılı vəziyyətə salaraq Qərb xüsusi xidmət orqanları fərqli üsullarla həmin insanların Azərbaycana geri dönməsinə imkan yaratdı. Və... həmin dövlətlərin kəşfiyyat orqanları onların burada əvvəldən mövcud olan hansı agentləri ilə işləməli olmaları barədə də onlara lazımi təlimat verdilər. Beləliklə Heydər Əliyevin bu unikal kəşfi, ağlagəlməz kreativ metodu sayəsində Azərbaycan SSR-də fəaliyyət

göstərən demək olar ki bütün Qərb dövlətlərinin casus şəbəkəsi ifşa olundu.

Heydər Əliyev bu unikal kəşfinə görə 1954-cü ildə SSRİ rəhbərliyi tərəfindən "Döyüş xidmətlərinə görə" medalı ilə təltif edildi.

Amma bu da hələ son deyildi. Qərb xüsusi xidmət orqanlarının Azərbaycanda fəaliyyət göstərən demək olar ki bütün Casus şəbəkəsi bu yolla ifşa ediləndən sonra Heydər Əliyev yenə Moskvaya müraciət etdi və bu casusların həbs edilməyib, bundan sonra da öz fəaliyyətlərini rahat şəkildə davam etdirə bilmələri üçün Moskvadan icazə istədi. Məsələnin bu hissəsini də anlaya bilməyən SSRİ Baş Kəşfiyyat İdarəsi Heydər Əliyevi Moskvaya dəvət etdi. Heydər Əliyev Moskvaya uçaraq öz kəşfiyyat taktikasını onlara izah etdi: "biz həmin şəxsləri duyuq salmadan, onlar vasitəsilə Qərb kəşfiyyatına daim dezinformasiya ötürə bilərik". Layihəsinə Moskvadan tam dəstək əldə edəndən sonra Heydər Əliyev bütün gücü ilə öz əsl fəaliyyətinə başladı. Beləliklə indiyə qədər yeganə olaraq SSRİ Xüsusi Xidmət orqanları ilə işləmək imkanı olan Heydər Əliyev bundan sonra artıq dünyanın demək olar ki bütün aparıcı dövlətlərinin xüsusi xidmət orqanlarına birbaşa çıxış və onlarla rahat işləmək imkanı əldə etdi. İnformasiya silah deməkdir, onunla kimisə ucaltmaq da, endirmək də olar. Qərbin kəşfiyyat idarələrinə, Azadlıq radiostansiyasına gedən yollar bəlli, SSRİ kimi dəmir zindanın içindən onlara rahat şəkildə istədiyin informasiyanı ötürmək kanalları ortada. Bundan sonra deməli aktiv şəkildə özünün gizli milli siyasətinə ABŞ və digər Qərb ölkələrini də qoşmaq mümkün idi.

Beləliklə, H.Əliyev dayanmadan həmin kanallar vasitəsilə Azərbaycanın müxtəlif sektorlarında rəhbər vəzifədə olan rus, erməni və digər millətlərdən olan məmurlar barədə daxildə kəşfiyyat kanalları vasitəsilə əldə olunmuş kompromat tipli materiallar ötürülməyə başladı. Bu kompromatlarsa cəmisi 1 gün sonra artıq Azadlıq radiosu vasitəsilə bütün dünyaya car çəkilirdi. Bununla əvvəla Qərb dairələrinin buradakı agentlərinə etimad gücləndirildi, ikincisi isə Moskvanın buradakı ən sədaqətli adamları Amerikanın əli ilə oyundan çıxarılırdı. Qərb kəşfiyyat dairələrinə Azərbaycanın milli maraqları filtrindən keçirilmiş informasiya ötürmək siyasətinin nəticəsi o oldu ki, 1950-ci illərin əvvəllərində Azərbaycanın Mərkəzi Komitəsində və müxtəlif nazirliklərində rəhbər vəzifələrdə çalışan şəxslərin böyük əksəriyyəti rus və ya erməni millətindən olduğu halda, 60-cı illərdə bu nisbət artıq birə on qat azaldı. Onların kökünüsə buradan tam kəsmək olmazdı, çünki bu, Moskvanın diqqətinə və qəzəbinə səbəb ola bilərdi. Ona görə elə adamlar saxlanıldı ki, onlar da Azərbaycan xalqına təhlükə törətməyən, neytral insanlar idi.

Heydər Əliyevin qurduğu həmin bu sistemin effekti tək bununla bitmirdi. Lazımsız adamlar barədə səhih məlumatlar ötürdüyünə görə Qərb Xüsusi Xidmət Orqanlarının nəzərində etibarı bir az da artmış həmin agentlər vasitəsilə, eyni zamanda Azərbaycanın milli marağında olan məsələlərlə bağlı ən müxtəlif dezinformasiyalar ötürülürdü. O cümlədən, Azərbaycanda yeni tikilən zavodların, fabriklərin, körpülərin, əhəmiyyətli yaşayış məskənlərinin, neft yataqlarının, digər strateji obyektlərin, o cümlədən müharibə başlasa Azərbaycanın təhlükəsizliyinin qarantı olacaq hərbi bazaların yeri, gücü və s. barədə. Nəticədə, nə zamansa SSRİ-və NATO arasında müharibə

başlamış olsa NATO-nun Azərbaycana atacağı bütün raketlər boşuna getmiş olacaqdı.

Heydər Əliyevin bu fəaliyyəti Moskvanı tam qane edirdi, belə ki, bu üsulla xarici dövlətlərin buradakı demək olar ki, bütün casus şəbəkəsi ifşa olunmuş, nəzarətə götürülmüş və fəaliyyətləri SSRİ tərəfindən idarə olunurdu.

Beləliklə Heydər Əliyevin Moskvanı aldadan bu hiyləgər taktikası nəinki əsl milli hissləri olan böyük qrup insanı SSRİ məhbəslərindən azad etdi, hətta digər milli hissləri güclü olan aktivistləri axtarıb tapıb onları xalqımızın maraqları uğrunda olan işlərə daha təşkilatlanmış formada səfərbər etməyə imkan verdi.

# *VIII fəsil:* Heydər Əliyev Azərbaycan SSR-nin rəhbəri kimi

Moskvada mərkəzi idarəetmə aparatında kadr islahatları tam başa çatandan sonra Brejnev respublikalarda islahatlara start verdi və 1969-cu ildə artıq o vaxta qədər Azərbaycan SSR KP MK-nın I katibi olan – Xruşşovun kadrı Vəli Axundovun yerinə namizədlər axtarılmağa başladı.

Namizədlikləri nəzərdən keçirilən şəxslər sırasında Bakı hərbi dairəsi hava hücumundan müdafiə qüvvələrinin komandanı general-leytenant **Hüseyn Rəsulbəyov**; son 15 ildə MK katibi, respublika Nazirlər Sovetinin keçmiş, Ali Soveti Rəyasət Heyətinin o vaxtkı sədri olan **Məmməd İsgəndərov**; Respublika Nazirlər Sovetinin o vaxtkı sədri **Ənvər Əlixanov**; MK-nın sənaye və tikinti məsələləri üzrə katibi, ixtisasca neftçi olan texnika elmləri doktoru **Əli Əmirov** daha şanslılar sırasında idilər. İclas iştirakçılarından hər biri bunlar barədə bildiyi mənfi və müsbət arqumentləri sadalayır.

Lakin son və qəti fikri Brejnevə öz yaxınlığı ilə seçilən Sviqun bildirir: *"Azərbaycana dərindən bələd olan, o cümlədən bu namizədlərin də hər birinin uşaqlıqdan bəri nə etdiyini, nə düşündüyünü belə əzbər bilən bir şəxs kimi tam əminliklə deyirəm: bu namizədlərin heç biri – uzun müddət DTK sistemində çalışmış, bu sistemdə sıravi leytenant rütbəsindən generala qədər yüksəlmiş mənim orda DTK rəhbəri olduğum vaxtlarda mənim müavinim olan və hazırda da o respublianın DTK rəhbəri olan Heydər Əliyevlə heç müqayisə belə ola bilməzlər. Bunlar hamısı iqtisadçı və ya texnardılarsa, Heydər Əliyev bunların hamısıdır, üstəlik də dövlət aparatı işini içdən*

*bilən, idarəetmənin zəif-güclü tərəflərini hamıdan yaxşı bilən bir insandır”.*

Azərbaycan KP MK-nın 14 iyul tarixli plenumunda Sov.İKP MK katibi İvan Kapitonov 10 illik səmərəli fəaliyyətinə görə Vəli Axundova təşəkkür etdi səhhətinə görə onun başqa işə keçməsi və onun yerinə Heydər Əliyevin Az.SSR KP MK-nın 1-ci katibi təyin olunması barədə Plenum iştirakçılarına məlumat verdi.

Bu vaxtdan etibarən Azərbaycanın bütün sferalarında ciddi quruculuq işləri başladı, yüzlərlə zavod, fabrik tikildi

Dəfələrlə ermənilərin Azərbaycandan torpaq qoparmaq cəhdlərinin qarşısı alındı

“İkiyə bölünmüş Azərbaycan” tezisi Respublika ziyalılarının, yazarlarının əsas devizinə çevrildi. O cümlədən, Cənubi Azərbaycan həsrəti şair, yazıçı, rəssam, memar və digər ədəbiyyat və incəsənət xadimlərinin əsərlərinin əsas mövzusuna çevrildi. Azərbaycan Elmlər Akademiyasında, Yazıçılar ittifaqında və bir sıra digər aidiyyətli qurumlarda Cənubu Azərbaycan şöbəsi, bölməsi, sektoru, kafedrası yaradıldı. Cənubi Azərbaycandan olan siyasi mühacirlərə – yəni H.Əliyevin keçmiş cəbhə yoldaşlarına, məsləkdaşlarına Azərbaycan SSR-da mənzil verildi və aylıq maaş təyin olundu

Vaxtilə pantürkist fəaliyyətinə görə həbs edilib güllələnmiş, Sibirə sürgün edilmiş şair və yazıçıların bəraətləndirilməsi və irsinin öyrənilməsi və geniş təbliği dövrü başladı

Hazırkı dövrdə siyasi motivlərlə Moskva tərəfindən həbs edilmiş və ya repressiyaya, təqibə məruz qalan Azərbaycan

ziyalıları həbsdən və təqibdən azad edildi. Məsələn, Bəxtiyar Vahabzadə, Əbülfəz Elçibəy və b.

Azərbaycanın qədim tarix və mədəniyyətinin öyrənilməsinə ciddi start verildi, Milli ruhu aşılayan çoxlu sayda əsərlər yazıldı, filmlər çəkildi. Məsələn, Dədə Qorqud, Babək, Nəsimi, və s.

Azərbaycanın bütün klassik ədiblərinin, o cümlədən Xatib Təbrizidən, Nizamidən, Xaqanidən, Məhsəti Gəncəvidən tutmuş, Vaqifə, Vidadiyə, və hətta Səməd Vurğuna qədər hər bir parlaq simanın irsinin öyrənilməsi və təbliğinin klassik mərhələsi başladı.

Tarixin keşməkeli dövrlərində xaricdə rəhmətə getmiş, və ya hansısa səbəbdən məzarı qürbətdə olan ədiblərimizin məzarının tapılıb, öz doğma vətəni Azərbaycana köçürülməsi işlərinə start verildi.

O cümlədən Nəsimin məzarının tapılıb, Azərbaycana köçürülməsi üçün 1970-ci ildə Heydər Əliyev şəxsən Suriyaya yola düşdü və Suriya prezidenti Hafiz Əsədlə bu məsələni müzakirə etdi. Hafiz Əsədin göstərişi ilə Hələb şəhərində Nəsimin məzarı axtarılıb tapıldı, Heydər Əliyev onu şəxsən ziyarət edib, məzarın Azərbaycana köçürülməsinə şəxsən Hafiz Əsədin rzılığını aldı. Lakin qayıdandan sonra məzarın SSRİ sərhədlərindən çox uzaqda yerləşən hansısa bir xarici ölkədən SSRİ-yə gətirilməsi kimi mürəkkəb bir işə SSRİ rəhbərliyindən icazə ala bilmir, əlacsız qalaraq Azərbaycan SSR-nin büdcəsi hesabına Hələb şəhərində Nəsiminin məzarını bərpa etdirir, onun irsinin öyrənilməsi və təbliği üçün aidiyyətli qurumlara tapşırıq verilir, əsərləri bir-neçə dilə tərcümə etdirilərək çap etdirir, haqqında film çəkdirir.

Vaxtilə repressiyaya məruz qalıb Sibirə sürgün edilmiş və orada da rəhmətə getmiş Hüseyn Cavidin məzarının tapılıb Azərbaycana qaytarılması üçün xüsusi komissiya yaradılır, Amma bu komissiyanın SSRİ dövlət orqanlarının məxfi arxiv sənədlərinə əli çatmadığı üçün axtarışlar yarımçıq qaldı. Bu işə SSRİ-nin digər orqanlarını da cəlb etmək üçün Heydər Əliyev Sov. İKP MK-nın Baş katibi Leonid İliç Brejnevə və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Yuri Andropova müraciət etdi. Onlar bu işdə lazımi köməkliyi göstərmək üçün Sibir vilayətinin müvafiq orqanlarına xüsusi göstəriş verdilər. Müəyyən edildi ki, Hüseyn Cavid 1941-ci il dekabrın 5-də İrkutsk vilayəti Tayşet rayonunun, Şevçenko kəndindəki qəbiristanlıqda 59 saylı qəbirdə dəfn olunub. Lakin daha bir problem onda yarandı ki, Sibirin sıx meşələrində rayon mərkəzindən 75 km. məsafədə yerləşən adıgedən Şevçenko kəndi çoxdan ləğv olunub, hazırda da orda heç kim yaşamır. Sov. İKP İrkutsk Vilayət Partiya Komitəsi Cavidin məzarının yerinin müəyyən edilməsi üçün Şevçenko kəndini, 1940-cı illərdə burada yerləşən 21 saylı kaloniyanı tanıyan adamların tapılmasına sərancam verdi. Müəyyən edildi ki, 40 min insanın dəfn olunduğu qəbiristanlıq dağılmayıb. Belə olan halda Tayşet rayon prokuroru Yelena Xaritinova gedib qəbirstanlıqda 59 saylı Qəbri tapmaq və onu açmaq üçün sanksiya imzaladı. 30 dərəcə şaxtada uzun illər insan ayağı dəyməmiş təhlükəli meşələrdən keçərək gedib o yeri tapmaq və bu qərarı icra etmək üçün İrkutsk rəhbərliyi xüsusi zirehli avtomobillər ayırdı. Heydər Əliyev, Tayşet rayonunun partiya, hüquq-mühafizə, ədliyyə, səhiyyə orqanlarının məsul işçilərindən ibarət heyətlə birgə 75 km. məsafə qət edərək gedib qəbri tapdılar və onun Azərbaycana köçürülməsi prosedurlarına

başlandı. 1982-ci il oktyabrın 26-da Hüseyn Cavidin nəşi Moskvadan Bakıya, sonra isə Naxçıvana gətirildi və Naxçıvanda evinin qarşısında dəfn olunur

Paralel olaraq Azərbaycanın böyük şairi Məhəmməd Füzulinin məzarının İraqdan Azərbaycana gətirilməsi istiqamətində işlərə başlanıldı. Lakin o dövrdə İrakın SSRİ ilə düşmən mövqedə olması bu planı həyata keçirməyə imkan vermədi.

"Azərbaycan" adının bütün dünyada tanıtdırılması, Azərbaycan millətinin "xəttinin dünya millətlərinin imzası sırasında" olması üşün ən müxtəlif kanallardan istifadə edildi. O cümlədən Azərbaycanı dünyada tanıtmaq üçün İncəsənət xadimləri aktiv şəkildə xarici dövlətlərə qastrol səfərlərinə ezam edildi, Azrbaycan SSR-nın bayrağını beynəlxalq tribunalardan dalğalandırmaq üçün idman sektoru və idmançılar hər cür qayğı ilə əhatə olundu, hansı siyasətin ki, ən uğurlu nümunəsi şahmat üzrə dünya çempionu olmuş Harri Kasparovdur

## *IX fəsil:* Heydər Əliyev millətçi fəaliyyətinə görə Moskvaya çağırılır

Moskvaya Azərbaycandan gedən çoxsaylı şikayət ərizələrini və DTX-nin Moskva bürosunun təqdim etdiyi bir sıra dövləti sirlərin araşdırılması ilə bağlı Moskvada Mərkəzi Komitədə yaradılmış xüsusi komissiyanın iclasında. İclas iştirakçıları və H.Əliyev

**Komissiya sədri:**

— Yoldaş Əliyev, bizim Sizin peşəkarlığınıza, fenomenal şəxsiyyət olmağınıza heç bir şübhəmiz yoxdur. Lakin hər bir fenomenal qabiliyyət – həm də böyük silahdır. Bu silah yalnız bizim əlimizdə olanda, bizim dövlətə işləyəndə, mənfəət gətirəndə yaxşı olur. Uzun müddət Təhlükəsizlik Xidməti orqanlarında çalışmış, hətta bu sahəyə rəhbərlik etmiş bir şəxs kimi, özünüz də çox yaxşı bilirsiz ki, bizim dövlətin yetişdirdiyi, yaratdığı hər hansı silah, düşmən əlinə keçəndə, düşmənə işləyəndə dərhal neytrallaşdırılmalı, məhv edilməlidi ki, bu silahın sirləri düşmənin əlinə keçməsin, bizim əleyhimizə işləməsin.

Sizin fəaliyyətinizlə bağlı da bu aralarda bizim Siyasi Büroya ciddi məlumatlar daxil olub. O cümlədən Sizin fəaliyyətinizdə xarici kəşfiyyat orqanları ilə əlaqə, antisovet-fəaliyyəti hazırlığı, ifrat-millətçilik kimi məsələlərlə bağlı əsaslı şübhələr müəyyən edilib. Bu məsələ ilə bağlı Siyasi Büro müəyyən dinləmələr keçirib, respublikanızdan daxil olan Ərizələri, Sizin son dövrdə Nazirlər Soveti, Partiya Qarşısında, Dövlətin ayrı-ayrı qurumları qarşısında qoyduğunuz tələblər, qaldırdığınız məsələlər ətraflı araşdırılıb.

- Əsaslı şübhələr var ki, Siz respublikanızda Antisovet ideyaları yayan şəxslərə gizli himayədarlıq etməklə, başçılıq etdiyiniz respublikada hansısa anti-Sovet fəaliyyətinə hazırlıq planlaşdırırsınız
- Əsaslı şübhələr var ki, Siz Azərbaycan üçün ayrıca ordu yaratmağı planlaşdırırsınız.
- Əsaslı şübhələr var ki, Siz xarici ölkələrin kəşfiyyat orqanları ilə birbaşa gizli əlaqələr yaratmağa cəhd edirsiniz
- Əsaslı şübhələr müəyyən edilib ki, Siz Azərbaycan Sovet Sosialist respublikasında ayrı-seçkilik edərək milli azlıqlara qarşı ciddi təzyiq siyasəti həyata keçirirsiniz

Heydər Əliyev özünəməxsus ironiyalı təbəssümlə:

— Bu yaxınlarda bizdə bir Əbülfəz Əliyev adlı nə danışdığını bilməyən bir şəxsi həbs etmişdilər. Sonra ətraflı araşdıranda gördülər ki, ağlı yerində olmayan bir adamdı, buraxdılar. Kakraz o da Naxçıvanlı idi. Hər ikimiz Naxçıvanlı olduğumuzdan, və ikimizin də familiyamızın Əliyev olduğuna görə deyəsən siz o Əliyevlə məni dəyişik salmısız. Çünki ona da eyni ittihamlar irəli sürülmüşdü. Mənə bunları Bakıda olanda demiş olsaydız, mən də bunu sizə orda olanda izah edərdim, o Əliyevi yollayardım, Sizin də, mənim də vaxtım boş getməzdi.

**Komissiya sədri:**

— Yoldaş Əliyev, bura zarafat yeri deyil, biz kiminlə hansı söhbəti etdiyimizi çox yaxşı bilirik. Xahiş edirik bizimlə əməkdaşlıq edin, birgə araşdıraq bu məsələləri

— Elə mən də əməkdaşlıq üçün gəlmişəm. Amma görürəm ki, siz hələ də Stalin dövründə tərtib edilmiş və yazıçıya da, pambıqçıya da, müəllimə də irəli sürülən hazır şablon ittihamlardan istifadə edirsiz hələ də. O vaxtdan bu yana zaman dəyişib, yeni metodikalar yaranıb, tamam başqa zamanda yaşayırıq biz. Siz hələ də Stalin dövrünün şablon ittihamlarını dəyişə bilməmisiz hələ? Nə xarici kəşfiyyat, nə anti-Sovet fəaliyyəti? Nə danışırsız Siz?

**Komissiya rəhbəri:**

— Yoldaş Əliyev, bir az konkret məcraya yönəldək söhbətinizi. İcazənizlə biz bir-bir əsas problemləri sadalayaq, o zaman müzakirəmiz daha konkret olacaq.

**H.Əliyev:**

— Bunu bayaqdan etmək gərək idi. Yoxsa ki, xarici kəşfiyyat, anti-sovet fəaliyyəti, daha nə bilim nə. Mən elə gözümü açandan xarici kəşfiyyat orqanları ilə çalışıram, bunların hamısı ilə əməkdaşlığım da lazımi orqanların diqqətindədir. Siz hələ indi ayılmısız ki, mənim xarici kəşfiyyat orqanları ilə nəsə işbirliyim var? Bu gün mənim yeganə qüsurum o ola bilər ki, pambıq öhdəliyini tam yerinə yetirə bilməmişəm, o da hələ sezon bitməyib deyə, pambığın hamısını tədarük edib yekunlaşdıra bilməmişik, tam bitirəndən sonra planı da, öhdəliyi də artıqlaması ilə yerinə yetirə biləcəyik.

**Komissiya sədri:**

— Biz bunları bilirik, yoldaş Əliyev, amma elə məsələlər var ki, onları ayrıca araşdırmalıyıq. Məsələn, Azərbaycanda son dövrlərdə Azərbaycanın 19-cu əsrdə böyük Rusiya İmperiyasının tərkibinə daxil edilməsi əleyhinə xeyli əsərlər

yazılıb. Bu hərəkat hətta o qədər ciddi vüsət alıb ki, Moskva Təhlükəsizlik orqanları hərəkətə başlayıb və həmin şəxslərin bəzilərini ifşa edərək, həbs edib. Siz öz səlahiyyətlərinizi aşaraq, DTK-nın fəaliyyətinə müdaxilə edib onları həbsdən azad etdirmisiniz və ali məktəblərdə, digər yüksək orqanlarda işlə təmin etdirmisiz ki, onlar bu anti-sovet təbliğatlarını daha da ürəklə həyata keçirə bilsinlər, yeni nəslin beynini bu cür çirkin fikirlərlə zəhərləməkdə davam etsinlər. Ehtiyac varsa biz burada bir neçə faktı sizin diqqətinizə çatdıra bilərik, məsələn Baxtiyar Vaqabzada, və b. Belələri sizdə yüzlərlədi.

**Heydər Əliyev:**

— Ha, ha, ha. Elə bu? Mən elə buna görə yoldaş Brejnevə həmişə deyirəm ki, bizim sovet modelimizin ən böyük qüsuru ayrı-ayrı qurumlar arasında rabitənin zəif olmasıdı, bunun da nəticəsində xaotik bir idarəçilik yaranır. Bununla bağlı mən də daim özümün bir-sıra təkliflərimi verirəm yoldaş Brejnevə ki, bu tip xaotik idarəçiliyi necə aradan qaldıraq. Qaldı siz deyən məsələyə, əziz yoldaşlar, bu, partiyamızın, xüsusi xidmət orqanlarımızın bizim qarşımızda qoyduğu bir tapşırıqdı, ən yuxarılarda qəbul olunmuş bir qərardı, Heydər Əliyevin öz şəxsi fikri, qərarı deyil. Hələ yodaş Stalin dövründən bu məsələ respublikaların qarşısına bir tapşırıq kimi qoyuldu ki, vaxtilə 2-yə bölünmüş və bir hissəsi SSRİ-yə düşmən olan ölkələrdə qalan respublikalar bu üsulla bizə düşmən olan ölkələrə qarşı Sovet dövlətimiz ərazi iddiası edə bilsin. O cümlədən bəs Ermənistana niyə demirsiz bunu ki, o da eyni qayda ilə Türkiyəyə qarşı ərazi iddiasındadı? Bizim də şair yazıçılarımızın qarşısına partiya tərəfindən belə bir tapşırıq qoyulub ki, vaxtilə Azərbaycanın İran və Rusiya imperiyaları arasında 2-yə bölünməsini hər 2 xalqın faciəsi kimi təbliğ etsinlər və bu yolla

İran Azərbaycanı vətəndaşlarında bizimlə birləşmək arzusu formalaşdırsınlar. Mən hətta özüm də bəzi faktları verə bilərəm Sizə bu barədə, hansıları ki, yəqin ki sizin qarşınızdakı dosyedə yoxdur: Mənim tapşırığımla Azərbaycan SSR Elmlər Akademiyasının ayrı-ayrı elmi-tədqiqat institutlarında İran Azərbaycanının tarixini, mədəniyyətini, ədəbiyyatını öyrənən şöbələr yaradılıb, Azərbaycanın Yazıçılar İttifaqında İran Ədəbiyyatına dair ayrıca sektor yaradılıb, Naxçıvanda 2 dənə "A" hərfinə oxşar Qonaq Evi tikilib, adı da "Təbriz". Bunun əks-sədası hətta İrana da gedib-çıxıb, o "Qonaq Evi"nin şəkilləri əl-əl gəzir ordakı azərbaycanlılar arasında. 1945-ci ildə İranda Milli hökumət qurmuş, sonradan SSRİ-yə qaçıb gəlmiş siyasi mühacirlərə burda sığınacaq verilib, ev verilib, məvacib təyin edilib. Bunlar hamısı lazımi dövlət orqanlarının əli ilə, onların məlumatlandırılması, razılığ ilə edilmiş dövlət siyasətidir. Mən o siyasətin sadə bir icraçısıyam. Siz bütün bu problemləri lazımi orqanlarla niyə məsləhətləşmirdiz, hansısa bir anonim məktublar əsasında araşdırırsız?

**Komissiya üzvlərindən biri:**

—Yaxşı, müasir yazarlarınızı başa düşdük. Bəs axı siz vaxtilə Sovet dövlətinin pantürkist ideyalar yaydıqlarına görə həbs edib güllələnmə cəzasına məhkum etdiyi ədiblərinizə də bəraət verdirib, ideyalarının aktiv şəkildə yeni nəsil arasında yayılmasına himayədarlıq edirsiniz: məsələn... (əl altındakı vərəqə baxır)... Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşviq, Salman Mümtaz, Tağı Şahbazi Simurq, Yusif Vəzir Çəmənzəminli, Sultan Məcid Qənizadə, Bəkir Çobanzadə, Əli Nazim, Sultan Məcid Qənizadə, Ömər Faiq Nemanzadə və b. kimi pantürkistləri.

**Heydər Əliyev:**

— Bilirsiniz mənim elə bir səlahiyyətim yoxdur ki, SSRİ Ali Məhkəməsinin hökmünü özbaşına dəyişəm. Bu məsələ SSRİ Ali Məhkəmənin səlahiyyətindədir və Ali Məhkəmə də o insanlar barədə öz əvvəlki hökmünü əsassız hesab edərək ləğv edib. Amma axı SSRİ ali məhkəməsi o dediyiniz insanlarla bağlı əvvəl verdiyi hökmü ləğv edəndə burada xüsusi qeyd qoymamışdı ki, bəraət onların özünə aiddir, əsərlərinə yox. Ali məhkəmə onları tam bəraətləndirib, qismən yox. Madam ki bəraət verilmiş yazıçı və şairin əsərlərinə sovet dövlətimiz, onun müvafiq orqanları tərəfindən həbs qoyulmayıbsa, biz hansı əsasla onun əsərlərinə qadağa qoya bilərik? Bu, birbaşa Ali Məhkəmənin bəraət hökmünü tanımamaq, saymamaq anlamına gəlmirmi?

— Yoldaş Əliyev, ümumiyyətcə necə ola bilər ki, Sovet respublikalrının demək olar ki hamısında antisovet, millətçi, əksinqilabi təbliğat və təşviqat fəaliyyət ilə məşğul olan yüzlərlə şəxslər olur, onlar vaxtında aşkar edilib, lazımi cəzasını alır. Məsələn (qarşısındakı vərəqə baxır), Rusiyada Soljinitsin, Andrey Saxarov, Aleksandr Qaliç, Dağıstanda Vazif Meylanov, Natan Şaranski, sizinlə qonşu Gürcüstanda Zviad Qamsaxurdiya, Merab Kostava, Qoldşteyn qardaşları və b. Ermənistanda “Birləşmiş erməni milli partiyası”, Latviyada “Baltik federasiyası”, “Fransız Qruppası”, Ukraynada “Ukrayna xalq cəbhəsi”, “16-lar işi”, Ermənistanda, Gürcüstanda, Moskvada, Ukraynada, Litvada “Helsinski qruplarının” işi və s.. Amma sizdə bir nəfər də olsa bu tip işlərlə bağlı həbs edilənlər yox. Belə çıxmırmı ki, ya sizin hüquq-mühafizə orqanları yaxşı işləmir, onları vaxtında ifşa edib, başqalarına da dərs

olması üçün layiqli cəzasını vermirlər, ya da deyildiyi kimi, siz onlara himayədarlıq edirsiz.

**Heydər Əliyev:**

— Bağışlayın, mən sizin məntiqinizi anlamadım. Bu da pambıq, neft öhdəliyidirmi ki, biz bu sahədə də hər il filan qədər şəxsi tutub həbs etməliyik bu maddələr üzrə? Bizdə belələri yoxdusa, bu bizim günahımız və ya qüsurumuzdu? Pis onda olardı ki, Azərbaycanda anti-sovet fəaliyyəti ilə məşğul olan insanların sayı digər bütün respublikalardan çox olardı. O zaman, bəli, sizin haqqınız çatardı ki, nəyəsə irad bildirəsiz. Siz bu gün mənə irad bildirirsiniz ki, niyə görə sizdə hər şey qaydasındadır? Bu sualın cavabısa çox sadədir. Siz dediyiniz respublikaların bəzi partiya əməkdaşları hələ də stalinizmin təsirindən çıxa bilməyib, onlar hələ də elə bilirlər ki, sovet insanında kommunizm şüurunu ancaq repressiyalar, sürgünlər, güllələnmələrlə yetişdirmək olar. Halbuki bu kimi yanaşmalar marksizm klassiklərinin, ələlxüsus yoldaş Leninin tövsiyyələrinə tamamilə zidd olması partiyamızın XX qurultayında da ətraflı səsləndi və Stalin dövrünün dövlətimiz üçün təhlükəli olan həmin metodlarından qətiyyətlə imtina etmək tövsiyyə olundu. Hələ öz vaxtında yoldaş Lenin deyirdi ki, biz kommunizmə – hər bir vətəndaşın şüurunda kommunizm ideyaları tam bərqərar olanda çata bilərik. Şüurunda yüksək kommunizm ideyalarının bərqərar olduğu insanları yetişdirmək isə Sovet dövlətimizin əsas vəzifələrindən biri olmalıdır. Bu cür yüksək ideyalların daşıyıcısı olan yeni Sovet insanlarının yetişdirilməsinin düzgün yolunu da yoldaş Lenin bizə öyrədirdi: düzgün təlim, təhsil və tərbiyə üsulları ilə. Yoldaş Lenin bu tövsiyyələrinin Stalin dövründə ayaqlar altına atılmasının fəsadlarını biz Böyük Vətən Müharibəsi illərində aydın şəkildə

gördük: İnsanları yoldaş Leninin metodları üzrə tərbiyələndirmək, yetişdirmək əvəzinə hansısa bir düşünülməmiş, yanlış sözünə görə nə qədər ziyalıları, mütəxəssisləri, zabitləri kütləvi məhv etməyin fəsadı idi ki, bu üsullarla düşmənlərimiz bizi qabaqcadan tərkisilah edib, yer-yerdən üstümüzə hücum çəkdi, ona görə də cəmisi 5-6 aya qalib gələ biləcəyimiz bir müharibəni 4 ilə güclə qalib gəldik. Çünki biz hələ müharibədən əvvəl özümüzün bütün əsl iş bilən kadrlarımızı özümüz məhv etmişdik. Və onların bir çoxunun da oğul uşaqları müharibə başlayan kimi düşmən tərəfə keçib, ata-babalarının qisasını aldı bizdən. Bizə dərs olmadı yoldaş Leninin yolundan kənara çıxmadğın bütün bu ağrı-acısı? Biz yenədəmi o yolla getməliyik? Yoldaş Lenin bu yolu göstərmişdi bizə? Göstərmişdisə, partiyamız niyə görə XX qurultayda o yolu yanlış adlandırıb, imtina etdi o yoldan? Biz də məhz buna görə yoldaş Marksın, Engelsin, Leninin ideyalarını fəhlələrə, kəndlilərə, ziyalılara qorxu altında qəbul etdirmirik ki, sonra da Stalin dövründəki kimi dövlətlə vətəndaş arasında uçurum yaranmasın. Biz onlara yüksək kommunizm ideyalarını vaxtında elə düzgün təbliğ edirik ki, onların bunu sevməməkdən özgə yolu qalmır: bədii ədəbiyyatın, filmlərin, gözəl incəsənət nümunələrinin dili ilə. Təbii ki bu dərsi hamı dərhal yüksək səviyyədə qavraya bilməz, dərsindən "2", "3" alanlar da olur. Bu halda biz onu yox, onu öyrədən müəllimləri günahkar bilirik ki, yəni özümüzü ki, deməli dərsi düzgün tədris edə bilməmişik. Belə halda biz onu daha yaxşı partiya müəllimləri ilə təmin edirik, ta ki heç olmasa "4" səviyyəsinə qalxa bilsin. Biz faşist deyilik ki, insanlarımızla faşist kimi rəftar edək?! Biz öz vətəndaşlarımızla öz övladlarımızla davrandığımız kimi rəftar etməliyik, və yeri gələndə qulaqburması ilə çəkindirmək olar pis yoldan.

Biz o birilərə də dərs olsun deyə özünü pis aparan övladlarımızdan 1-2-sini öldürsək, həbs elətdirsək, onda o biri övladlarda nə inam, hansı sevgi olar valideyninə qarşı?

**Komissiya sədri:**

— Qayıdaq əsas məsələyə. Yoldaş Əliyev, siz bir çekist kimi məharətlə söhbəti konkret problemlərdən ən abstrakt və ümumi istiqamətlərə yayındırırsız. Mən söhbətimizi belə ümumi istiqamətlərdən çıxarıb yenidən konkret məcraya yönəltmək istəyirəm. Buna görə fikrimi konkret faktlar üzərində quracam. Məsələn, sizin xeyir-duanızla çəkilmiş "Babək" filmi. Filmdə Babək adlı hansısa bir üsyançı ömrünün sonuna qədər işğalçılarla mübarizə aparır, "1 gün azad yaşamaq, 100 il müstəmləkə altında yaşamaqdan üstündür!" deyir və sonda da onu bu fikirlərinə görə tikə-tikə doğrayanda "Azad Azərbaycan!" deyib ölür. Və yaxud "Nəsimi" adlı bir film: o dövrdə yaşamış hansısa bir demaqoq jurnalist şeir dili ilə əvvəldən sona kimi insanları işğalçılarla mübarizəyə səsləyir. Axırda da dərisini soyurlar, yenə də öz dediyindən əl çəkmir. Siz bütün bunlarla insanlarınıza hansı mesajları ötürmək, gənclərinizin beyninə hansı zəhərli fikirləri yeritmək istəyirdiz, yoldaş Əliyev?

**Heydər Əliyev:**

— Sizin araşdırma və mühakimə üsulunuz məni təəccübləndirir. Siz hansısa 5-ci dərəcəli detalları ümumi kontekstdən ayırıb, sonra başqalarından da bu üsullarla seçib yığdığınız əlaqəsiz detalları sizə sərf edən ardıcıllıqla elə qruplaşdırırsız ki, təki ordan sizin eşitmək istədiyiniz mənalar çıxsın, sonra da bu mənanı qaytarıb bütövlükdə həmin ilkin kontekstə aid edirsiz. Bu cür seçici yanaşma metodu ilə hətta yoldaş Marksın, Engelsin, Leninin əsərlərindən də hətta

sosializmin, kommunizmin əleyhinə kifayət qədər fikirlər tapmaq olar, halbuki ümumi kontekst daxilində baxanda görə bilərdik ki, çıxardığımız həmin nəticələr səhv imiş, kontekst daxilində onlar tamamilə başqa mənada işlənibmiş. Siz niyə görə dediyiniz həmin filmlərin əsas qayəsini, ideyasını bir kənara qoyub, ordakı hansısa 5-ci dərəcəli bir detal əsasında fikir yürüdürsüz? Bayaq sual verdiniz ki, niyə görə sizdə dissidentlər yoxdur? Mən də cavab verdim ki, partiyamızın məramını düzgün anlamayan insanlara biz dahi Lenin ideyalarını Stalin metodu ilə deyil, yoldaş Leninin öz metodu ilə, yəni düzgün təbliğat, təşviqat, düzgün maarifləndirmə üsulları ilə aşılayırıq. Ali düşüncəli yeni Sovet insanlarını biz qorxu ilə, həbslə yox, yüksək sovet mədəniyyətinin, incəsənətinin imkanlarından düzgün istifadə etməklə yetişdiririk. Bax, mən bayaq bu sözləri deyəndə, məhz həmin bu metodları nəzərdə tuturdum. Siz bilirsizmi ki, yoldaş Marksın, Engelsin, Leninin əsas ideyalarını həmin Babək hələ 1000 il əvvəl deyib? Utopik sosializm cəmiyyətini Sen-Simondan, Şarl Furyedən, Robert Ouendən hələ 1000 il əvvəl yaradıb? Onun yaratdığı utopik cəmiyyətdə də icma üzvləri bizim qurmaq istədiyimiz kommunizm cəmiyyətindəki kimi bərabər olub, hər şey ümumi olub, icma üzvləri arasında bərabər bölünüb. Və ya həmin Nəsimi: Bizim marksizm-leninizm klassiklərinin dediyi həmin o “kamil sovet insanı yetişdirmək” ideyasını Nəsimi 5-6 yüz il əvvəl təbliğ edirdi. Biz məhz bu üsullarla Sovet Azərbaycanı insanlarının beyninə, şüuruna marksizmin-leninizmin ali ideyalarını yeridirik. İnsanlarımız anlayır ki, yoldaş Marksın, Engelsin, Leninin dedikləri onlara yad deyil, onların ulu babaları da bu ideyalar uğrunda yaşayıb, çarpışıb-vuruşub, ölüblər, yoldaş Lenin

məhz bizim babalarımızın arzularını gerçəkləşdirib, onların bizə vermək istədiyi həmin ali cəmiyyəti qurmaqda bizə imkan yaradıb. Məsələyə və eləcə də o filmin motivlərinə kompleks yanaşmaq lazımdı, yoldaşlar, hansısa frazanı ümumi kontekstdən ayıraraq, ona ayrıca don geydirməklə yox. Siz həmin filmlərin o boyda nəhəng ideyalarını, məqsədlərini bir kənara qoyub, hansısa bir dəxilsiz detaldan niyə yapışırsınız ki, Babək niyə belə deyib, Nəsimi niyə belə edib? Mən nə bilim niyə elə deyib? O hər 2 şəxs həmçinin islama, Ərəb xilafətinə, Monqol-tatar hücumlarına qarşı vuruşub. Məgər İslama və Monqol-tatarlara qarşı nifrət Rusiya dərsliklərinin də əsas qayəsi deyilmi? Bəs biz insanların şüurunda yoldaş Marksın da düzgün olaraq Opium adlandırdığı dinin qalıqları ilə necə mübarizə aparmalıyıq? Ucdantutma hamını tutub Sibirə sürgün etməklə? Bilirsiz, qurtarmaq lazımdı stalinizmin bütün bu kimi iyrənc qalıqlarından, hər kəs öz içindən, daxilindən başlamalıdı təmizləməyə bu yanlışlıqları. Qayıtmaq lazımdı yoldaş Leninin göstərdiyi mütərəqqi yola, hansı ilə ki biz öz respublikamızda yoldaş Leninin arzuladığı yüksək mənəviyyatlı, ali ideyalların daşıyıcısı olan yeni Sovet insanları yetişdiririk – ədəbiyyatın, incəsənətin, təbliğatın bütün imkanlarından düzgün istifadə etməklə. Nəticəsini özünüz də etiraf etdiz – bizdə qabiliyyətli, zəhmətkeş insanların sayı daha çox, vətən xainlərinin sayı daha azdır.

Yeri gəlmişkən siz bayaqdan bəri deyirsiz ki, Nəsimi də, Babək də – hamısı azərbaycan xalqını işğalçılarla mübarizəyə səsləyib, və guya mən də onların dili ilə xalqımı buna səsləyirəm. Bağışlayın, mən anlaya bilmədim, siz indiki dövrdə işğalçı yerində kimi görürsüz, işğalçı deyəndə kimi nəzərdə tutursuz?!

**Komissiya sədri bir qədər özünü yığışdıraraq:**

— Qayıdaq əsas məsələlərə. Siz müğənniləri xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb edib, mahnı oxumaq pərdəsi altında SSRİ-nin düşməni olan ölkələrə qastrol səfərlərə göndərirsiz. Agentlərin müxtəlif peşə adamları adı altında maskalandırılması ta qədimdən normal bir haldır. İntəhası Siz müğənnilərin repertuarını elə tərtib elətdirirsiz ki, sanki NATO-ya, ABŞ müttəfiqi dövlətlərə şifrələr ötürüsüz ki, biz işğal altındayıq, gəlin bizi azad edin: Bakı ⇾ Azərbaycan ⇾ Azadlıq, Bakı ⇾ Azərbaycan ⇾ Azadlıq. Və bu ardıcıllıqla sona qədər. Siz onların dili ilə nə mesaj ötürmək istəyirsiz SSRİ-nin düşmənlərinə?

— Siz yenə qayıdırsız eyni məsələyə və mən də məcburam bir daha təkrarlayım bayaqkı sualı: Məgər biz işğal altındayıq? Və ya Siz Azərbaycanı işğal altında hesab edirsiz? Mən şəxsən belə hesab etmirəm, görmürəm. Siz belə görürsüz?

**İclas iştirakçılarından biri mövzunu dəyişmək üçün:**

— Yoldaş Əliyev, problem bu ki, Siz həmin müğənnilərə o dövlətlərdə yaşayan köhnə Musavat tör-tökülüntüləri ilə və böyük Vətən Müharibəsi dövründə Sovet dövlətinə qarşı vuruşmuş xainlərlə əlaqələr qurmağı əsas şərt qoymusuz. Buna nə deyə bilərsiz?

**Heydər Əliyev:**

— Əlbəttə ki, belədir. Və onların xaricdə yaratdığı hər bir əlaqə barədə hər bir qastrol səfərindən sonra yuxarı dövlət orqanlarına biz özümüz məlumat veririk. Siz burda yeni nə tapmısız? Xaricdən bizimlə əməkdaşlığa razılıq vermiş şəxsin

keçmişi, indi hansı əqidəyə qulluq etməsi və s. məsələlər Sizin və mənim işim deyil. Bunu artıq lazımi orqanlar araşdırır və qərar verir ki, bu agentə neçənci səviyyəyə qədər etibar etmək olar. Belə çıxır ki, Qərbi Almaniyada kimləsə əməkdaşlıq yaransa və onun keçmiş faşist liderlərindən hansınınsa oğlu, nəvəsi olduğu ortaya çıxarsa, deməli SSRİ DTK-sı onun xidmətindən imtina edir? 25 il DTK strukturlarında çalışmış bir şəxslə bu mövzuda söhbət etməyi planlaşdırmışdızsa, bu iclasa gərək bu sahə üzrə peşəkar kəşfiyyatçıları da dəvət edəydiz. O zaman belə diletant söhbətlər çıxmazdı ortaya.

**Komissiya sədri:**

— Yoldaş Əliyev, biz demirik ki, onların bəzilərinin keçmişi və ya indisi qaranlıqdır, o cümlədən NATO-nun əməkdaşı olduğu, keçmiş Musavatçı və ya Legioner olması üzə çıxır və s. Xeyr. Problem bundan ibarətdir ki, onların elə hamısı istisnasız olaraq belə adamlar olmuş olur. Siz sanki məqsədli olaraq müğənniləri, incəsənət xadimlərini belə adamların ovuna yollayırsız ki, vaxtilə bu ölkədən qaçıb gedib, SSRİ əleyhinə fəaliyyət göstərmiş adamlarla əlaqə yaratsınlar. Məsələn elə sizinlə qonşu Ermənistanın kəşfiyyat orqanları. Onlar Fransadan nə qədər faydalı şəxslərlə bizim kəşfiyyat orqanlarının əməkdaşlığını yaradıblar. Və heç birinin də keçmişi ləkəli deyil, Sovet dövlətinə qarşı vuruşmayıblar, əksinə kommunizm ideyalarını sevən insanlardılar. Sizin əməkdaşların tapdığı əməkdaşlarsa hamısı SSRİ-yə qarşı bu və ya digər formada vuruşmuş və bu gün də vuruşmağa hazır insanlardılar. Bax budu fərq, problem.

**H.Əliyev:**

— Siz tamam məntiqi və əlaqəsi olmayan müqayisələr aparırsız. Məgər o yerlər Azərbaycanın tarixi vətəni olub ki, oralarda hələ 100 il əvvəldən də azərbaycanlılar geniş yayılmış olsun? Hovuza balıq atmışıqsa, tilovumuza da balıq, xərçəng atmışıqsa – xərçəng düşəsidi. Orda olmayan bir başqa canlı necə düşə bilər?! Avropaya azərbaycanlılar 2 dəfə böyük sayda yayılıb, bunlardan da biri Böyük Sovet İnqilabından sonra, bu inqilabı qəbul etməyənlərin nəsli olub, digəri də Böyük Vətən müharibəsi zamanı. İndi oralarda əksəriyyət bunlardısa, əlaqə qurduqlarımızın da əksəriyyəti bunlar olasıdı, başqa kim olacaqdı ki? Ermənilərinsə, əksinə, əsl vətəni oralarda olub, Zaqafqaziyaya 100 ildi gəliblər. Siz qorxun ki, Ermənistan onları yox, onlar Ermənistan agentlərini SSRİ əleyhinə kəşfiyyata cəlb etmiş olarlar. Çünki SSRİ ərazisində onlar özlərini hələ də qonaq hesab edirlər, yaddılar, bunların əsl doğma vətəni elə oralardı. Amma azərbaycanlıların başqa vətəni yox. Onlar dünyanın hər yerində özünü qonaq hesab edir, hər yer onlara yaddır, onların yeganə və əzəli vətəni buradır, harada olsalar da ürəkləri burdadı, bura can atırlar. Ermənilərsə əksinə. Gedib əhali arasında da sorğu keçirə bilərsiz və görərsiz ki, ermənilərin 80-90%-i Avropaya can atır, burdan köçüb ora getmək istəyir. Bizimkilərsə, əksinə, Avropadan Bakıya gəlməyə can atırlar. Oralara gedib düşməkləri də öz keflərindən baş verməyib, 1-ci dəfə Sovet dövlətinin öz daxilində, ikinci dəfə isə xaricdə apardığı müharibələrlə bağlı baş verib. Yəni məcbur olub gediblər. İndi də vətənə qayıtmaq həsrəti ilə yaşayırlar. Siz məndən o sözü almağa çalışırsızsa, mən açıq da deyə bilərəm: bəli, mən onların tapılıb, Azərbaycana, öz doğma yurd yuvalarına

qayıtmaları tərəfdarıyam və bunu istəyirəm. Sovet dövlətinin məlum humanist qərarlarından sonra, bütün keçmiş əksinqilabçılara, müharibə dövründə məcburiyyətdən almanlara işləmiş keçmiş əsirlərə bəraət veriləndən sonra, bu insanlar niyə düşmən gözündə görünməlidilər? Siz hələ də Stalin dövrünün havasından çıxa bilmirsiz, əziz yoldaşlar. Hələ də o düşüncədəsiz ki, Trotskiçilər, Vətən Müharibəsində əsir düşənlər Sibirə sürgün edilməlidilər. Keçdi o dövrlər, yoldaşlar, humanist partiyamız çoxdan həll edib bütün bu problemləri, və hətta bu işlərə görə həbs edilənləri də azad edib, bu ittihamlarla həbs edilib ölənlərə ölümündən sonra bəraət verib. Müharibə dövründə əsir düşüb alman düşərgələrində çalışanlar bu gün hansı maddə üzrə günahkardılar? Siz bəs o statistikanı niyə sadalamırsız ki, istər Avropada, istərsə də İran Azərbaycanından neçə nəfər bu cür şəxs mənim həmin işlərimin sayəsində Sovet kəşfiyyat orqanları ilə əməkdaşlığa başlayıb və dövlətimiz üçün nə qədər əhəmiyyətli informasiyalar ötürüb bizə?

İclas iştirakçılarından biri:

— Xeyr yoldaş Əliyev. Yenə də Siz Sovet dövlətindən çox öz xalqınızın marağından çıxış edərək görmüsüz bu işləri, Sovet dövlətindən də bu işdə öz milli ambisialarınızı həyata keçirmək üçün bir alət kimi istifadə etmisiz. Məsələ burasındadır ki, Siz siyasi karyeraya İranda milli azadlıq hərəkatında iştirakla başlamısız. Sizin gənclik xəyallarınız olub ki, Azər_baycanın o tayda qalan hissəsi İrandan ayrılsın, ya sizin Azərbaycana birləşsin, ya da yeni bir 16-cı respublikası olsun Sovet dövlətinin tərkibində. Sonrası isə allaha təvəkküldü – iki Azərbaycan birlikdə olsa o zaman Sovet dövləti əleyhinə hansısa məkrli plan qurmaq asan olar. 1946-cı ildə həmin plan

alınmadı, sizin arzularınız o vaxt gerçəkləşmədi və ondan bəri bu plan bir gizli sindrom kimi sizin ürəyinizdə qalıb və sizin bütün davranışlarınızda, siyasətinizdə bunu yenidən gerçəkləşdirmək meyli açıq-aşkar özünü büruzə verir. Siz ən müxtəlif siyasi terminlıərlə bunu maskalasaz da, "hər şeyi Sovet dövləti üçün", "partiyamız üçün edirəm" desəz də, bunların altında sizin əsl planlarınız, milli ambisiyalarınız açıq aşkar özünü büruzə verir. İran ərazisindən tapdığınız və əməkdaşlığa cəlb etdiyiniz agentlər də İran Azərbaycanını oradan ayırıb, Sizin Azərbaycana birləşdirmək işində Sovet dövlətindən daha çox Sizin respublikaya, xalqa lazım olan adamlardı. Siz düşünürsüz ki, Sovet dövləti bunlardan istifadə edib, İran Azərbaycanını ordan ayıracaq.

**Heydər Əliyev:**

— Bilirsiz, siz kimisə günahlandıra bilməzsiz ki, vəzifə pilləsində irəli getmək naminə, orden, medal almaq xatirinə, və ya hansısa başqa legitim maraqlardan çıxış edərək daha çox çalışır, plan və öhdəliyi vaxtından əvvəl yerinə yetirir, qəhrəmanlıq edir. Kimsə nəyəsə görə daha yaxşı çalışırsa, öhdəsinə düşən vəzifələri artıqlaması ilə yerinə yetirirsə, siz ona deməlisiz ki, burda sənin də marağın var idi, ona görə hesaba alınmır? Bəli, mənim təbii ki, bütün bu işlərdə öz şəxsi maraqlarım, ambisiyalarım var, yoxsa mən niyə görə bu qədər çalışıram? Mən qarşıma qoyulan vəzifələri uğurla yerinə yetirmək, bütün bunlara görə təltiflər, mükafatlar almaq, vəzifə pullələrində irəliləmək, hətta Sov.İKP MK-in Baş katibi olmaq istəyirəm. Burda nəsə pis bir iş var? Napoleon deyir ki, "General olmaq istəməyən əsgər yaxşı əsgər ola bilməz". Mən bu gün kiçik bir respublikada rəhbər vəzifədəyəm. Dövlətimizin bu cinahını da düşmənlərdən uğurla müdafiə edirəm – bunu

hansı imkanlar hesabına, hansı üsullarla, hansı maraqlardan çıxış edərək və ya tabeçiliyimdə olanları nə ilə, necə maraqlandıraraq həyata keçiririrəmsə, bunun işə dəxli yoxdur. Əsas odur qarşımıza partiya tərəfdən qoyulan tapşırıqlar uğurla icra edilir. Bəli, mən də öz tabeçiliyimdəkiləri bu ideya ilə ruhlandırıram: "Biz Azərbaycanın o tayda qalan hissəsini İran dövlətindən ayırıb, Sovet dövlətinə birləşdirməliyik ki, bir yerdə olaq". Burda pis olan nədir? Mənim hansısa milli və ya şəxsi marağım Sovet dövlətinin maraqları ilə üst üstə düşdüyünə görə siz məni ittiham edə bilməzsiz axı. Bu maraqlar arasında ziddiyyət olsaydı və Sovet dövlətinin maraqlarını öz şəxsi və ya milli maraqlarıma qurban vermiş olsaydım, bəli, onda siz məni nədəsə ittiham edə bilərdiz. Bu məsələdə problem nədir, mən hələ də anlayammıram.

İclas, uzun bir stol ətrafında keçirilirdi, İclas moderatoru (komissiya sədri) baş tərəfdə, Heydər Əliyev həmin stolun orta kreslolardan birində əyləşmişdi. İclas sədri digər iştirakçıların da bir-ikisinin arxa kreslolardan gəlib orta tərəflərdəki boş kreslolarda oturduğunu görüb, o da daha uyğun atmosfer yaratmaq üçün Heydər Əliyevlə nisbətən üzbəüz tərəfdəki kreslolardan birinə keçir.

— Bəli, yoldaş Əliyev – komissiya sədri dedi. Amma bəzən elə ifrata varırsız ki, onda həmin maraqlar arasında ziddiyyət yaranır və siz o qədər öz milli maraqlarınıza aludə olursiz ki, özünüz də bilmədən dövlətimizin digər maraqlarını öz cılız milli maraqlarınıza qurban verirsiz. Məsələn, bəs Sizin Azərbaycanda yaşayan erməniləri azərbaycan dili öyrənməyə məcbur etmənizə nə ad verə bilərsiz? Yenə böyük Leninin dilini öyrənməyi əsas şərt kimi qoysaydınız, deyə bilərdik ki, siz So-

vet ailəsinin ümumi qardaşlıq dilini öyrənməyə həvəsləndirirsiz insanları. Eyni statuslu 14 respublikadan hansısa birinin nümayəndələri məcbur qaydada o birinin dilini niyə öyrənməlidir ki?

**Heydər Əliyev:**

— Əvvəla mən heç nəyi maskalamıram. Sadəcə mən ən müxtəlif maraqları elə uzlaşdırıram ki, burdan hamı mənfəət götürə bilsin, ən fərqli tərəflərin marağı təmin olunsun, İkincisi isə, ermənilərə sadəcə təklif olunub ki, əgər gələcəkdə Azərbaycanın müxtəlif dövlət orqanlarında çalışmaq karyera pilləsində yüksəlmək istəyirsinizsə, həm də bu respublikanın dilini öyrənin. Nə vaxta qədər Azərbaycanda ancaq fəhlə işlərində işləyəcəksiz? Respublikamız onların təhsili üçün məktəblər tikir, müəllimlərinə maaş verir. Yəni onların yetişməsi üçün milyonlarla vəsait xərcləyir. Bütün bunların sonunda da onlar gedib Ermənistanda çalışır, öz bilik və bacarıqları ilə onlara fayda verirsə, bu ədalətlidir? Mən də istəyirəm ki, onlar öz bilik bacarıqları ilə bizim respublikamızın da çiçəklənməsinə öz töhfələrini verə bilsinlər, burda yüksək vəzifə tutub, bizim respublikamızın da sosialist quruculuğunda uğurla iştirak etsinlər. Buna görə Qarabağda Azərbaycan məktəbləri açdırdım, Onların məktəbinə həm də azərbaycan dilinin tədrisini əlavə etdirdim. Çox dil bilməyin kimə nə ziyanı ola bilər? Lazım olmaz, istifadə etməsinlər. Amma biz hamımız bilirik ki, daha bir dil bilməyin heç kimə ziyanı olmaz.

**Komissiya sədri :**

— Siz bir çekist kimi öz maraqlarınızı, o cümlədən milli maraqlarınızı ən müxtəlif maskalar altında, o cümlədən Sovet

İttifaqının dövlət maraqları adı altında elə gözəl maskalayırsız ki, deməyə söz qalmır, amma baxmayaraq ki, biz aydın bilirik ki, heç də hər şey sizin bizə dediyiniz kimi deyil, sizin orda bir başqa da biz görə bilmədiyimiz hansısa gizli maraqlarınız olmasaydı siz bunları etməzdiz, amma hazırkı durumda sizin dəmir məntiqiniz qarşısında bunları qəbul etməkdən başqa yolumuz yoxdur. Amma elə məsələlər olur ki, orda bu maskalar açılır. Məsələn, siz hətta Rusiyadan gəlib orda müvəqqəti xidmət edən hərbçiləri də məcbur edirsiz ki, mütləq azərbaycan dili kursi keçsinlər, və hətta Azərbaycanın ayrıca ordusunu yaratmaq istəyirsiz.

**Heydər Əliyev:**

— Ayrıca Ordu? Bu hardan çıxdı?

— Siz demisiz ki, Sovet Ordusu bizim sərhədlərimizi layiqincə qoruya bilmir, bunu Azərbaycanın öz hərbçiləri etməlidi, buna görə də başqa bir ad altında respublikada faktiki olaraq hərbi məktəb açmısız.

Bir an əlinin altındakı vərəqdə nəsə axtarır

– Aha, Cəmşid Naxçıvanski adına məktəb. Özü də, yoldaşlar, bilirsiz bu Naxçıvanski kimdir? Musavat hökumətində ordu komandiri olmuş bir şəxs!

Siz həmçinin yoldaş Brejnevin Sizə olan rəğbətindən sui-istifadə edərək, gənclərinizi Sovet dövlətinin ən fərqli bölgələrindəki ən ali, ən məxfi hərbi məktəblərində hərbi dərs alıb, respublikaya geri dönməsinə nail olursuz. Sizin planınız nədir? Sovet Ordusundan ayrı bir Ordu yaratmaq? Sadalanan məktəblərin kifayət qədər məzunları gəlib Azərbaycanda xidmət edir, SSRİ dövləti tərəfindən onların qarşısına qoyulan

tələbləri yüksək professionallıqla icra edə bilirlər. Sizin burada "öz sərhədlərimiz olsun", "öz zabitlərimiz olsun" prinsipiniz nə dərəcədə Sovet dövlətinin maraqlarını əks etdirir? Niyə görə bunu sizinlə qonşu olan Gürcüstan. Ermənistan istəmir, amma siz tələb edirsiz?

**Heydər Əliyev:**

— Bilirsiz, siz yenə hansısa detalı ümumi kontekstdən ayırıb, ona öz fikirləşdiyiniz mənanı verməyə çalışırsız. Bəs onda Kuril adalarında xidmət edənlərdən niyə tələb olunur ki, yapon dilini, Kalininqradda xidmət edənlərdən tələb olunur ki, alman və ingilis dillərini bilsinlər? Kəşfiyyatda ümumi qaydadır: sən mütləq kəşfiyyat əməliyyatı apardığın tərəfin dilini bilməlisən. Mən də bizim yox, bizə qarşı kəşfiyyat aparan, bizim ərazimizə soxulmaq istəyən tərəflərin dilini bilməyi tələb edirəm sərhədçilərimizdən, kəşfiyyatçılarımızdan. İntəhası iş elə gətirib ki, Ermənistan və Gürcüstanın sərhədində onların dilində danışan düşmən tərəf yoxdur, amma bizim var. Yəqin bilirsiz ki, Türkiyənin hamısı, İranınsa yarısısı – özü də məhz bizimlə həmsərhəd olan yarısı türkdillidi və buna görə gah balıqçı, gah ticarətçi, gah neftçi adı altında bizə mütəmadi olaraq məhz türkdilli agentlərini yollayırlar. Biz də onların kəşfiyyatçılarının qarşısına gah tumsatan, gah qəzetsatan, gah restoranda ofisiant qiyafəsində öz əks kəşfiyyatçılarımızı çıxarmalıyıq. Rus dilindəmi danışmalıdır İrandan və ya Türkiyədən gələn agentlərlə bizim tumsatan? Eyni qayda ilə biz də məhz İran Azərbaycanı və ya Türkiyə ərazisinə ən müxtəlif adlarla agentlər yollayırıq: müğənni, musiqiçi, elm, ədəbiyyat xadimi və s. qiyafəsində. Oralada isə Azərbaycan dilini hamı bilir, rus dilini isə heç kim. Ona görə deyirəm ki, ya bizim ərazidə çalışan hərbçilər, kəşfiyyatçılar azərbaycan

dilini mükəmməl bilməlidilər, ya da imkan verin bizim öz hərbçilərimiz, kəşfiyyatçılarımız ölkəmizin bu sahədəki ən qabaqcıl məktəblərində həmin bilgilərinə yiyələnsinlər. Çünki qarşımızdakı düşmənlər NATO dövlətinin nəhəng məktəblərində hazırlıq keçib gəlmiş hərbçilər, kəşfiyyatçılardı. Bunun qarşısına mən tək Azərbaycan hərb və ya kəşfiyyat məktəbini bitirən gənclərlə çıxa bilmərəm axı. NATO Sovet dövlətinə bizim cinahdan özünün ən yüksək məktəblərində təhsil görmüş, təlim keçmiş agentləri, hərbçiləri vasitəsilə hücum edirsə, biz də onun qarşısına Sovet dövlətinin ən yüksək məktəblərində hərb elmini, kəşfiyyat elmini öyrənmiş əks kəşfiyyatçılarımızı, hərbçilərimizi çıxarmalıyıq. Və özü də regionun dediyim etnik xüsusiyyətini nəzərə alaraq o şəxslər ya özü azərbaycanlı olmalıdır, ya da hansı millətdən olur olsun, azərbaycan dilini mükəmməl bilməlidir. Bizdən fərqli olaraq Ermənistan və Gürcüstan ermənidilli və gürcüdilli düşmənlə sərhədi yoxdur deyə, onlarda təbii olaraq kəşfiyyatçı və sərhədçilərdən o dilləri bilmək tələb olunmur, əksinə hətta onlarda da sərhəd və kəşfiyyat xidmətində türk dilini bilmək tələb olunur.

Qaldı ki, Respublikada mənim yaratdığım hərbi məktəb, o heç də siz deyən kimi deyil. Yenə də natamam informasiya əsasında nəticə çıxarırsız. O bir internat məktəbi idi. Yəni ata-anası olmayan yetim uşaqların təhsil aldığı bir məktəb idi. Bildiyiniz kimi, bu tip yerlərdə təhsil alan uşaqların 18 yaşı tamam olanda onların həyatı çox acınacaqlı olur. Düzdü, dövlətimiz yenə də onlara qarşı öz qayğısını əsirgəmir, amma istnilən halda onlar internat məktəbindən, onun yataqxanasından çıxarılır, o uşaqlara bir az çox çətin olur cəmiyyətdə baş dolandırmaq, nəticədə onların bir çoxu pis təsirlərə düşür, ya cinayətkarlığa, pis əməllərə meyllənir, bəzənsə hətta anti-sovet

təbliğatının təsiri altında, düşmən agenturası şəbəkəsinin qurbanına çevrililər. Mən bu sahədə vaxtilə çalışdığıma görə, çox yaxşı bilirəm bunları. Belə ki, düşmən kəşfiyyatının təsiri altına düşən vətəndaşlarımızın böyük əksəriyyəti valideynləri, yolgöstərənləri, evi-ailəsi olmayan insanlar olurdu. Bu mənim o vaxtdan olan fikrim idi ki, dövlət, vaxtında cəmiyyətimizin bu cür həssas təbəqələrini müəyyən edib, onlara hər cür sahib çıxsa, dəstək olsa, bu tip problemlə də sonradan həm onlar, həm də dövlətimiz rastlaşmazdı. Onlara lazımi diqqət verilsə, onlar içərisindən hətta böyük sovet dövlətinin gələcək qurucuları, rəhbərləri də çıxa bilər. Onlara vaxtında biz sahib çıxmasaq, daxildə və xaricdə olan düşmənlərimiz, və ya kriminal qruplaşmalar sahib çıxacaq, və onlardan bizə qarşı istifadə edəcək. Bu məsələ həmişə məni narahat edib və 1-ci katib təyin olunandan sonra da yetim uşaqların məktəbi bitirib, həyatın ağuşuna atılandan sonra ac qalmayıb, iş, çörək tapa bilməsi, ev-ailə ola bilməsi üçün mən onları dövlətimizin imkanı çərçivəsində olan bütün qayğılarla əhatələndirməyə çalışmışam. O cümlədən hər bir bu cür məktəbdə uşaqlara dövlət hesabına hansısa peşələr öyrədilməsi barədə xüsusi göstəriş vermişəm ki, bunlardan hansısa birində bənna, hansısa birində rəssamlıq öyrədirlər, və siz deyən həmin məktəbdə də, hərb peşəsini. Siz o birilərə niyə diqqət verməyib, təkcə hərb peşəsi öyrədən məktəbi hədəf almısız? Biz hamımız vahid Sovet ailəsinin bir üzvüyük və bu məktəbləri bitirənlər də böyük Sovet dövlətinin zabitləri olmuş olur, Sovetlər İttifaqının ən fərqli güşələrində dövlətimizə xidmət edəcək

**İclas iştirakçılarından biri:**

— Yoldaş Əliyev, sadəcə köhnə çekist kimi siz adamın fikirlərini əməlli başı dolaşdırırsız. İnsan bilmir ki, həqiqət

hardadı, yalan harada, yaxşı nədir, pis nə? Ziyanlı olan hansıdır, xeyrli olan hansı. Siz çekist məktəbi keçmisiz, ona görə də hər işi elə qurursz ki, hər birini 2-3 yerə yozmaq olur, hansı vaxtda sizin özünüzə hansı tərəfi sərf edirsə o tərəfə də yoza bilirsiz. Amma öz aramızda hər birimiz aydın bilirik ki, hər şey tam olaraq siz dediyiniz kimi deyil, amma bunu qəbul etməməyə də əsasımız yoxdur, çünki siz işi elə görürsüz ki, əl atmağa yer qalmır.

**Heydər Əliyev:**

— Xeyr, mən heç kimin fikirlərini dolaşdırmıram. Siz sadəcə hadisə və faktlara malik olduğunuz natamam informasiya prizmasından baxardınız, mən sizə tam dolğun informasiya verəndən sonra nəzərə almadığınız çox məqamların olduğunu görüb, yenidən baxmalı olursuz öz əvvəlki yanlış mövqeyinizə. Mən yorulmadan partiyamıza, Sovet dövlətimizə sədaqətlə xidmət edirəm. Başqa heç bir təmənna güdmədən. Bütün şəxsi həyatımı, öz istirahətimi atıb, kommunizm quruculuğu yolunda dövlətimizin daha bir addım irəli getməsi üçün gecə-gündüz çalışıram, ölkəmizin, partiyamızın ümumi düşmənləri ilə mwbarizə aparıram. Və ağlıma da gətirmirəm ki, kimlərsə bunu bizim düşmənlərimizin gözü ilə görüb, qiymətləndirər. Mən uzun müddət Qərb kəşfiyyatı ilə işləmişəm. Bilirəm ki, Sovet dövlətində iş bilən, perspektivli kadrları vaxtında ləkələyib aradan götürməklə bağlı onların xüsusi proqramları var ki, bunu da, bizim aramızdakı agentləri vasitəsilə uğurla həyat keçirirlər. Bəzən işin bu tərəfini nəzərdən qaçırıram, onda da bu cür vəziyyətlə rastlaşıram.

Bunu deyib Heydər Əliyev ayağa qalxır, onun ardınca da bütün komissiya üzvləri. Heydər Əliyev həmişə üzündə olan növbətçi təbəssümlə onlarla sağollaşmadan öncə:

— Bilirsiz, bayaq çekist məktəbi bitirməkdən danışdız. Əlavə edim ki, mən çekist məktəbini yoldaş Stalinin dövründə bitirmişəm, Stalin məktəbi keçmişəm, müharibə illərində birbaşa ameriaka-ingilis-alman kəşfiyyatı ilə açıq mübarizə təcrübəsi keçmişəm və ondan sonra da uzun illər Sovet dövlətinin İran cinahında xarici kəşfiyyatla mübarizə işinə birbaşa rəhbərlik etmişəm. Sadəcə demək istədim ki, mən siyasət meydanına yoldaş Xruşşov dövründə 5-6 aylıq partiya məktəbini bitirib gələnlərdən deyiləm. Bunu nəzərdən qaçırmayasız.

Əksəriyyəti Xruşov dövründən vəzifəyə və siyasətə gəlmiş komissiaya üzvləri bu sözdən rəng alıb rəng verə-verə ona əl uzadıb, salollaşdılar. H.Əliyev bayıra çıxandan sonra Komissiya sədri əməkdaşlardan birinə:

— Sən niyə susdun, sən ki, o dövrlərdə aparatda işləmişdin. Bildirəydin ki bizlərdən də var o vaxt yoldaş Stalinlə çiyin-çiyinə çalışan. Bilsin ki, tək o deyilmiş.

— Siz nə danışırsız, mən adi sürücü olmuşam o vaxt, bunu o da bilir. Heç olmasa yoldaş İvanova deyin, azdan-çoxdan həmin vaxtlar aparat işçisi o olub.

**İvanov:**

— Mənim adımı belə cəncəlli işlərdə hallandırmayın, xahiş edirəm. Mən hara, Stalin hara? Mənim şəxsi işimdə də yazılıb ki, mən həmin dövrlərdə Saratov icraiyyə komitəsində adi dəftərxana işçisi olmuşam, heç institutu da bitirməmişdim

onda. Mənim stalinizmə nə bağlılığım? Heç olmasa yoldaş Qnatyukun bu işlərə nəsə aidiyyəti var, o kəşfiyyatda çalışıb nə vaxtsa, nəsə bilir, söz deyə bilər əks-kəşfiyyat işi ilə bağlı.

Qnatyuk nəsə demək istərkən **komissiya sədri:**

— O da ki, bəllidi, Finlandiya cəbhəsində kəşfiyyat batolyonunda rabitəçi işləyib, o da ki, yoldaş Xruşşovun dövründə, daha bu kişi kimi o boyda Dünya Müharibəsi dövründə dünyanın neçə ölkəsində Amerika, İngiltərə, Almaniya kəşfiyyatı ilə ilə baş-başa gəlib, neçəsini də tutub ölkəyə gətirməyib. Nə isə, bu məsələni uzatmayaq, iclasımızı yekunlaşdıraq, protokolda da elə bilirəm yaza bilərik ki, *"yerlərdən müəyyən şikayət ərizələri daxil olmuşdu, komissiyamız Azərbaycan SSR-yə dair son 5 ilin arxiv materiallarını ətraflı öyrənməklə, Azərbaycana gizli göndərilmiş nümayəndələrin hesabatlarını ətraflı araşdırmaqla, yoldaş Əliyevin də fikirlərini dinləməklə, həmçinin həmin şikayət ərizələrinin böyük əksəriyyətinin həmişəki kimi anonim olmasını, və ya Azərbaycanın yerli erməni icmasına məxsus olduğunu, yəni qərəzli olduğunu nəzərə alaraq komissiya bu qərara gəldi ki, Şikayətlər əsassızdır"*. İclasın protokolunu bu cür tərtib edib, yoldaş Brejnevə də bu cür məruzə edə bilərikmi?

Komissiya üzvləri yekdilliklə qərara razılıqlarını bildirəndən sonra bir komissiya üzvü:

— Düzdür, hamımız razılıq verdik, amma açığını deyim ki, mən axıra qədər də anlaya bilmədim ki, bu insan yoldaş Stalinin tərəfdarıdır, ya əleyhdarı; yoldaş Leninin ideyalarını özünə bir həyat proqramı bilir, yoxsa yoldaş Leninin kitablarını yaxşı-yaxşı öyrənib ki, bu tip məqamlarda opponentlərini yoldaş Lenindən gətirdiyi sitatlarla susdura bilsin; Ölkəmizdə

kommunizm quruculuğu işinə həqiqətənmi öz respublikasının bütün resurslarını ürəklə səfərbər edir, yoxsa öz millətinin, xalqının problemlərinin həlli üçün böyük Sovet dövlətinin imkanlarından bir alət kimi istifadə edir. Ümumiyyətlə axıra kimi anlamadım ki, bu insan partiya üçün çalışır, ya öz milləti üçün, Sovet dövlətini sevir, yoxsa ona nifrət edir?

İclas iştirakçıları gülüşür. Onlardan biri replika ilə:

— Narahat olmayın, elə hamımız o vəziyyətdəyik.

Heydər Əliyev Kremli tərk edir və bayırda onu gözləyən avtomobilə yaxınlaşır. Sürücü həyəcanla maşından düşüb gəlib qapını açır, əyləşəndən sonra sürücü tez-tələsik:

— Necə oldu, yoldaş, Əliyev, bayaqdan ürəyim partlayır, dedim yəqin gəlməyəcəksiz

— Elə əvvəldən dediyim kimi – yenə də milli məsələlərə görə. Rəşad həkimin işlədiyi xəstəxana yadında qalıb? Çox narahatdı ürəyim, sür ora, qoy bir az dərman-zad yazsın, yoxsa Bakıya uçammayacam deyəsən.

# *X fəsil:* 1977-ci ildə Moskva tərəfindən Dağlıq Qarabağın Ermənistana verilməsi qərarına qarşı Heydər Əliyevin mübarizəsi

## 1. Həmin Qərarın Bakıda Heydər Əliyevin bağında Azərbaycanın bir sıra rəsmi dövlət xadimləri ilə müzakirəsi

1977-ci il. Zaqulba, Heydər Əliyevin bağı. İştirakçılar: Heydər Əliyev *(Azərbaycan SSR KP MK-nın I katibi)*, Ramiz Məmmədzadə *(Az. SSR KP MK-nın ideoloji işlər üzrə katibi: 1976-1978. Heydər Əliyev DTK-nın sədri olduğu illərdə DTK-nın şöbə müdiri olub. Podpolkovnik)*, Əli İbrahimov *(Nazirlər Sovetinin sədri: 1970-1981. H.Əliyev onu bu vəzifəyə DTK sistemindən gətirib – 40-cı illərdə hətta Moskva DTK-sında işləyib)*, Arif Heydərov *(Daxili İşlər naziri: 1975-1978. 60-cı illərdə SSRİ kəşfiyyatının Türkiyədə rezidenti. H.Əliyev 1-ci katib təyin ediləndən sonra onu yanına gətirməkdən ötrü xüsusi olaraq Moskvaya uçub və onun Türkiyədən geri çağrılmasını Andropovdan şəxsən xahiş edib. 1978-ci ildə öz kabinetində erməni terrorunun qurbanı olub)*, Tahirə Tahirova *(Az. SSR Xarici İşlər naziri: 1959-1983).*

**Heydər Əliyev:**

— Anlayırsızmı ki, bu məsələnin Komissiyanın iclasına çıxarılması özü artıq işin nəzarətdən çıxmasıdır və bu məsələni ora qədər aparan kəslər, demək ki, orda da hər şeyi qabaqcadan hazırlayıblar ki, qələbələrinə arxayındılar

**Ramiz Məmmədzadə:**

— Bəlkə Ali Sovetin təcili iclasını çağıraq və iclasın etiraz qərarını yollayaq onlara?

**H.Əliyev:**

— Əli, Ali Sovet nəyə etiraz edəcək? Ortada hələ heç bir qərar yoxdur ki, biz ona etirazımızı bildirək. Üstəlik də onlar neçə aylar əvvəldən işləyib, ora minlərlə Qarabağ sakininin adından məktub yollayıblar. Komissiya sadə vətəndaşların kollektiv və fərdi ərizələrini əsas götürəcək, bizim hökumətin fikirlərini yox. Biz etsək, sabah Ermənistan da öz hökuməti və Ali Soveti adından əks qərar qoyacaq ortaya, bu elə də, çətin bir iş deyil

**Tahirə Tahirova:**

— Yoldaş Stalinin də vaxtında ermənilər bu məsələni qaldıranda, yoldaş Bağırov yoldaş G.Malenkova yazdığı məktubda bildirmişdi ki, buyurun, biz Qərarınıza etiraz etmirik. Amma madam ki, etnik tərkibinə görə Qarabağın Ermənistana birləşdirilməsini məqsədəuyğun hesab edirsiz, o halda eyni standartı Azərbaycan üçün də tətbiq edib, Ermənistanın, Gürcüstanın və Dağıstanın etnik azərbaycanlılar yaşayan bölgələri də Azərbaycana birləşdirilsin. Bununla da həmin məsələ qapanmışdı. Yoldaş Brejnev stalinpərəstdi, bəlkə onun qərarı ona psixoloji müsbət təsir edər.

**H.Əliyev:**

— Məsələ bundadı ki, yoldaş Brejnev stalinpərəst olsa da, o komissiyada o özü iştirak eləmir heç vaxt. Bütün səlahiyyətləri verib Panomoryova[2], o da qatı antistalinçidi. Stalin dövründə hər nə qərar verillmişdisə, hamısını tərsinə dəyişir.

[2] Boris Nikolayeviç Ponomoryov. Akademik, Sosialist əməyi qəhrəmanı (1975), SSRİ Ali Sovetin Deputatı (1958-1989), Sov.KP MK Siyasi bürosunun üzvü (1972—1986), 1973-cü ildən SSRİ Konstitusiya islahatları üzrə İşçi qrupun rəhbəri

Yaxşı da olsa, pis də olsa mütləq onun verdiyi qərarların əksi olmalıdı yeni qərar – budu Panamoryovun novatorluğu. İndi bilsə ki, bu məsələ ilə bağlı vaxtilə Stalin belə fikirdə olub, birmənalı olaraq ona əks qərar verəcək – hətta məsələ bizim xeyrimizə olsa da. Üstəlik də o, Ali Sovetə Gürcüstandan seçilib, orda da ermənilər ona eninə-uzununa yarınıb seçki vaxtı, vəkillik edib, ələ alıb. Vəziyyət budu.

**Əli İbrahimov:**

— Bəlkə yoldaş Brejnevin özünə deyəsiz?

**H.Əliyev:**

— Nə deyim ona? Deyəcək ki, sən özündən arxayınsansa niyə görə qorxursan işin komissiyaya çıxmasından? Qoy komissiya araşdırsın, nə arqumentlərin varsa ver onlara. Bəlkə doğrudan da SSRİ-nin dövlət maraqları üçün o yerin Ermənistana verilməsi daha məqsədəuyğundu?

**Tahirə Tahirova:**

— Yeri gəlmişkən, o komissiyada axı bizim dostlarımız da var. O vaxt bizim Kondisioner zavodunun layihəsini Moskvada Nazirlər Kabinetindən keçirən, sonradan da onun təhvil-təslimində iştirak edən Lvov və Siderenko da indi bu komissiyadadılar.

**H.Əliyev:**

— Tahirə, davanın kökü tamam başqadı. Əli bilir, dava Bərgüşad elektrostansiyasının davasıdı. Neçə ildi ermənilər Bərgüşad çayının üstündə Şamkəndi Elektrostansiyasını tikirdilər ki, ordan Qarabağa elektrik verəcəklər. Mən Mərkəzi Komitəyə gələn kimi Ermənisranın Qarabağ üzərində hakimiyyətini yavaş yavaş azaltmaq üçün neçə-neçə bu cür işin qabağını aldım. Axırıncı da bu qalmışdı, onun da əvəzinə təcili olaraq

Sərsəng elektrostansiyasını tikməklə aldım. Bunlar bir də onda ayıldı ki, biz keçən il vaxtından da əvvəl Sərsəngi istismara buraxdıq. Əli bilir, ona da tapşırdım ki, get özün otur orda gecə gündüz işləyin, Qarabağı tam elektrikləşdirin və hamısı da Sərsəngdən getsin. İndi bunlar da Bərgüşadı bu il təhvil verməlidi. Dirəşib qalıblar – kimə lazımdı oranın enerjisi? Qarabağ üçün nəzərdə tutulmuşdu, onu da biz onlardan əvvəl təmin etdik. Özləri üçün də o zonada Bərgüşad üzərində bundan əvvəldən bir başqa elektrostansiyaları var idi. İndi mənə yuxarıdan deyirlər sən Sərsəngin enerjisini yönəlt Yevlax, Zərdab tərəfə, imkan ver onlar versin Qarabağa. Deyirəm, bura baxın, bəs onda mən Mingəçevirin enerjisini hara verim? Elə oraları elektriklə təmin etmək üçün tikilib daaa Mingəçevir? Bax imenni buna görə bunlar gedib altdan-altdan iş görüb ki, bütövlükdə Qarabağı bizdən ayırıb onlara versinlər ki, Moskvanın və özlərinin səhvini ört-basdır etsinlər, Moskvanın Nazirlər Soveti də o elektrostansinın tikilişinə qoyduğu vəsaitin özünü doğrultduğunu deyə bilısin, yoxsa o boyda pul batır, o elektrostansiya da lazımsız beton yığnağına cevrilir. Problem bax belədi.

**Əli İbrahimov:**

— Özü də onların afyorluğuna bax, Qarabağa elektriki öz respublikalarındakı əhaliyə satdıqlarının yarı qiymətinə satmağı planlaşdırırdılar. İndi də deyirlər ki, Siz Qarabağ ermənilərinə qəsdən baha verirsiz elektriki, marağınız nə idi ki, Ermənistanın ucuz verməsinə imkan vermirsiz?

**Tahirə Tahirova:**

— Onlarda keçən il bir başqa elektrostansiyanın da açılışı oldu – Metsamorda, atom elektrostansiyası. Bapbalaca respublika bu qədər enerjini neyləyir? Qosplan bunlara icazə verəndə,

bilmirdi ki, axırda da bu cür problem yaranacaq? İstər əhalisi, istər ərazisi, və istərsə də sənayesi onlardan qat-qat artıq olan, yəni enerjiyə daha çox tələbatı olan biz, ən müasir elektrostansiyaları aparıb onlarda tikirlər. Gedib indi də istehlakçı tapsın özləri, bizim problem deyil axı bu.

**Heydər Əliyev:**

— Tahirə, o Metsamoru hətta əvvəldən bizə planlamış olsaydılar və mən Mərkəzi Komitəyə gəlincə burda inşasına başlamış olsaydılar da belə, mən gələn kimi dərhal onu dayandıracaqdım. Onun nə zibil olduğunu mən çox yaxşı bilirəm. Moskva onu özünün NATO ilə sərhədində bir növ silah kimi inşa edib ki, sabah, Allah etməmiş müharibə olsa, onu partlatmaqla, NATO-nun Türkiyə cinahını Xirosimanın gününə salsın. Türkiyə sərhədinin düz 16 kilometrliyindədi o. Hərçənd ki, SSRİ-nin bu məcburi addımı ilə ondan sonra bütün Ermənistanın da külü göyə sovrulmuş olasıdır, amma ki, küləyin istiqamətini düzgün seçməklə Türkiyəyə daha artıq ziyan vura biləcəklərini planlaşdırmışdı Sovet rəhbərləri. Burda nüvə bazası yaratmaq olmur, çünki buna cavab olaraq NATO da gətirib SSRİ-nin düz qulağının dibində öz nüvə bazasını qurasıdır. Amma Elektrostansiya adı altında maskalanmış bazasını qurmaqla, sabah müharibə başlasa, təyinatını dəyişib NATO-nun bu cinahını tam blok vəziyyətinə sala bilirdilər. Şükr ki, Naxçıvandan da 70-80 km. uzaqdı.

**Arif Heydərov:**

— Bəlkə biz Sərsəngi qurban verək. Moskvada bu işə aidiyyətli şəxslərlə, elə Ponomoryovun özü ilə danışıb deyək ki, Sərsəngə qoyulan vəsaitin özünü doğrultmadığını nə iləsə əsaslandırsınlar, silsinlər, biz onu təkcə su anbarı kimi istifadə edək.

**H.Əliyev:**

— Bilirsən, söhbət burda elektrikdən, elektrostansiyadan getmir eee. Qarabağın enerji təchizatı onlardan asılı vəziyyətə düşsə, oranın montyoruna qədər bütün kadrları Ermənistandan təyin ediləcək, bütün dövlət orqanlarına kefləri istəyəndə girib istədikləri aparatı quraşdıracaqlar ki, sayğaca əlavələr quraşdırırıq. Onsuz da oranın idarəçiliyini 50% ələ keçiriblər. Bundan sonra olur 70%. Yəni Dağlıq Qarabağ kağız üzərində, formal olaraq bizim balansımızda qalmış olur, onu da gec-tez bir başqa bəhanə ilə əlimizdən alasıdılar sonrakı mərhələdə. Mən buna görə əhalinin boğazından kəsib, gecəmi gündüzümə qatıb tikdim o Sərsəngi ki, onların arzusu ürəyində qalsın. Sabah da onu bizdən qopartmaq istəsələr, görsünlər ki, bütün infrastruktur təzədən qurulmalıdı. Buna da milyonlarla rubl vəsait lazımdı, kimsə də buna qol qoymayacaq. İndi deyim ki səhv eləmişəm və axırıcı açarları da öz əlimlə verim onların əlinə?

**Ramiz Məmmədzadə:**

— Belə çıxır ki, doğrudan da düz formulə ediblər problemi: İqtisadi rentabellik baxımından Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi daha məqsədəuyğundur. Məsələ komissiyaya da çıxanda, vəziyyət məhz bu cür görünəcək.

**H.Əliyev:**

— Bəli! Üstəlik də Brejnev Ponomoryovun sözünə, əğstafürullah, hətta bir allah kəlamı kimi inanır. Onun çıxardığı qərar – Ali Sovetdən dərhal keçəcək

Ortaya qısa sükut çökür. Nəhayət Heydər Əliyev stolun yanında daim aktiv vəziyyətdə olan telefon aparatına əl atır:

— Sevil, rəfiqənə de, yoldaş Brejnevlə məni görüşdürsün. Özü də, de ki, təcili məsələdi.

Telefonun o başından səs gəlir:

— Baş üstə yoldaş Əliyev

**Tahirə Tahirova (bir az ironiya ilə):**

— Rəfiqədilər?

**Əli İbrahimov:**

— Onun əri Çexiya səfirliyində işləyir, ona görə yaxşı Dublyonkalar gətirir, ən yaxşı müştərilərindən biri də bizim Sevadı. Hər təzə mal gətirsə, birinci buna xəbər edir.

**Tahirə Tahirova:**

— Hər ay təzə dublyonkaya pul hardandı bunda?

**H.Əliyev gülümsəyərək:**

— Yoldaş Vitaliy Serqeyeviçin (o vaxt Az. DTK-nın sədri – C.M.) canı sağ olsun, öz büdcəsindən ödəyir (gülür)

**Tahirə Tahirova bir qədər çaşqın baxışlarla:**

— Aha, anladım, yəni özümüzü sığortalamaq üçün alış-verişi kitaba salmışıq, amma bilə-bilə ki, Moskva DTK-si bu işin dalıyca getməyə bizə icazə verməyəcək, boş bir iş kimi qalacaq kitabda". Bir qədər düşünərək – "elədisə bəs onda ümumiyyətcə o boş bir işə getməyə nə hacət? O dublyonkaları mənasız yerə almaq nəyə gərək?" Və bir az da qısaca duşunəndən sonra: – "Yəqin məhz elə bu rəfiqəlik məsələsinə görə"

**H.Əliyev:**

— Mənim qardaşım həmişə deyirdi ki, harada işə düzəldin, ilk növbədə müdirin katibəsi ilə və bir də sürücüsü ilə yaxşı münasibət yarat, onda bütün işlərin qaydasında gedəcək. Çünki onlar hər ikisi müdirin görən gözü, eşidən qulağıdı.

İndi bu işdə də Allaha təvəkkül, gedincə görüm yol boyu ağlıma hansı ideyalar gəlir, bu saat çox çaşqınam, birigün komissiyanın iclasıdı, sabah görüşüb bir iş görə bilməsəm, gecikdik.

Bu an telefon zəng çalır:

— Yoldaş Əliyev Yulya məruzə etdi rəhbərliyə, və təcili olduğunu da dedi. İndi zəng etdi ki, yoldaş Brejnev sabah saat 4 üçün Sizi gözləyir.

**H.Əliyev sevincək görkəm alaraq:**

— Oldu, qızım, çox sağ ol.

Və bir az dərindən nəfəs alaraq.

— Allah bizimlədi.

## 2. Həmin qərarının Heydər Əliyevin Moskvada Brejnevlə müzakirəsi

MOSKVA, Kreml, Sov. İKP. MK-nın binası, Baş katib Leonid İliç Brejnevin şəxsi kabineti. Heydər Əliyev və L.İ.Brejnev

**L.İ.Brejnev:**

— Bilirsiz yoldaş Əliyev, Siz yoldaş Bağırovdan, Stalindən, Malenkovdan da sitat gətirdiz ki, o hesabla gərək Ermənistanın da, Gürcüstanın da, Dərbəndin də hansısa hissələri Azərbaycana birləşdirilsin, yoldaş Stalin də tək bu məntiqə görə üstündən xətt çəkib bu planın. Mən də özlüyümdə belə hesab edirəm ki, indi də həmin cür sonunclanacaq bu məsələ, sadəcə formallıq xatirinə indi yəqin çıxarırlar komissiyaya ki, birdəfəlik bu iş daha yuxarıda rəsmi formada araşdırılıb sənədləşdirilsin.

**H.Əliyev:**

— Yoldaş Brejnev, iş təkcə bu qaydada olsaydı, mən özüm də sevinərdim. Niyə bəs bizdən gizli aparılırdı bu məsələ indiyə kimi? Dərd ondadı ki, o komissiyanın bəzi üzvləri bizim hər yeni tikintimiz, böyük zavodlarımızın, fabriklərimizin açılışında dərhal gəlirdilər Azərbaycana ki, bizə də nəsə verin, gedib Moskvadan bu zavodun fəaliyyətinə icazə alaq. Kondisioner zavod tikdik. Məni neçə müddət süründürdülər ki, Özbəkistan da o layihəyə iddialıdı, hansınız çox rüşvət versəz, ona salacağıq bu zavodu. Məni başa düşürsüz? Məni siz təyin etmisiz bura, ona görə də açıq danışacam sizinlə, mən də məcbur olub nə lazımdı verdim onlara. O saat hər şey yoluna düşdü, Moskvadan mühəndislərə qədər yolladılar bunu burda

tikmək üçün. Zavod tamamlanıb hazır oldu. Yenə eyni adamlar gəldi ki, yoldaş Brejnevdən burada hər şeyin qaydasında olduğuna əmin olması üçün, zavodun fəaliyyətinə icazə almaq üçün nəsə verməlisiz. Məcbur olub verdim, fəaliyyətə başlamasına icazə verdilər. Daha neçə dənə bu cür işimiz oldu. Getdikcə baxdım ki, mən hardan alıb verməliyəm bunlara? Mən Sovet xalqı, dövləti üçün iş görürəm, bina tikirəm, xəstəxana tikirəm, yol çəkdirirəm. Mən buna görə niyə kiməsə rüşvət verməliyəm? Artıq keçən ildən başlayaraq imtina elədim kiməsə nəsə verməkdən. Mən özüm üçün tikirəm bunu? Mən bu gün varam, sabah yox. Bunlar Sovet dövləti üçün, Sovet xalqı üçün qalacaq. Başıma olmazın oyununu açmağa başladılar ondan sonra. Keçən il Sərsəng elektrostansiyasını vaxtından 1 il əvvəl tikib başa çatdırdıq. Gəldilər ki, nə verirsən onun açılışına icazə verək? Moskvaya nəsə çatmalıdı ki, təsdiqləsinlər. Dedim, bura baxın, siz nə çatdırsaz da, çatdırmasaz da, bu iş artıq bitib, Sovet dövlətinin bu qədər vəsaiti xərclənib bura. Mən bunu qaytarıb sökəsi deyiləm ki? İstəsəz təhvil alın, istəsəz yox. Dedilər, onda, yaxşı, özünüz baxın. Gedəndən bir müddət sonra SSRİ Maliyyə nazirliyindən tutmuş prokurorluğuna qədər hamısı tökülüşdü Azərbaycana ki, bunun tikilintisi zamanı smetada nəzərdə tutulan qədər sement, qum, material sərf olunubmu bura? Nooldu axırı? Məlum oldu ki, o boyda tikintidən 3-4 prorab, 2-3 fəhlə cəmisi 20-30 torba sement oğurlayıb satıb. Tutub basdılar içəriyə. Bəs əvvəl rüşvət verən vaxt niyə belə yoxlamaya gəlmirdilər? Ermənistan da bu yaxınlarda Elektrostansiya tikib. Onu niyə bu cür yoxlamırlar? Əksinə, mənə təklif edirlər ki, onun enerjisini dövlətin müəyyən etdiyi tarifdən qat-qat aşağı qiymətə alım Azər-

baycan üçün. Deyirlər sənədləşmələrdə yarı qiymət göstəriləcək, amma öz aramızda razılığa gələrik ki, realda hansı qiymətlə hesablaşacağıq. Anlayırsız bu nə deməkdi? Gedib bunu niyə araşdıran yoxdur ki, siz öz əhalinizə baha satıb, qonşu respublikaya nə maddi marağa görə yarı qiymətə satırsız? Mən dedim belə maxinasiyada iştirak edə bilmərəm. Mən düz yolu qoyub əyri yolla niyə gedim? Özümüzdə çaylar azdımı ki, mən dolaşıq sxemlər üzrə kimlərinsə çirkli pul yuması oyununa özümü şərik edim? Başladılar mənə ən yuxarı dairələrdən hər cür təzyiqlərə. Onlardan biri də bu. Üstəlik də, neçə ildi bizim onlarla layihəmizə məhz rüşvətə görə əngəl törədən şəxslər 5-6 ay əvvəl Ermənistandakı bu korrupsiya iyi gələn elektrostansiyanın işini yoxlamağa getmişdilər. Məhz ordan qayıdandan sonra yer yerdən başlandı mənə xəbər gəlməyə ki, elektriki heç yerdən yox, yarı qiymətə bunlardan almalısan, yoxsa sənə qarşı ən sərt təzyiqə başlayacağıq. Hələ bu bir yana dursun, başlayıblar başqa-başqa yollara əl atmağa. Gəlib ilişiblər mənə ki, Heydər Əliyev orda millətçiliklə məşğul olur, 19-cu əsrdə Azərbaycanın Rusiyaya birləşdirilməsi əleyhinə kitablar yazanları biz həbs edirik, Heydər Əliyev onları həbsdən buraxdırtdırır. Mən başa sala bilmirəm ki, bu məsələ SSRİ-yə qarşı yox, İrana qarşı yönəlmiş bir siyasətdi və hətta yoldaş Stalin dövründən tapşırıq verilmişdi ki, Ermənistan bu yolla Türkiyəyə qarşı, Azərbaycan İrana qarşı ərazi iddiaları etsin. Deyirlər o dedikləriniz Stalinin qərarları idi, partiyanın yox. Deyə bilmirəm ki, məhz mənim həmin işlərimin nəticəsində Azərbaycan yazıçılarının İran ədəbi mühiti ilə yaratdığı əlaqələri sayəsində bu gün partiyamız İranda böyük inqilaba hazırlıq işi görə bilir, boş yerdən əmələ gəlməyib bu. Bizim həmin əlaqələrimizn, işlərimizin nəticəsidir bu. Demək

olmur bunları açıq. İndi də bütün bu silsilə cəzaların davamı olaraq Azərbaycanın bir hissəsini qopartmaqla mənə təzyiq etmək üsuluna əl atıblar. Bilirsiz, mən işin içindəyəm deyə, vəziyyəti tam görürəm, iş bir təkcə bu Dağlıq Qarabağ məsələsindən ibarət deyil, zərbə hardan gəlir, mən bilirəm. 2 respublika arasında sərhəd 5 metr burda, 5 metr o yanda olsa, fərqi nə? Hamısı vahid Sovet ölkəsinin əraziləridi. Biz duşunurük ki, getdikcə bütün sərhədlər ləğv olunacaq, hamı vahid bir sovet ailəsi kimi yaşayacaq, bunlarsa məhz belə bir mərhələdə bu cür qıcıq yaradan üsullara əl atırlar. Bu mənə qarşı yox, bütöv bir xalqa qarşıdı, milyonlarla insanı Sovet dövləti əleyhinə köklәmək deməkdi. Yaraşarmı Sovet xalqına qarşı belə hərəkətlər? Mən təkəm, onlar çox. Bəlkə də dərindən yoxlansa burjua ölkələrinin əli var burda, bu yolla xarici radiostansiyalarda sizin islahatlarınıza kölgə salmaq, İran ətrafında gərgin diplomatik müharibə getdiyi bir məqamda İranla bağlılığı olan bir respublikada əhalini Sovet dövlətinə qarşı ayağa qaldırmaq və bununla bizim İranda gördüyümüz işlərə əngəl olmaq planı cızırlar. Və ona görə də dəqiq bilirəm ki, adi formal müzakirə deyil bu, arxasında baxın bu cür maraqlar dayanır.

**L.İ.Brejnev:**

— Anladım, amma bəs görəsən QosPlan niyə icazə verirdi ki, sizin öz daxili potensialınız ola-ola sizin ehtiyaclarınız üçün elektrik qonşu respublikada istehsal edilsin? Nəticədə də belə konfliktlər çıxır ortaya. Necə planlamadı bu? Hələ üstəlik dövlət dotasiyası hesabına son məhsulu maya dəyərindən də aşağı satmaq. Niyə?

**H.Əliyev:**

— Bilirsiz, yoldaş Brejnev, mən hər şeyi o komissiyada açıb danışa bilmərəm. Siz də, mən də, yoldaş Stalin, Xruşov

məktəbi keçmişik, çox dövlət sirrlərini bilirik. Bu komissiya üzvləri 5-3 ildi bu işlərin içindədilər. Mən hər şeyi gedib o komissiyanın qarşısında açıb-danışa bilmərəm. Biz Sizin rəhbərliyiniz altında İranla məlum böyük layihəmizi işləyirik. İnşaallah o inqilab bu il, ya gələn il baş tutar, İranda sosializm quruculuğuna başlayanda Qərb şirkətləri oranı tərk edib gedəcək, qardaş İran Sosialist dövlətinin kommunizm yolunda irəliləyişinə bizdən xeyli yardım tələb olunacaq, o cümlədən enerji sahəsində. Həmin elektrostansiyanı planlayanlar da onun enerjisini əsasən o dövr üçün nəzərdə tuturdular. İndi bunlar da ona qədər o elektrostansiyanın potensiyalı ilə maxinasiya edib, möhtəkirlik etmək istəyirlər. Azərbaycan tək Əliyevdən ibarət deyil. Yüzlərlə alim, tarixçi var orda. Onlar deyəcək ki, Sovet dövlətinin Azərbaycan SSR-nin bir hissəsini 22-ci ildə, bir başqa hissəsini indi ermənilərə ərməğan etdi. Siz niyə buna razı olursuz? Mən nə cavab verəcəm onlara? Mənim hansı sözüm keçər ondan sonra Azərbaycan vətəndaşlarına? Mən məcburam ondan sonra istefa verib çıxım işdən. Partiyamızın İranla bağlı planlarını da ondan sonra kimsə davam etdirər.

**L.İ.Brejnev:**

— Yoldaş Əliyev, Partiyamızın İran planı barədə heç mənim də kabinetimdə risk edib danışmayın, divarların da qulağı var. Siz müharibə illərindən İranda olmusuz, uzun müddət İrana qarşı əks-kəşfiyyat işlərinə rəhbərlik etmiş bir kadrsınız, orda kifayət qədər əlaqələriniz var. Partiyamız bu gün də sizə böyük etimad bəsləyir, sizə həvalə edib partiyamızın orada planlaşdırdığı gizli əməliyyatların kurasiyasını. Bu işlərin ən həlledici məqamında, orada sosialis inqilabına az qalmış bir dövrdə, hər şeyi yarımçıq qoyub istefaya getmək nə deməkdi?

Biz hardan tapacağıq bu məsələr üzrə bu qədər dərin məlumata, əlaqələrə malik 2-ci bir kadrı? Sizin bu mərhələdə istefa verməyiniz bizim bütün planlarımızın alt-üst olması deməkdir? Partiyamıza, Böyük Sovet dövlətinə xəyanət deməkdir. Mən danışaram yoldaş Ponomoryovla, görüm nə məsələdi.

L.İ.Brejnev bir qədər düşünərək, telefona əl atır

— Yulya, məni Boris Nikolayeviçlə calaşdır.

Ani pauzadan sonra katibə xanım:

— Yoldaş Brejnev, yoldaş Ponomoryov xətdədi

**L.İ.Brelnyev:**

— Yoldaş Boris Nikolayeviç, bildiyimə görə sabah sizin komissiyanın iclası olmalıdı və orda müzakirə olunacaq məsələlərdən biri də respublikaların sərhədlərinin dəyişdirilməsidir. Bu hansı zərurətlə bağlı məsələdir?

**B.N.Ponomoryov:**

— Bəli yoldaş Leonid İliç, bütün respublikalar yox, Azərbaycan SSR ilə Ermənistan SSR arasında hələ Sovet dövründən əvvəl bəzi mübahisəli ərazilər var idi, o məsələyə baxılacaq.

**L.İ.Brejnev**

— Bilirsiz, mən bilən o məsələyə indiyə qədər də bir neçə dəfə baxılıb və hətta ümumiyyətcə vaxtilə Zaqafqaziyada bütün sərhədlər ləğv edilmişdi, sonradan məhz partiya məsləhət bildi ki, onlar arasında sərhəd olması ölkənin maraqlarına daha çox cavab verir. Vətən müharibəsi dövründə də partiyanın bu qərarı özünü doğrultdu, həm iqtisadi baxımdan, həm siyasi, həm hərbi baxımdan. İndi illər ötüb, biz ümumiyyətlə Sovet dövləti daxilindəki sərhədlərin tamamilə ləğv edilməsi istiqaməti üzrə irəliləyirik. Çoxmu ciddi zərurət var bu mərhələdə

millətlər arasında gərginlik yaradacaq bu cür provakasiona addımlara?

**B.N.Ponomoryov:**

— Bilirsiz yoldaş Leonid İliç, adıgedın ərazi Ermənistanla qonşudur və əhalisi də etnik erməni xalqından ibarətdir. İqtisadiyyatı da Ermənistanla daha çox bağlıdır, nəinki Azərbaycanla. O ərazinin əhalisi illərdir təkidlə Moskvaya ərizə yollayır ki, azərbycan dilini bilmirik deyə nəinki Azərbaycanda vəzifələrdə bizi irəli çəkmirlər, heç adi mağazada satıcı kimi də işə götürmürlər ki, azərbaycan dilini bilmirsiz. Dili bilmirik deyə Azərbaycan bazarlarından, mağazalarından ürəyimiz istəyən heç nəyi soruşub ala bilmirik, gedib bazarlığımızı Ermənistandan edirik. və s. bu tipli məsələ. 100-lərlə, minlərlə zəhmətkeşin müraciəti var ortada, biz də bunu görməzdən gələ bilmərik, görək komissiya üzvləri nə fikir bildirir?

**L.İ.Brejnev:**

— Dil probleminə görə əziyyət çəkirlərsə, işə düzələ bilmirlərsə zəhmət çəkib öyrənsinlər. Kim istəmirsə öyrənmək, biz onlara nə qədər lazımsa avtobus, yük maşını ayıraq, köçürsün onları Ermənistana, gedib orda oxusunlar, işləsinlər, alış-verişlərini etsinlər. Burda problem nədi ki?

**B.N.Ponomoryov:**

— Bilirsiz, yoldaş Brejnev, problem tək dil məsələsi ilə bağlı deyil. Ermənistanda bir elektrostansiya tikilirdi neçə ildi, bu il təhvil verilməli idi və onun da enerjisini Dağlıq Qarabağdan savayı özgə heç yerə ixrac etmək olmur. Onu da Heydər Əliyev almaqdan imtina edir. Belə çıxır ki, dövlətin o qədər vəsaiti havaya sovrulmuş olur. Biz Dağlıq Qarabağı Ermənistana birləşdirsək, həm partiyamızın xəttinə uyğun olaraq Dağlıq Qarabağın elektrikləşdirilməsi həyata keçə bilər, həm

də həmin elektrostansiya fəaliyyət göstərib Sovet dövlətinin büdcəsinə mənfəət gətirər

**L.İ.Brejnev:**

—- Boris Nikolayeviç, Mən bütün bu məsələlərdən xəbərdaram. Siz bilirsiz ki, yoldaş Əliyev özü öz o ərazilər üçün neçə ildi elektrostansiya tikmək istəyir, Qosplan ona icazə vermir? Nədi burda maraq ki, bu respublikanın əl qolunu bağlayırlar ki, sən dayan, qoy o birisi tikib başa çatdırsın, ondan alarsan, və özü də yarı qiymətə? Nə maxinasiya var burda? Bir respublikanın əl-qolunu bağlayanda ki, sən tikmə-yaratma, amma o birinə yaşıl işıq yandıranda ki, hətta sənə dövlət büdcəsindən dotasiya da ayıracağıq ki, sənin məhsulun o birininkilərdən ucuz olsun, onda əlbəttə ki, o biri respublikaların iqtisadiyyatı yavaş yavaş bundan asılı vəziyyətə düşəcək və axırda da belə vəziyyət yaranacaq. Mən bu məsələni bu saat yoldaş Rudenkonun diqqətinə çatdıracam, qoy onlar araşdırsın görək burda kim nə oyunlar oynayır, nə maxinasiyalar, nə gizli maraqlar var burda. Bu artıq sizin komissiyalıq iş deyil, burda ciddi şübhəli məqamlar var. Sənin xəbərin varmı ki, sənin öz komissiyanın nazirlər sovetindən olan üsvləri hər zavod-fabrik açılışında Azərbaycana gedib, rüşvət alıb icazə veriblər açılışa? Biz bu cür qururuq kommunizmi? Şəxsi maraqlara Sovet dövlətinin maraqları qurban verilir. Gör ki, birbaşa Moskvada belə hallar baş verirsə, biz nə deyə bilərik regionlara? İndi həmin adamlar neçə dəfə Azərbaycana gedib gəlib, axır vaxtlar heç nə alammayıblarsa, Sizcə onların bu komissiyada bu məsələyə rəyi nə dərəcədə obyektiv olacaq? Mənim hətta onların Azərbaycanda indiyə qədər icazə verilən, təhvil alınan digər obyektlər barədə verilən müsbət rəylərə də

ciddi şübhəm var, çünki deməli hər birinə verilən rəy, icazə hansısa maddi maraq, qərəzli yanaşma hesabına başa gəlib.

**B.N.Ponomoryov:**

— Bilirsiz yoldaş Brejnev, Azərbaycanın özünə elektrostansiya tikilməsinə QosPlanın icazə verilməməsi faktı mənə məlum deyil, araşdıraram. O cümlədən Ermənistandakı adıgedən elektrostansiyadan Azərbaycana elektrikin öz respublikalarından niyə ucuz ixrac edilməsi məsələsindən də xəbərsizəm, mənə də şübhəli göründü, maraqlanaram səbəbi ilə. O ki qaldı komissiya üzvlərindən bəzilərinin Azərbaycanda hansısa tikintiyə icazə üçün rüşvət alması, 2 yoldaş olub oradakı Kondisioner istehsal edən Zavodun açılışına gedib, rəy veriblər, onlara da orda Rəy verilib bitəndən sonra, heç özləri istəmədən Heydər Əliyev tərəfindən onların ailə üzvləri üçün hədiyyə dublyonkalar verilməsi tapşırılıb və verilib. Onlar da imtina etməyib. Yəni onlar şərt olaraq tələb etməyib bunu.

**L.İ.Brejnev:**

— Konstitusiya islahatlarına dair komissiyaya nə aidiyyəti belə məsələlərin ki, siz araşdırasız. Mən yoldaş Rudenkoya[3] tapşırıq verəcəm, o araşdırsın orda nə maxinasiya, nə rüşvət izləri olmasını. Qaldı ki, dublyonkaya, onlar ora dublyonka zavodunun acılışına getmişdilər ki, qayıdanda da hərəsinə ilk istehsal olunan məhsuldan bir nümunə verilir? Azərbaycan dublyonka istehsal edir? Tutaq ki, onlar zorla verməyib, bəs bunlar niyə götürürdülər? Götürmüşdüsə, qayıdandan sonra Nazirlər Sovetinə verdikləri raportda da göstərdilərmi bu faktı? Niyə göstərmədilər ki, bizim hərəmizə 1000 rublluq hədiyyə verib yola saldılar? Belə çıxır ki, sabah

[3] SSRİ Baş prokuroru (1953-1981)

kimsə 10 min rublluq bir başqa hədiyyə versə onda bütün ölkənin bir hissəsini satacaqlar Amerikaya? Biz belə gedirik kommunizm quruculuğuna? Kimsə rüşvət verir ki, Sovet dövləti üçün nəsə qurub-yaratmaq üçün rüşvət verir. Hazır olandan sonra bir başqası da onun tikib-yaratdıqlarını mənimsəmək üçün rüşvət verir hazır işi ondan alın verin mənə. Nə baş verir yoldaş Ponomoryov? Bir elektrostansiyaya görə respublikanı 2-yə bölərlərmi? Bu nə cür idarəçilikdi? Üstəlik də mən tam əminəm ki, bu məsələdə bizim daxilimizdə sabotaj yaratmaq istəyən daxili və xarici qüvvələrin də marağı, əli var ki, sonra da bundan xalqları Sovet dövlətindən incik salmaq işində istifadə edə bilsilərn. Bütün bunları siz nəzərə almısızmı, və bu addımın fəsadlarının qarşısını almaq üçün də hansısa mexanizmlər işləyib hazırlamısınızmı?

**B.N.Ponomoryov:**

— Mənə də qaranlıq olan məqamlar var burda, yoldaş Brejnev, elə ona görə də komissiyanın iclasına çıxarmaq istəyirdim ki, bəzi detalları mən də araşdıra bilim. Dediklərinizi nəzərə alarıq və bir daha araşdırarıq bəzi məqamları komissiyanın iclasından əvvəl. Daxili və xarici düşmənlərimizin bu məsələdən sabotaj məqsədilə istifadə edə bilmək ehtimalı – ağlıma gəlməmişdi. Ətraflı düşünərəm və komissiya üzvlərinin də diqqətinə çatdıraram bu təhlükələri.

Telefonun dəstəyi yerinə qoyulur.

**L.İ.Brejnev H.Əliyevə:**

— Mən özüm yoldaş Rudenkonun adını çəkdim ki, bunlar daha məsuliyyətlə yanaşsınlar bu işə. Əminəm ki, onlar özü sizi axtaracaqlar, ayrıca müzakirə edəcəklər bu məsələləri sizinlə. Sizi mən təyin etmişəm o vəzifəyə və sizin iş üslubunuzdan, fəaliyyətinizdən də tam razıyam. Siz qurmaq, yaratmaq,

partiyamıza xidmət etmək həvəsi ilə yaşayan bir insansınız. Bu yolda maneələr, problemlər yaradan insanlar da çox olacaq. Bunlar sizi ruhdan salmasın. Partiyamız bu cür insanların arxasındadır. Dediyiniz məsələ elə bilirəm ki artıq həll olunub. Gedin, işləyin və hazırlaşın. Mən özüm gələn il Azərbaycan SSR-yə gələcəm, qoy hər kəs görsün ki, partiyamız işləyən, vətənimizə, partiyamıza sədaqətlə xidmət edən insanların arxasındadır, və əlavə də bütün problemlərlə yerindəcə birbaşa özüm tanış olub, həllinə yerindəcə lazımi tapşırıqlar verəcəm.

Bir qədər pauzadan sonra:

— Yeri gəlmişkən, o dublyonka məsələsi nə idi, Çex dublyonkalarıdı?

**H.Əliyev:**

— Bəli yoldaş Brejnev, bizim xanımlar onları gətizdirirdilər hardansa özləri üçün, mən xəbər tutanda razı olmadım ki, bizim Mərkəzi Komitə əməkdaşları belə bahalı paltarlar geyə bilməz, bizə yaraşmaz. Tapşırıq verdim əllərindən alındı, 12 dublyonka idi, indi də bunlar bizə şərt qoyanda, məcbur olub hamısını verdik bunlara ki, bizdən əl çəksinlər.

Brejnev başını bulaya-bulaya:

— Gör bunun gördüyü işlərin bir ucu haralara gedib çıxır?!

Yekunda hər 2 rəhbər ayağa qalxıb qucaqlaşıb görüşərək ayrılırlar. Qəbul otağına çıxanda katibə xanım deyir:

— Yoldaş Əliyev, yoldaş Ponomoryov indicə zəng edib xahiş etdi ki, Siz yoldaş Brejnevin qəbulundan çıxanda ona deyim, Sizinlə görüşmək istəyir.

## 3. Həmin qərarın Heydər Əliyevin Moskvada Ponomoryovla müzakirəsi

2 saat sonra. Kreml. Heydər Əliyev və Boris Nikolayeviç Ponomoryov

**B.N.Ponomoryov:**

— Yoldaş Əliyev, biz hamımız çox yaxşı bilirik ki, Ermənistan SSR adıgedən Vorotan elektrostansiyasını hələ 1954-cü ildən planlaşdırdığı halda Siz həmin Sərsəng SES-in planlamasına yalnız 1-ci katib seçiləndən sonra başlamısız. Üstəlik də Siz bu işə 1970-ci ildə o ərazilərin kənd təsərrüfatının suvarma sistemini təkmilləşdirilməsi üçün su anbarı tikmək bəhanəsi ilə icazə almısız, sonradan isə 1971-ci ildə "bu su anbarının imkanlarından həm də elektrik enerjisi almaq üçün istifadə etmək olar" təşəbbüsü ilə bu Hidroelektrostansiya layihəsini Qosplandan keçirmisiniz. Heç kimə sirr deyil ki, siz Qosplandan bu icazəyə yalnız və yalnız yoldaş Baybakovla olan şəxsi dostluğunuz sayəsində nail olmusuz. Yoxsa ki, onun əvəzində bir başqa şəxs olmuş olsaydı, eyni region üçün 2 rəqib Elektrostansiyanın tikintisinə heç kim icazə verməzdi. Sizin iş planınızı mən şəxsən dəstəkləyirəm. Öz respublikanız üçün iş görürsüz. Üstəlik də onlar 20 ilə inşa edib başqa çatdıra bilmədiyi bir işi Siz cəmisi bir beşillikdə həyata keçirib təhvil vermisiz. Bütün bunlar alqışalayiqdir. Amma bəs axı siz bütün bu addımlarınızla Sovet dövlətinin bu neçə ildə o elektrostansiyanın başa gəlməsi üçün xərclədiyi milyonlarla rubl vəsaitini batırmış olursuz, eyni zamanda bütün bu işə icazə verən, vaxtında bu problemi görüb, onun qarşısını almayan, onun inşasına pul ayıran hər kəsi pis durumda qoymusuz bu gün. Mən komissiyanın iclasına məhz

bütün bu məsələləri çıxarmaq istəyirdim. Yoldaş Brejnevin tapşırığından sonra təbii ki, bu məsələ komissiyanın gündəliyindən çıxarıldı. Amma axı problem həll olmayıb, ən əsas problemi necə həll edək bəs? Belə çıxır ki, Qos.Plandan, Nazirlər Sovetindən bu işə icazə verən neçə şəxs həbs olunmalıdı. Siz axı niyə inad edirsiz ki, ordan elektrik ala bilmərəm, hətta nə qədər ucuz versələr də. Siz heç bir şərtə razı deyilsiz. Dövlətin o Elektrostansiyanın tikilintisinə çəkdiyi o qədər xərci necə edək bəs?

**H.Əliyev:**

— Boris Nikolayeviç, siz özünüz düşünün, bu işi planlayanlar niyə belə planlayırdı ki, araba bu respublikada, təkəri də o biri respublikada istehsal olunsun, sabah da ziyanı hərə o birinin üstünə atsın, mənfəət üstündə isə aralarında dava düşsün? Öz respublikamızı eyni məhsulla özümüz tam təmin etmək gücündə olduğumuz halda, bunlar bizi niyə başqasından asılı vəziyyətə qoymaq istəyirdilər və hətta siz də deyirsiz ki, Baybakov yox, başqası olsaydı sizə filan imkanlarınızdan istifadəyə qadağa qoyardı. Niyə? Həmin çayın tən yarısı da bizim ərazidən axır. Yaxşı olmazdımı ki, həmin elektrostansiyanı o çayın elə biz tərəfdən axan hissəsində planlayaydılar, niyə 3 elektrostansanın üçünü də dalbadal məhz eyni çayın Ermənistan hissəsində layihələndirirdilər?

**B.N.Ponomoryov:**

— Mən bu sualların cavabını bilmirəm, yoldaş Əliyev. Yəqin ki, o işi bu cür planlayanların da öz motivi olub bu qərarı verəndə. Üstəlik də Qərar 20 il əvvəl verilib, bəlkə də yaxın vaxtlarda olsaydı, siz deyən kimi olardı. Amma bu gün mən özlüyümdə problemdən çıxış yolunu ancaq bu cür görürəm və yuxarılarda sizə hörmət edən adamlar çoxdu, siz də bu işə təsir

etsəniz, bəlkə alınar. Ermənistanın özündə elektrik enerjisinə əlavə tələbat yaratmaq üçün həmin zonada yeni şəhərlər salmaq, zavodlar tikmək ki, dövlətin ora yatırdığı bu qədər investisiya batmasın, özünü doğrultsun. Nə deyirsiz?

**H.Əliyev:**

— Yoldaş Boris Nikolayeviç, Mən əslində bir başqa və daha ucuz və daha realist təklifdəyəm. həmin elektrostansanın elektrikini mən tam həcmdə almağa hazıram. Sadəcə Dağlıq Qarabağ üçün yox, başqa regionumuz üçün.

**B.N.Ponomoryov:**

— Hansı region üçün, məsələn?

**H.Əliyev:**

— Həmin çaydan 30-40 km məsafədə Azərbaycanın bir başqa Muxtar vilayəti yerləşir. Mən həmin qiymətə o elektriki həmin Naxçıvan Muxtar Vilayəti üçün ala bilərəm.

**B.N.Ponomoryov:**

— Siz mənim fikirlərimi yenə də dolaşdırdınız. Mənim anladığıma görə sizin bu konfliktdə əsas motiviniz ondan ibarət idi ki, qonşu Ermənistan öz müstəqil energetik sistemini inkişaf etdirdikcə, Azərbaycan neftindən, energetik sistemindən asılılığı azalır və belə desək Siz Qafqazda müştərilərinizi yavaş-yavaş itirmiş olursuz. Amma indi deyirsiz onlardan enerji ala bilərəm, amma bu region üçün yox, bir başqa region üçün. Sizə fərqi nədir ki, Azərbaycanın bu tərəfi üçün alınsın, ya o biri tərəfi üçün? Üstəlik də mən bilmirəm bu ərazi üçün nəzərdə tutulmuş ötürücü xətlərin o siz deyən istiqamətə dəyişdirilməsi mümkün olacaqmı, ya yox, Nazirlər Soveti buna icazə verəcəkmi, buna vəsait neçə ilə ayrılar? Eləcə də Nazirlər Soveti yenə də həmin güzəştli qiymətlə satmağa razı olacaq, yoxsa artıq, standart tarif üzrə – bilmirəm.

**H.Əliyev:**

— Bilirsiz, yoldaş Boris Nikolayeviç. Mən sizinlə açıq danışacam. Ermənistan hökumətinin həmin enerjini vermək istədiyi ərazidə ermənilər çoxluq təşkil edir. O ərazidə artıq normadan xeyli çox sektor Ermənistan SSR-nin nəzarəti altındadır, ordan təmin edilir. Yəni limit həddi artıq aşılıb, daha limit qalmayıb. İndi o yerin enerji təchizatı da Ermənistanın ixtiyarında olsa o ərazidə 2 hakimiyyətlilik və nəzarətsiz bir idarəçilik formalaşacaq. Həmin ərazilər yalnız hüquqi baxımdan bizim ərazilər sayılacaq, faktik olaraq isə Ermənistan SSR-dən idarə olunacaq. Nəticədə o ərazi tam olaraq nə bizim, nə Ermənistan SSR-nin tabeçiliyində olmayacaq, orada hər cür anti-sovet fəaliyyəti, kriminal işlər baş qaldıracaq. Bu kimi işlərə görə də hamı bizi günahlandıracaq ki, Azərbaycan ərazisində gizli anti-sovet fəaliyyəti hazırlanıb, Heydər Əliyev də neçə ildir buna göz yumub. O zaman demək mümkün olmayacaq ki, bizim o yerə əlimiz çatmırdı, o yer yalnız kağız üzərində bizim olub, əslində tam şəkildə Ermənistan SSR tərəfdən idarə olunurdu. Deyəcəklər ki, deməli yaxşı rəhbər olmamısan. Vaxtında partiya qarşısında məsələ qaldıraydın bu barədə. Naxçıvan Muxtar Vilayəti ilə bağlı isə belə təhlükə yoxdur. Ermənistan SSR enerjini sərhədə qədər gətirib, ordan Azərbaycan mühəndislərinə təhvil verib çəkilib duracaq bir kənarda, biz özümüz bilərik ondan sonra onu özümüz işlədərik, ya baha qiymətə İrana satarıq. Çünki onsuz da biz İrana satmaq üçün Elektrik stansiyası tikmək üçün neçə ildi QosPlana layihə vermişdik. İndi Siz də kömək edin, danışın, onu dayandıraq, bu xətti işə salaq. Özü də bir məsələni deyim ki, qiymət Dağlıq Qarabağ Muxtar Vilayəti üçün nəzərdə tutulandan artıq olsa, mən imtina edəcəm. Çünki onlara fərqi

nədi ki, Azərbaycanın yalnız bir bölgəsinə o qiymətlə verməyə razıdılar, başqasına yox? Hamısı eyni bir Sovet dövlətinin ərazisi, əhalisi deyilmi? Biz eyni qiymətə bunlardan alıb, eyni qiymətə də İrana ixrac edəcəyiksə, o zaman bu işin tranzit və xidmət göstərən mütəxəssislərin əməyinin xərcini mən hardan alıb ödəməliyəm? Bir sözlə həmin Bərgüşad-Şamb Elektrostansiyasının fəaliyyəti bilirəm, neçə vaxtdır dayanıb aradakı bu problemə görə. Tikintisi davam etdirilsin, təhvil verilməsi bu il üçün nəzərdə tutulsa da, eybi yox, biz də öz mütəxəssislərimizi bu işə cəlb edərik, gələn ilə tamamlanar və ondan sonra onun istehsal etdiyi bütün enerjini biz Dağlıq Qarabağ üçün nəzərdə tutulan qiymətə almağa hazırıq, və Nazirlər Sovetinin bu işə əlavə smeta ayırmasına da ehtiyac yoxdur – mən tapşırıq verəcəm Şamb-dan Naxçıvana qədər komunukasiya xətləri qurulması üçün həmin elektrostansiyanın büdcəsində nəzərdə tutulmayan nə qədər əlavə xərc varsa, hamısı Azərbaycan SSR-nin büdcəsindən ödənsin.

**B.N.Ponomoryov:**

— Hə, anladım. Əslində praqmatik və realist bir plandır. İntəhası görək Ermənistan tərəfi buna nə deyir. Amma ki, imtina edib nə deyəcəklər ki? Bu halda hamı qazanır: Ermənistan da, Azərbaycan da və SSRİ Nazirlər sovetindəkilərin də canı bu problemdən qurtarır nəhayət ki. Amma açığı, düzünü deyim ki, sizin bu prinsipiallığınız, xalqınızın marağı üçün bu qədər ciddi mübarizə aparmanız məndə də sizə qarşı sonsuz bir rəğbət formalaşdırdı. Üstəlik də yoldaş Brejnevin sizin barədə dediyi bir fikri bir daha mənim üçün təsdiqlədi. Yoldaş Brejnev deyirdi ki, H.Əliyev bir almanı 2 yerə bölməyin elə üsulunu bilir ki, hər tərəfə almanın 60%-i düşür. İndi də belə çıxır

ki, Ermənistanın 10 illərlə zəhmət çəkib tikdiyi elektrostansiyanın taleyi nəhayət ki həll olmuş olur, amma Ermənistan özü ondan heç bir mənfəət götürə bilməyəcək, sizsə ondan alıb İrana satmaq hesabına ondan 2 qat mənfəət əldə edəcəksiz. Heç bir əziyyət çəkmədən. Nazirlər Sovetinin də canı bu problemdən birdəfəlik qurtarır. Əla plandır. Sizin siyasətinizə həqiqətən heyranam. Özü də hamının bunu qəbul etməkdən savayı özgə çıxış yolu yoxdur...

**H.Əliyev:**

— Biz hamımız ümumi Sovet ailəsinin bir üzvüyük. Burda sənin-mənim prinsipi ola bilməz. Burda hamının qazancı hamınındı, ümumi Sovet dövlətimizin güclənməsinə xidmət edir. Biz getdikcə hər şeyin ümumi olması, sənin-mənim prinsipinin tam aradan qalxacağı bir cəmiyyətə doğru gedirik. Belə bir vəziyyətdə yenidən burjua düşüncəsi ilə mülkiyyətə sənin-mənim prinsipi üzrə yanaşsaq, bir addım geriyə getmiş oluruq, kommunizmə doğru yox.

**B.N.Ponomoryov:**

— Əslində ikimiz də bilirik ki, elə deyil. Bu halda hər respublikanın mənfəəti öz büdcəsinə gedir, bunun o biri respublikaya heç bir xeyri olmur. İntəhası, nə isə. Bu məsələ artıq həll olunub. Görək Ermənistan rəhbərliyini necə razı Salırıq buna. Amma ki, başqa yolları da yoxdur. Çıxış yolu ancaq budu. Yeri gəlmişkən, o dublyonkalardan birini də biz keçən il Özbəkistanda olanda, yoldaş Şərəf Raşidoviç mənim həyat yoldaşıma bağışlamışdı ki, bundan bütün SSRİ-də cəmi 1 ədəddir, onu da Sizə hədiyyə edirik. Sonradan bir məclisdə onun eynsini yoldaş Lvov və Sideronkonun həyat yoldaşlarının əynində görəndə, maraqlandım, dedilər yoldaş Əliyevin

hədiyyəsidi. Onda bildim ki, sən demə Şaraf Raşidoviç məni aldadıbmış (gülümsünür)

**H.Əliyev:**

— Bilirsiz, mən bilmirəm orda kimə nə veriblər. Mən sadəcə tapşırmışam ki, Şərq xalqları qonaqpərvər xalq olurlar. Moskvadan da bizə nə vaxt hörmətli qonaq gəlsə, biz hər bir yoldaşa həmişə öz şərqli qonaqpərvərliyimizi ətraflı nümayiş etdirməliyik. Özü də Şaraf Raşidoviç kimi tək bir dublyonka ilə yox *(hər iki şəxs gülümsəyir)*.

Bundan sonra ayağa qalxıb, sağollaşıb, yaxın vaxtlarda Bakıda görüşmək ümidi ilə ayrılırlar.


Серия терактов в Москве (1977)

Материал из Википедии — свободной энциклопедии

8 января 1977 года в Москве была осуществлена серия террористических актов в виде трёх взрывов в общественных местах. Первая бомба взорвалась в 17:33 в вагоне московского метро на перегоне между станциями «Измайловская» и «Первомайская», что стало первым терактом в истории Московского метрополитена[1]. Второй взрыв прогремел в 18:05 в торговом зале продуктового магазина № 15 на улице Дзержинского (ныне Большая Лубянка), неподалёку от зданий КГБ СССР. Третья бомба взорвалась в 18:10 у продовольственного магазина № 5 на улице 25 Октября (ныне Никольская). В результате погибли 7 человек (все — при первом взрыве в метро), 37 были ранены[2][3]. Следствием были установлены трое виновных: армянские националисты Степан Затикян, Акоп Степанян и Завен Багдасарян. Приговором суда от 24 января 1979 года они были осуждены к высшей мере наказания — смертной казни и 30 января 1979 года расстреляны.

Moskvanın bu qərarından hiddətlənən ermənilər 1977-ci ildə Moskvada silsilə terror aktları həyata keçirdilər. Bu aktı törədənlərdən 3 erməni *(Stepan Zatikyan, Akop Stepanyan, Zaven Baqdasaryan)* SSRİ Ali Məhkəməsinin hökmü ilə güllələnmə cəzasına məhkum edildi.

Bu hadisədən sonra, 1977-ci ildə təhvil verilməsi nəzərdə tutulan, lakin Azərbaycanla razılığın əldə olunmaması səbəbindən təhvil-təslimi ləngiyən Bərgüşüd-Şamb elektrostansiyası üzərində tamamlama işləri davam etdirildi və 1978-ci ildə tam başa çatdırıldı. 1978-ci ildə Leonid İliç Brejnev Bakıya səfər etdi və uğurlara görə Azərbaycan SSR və onun rəhbərliyini SSRİ-nin bir neçə ali mükafatları ilə təltif etdi. Bundan 1 il sonra – 1979-cu ildə İranda məlum İran İslam

İnqilabı baş verdi *(hansının ki, əsası 1978-ci ildə Təbriz üsyanından başlamışdı)*, bununla da indiyə qədər regionda ABŞ-ın ən yaxın müttəfiqi olan İran bundan sonra SSRİ-nin ən yaxın müttəfiqinə çevrildi. Bu nailiyyətə görə SSRİ tərəfdən bu plana rəhbərlik etmiş DTK generalı Heydər Əliyev Sosialist Əməyi qəhrəmanı adına layiq görüldü və SSRİ-də ən yüksək orden olan "Lenin ordeni" ilə təltif edildi *(Lenin kimi o da inqilaba rəhbərlik etdiyinə görə)*. 1980-ci ildən başlayaraq Türkmənistandan və Azərbaycanın Naxçıvan Muxtar vilayəti ərazisindən İrana elektrik enerjisi ixrac etməklə bağlı SSRİ ilə İran İslam Respublikası arasında razılıq əldə olundu.

# *XI fəsil:* 1985-ci ildə SSRİ rəhbərliyinə kimin gətirilməsi ilə bağlı NATO Qərargahında müzakirə

1985-ci il, yanvar. NATO-nun qərargahı. İclas masası ətrafında 20-yə yaxın NATO generalı SSRİ ilə bağlı vəziyyəti müzakirə edir

Generallardan biri təqdimat xarakterli məruzə ilə şıxış edir. Çıxışa uyğun olaraq proyektorla divarda növbə ilə adı çəkilən namizədlərin şəkli və videosu əks olunur.

— Sov. İKP MK Baş katibi vəzifəsinə Çernenkodan sonra real namizıədlər bunlardır:

Qriqoriy Vasilyeviç Romanov: Leninqrad vilayətinin I Katibi. Rus elitasının namizədi. II Dünya Müharibəsi iştirakçısı. 62 yaşı var.

Qrişin Viktor Vasilyeviç: Moskvalıların namizədi. Moskva KP I katibi, başqa sözlə Moskva şəhərinin meri. SSRİ rəhbərliyinin Moskva yaxınlığında Atom Elektrostansiyasının tikilməsi planını bloklaması ilə Moskvalılar yanında böyük hörmət qazanıb. Həmçinin Moskvanın inkişafına böyük töhfələr verib. 2 dəfə infarkt keçirib. 70 yaşı var.



Vladimir Vasilyeviç Şerbitski: Ukraynanın I katibi. Brejnevin namizədi. Onun həmyerlisi, və hətta qonşusudur. Ukraynalıdır. II Dünya Müharibəsi dövründə Azərbaycanda, ondan sonra da Sovet qoşunlarının

tərkibində İrana göndərilən və mərkəzi qərargahı İranın Xoy şəhərində dislokasiya edilmiş 34-cü atıcı polkda xidmət edib, İranda baş qaldıran Milli Azadlıq hərəkatında Azərbaycandan göndərilən ədəbiyyatçılar, çekist və partiya xadimləri ilə çiyin-çiyinə çalışıb. Buna qədər SSRİ-nin müxtəlif bölgələrində maşınqayırma sektorunda çalışıb. 67 yaşı var.



**Heydər Əliyev:** Andropovun kadrı və onun öz yerinə hazırladığı namizəd. Çekistdir, DTK generalıdır, müsəlmandır, türkdür, 62 yaşı var. Uzun müddət Azərbaycan SSR-də DTK-ya, sonra isə bütün respublikaya rəhbərlik edib, İranda İslam İnqilabının baş tutmasında SSRİ-nin bu məxfi planının region üzrə əsas kuratoru olub.



1956-cı ildə məlum Macarıstan hadisələri zamanı qiyamçılar o vaxt orada səfir işləyən Andropovun oğlunu girov götürərkən, yalnız Heydər Əliyevin rəhbərliyi ilə həyat keçirilən əməliyyatın uğurla başa çatmasından sonra Andropov özünü həmişəlik ona borclu



hesab edib və eyni zamanda onun fenomenal çekist qabiliyyətinə onda dərin inam formalaşıb. Bu səbəbdən də, Andropov SSRİ DTK-sının rəhbərliyinə gələn kimi onu da Azərbaycan DTK-sına rəhbər gətirdi, Mərkəzi Komitənin Baş katibi seçilən kimi, onu

da Moskvaya apardı və özündən sonra Baş katib vəzifəsinə yetişdirməyə başladı. Andropovun ölümündən sonra



Qromıkonun onu yox, Çernenkonu dəstəkləməsi bu planı pozdu, amma qüvvədən salmadı, belə ki, Çernenkonun ölümündən sonra Andropov tərəfdarları yenidən bu planı aktuallaşdırasıdırlar *(divarda proyektorla digər namizədlər kimi onun xalq arasında, tarlada, tribunalarda, hörmətli qonaqlarla görüş videoları əks olunarkən bunun o biri namizədlərdən daha parlaq namizəd kimi görünməsindən diskomfort keçirən bir iclas iştirakçısı general başını bulayaraq, əli ilə işarə edir ki, "dayandırın bunu")*.

**Mixail Sergeyeviç Qorbaçov:** bizim namizədimiz. Bu namizədlər arasında ən gəncidir – 54 yaşı var. Əslən Stavrapoldandı. Atası rus, anası Ukraynalıdı. Babaları sovet repressiyasına məruz qalıb. İlk dəfə siyasi elitanın diqqətinə 1977-ci ildə Stavrapolda I katib olan vaxtda məhsul yığımı ilə bağlı icad etdiyi *"İpatov metodu"* ilə düşüb. Hansı barəsində ki, o dövrdə Sovet dövlətində xeyli film çəkildi və Qorbaçov bununla da bütün Sovet ittifaqında yenilikçi bir kadr kimi məşhurlaşdı. Baxmayaraq ki, sonradan Qorbaçovun icad etdiyi bu üsulun faydasız bir



avantüra olduğu üzə çıxdı və bütün Sovet ittifaqında bundan imtina edildi, amma bu barədə açıq yazılmadı və vaxtilə gedən



təbliğatın, bu üsula həsr edilmiş verilişlərin sayəsində Qorbaçov hamının yaddaşında yenilikçi bir şəxs kimi qaldı. Başqa heç bir yeniliyi, qeyri-adi bacarığı olmayıb. Biz də onun bu xüsusiyyətini əsas götürərək ona stavka etmişik: bütün təbliğat kanalları ilə onu yenilikçi, Sovet dövlətinin potensial xilaskarı kimi tanıdırıq xaricdə və daxildə. Həyat yoldaşı Raisa Qorbaçova əslən SSRİ-nin Ural, Altay zonasındandır və Qorbaçov üzərində böyük hakimiyyətə malikdir

**Generallardan biri:**

— Bəs bu şəxslərin zəif və güclü tərəfləri hansı?

— Bunların hər 5-i iqtisadiyyat sahəsində müəyyən təcrübələrə malikdir. Hər beşi Respublika və ya Vilayətin I katibi olub, yəni partiya sistemində idarəetmə təcrübəsi var. Fərqlərsə belədir: Əvvəlinci 4-ü nəinki iqtisadiyyat sahəsində təcrübəyə malikdir, hətta bu sahə üzrə SSRİ-də ən güclü mütəxəssislərdəndilər. Amma bizim namizəd – dediyim kimi, avantüraçıdır, ona şöhrət gətirən “İpatov metodu” ilə məhsul yığımı metodu da, sonradan bilindi ki, avantüradan başqa bir şey deyilmiş. Yəni əvvəlinci 4-ü güclü iqtisadçı olsalar da, bizim namizəd zəif iqtisadçıdır. Romanov, Şerbitski, Qrişin və Qorbaçovdan fərqli olaraq 4-cü namizəd,



yəni Əliyev həm də güclü siyasətçidir. Deyildiyi kimi, fəaliyyət dövrünün 25 ilini DTK sistemində çalışıb. Əvvəlinci 3 namizəd SSRİ-də hakimiyyətə gəlsələr SSRİ-nin bir sıra iqtisadi problemlərini uğurla həll edə bilərlər. 4-cü namizəd – yəni Heydər Əliyev isə güclü iqtisadçı olmaqla yanaşı həm də güclü siyasətçi olduğundan, hakimiyyətə gəlsə bütün Varşava blokunun strukturunu və xarici siyasətini dəyişəcək. ABŞ yaxın və uzaq Şərqdəki bir sıra nailiyyətlərindən məhrum olacaq, Əfqanıstanısa birdəfəlik itirəcək. Bizim namizədimizsə istər iqtisadiyyat və istərsə də siyasətdən uzaq adam olduğundan, həmçinin şöhrətpərəst bir insan olduğundan, onu hakimiyyətə gətirə bilsək lazımi təriflər və beynəlxalq təltiflər yolu ilə onu ən müxtəlif avantüralara sürükləyə bilərik. Həmçinin qeyd olunması vacibdir ki, bu namizədlərdən 4-ü rus və ya ukraynalı, Heydər Əliyevsə – təmiz türk əsillidir və müsəlmandır.

**Generallardan biri:**

— Bəs siz bizim namizədimizi hakimiyyətə gətirmək üçün həmin bu rəqibləri oyundan çıxarmaq üçün hansısa real planınız var?

— Müvafiq institutlara və təbliğat kanallarına sifariş verilib ki, bu hər 4 rəqib namizəd əleyhinə ciddi kompromatlar, əks-təbliğat fəaliyyəti, gördükləri işlərə, qazandıqları uğurlara kölgə salan, Qorbaçovunsa indiyə qədər gördüyü bütün işlərin dırnaqarası “dahiliklərini” qabardan materiallar hazırlasınlar və ən müxtəlif dillərdə yayımlasınlar. Hazırda bu tip sifarişli yazılar çap etdirmək, rəylər bildirmək üçün müxtəlif Qərb institutlarının mütəxəssisləri, müxtəlif media nümayəndələri mətbuatda, radio-televizyalarda bir-biri ilə rəqabətə

girişiblər. Konqress bu məsələləri həyata keçirmək üçün lazım olan qədər vəsait ayırmağa Maliyyə Nazirliyinə icazə verib.

**Generallardan biri:**

— Dediniz ki, bu namizədlərdən 4-ü slavyan və xaçpərəst, 1-i isə başqa millətdəndir, özü də müsəlmandır. Onun SSRİ-də hakimiyyətə gəlmək şansı nə dərəcədə çoxdur?

— Əvvəla, SSRİ tək ruslardan ibarət deyil, orada çoxlu sayda digər xalqlar da yaşayır ki, bunların da əksrəyyəti türk və müsəlmandır. Özü də nəinki respublikaların çoxu, hətta Rusiyanın özünün bütün cənub və Şərq bölgələrində yaşayan xalqlar hamısı müsəlman və türkdür. Bundan savayı Qafqaz və Baltikyanı respublikaların da əhalisi tamam fərqli millətlərdi. Yəni ki, o biri namizədlərin əsas elektoratı və siyasi dayağı ruslardısa, bunun elektotarı və siyasi dayağı bütün qeyri-rus millətləri və elitası olacaq, hansıların ki, sayı SSRİ-də rusların sayını qat-qat üstələyir. Üstəlik də aparatın özündə də köhnə DTK-çılar və Andropov komandası onu dəstəkləyəcək. Həm də SSRİ tarixində başqa millətdən olan şəxsin rəhbər olması təcrübəsi olub – yəni Qafqaz əsilli Stalin.

**Generallardan biri:**

— Təbii ki, bu namizədlərdən yalnız biri hakimiyyətə gələsəidir, hamısı yox. Namizədlərdən hansısa birinin hakimiyyətə gəldiyi vaxt onun digər namizədlərlə əməkdaşlıq formasını necə görürsünüz? Məni ələlxüsus bizim namizədin hakimiyyətə gəldiyi variant maraqlandırır.

— Biz bu variantı da nəzərdən keçirmişik. Proqnozumuz belədir ki, bizim namizəd hakimiyyətə gəlsə ilkin mərhələdə bunlardan hansınısa özünə rəqib kimi görüb dərhal

vuracaq, qalanları da zamanca. Belə ki, onları öz komandasında əməkdaşlığa cəlb edəcək. Amma o cür güclü şəxslər bunun avantüraçı siyasətini qəbul etmədiklərindən aralarında fikir ayrılığı formalaşacaq və gec-tez yolları ayrılacaq.

**Generallardan biri:**

— Əvvəlinci 3-ü bəlli: onlar Rusiya millətindən olduqları üçün Rusyada da qalıb işləyəsidirlər. Bəs Qafqazdan olan namizədin aqibətini necə görürsünüz?

— Yəqin ki, o da qayıdıb öz respublikasına gedər

— Bəs axı biz planlaşdırmışdıq ki, SSRİ rəhbərliyinə avantüraçı, zəif kadrlar gətirəndən sonra onun əli ilə, və ya müxtəlif xalq hərəkatı vasitəsilə qalan respublikaların da başına zəif, bacarıqsız kadrlar gətirək ki, SSRİ-ni xaosa yuvarlaya bilək, respublikalarla Moskvanı qarşı-qarşıya qoya bilək, Rusiyanın dörd bir tərəfi od tutub yansın, hər tərəfi onun üçün yeni bir Əfqanıstana çevrilsin. Siz dediyiniz şəxs öz respublikasına qayıtsa, xaosun bizim nəzarətimizdən çıxan hansısa bir mərhələsində xalq onu hakimiyyətə gətirəcək və biz Rusiyanın 4 bir tərəfini oda-alova bürüyə bilməyəcəyik.

— Demək istəyirsiz ki, o, Moskvada vəzifələrdən gedəndən sonra həm də fiziki olaraq aradan götürülməlidi?

— Məncə hə

**İclas sədri:**

— Mən hələlik belə radikal qərarın əleyhinəyəm, çünki proseslərin hansısa mərhələsində bu tip insanlar bizə lazım ola bilər. Biz hələlik SSRİ-nin dağılması prosesinin konkret hansı ssenari üzrə baş verəcəyini tam aydın şəkildə proqnozlaşdıra

bilmirik. Proseslər hansı ssenari üzrə gedərsə, o vəziyyətə uyğun da növbəti addımlarınızı planlaşdıra biləcəyik. Ona görə düşünürəm ki, həmin ana qədər bu tip insanları siyasətdən uzaqlaşdırıb, fəaliyyətlərini blok vəziyyətə salıb, vəziyyət tam aydınlaşana kimi onları rezervdə saxlamaq daha məqsədəuyğun olar. SSRİ-də öz adamımızı hakimiyyətə gətirə bilsək, ondan sonra bütün dövlət orqanlarına rahat şəkildə nüfuz edə biləcəyik, onun əli ilə bütün vacib vəzifələrə onların indiyə qədər casus, dissident, "vətən xaini" adlandırdıqları bizim adamları yerləşdirə biləcəyik. Bununla da onların əli ilə bu adamı ya həbs etdirə bilərik, ya da barəsində cinayət işi açdırmaqla, həyatına hansısa formada təhlükə mühiti yaratmaqla ömürlük Rusiyada gizlənə-gizlənə yaşamasına, üzə çıxmağa qorxmasına nail olarıq. Bununla da bizə lazım olan vaxta kimi, Rusiya sərhədlərini tərk edib öz ölkəsinə qayıtması mümkünsüz olacaq.

**Bir başqa general:**

— Bayaq dediniz ki, bu insan elə-belə adam deyil, Kəşfiyyat, əks-kəşfiyyat, DTK məktəbi keçib püxtələşmiş bir siyasət generalıdı. Buna görə mən elə bilirəm ki bu tipli adamları bu yolla neytrallaşdırmaq mümkün olmayacaq. Onlar harada olsalar da milyonları ayağa qaldırıb, arxası ilə apara bilən şəxslərdilər – heç bir vəzifəsi-zadı olmasa da. Mən indidən əminəm ki, bu insan gələcəkdə sizin Qafqaz siyasətinizə çox böyük bir problem yaradan bir insan olacaq, o Cənubi Qafqazı Əfqanıstana çevirməyə Sizə imkan verməyəcək.

**İclas sədri:**

— Cənab general, unutmayın ki, Azərbaycanın belə generalı cəmisi 1 nəfərdisə, NATO-da belələri minlərlədir və biz

Qorbaçovu hakimiyyətə gətirəndən sonra Rusiyanı üzük qaşı kimi mühasirəyə alıb, onun 4 bir tərəfindəki respublikaları 2-ci Əfqanıstana çevirmək üçün minlərlə generalı bu işə qoşmağı nəzərdə tuturuq, o cümlədən Cənubi Qafqazı cəhənnəmə çevirmək üçün indidən 30 generalımız tam qüvvə ilə hazırlıq keçir.

**Bir başqa general:**

— Mən bayaqdan təmkinlə bu diskussiyanın məcrasının hara gedəcəyini izləyirəm. Və görürəm ki, çox diletant istiqamətlərə gedir. Bayaq 1956-cı ildə Macarıstanda Andropovun oğlunun girov götürülməsi əməliyyatından danışdız. Məlumat üçün bildirmək istəyirəm ki, o əməliyyatın rəhbəri məhz mən olmuşdum və bu insan məhz mənim əlimdən oğurlayıb geri qaytardı onun oğlunu. SSRİ DTK-sının girovun yerini öyrənməklə bağlı keçirdiyi bütün əməliyyatlar fiaskoya uğrayandan sonra daxildəki casuslarımız artıq tam əminliklə bizə məlumat ötürürdülər ki, cəmisi 3 gün də duruş gətirə bilsək, SSRİ rəhbərliyi qiyamçıların bütün şərtlərini qəbul etməyə tam hazırdır. Ən son anda SSRİ DTK-sı ölkənin bütün DTK sistemini bu işə cəlb etməyə məcbur qaldı və o müzakirələrdə Azərbaycan DTK-sının o vaxtkı rəhbəri olan bu insanın təklifi hamının diqqətini cəlb etdi. Qalanı isə bəlli: Əməliyyata rəhbərlik buna həvalə edildi və 2 gün sonra girov artıq azadlıqda. Bunun necə mümkün ola bildiyini araşdıranda isə öyrəndik ki, sən demə əməliyyata rəhbərlik onun əlinə keçən vaxtdan sonra Sovetlərin bizimlə apardığı bütün təslimçi danışıqlar bir imitasiya imiş. Əsas məqsəd qiyamçıların daha çox nümayəndəsi ilə kontakta çıxmaq, və qayıdanda da onların gəldiyi avtomobilə, paltarlarına və s. izləyici "juçoklar" yerləşdirmək imiş. Bu yolla girovun yerini müəyyən edəndən sonra artıq onu ordan

çıxarmq ağıllı plan məsələsi idi: yalançı basqın imitasiyası ilə başları qarışdırılan keşikçilər bir də onda ayılırlar ki, girovu qoyub getdikləri yerdə qırmızı Sovet bayrağından və bir də bacadan sallanan kəndirdən başqa heç nə yox. Bu əhvalatı sadəcə, ona görə xatırladım ki, o vaxt Macarıstan əməliyyatına da biz tərəfdən məhz 30 NATO generalı rəhbərlik edirdi. Elə-belə, sadəcə yadıma düşdü deyə xatırlatdım.

**Bir başqa general:**

— Mən də öz tərəfimdən bu şəxsin əlaqəli olduğu bir sıra Sovet əməliyyatından canını güclə qurtarmış bir şəxs kimi sizi indidən əmin edirəm ki, həmin 30 generalınızın hazırlanmasına çəkdiyiniz xərcləri indidən batmış hesab edin. 30 general deyil, bütün MKİ də cəlb olunsa, bu adam sağ qalacaqsa, Sizin Qafqaz siyasətiniz iflasa uğrayacaq – hətta bu insan heç bir vəzifədə olmasa da belə. Buna tam əmin ola bilərsiz. Çünki mən onu çox yaxşı tanıyıram.

1985-ci ildə Sov. İKP MK-nın Baş katibi Çernenko vəfat etdi.

Həmin gün Latviyada olan Çerbitskinin Moskvaya gəlişinə ciddi əngəl yaradıldı, Şerbitski yalnız M.S.Qorbaçov Baş katib seçiləndən sonra gəlib Moskvaya çata bildi.

Qrişin özü vəzifədən imtina etdi.

Romanova hələ bir müddət əvvəl qızının toy mərasimində Ermitaj muzeyindən bir sıra qiymətli antikvar əşyalar götürməsi və onların da bəzilərinin toyda sındığı üçün geri qaytara bilməməsi kimi ittihamı irəli sürüldü və bu yolla siyasi karyerası diskreditə edilərək Baş Katibliyə yolu bloklandı.

Qorbaçov Baş katib seçiləndən dərhal sonra onu bütün vəzifələrdən azad edib pensiyaya yolladı.

Heydər Əliyevəsə Qromıko “millətçi”, “Pantürkist”, “Türkiyənin adamı” damğası vuraraq Baş Katibliyə gedən yolunu bağladı. Beləliklə Qərb dairələrinin xaricdə və daxildə olan agentura şəbəkəsinin aktiv fəaliyyəti nəticəsində Mixail Sergeeviç Qorbaçov 1985-ci ildə SSRİ-nin rəhbəri vəzifəsinə gətirildi. Qorbaçov hakimiyyətə gələndən bir-neçə il sonra SSRİ MK-da savadlı olan bütün kadrları, o cümlədən Heydər Əliyevi vəzifədən uzaqlaşdırdı.

## *XII fəsil:* Zərifə Əliyevanın ölümü. Qürub.



1985-ci ildə uzun müddət xərcəng xəstəliyindən əziyyət çəkən Zərifə xanım dünyasını dəyişir. Onu Bakıda dəfn etmək istəyirlər, Heydər Əliyev bildirir ki, mən ondan uzaqda qala bilmərəm, mənə yaxın yerdə olsun ki, hər gün ziyarət edə bilim, depressiyalı vaxtlarımda gedib onunla dərdləşə bilim. Məlum kadrlarda olduğu formada onun cənazəsini qəbirstanlığa buraxmaq istəmir, cənazəsinin üstündə hönkür hönkür ağlayır. Dəfn olunandan sonra 10-15 gün qəbiristanlıqda, onun məzarının yanında açır sabahı.



Dəfələrlə İlham Əliyev gecə yarısı gəlib aparmaq istəsə də, evə getmir. Axşamların birində hətta Qəbirstanlığın keşikçisi rus kişi də yaxınlaşıb deyir ki, *"Heydər Əliyeviç, mən öyrənmişəm, deyirlər siz dövlət adamısız, Kremldə işləyirsiz. Sizin üçün çox böyük riskdi gecələri burada mühafizəçilərsiz qalmaq"*. Heydər Əliyev cavabında bildirir ki, "Nə olacaq, öldürəcəklər? Onsuz da bundan sonra həyat mənə çox mənasızdı. Qoy elə burda da öldürsünlər".

Nəhayət 10-15 gün sonra axşamdan İlham Əliyev də gəlir ora. Heydər Əliyev həmişəki kimi dərin depressiya içərisində

qəbrin yanında düzəltdirdiyi skameykada əyləşib. Sakitcə keçib oturur onun yanında:

— Papa, nə vaxta qədər?

Heydər Əliyev gözü bir nöqtəyə zillənmiş şəkildə:

—Bilmirəm.

— Özün də bilirsən ki, mənasızdı bunlar. O da narahat olur sənin hər gün belə vəziyyətini görüb.



— Mən onu burda tək qoyub getsəm gecələr qurd-quş gəlib qəbri qazar. Onu küçələrin ortasında, qaranlıqlarda tək qoyub gedə bilmirəm, İlham

Bunu deyib dərin göz yaşları içərisində İlhamı qucaqlayır. Ata-bala bir-birinə sığınıb hər ikisi dərin göz yaşları içində xeyli dayanırlar.

— Mənə də çətindi, papa. Biz indiyə kimi onsuz qalmamışdıq. Amma bu gün reallıqla barışmalıyıq. O yoxdur artıq evimizdə, həyatımızda, dünyamızda. O bu qəbrdə də yoxdur. O bu gün cənnətdədi. Barış reallıqla. Bundan başqa yolumuz yoxdur.

Bir xeyli də qucaqlaşıb durandan sonra, Heydər Əliyev göz yaşlarını silə-silə ayağa qalxır. Gəlib baş daşını öpüb, bir qədər də ağlayandan sonra məzarın yanını tərk edir, İlham Əliyev də onun ardınca. Onun avtomobilinə oturaraq da qayıdırlar evə. Ondan sonra tez-tez gedib məzara baş çəkir, hərdən 1 saat oturub, dərdləşib qayıdır.

* * *

Qorbaçovun SSRİ rəhbərliyinə gəlməsi ilə ölkənin bütün sferalarında ciddi dəyişiklik başlayır. Qorbaçov "Yenidənqurma" adı altında hər şeyi sökür, dağıdır, uçurur, amma bunların əvəzində nə qurmaq lazım olduğunu hələ bilmir, bunun sonranın işi olduğunu deyir. 1967, 1965 və digər illərdə SSRİ rəhbərliyi təkamül yolu tutub, yaxşıları saxlamaq, pislərdən imtina hesabına islahat həyata keçirirdisə, Qorbaçov inqilabi üsulu seçərək istisnasız olaraq hər şeydən imtina edib, hər şeyin təbii seçmə üsulu ilə öz yerini tutacağı utopiyasına özünü inandırırdı. İdeya özlüyündə məntiqli görünsə də, bunun zəif tərəfi o idi ki, hər şey o halda təbii olardı ki, buna kənardan da süni müdaxilə olmayaydı və onda hər şey öz axarı ilə gedib öz yolunu tapa bilərdi. Lakin proseslərin Qərb xüsusi orqanlarının nəzarəti və təsiri altında baş verməsi, kortəbiiliyi bir kənara qoyub, hər şeyin sürətlə açarı Qərbin əlində olan idarəolunan xaosa doğru getməsinə səbəb oldu.

Belə "islahatlardan" biri də bütün köhnə kadrların hamısını işdən çıxarıb, yerinə təsadüfi adamlar götürməkdən ibarət idi. Belə qurbanlardan biri də Qorbaçovun 10 ildən artıq müddətə dostu olan, amma vəzifəyə gələndən sonra qətiyyən tanımaz olduğu Heydər Əliyev oldu. 1987-ci ildə o da hər hansı səbəbsiz məcburi Pensiyaya göndərilənlərdən oldu.

Yaxınları onun Bakıya qayıtmasını təklif etdilər. Lakin həm Zərifə Əliyevanın məzarının burda olması, həm də Bakıdan fərqli olaraq burada onun vaxtilə dövlət tərəfindən verilmiş evinin olması səbəbindən, Heydər Əliyev hələlik burada qalmağı üstün tutdu. Boş vaxtlarını gedib Zərifə Əliyevanın məzarının yanındakı skameykada oturub, onunla dərdləşməklə keçirirdi:



— Sənin məni tək qoyub getməyinlə mən hər şeyimi itirdim, Zərifə. Bütün gücümü itirdim, həyat mənim üçün tam mənasızlaşdı. Ondan bu yana da hər şeyi itirə-itirə gəlirəm. O əvvəlki gücüm yoxdur daha ayağa durub mübarizə aparmağa. Mənə sən idin həvəs verən, güc verən bütün o uğurlarımda. İndi hər şey mənə mənasızdı. Çox tək qoydun məni həyatda, Zərifə. Çox pis vaxtda atdın məni. Evimizdə də daha o əvvəlki sevinclər, deyib-gülmək yox. Səninlə birgə getdi bütün o şənliklərimiz, uğurlarım, qələbələrim...

## *XIII fəsil:* 20 yanvarda Bakıya qoşun yeritmək planı ilə bağlı Qorbaçovla Əliyevin mübahisəsi

1989-cu il, Dekabr ayı. Kreml. Sov. İKP MK-nln baş katibi M.S.Qorbaçovun kabinetində. Heydər Əliyev və M.S.Qorbaçov

**M.S.Qorbaçov:**

— Yoldaş Əliyev, mənə əvvəllər elə gəlirdi ki, Siz öz millətçi hisslərinizi məharətlə maskalamaq üçün hərdən-birdən Marks, Engels, partiyamız, böyük Sovet dövlətimiz, Sovet ailəsi adlarından istifadə edirsiniz. Amma zamanca sizlə mütəmadi təmasda olduqca anladım ki, hərdən-birdən yox, bu elə həmişə belədir. Siz elə ürəklə "partiyamız naminə", "böyük Sovet dövləti naminə" deyirsiz ki, adamın inanmağı gəlir ki, Siz həqiqətən rus xalqını hətta məndən də çox sevirsiz. Amma axı mən sizi çoxdan və özü də çox yaxından tanıyan bir şəxs kimi əzbər bilirəm ki, siz bütün bu gəlişigözəl sözlər altında öz xalqınızın maraqlarını güdürsüz və hər dəfə də siz belə sözlər altında nəsə iş görəndə axırda ən çox qazanan sizin xalq olur, başqaları yox. İndi də siz öz xalqınızı qorumaq üçün bura gəlmisiz. Güya siz Sovet dövlətinin dərdini çəkənsiz ki, deyirsiz bu iş böyük sovet dövlətinin beynəlxalq imicinə ziyan vuracaq, ölkə daxilində xalqların Sovet hakimiyyətinə etimadını azaldacaq, başqa xalqları da sovet hakimiyyəti əleyhinə qaldıracaq. Qələt edib qalxarlar, birinə dərs olsa, hamısı Sovet dövlətinin gücünü görüb, yerində quzu kimi sakit oturacaq ondan sonra.

— Bilirsən, Mişa, sən yoldaş Lenindən çox istəyə bilməzsən Rus millətini. Amma bununla belə yoldaş Lenin millətlər barədə onu da deyirdi ki, məzlum xalqlar olur, bir də zülmkar xalqlar. O rus xalqını heç vaxt zülmkar xalqlar sırasına aid etməyib.

— Yoldaş Əliyev, bayaq dediyim kimi, siz hətta Marksdan, Lenindən sitat gətirəndə də manipulyasiya edirsiz. Bəzən yoldaş Marksdan, Lenindən sizin işinizə sərf edən elə sitat deyirsiz ki, sonra gedib baxırsan ki, bunu heç onlar deməyibmiş, elə sizin öz fikirlərinizdi, sadəcə onların adına yazırsız. O vaxtlar da bir dəfə demişdiz ki, yoldaş Lenin deyib ki, Marksın siyasi iqtisadla bağlı dediyi bir çox fikrlər, məsələn “izafi əmək”, “izafi iş vaxtı”, “izafi məhsul” kimi fikirlər köhnəlib, Sovet dövlətinə yaramır, və nəinki iş vaxtı Sovet dövlətinin müəyyən etdiyi kimi 8 saat, hətta ondan 2-3 saat az olmalı, və hər bir sovet vətəndaşı qalan o 2-3 saatını ömürlük olaraq məcburi təhsilə cəlb olunmalı və ömrü boyu dövlət hesabına ürəyi istəyən peşəyə, bilgilərə yiyələnməlidi. Sizdən sonra tapşırdım yoldaşlara ki, bunun Leninin hansı kitabında olduğunu axtarıb tapsınlar. 3 gün ələk-vələk ediblər, heç bir kitabında buna bənzər bir fikir yox.

— Mən axı demədim ki, yoldaş Lenin deyib bunu. Mən demişdim ki, Sovet dövlətinin qurucuları belə bir fikir deyib. Həmin fikirsə yoldaş Stalinin “SSRİ-də sosializmin iqtisadi problemləri” kitabındandır və indi də durur. Dediyim o idi ki, islahat etmək istəyirsənsə, özündən əvvəlkilərin də islahat barədə fikirlərini, səhv-düzünü öyrən, sonra get islahatlara.

— Yoldaş Stalin nə vaxtdan SSRİ-nin quruc..... Eybi yox, tapşıraram gedib onu da araşdırarlar. Amma 90% əminəm ki, heç yoldaş Stalində də tapammayacaqlar onu.

Bir qədər dayanaraq:

— Bilirsiz, mənə onsuz da maraqlı deyil məndən əvvəl SSRİ-də islahat keçirmək istəyən kim hansı fikri deyib. Mən elə bir islahat keçirəcəm ki, SSRİ-nin 70 ildən bəri qalan bütün milli, iqtisadi, hərbi, siyasi problemləri birdəfəlik həll olacaq. Bu yolla tək ermənilər və azərbaycanlılar yox, o biri milli azlıqlar da hamısı bir-birini qırıb o yerləri rus xalqı üçün bir-birindən tam təmizləyəcəklər, ondan sonra rus xalqı rahat şəkildə o yerlərə köçürüləcək. Biri-birini daha yaxşı qırıb qurtarmaları üçün onların hər ikisinə lazımi dəstək veriləcək. Bunlardan hansılarsa könüllü şəkildə ölmək istəməsələr, bax bu yolla böyük rus ordusu ora gedib balans yaradacaq ki, biri o birindən güclü olub, bu qladiator döyüşündən belə tez qalib çıxa bilməsin, yoxsa döyüşün ləzzəti itər. Ta sonuncu kişiləri qırılana qədər bir-biri ilə müharibələrini davam etdirməlidirlər. Hər milli azlığın bütün kişiləri bu qırğınlarda tam şəkildə ölüb qurtarıb, hər birində ancaq qadınlar qalandan sonra, onlar da evinə çörək gətirən kimsə olmadığından bir tikə çörəyə görə rus kişilərinin, əsgərlərinin qarşısında qul olacaq, onların əyləncəsinə çevriləcək, istədiyi həzzi yaşadacaq onlara. Qərbdə belə cənnəti 1 saat yaşamaq üçün nə boyda insan alveri şəbəkəsi yaradırlar, pul xərcləyirlər. Rus kişiləri üçün bu cənnət pulsuz olacaq, milli azlıqların başsız qalan qadınları pulsuz-parasız özü yalvaracaq rus kişilərinə ki, bizə sahib çıxın, bizimlə nə istəyirsiz edin, təki bir qarın çörək verin mənə və uşağıma. O qadınlar hamısı ancaq rus kişilərindən uşaq

dünyaya gətirəcək bundan belə, rus millətinin sayını artıracaq. Milli azlıqların tək qadınları yox, hər şeyi heç bir müharibəsiz zadsız qalacaq rus xalqına: nefti də, pambığı da, tranzit yolları da, münbit torpaqları da, min-min il ərzində tikib yaratdığı hər nə varsa – hamısı. Rus milləti üçün əsl kommunizm onda olacaq. Mənim adım rus tarixində Pyotrdan da, Lenindən də yuxarıda yazılacaq. Hər yerdə mənə heykəllər qoyacaqlar, mahnılar bəstələyəcəklər.

Heydər Əliyev bu manyakın sayıqlamalarına qulaq asmağın mənasız olduğunu görüb, müəyyən qədər blef-lə söhbəti yekunlaşdırmağı qərara aldı:

— Bilirsən, Mişa, biz səninlə dost olmuşuq, ona görə sən məni çox yaxşı tanıyırsan və mənim imkanlarıma da yaxşı bələdsən. Mən adi bir pensioner deyiləm: Uzun müddət SSRİ-nin Cənub-Şərq cinahı üzrə Əks-Kəşfiyyat sektoruna rəhbərlik etmiş, ondan sonra o regionda respublika rəhbəri olmuş bir insanam – bütün bunları bilirsən. Mənim nəinki SSRİ rəhbərləri ilə, o cümlədən qonşu ölkələrin rəhbərləri ilə də çox yaxşı əlaqələrim var. Mən bura gələndə də bütün yolları nəzərə alıb, son variantlara hazırlıq görüb gəldim. O cümlədən İran və Türkiyə rəhbərləri ilə lazımi əlaqələrim olmuşdu. Bildiyin kimi Türkiyə ilə Zaqafqaziya Sovet Federativ Respublikası arasında hələ 1921-ci ildə bağlanmış Qars müqaviləsinə görə Azərbaycana hansısa bir 3-cü qüvvə tərəfindən hər hansı hücum olarsa, Türkiyənin də hərbi müdaxilə etmək səlahiyyəti var. Eyni qaydada regionda 200 ildir ki, İranın da gözü var. Azərbaycanda artıq bu hər 2 dövlətin qoşunlarını Respublikaya gətirməklə bağlı İran və Türkiyə ilə danışıqlar gedib və hər ikisi buna bəhanə gözləyir. Və mən özüm də cənab Turqut Ozalla və Rəfsəncani ilə də lazımi əlaqələr etmişəm və bu

məsələ ilə bağlı lazımi müzakirələr aparmışıq, məndən xəbər gözləyirlər. Bura gələndə də lazımi adamlara tapşırdım ki, söhbətimiz alınmasa və ya mənə nəsə olsa, mənim sözümü çatdırın İran və Türkiyə rəhbərliyinə. Mən sadəcə məsələnin miqyasını sənə anlatmağa çalışdım, Azərbaycan tək deyil, onun neftində və ərazisində marağı olan çox dövlət var dünyada. Əhalisi qırılıb, quru torpağı SSRİ-yə qalmaqdansa, qoy Türkiyəyə, İrana qalsın, əvəzində əhalisi də sağ salamat qalacaq, ermənilərlə problemi də həll olunacaq. Bütün dünyanı qaldıraram sənin üstünə – mənim xalqıma toxunsan.

M.Qorboçov bir qədər fikrə gedərək, əlini telefona atdı:

— Yoldaş Yazov, Bakı əməliyyatını bəlkə bir az da ətraflı ölçüb biçək, bəlkə bunun siyasi tərəflərini də lazımi yoldaşlarla dərindən araşdıraq?

**D.Yazov:**

— Mən bilmirəm, yoldaş Qorboçov, necə deyirsizsə, elə edək.

**M.Qorbaçov dəstəyi asaraq:**

— Bilirsiz, siz məni şantaj etməyin, sizin xarici kəşfiyyatla əlaqənizi etiraf etdiyinizə görə mən elə bu saat sizi həbs etdirə bilərəm. Bakıda baş verənlərin də arxasında siz durursuz, mən bunları çox yaxşı bilirəm. Adamlarınızı yığışdırın küçələrdən, əks halda bu sizə çox baha başa gələcək.

Bu anda telefonun zəngi gəldi. Qorbaçov telefonun dəstəyini qaldırdı. Qaldırar-qaldırmaz telefon xəttinin o başından Raisa Qarbaçovnanın aqressiv qışqırıqları eşidildi:

— Alçaq, şərəfsiz, sən məsləhətləşməmiş nə qərardı bu verirsən ki, Bakı əməliyyatını dayandırmaq lazımdı? Kim sənin beynini yedi yenə? Biz səninlə bu məsələni ətraflı danışmamışdıq? Deyilməmişdi ki, o murdar millətin kökü birdəfəlik yer üzündən kəsilməlidi ki, o zonada ermənilərin də, rusların da canı nəhayət ki bunların əlindən qurtarsın, hər ikisinin neçə yüz illik qisası bunlardan alınsın? Kim alacaq bəs o qisası? Köməksiz qoyub qaçmaq istədiyin 2 milyonluq ermənilər? Sənin qorxaqlığını görüb sabah 50 milyoonluq Türkiyə azərbaycanlılara köməyə gəlib o 2 milyonluq erməniləri də qırıb, Azərbaycanı da öz ərazisinə qatacaq. Görüm onda nə edəcəksən sən bu ağılsız başınla. Axşam danışarıq səninlə.

Bunu deyib Raisa Qarbaçova dəstəyi asdı. Qorbaçov istədi telefonu götürüb kiməsə zəng etsin, sonra da istədi ki, ondan əvvəl Əliyevə nəyisə izah etsin, onunla söhbəti başqa məcrəya yönəltsin, baxdı ki, Heydər Əliyev artıq bu söhbətin davamına qulaq asmaq istəməyib sakitcə qapıya doğru gedir...

## *XIV fəsil:* Qorbaçovun vədinə rəğmən Bakıya qoşun yeritmək əmri verməsi xəbəri Heydər Əliyevə çatır

Heydər Əliyev öz ailəsi ilə birlikdə öz mənzilində. Telefon zəng çalır, Heydər Əliyev telefonu qaldırır:

— Yoldaş Əliyev, indicə əmr aldıq. Briqadamız Azərbaycanı bombalamaq üçün hazırlığa başlayır. Güman ki, 1 həftəyə Dağıstan sərhədini keçib, Yeni İlə kimi kimi Bakıda olacağıq. Çox danışa bilmirəm, sağ olun.

Bu xəbərdən şok effekti yaşayan Heydər Əliyev bir qədər yerində donub qalaraq. Sonra fikrini cəmləyib hansısa nömrəni yığır:

— Heydər Əliyevdi danışan. Ona çatdır ki, təcili görüşmək istəyirəm.

Dəstəyin o biri tərəfindəki qız:

— Yoldaş Əliyev,yoldaş Qorbaçov bizə tapşırıb ki, sizi nə qəbula yazmayaq, nə zənginizi əlaqələndirməyək

H.Əliyev nə deyəcəyini bilməyərək, dəstəyi yerinə asır. Bir qədər fikirli halda dəstəyi yenidən qaldırır, başqa bir nömrə yığır:

— Qızım yoldaş Yazov yerindədisə, calaşdır, onunla danışmaq istəyirəm. Heydər Əliyevdi

Katibə qız cavab verir ki, Yazov yerində yoxdur.

Başqa bir nömrəni yığır:

— Qızım yoldaş Varennikov yerindədisə, calaşdır, onunla danışmaq istəyirəm. Heydər Əliyevdi

Katibə qız cavab verir:

— Yoldaş Əliyev, bütün müdafiə nazirliyinə göstəriş verilib ki, heç kim sizin zənginizi və ya özünüzlə əlaqəyə girməsin. Üzrlü bilin.

Tamam çıxılmaz vəziyyətdə qalan H.Əliyev, bunu deyən qıza təşəkkür edib, dəstəyi yerinə qoyur. Eyni cavabı Andrey Girenkonun, Yevgeni Primakovun katibəsindən də alandan sonra əli-qolu hər yerdən üzülmüş vəziyyətdə gəlib oturur divanda. Dərin fikrə gedir, nəsə yadına düşür, dəstəyi qaldırır, başqa bir nömrə yığır.

— Necəsən Volodya, bir az pis xəbər eşitmişəm. Nə məsələdi bu? Doğrudurmu bu?

— Bəli yoldaş Əliyev, amma mən heç nə edə bilmərəm. Artıq əmr verilib, qoşunlar 1 nömrəli hazırlıq vəziyyətinə gətirilib. Mən heç nə edə bilmərəm, xahiş edirəm mənə heç nə deməyin.

Heydər Əliyev təşəkkür edib, dəstəyi asdı yerinə. 1 neçə dəqiqə düşünəndən sonra tərəddüd, dolaşıq fikirlər içində yenidən telefonu götürüb kimisə yığdı:

— Vasili, necəsən, hardasan, səhhətin necə?

Əks tərəfdən də qarşılıqlı xoş ifadələrdən sonra mətləbə keçir:

— Bu, şərəfsiz əclaf Azərbaycana qoşun yeritmək əmri verib. Sənə demişdim onun planı barədə, amma ağlıma gəlməzdi bu cür ağılsızlığa qadir olar bu. Və mənim hər yerlə

də əlaqəmi kəsib, nə müdafiə nazirliyində, nə DTK-da, nə Mərkəzi qomitədə kiməsə icazə vermir mənimlə əlaqəyə çıxsın. Bir az çıxılmaz durumda qalmışam. Bəlkə sənin nəsə əlaqələrin qalmış olar onların hansındas, gör nə edə bilərsən

— Heydər Əliyeviç, bu şərəfsiz bizim ətrafımızın hamısını çıxarıb atıb işdən, özün bilirsən. Məndən sonra Yuri Vladimiroviçi də, Sergey Vasilyeviçi də, başqa bütün uşaqları çıxartdı. Tam əli qolu bağlı vəziyyətdəyəm mən də, özün bilirsən. Yenə çalışaram görüm nə edirəm.

Sağollaşıb dəstəyi yerinə qoydular. Daha 1-2 nəfərə zəng və hər birindən də ümidsiz cavab.

Gedib masanın üstündə rəhmətlik Zərifə Əliyeva ilə birgə olan şəklinin önündə dayanır:

— Hamı məni tərk edib gedib Zərifə, tək qalmışam. Bəs Sən niyə məni tək qoyub getdin belə vəziyyətimdə? Axı biz bu boyda ömrü bir gəlmişdik, mənim belə çətin anlarımda həmişə sən mənim yanımda olurdun, mənə təsəlli verirdin, dayaq olurdun. Niyə bu vəziyyətdıə məni tək qoyub getdin axı sən? Sən gedəndən sonra mən çox tək qaldım, hər şeyə marağım itdi, səninlə birgə qazandığım hər şeyi itirə-itirə getdim, sonuncu qalan dövlətimiz idi, o da qan içindədi, yerdə qalan hissəsini də 1 həftəyə yerlə yeksan edəcəklər, sənlə birgə gəzdiyimiz o bulvardan, gözəl parklardan heç bir əsər əlamət qalmayacaq, bizim ölkəmiz olmayacaq bir daha. Niyə məni belə vəziyyətdə tək qoyub getdin ki, mən bunların qarşısını almağa gücsüz qaldım?

Bir qədər bu vəziyyətdə durandan sonra gözlərindən axan yaşı əli ilə silib, telefona yaxınlaşdı, yenidən dəstəyi qaldırdı, bir az ötkəm görkəm alıb, yenə hansısa nömrəni yığdı:

— Rafiq, oğul, mənəm, Heydər Əliyev. Nə yerdədi işlərin, rütbəni qaldırdılarmı?

— Bəli yoldaş Əliyev, çox minnətdaram. Mən elə sizin yanınıza gəlmək istəyirdim təşəkkür üçün.

— Bilirsən, oğul, mənə heç bir təşəkkür zad lazım deyil. Mən sizin hamınızı Rusiyanın ayrı-ayrı bölgələrinin ali hərb məktəbinə göndərəndə hər birinizə tapşırırdım ki, siz ora xalqımıza yardım üçün gedirsiz. Hər biriniz Rusiyanın bir şəhərində yüksək pilləyə ucalıb, ordan respublikamıza gücünüz çatan yardım edib, dəstək verin. Bunlar yadındadır sənin?

— Bəli yoldaş Əliyev, biz də nə mümkündü, yardım edirik və etməyə də can-başla hazırıq

— Bu gün o məqam çatıb, oğul. Azərbaycanın sizə ehtiyacı var, özü də heç vaxt olmamış kimi.

Bunu deyib, bir az kövrəlir.

— Nə baş verib ki yoldaş Əliyev. Nə lazımdı mən özümdən asılı olan hər şeyi etməyə hazıram

— Özün bilirsən ki, ermənilərin dəstəyi hər yerdə böyükdüк, üstəlik də onlar xristian, biz müsəlman. Onları qoyub, bizə yardım edəsi deyil ki, ruslar. Qarabağda baş verənlərə görə mən var gücümlə çalışdım burda hamını başa salım ki, dəyməyin mənim xalqıma, oralar min ildir Azərbaycanın dədə-baba torpağıdır, həmişəki kimi sakit yaşasın hamı.

Bunlar dedi ki, yox, siz ümumiyyətcə Azərbaycandan çıxıb getməlisiz, orda ancaq rus və erməni yaşamalıdı – əsrin əvvəlində olduğu kimi. İndi də baxıb görəndə ki ermənilərin əli ilə heç nə edə bilmirlər, azərbaycan xalqı qoçaq xalqdı, onları bu dəfə də vurub ordan çıxarır, qərar verdilər ki, 20-ci ildə olduğu kimi, yenidən Bakıya Qızıl Ordu yeridilsin, və bu dəfə artıq böyükdən kiçiyə kimi bütün Azərbaycan xalqı qırdırılsın, Bakı nefti əbədi olaraq rus xalqına qalsın. Vəziyyət belədi, oğul. Bu gün səhərdən bütün qoşun növləri hazırlıq vəziyyətinə gətirilib və yaxın günlərdə Bakıya qoşun yeridiləcək. 300 mindən artıq əsgər və təpədən dırnağa qədər ən müasir silahlarla, tanklarla, artirreliya ilə silahlanmış vəziyyətdə. Bizim əliyalın camaatımız nə edə bilər buna? Heç nə. Qırılacağıq oğul, çox pis qıracaqlar bizi. Mən çox pis durumdayam, işdən də çıxmışam, səhhətim də heç yaxşı deyil, əlim heç yerə çatmır, tanıdığım adamların da hamısını bu şərəfsiz işdən çıxarıb. Ümidim sizə gəldi ki, siz gəncsiz, perspektivlisiz, o vaxt bir yerdə oxuduğunuz yerlilərinizin hamısının bir-biri ilə əlaqəsi var yəqin. Kursant vaxtı bir yerdə oxuduğun o biri yerlilərimizdən də kimlə əlaqən varsa hamınız bir birinizə xəbər ötürün. Bəlkə hansısa bu gün yaxşı vəzifədədi, və ya yaxşı vəzifədə olan dostları yaranıb bu müddətə SSRİ-nin hərbi strikturunda. Hamımız bir olmalıyıq bu günlərdə, başqa heç kimimiz yoxdur. Mənim də imkanlarım bir az çox azdı. Sizədi xalqımızın ümidi, oğul, bax gör nə edə bilirsiz, kimlərlə əlaqə yarada bilirsən, mənim adımdan de hamısına ki, biz sizi o vaxt oxumağa məhz bu gün üçün yollamışdıq,

Dəstəyin o başında gənc nə deyəcəyini bilmədən, şok vəziyyətində dillənir

— Bəli yoldaş Əliyev, 5-10 nəfərini tanıyıram. Onlar içərisində hərbi hissə komandiri, briqada komandirinin müavini olanlar da var. Bu saat hamısına xəbər verərəm, onların da tanıdığı başqa uşaqlarımız var yəqin.

Bunu deyib sağollaşırlar. Heydər Əliyev narahat vəziyyətdə otaqda var-gəl edir. Birdən yadına kimsə düşdükcə telefona sarı gedib nəsə zəng edir. Hardasa yarım saat sonra telefon zəng çalır, telefonun o başından bir gənc oğlan:

— Salam, yoldaş Əliyev, indicə keçmiş kursant yoldaşlarımız mənə məlumat verdilər vəziyyət barədə, dünəndən ürəyim partlayıdı burda, bilmirdim kimə deyim bunu, nə yaxşı ki, uşaqlarımız sizin də bu işlə əlaqəli çalışdığınızı dedilər. Nömrəni tez aldım ki bildiklərimiz sizə çatdırım. Bəli, ən yüksək templə hazırlıq planı gedir, Moskva, Leninqrad və Zaqafqaziyada olan bütün hərbi birləşmələri cəlb ediblər bu əməliyyata, hətta daxili qoşunlara, kursantlara qədər. 76 və 106-cı hava-desant diviziyası, 21 və 56-cı desant-hücum briqadası, Xəzər hərbi donanması, və b.-dan ibarət 300 mindən çox əsgəri qüvvə səfərbər olunub bu əməliyyat üçün. Tanklar, Toplar, Aviasiya və s.-lə tam təchiz ediliblər. Əməliyyatın adı “Zərbə”dir. Yeni il günü Bakıya daxil olub, al qana bürüməlidirlər camaatımızın bayramını. Abşeron yarımadası dənizdən və qurudan mühasirəyə alınmalı, 1 nəfərin də sağ çıxmasına imkan verilmədən 1 ay dayanmadan bombardman edilməlidi Bakı dəniz və qurudan, ondan sonra qoşunlar üzü Qarabağa sarı bütün rayon əhalisini qırmalıdılar. Ürəyim partlayır dünəndən, bilmirəm nə edim.

— Qorxmayın, oğul, mən də burda çalışıram. Biz hamımız əlbir olsaq, heç kim bizə bata bilməz. Burda vəzifədə

olan köhnə partiya yoldaşlarımdan kimə imkanım çatır qoşuram bu işə ki, kim nə ilə bacarır mane olsun bu əməliyyata və o qoşunların irəliləyişinə. Sizin də yəqin ki tək azərbaycanlılardan yox, rus, ukrain, belarus millətindən də olan tələbə yoldaşlarınız, dostlarınız var bu müddətdə burda, hansıların ki, bu işə əli girər. İndicə Bakıya zəng edib, o vaxt Rusiyaya hərbi məktəblərə oxumağa yolladığımız uşaqların hamısının tam siyahısını alacam, ötürəcəm sizə, əlaqəniz olmayanı da ordan tapıb, əlaqə yaradın, hamısını qoşun bu işə. Güman ki onların içərisində çox uşaq var ki, indi Rusiyanın hansısa bölgəsində lazımi vəzifədə oturub, özünün də ya kursant illərindən ya ondan sonra Rusiya dairələrində dostları, tanışları yaranıb, onların da əli çatar bu işlərdə nəyəsə. Siz də öz tərəfinizdən çalışın, görün o vaxt göndərdiyimiz uşaqlardan kimi tapıb qoşa bilirsiz bu işə. Qorxmayın, oğul, Allah bizlədi, gücünüz çatanı edin, mən də nə bacarıramsa edirəm burda, Azərbaycandakı yoldaşlar da məlumatlıdırlar və işləyirlər bu plan üzərində. Ürəkli olun, qorxmayın.

Sağollaşıb ayrılırlar. Heydər Əliyev yenidən haranısa yığır:

— Etibar, mənəm, Heydər Əliyev. Bilmirəm xəbəriniz var, ya yox, bu əclaf Qorbaçov qoşun yollayır Azərbaycana. Bir az çox qırğın ola bilər. Nə edə bilərik, bilmirəm. Mənim də əvvəlki imkanlarım yox, əlaqəli olduğum adamların hamısını işdən çıxarıb. Səhhətim də heç yaxşı deyil, dedim, məlumatınız yoxdusa sizin də məlumatınız olsun, hamımız birgə görək nə edirik.

— Xeyr yoldaş, Əliyev, nə qoşun, nə qırğın, Bolşevik hökuməti 18-ci ildəki kimi yenə də əlini xalqımızın qanına bulaşdırmaq istəyir?

— Bilmirəm, oğlul. Deyəsən elə bir şeydi. Şərəfsiz insanlar oturub hakimiyyətdə, onlardan hər şey gözləyirəm, Bacardığımı edirəm burda. Sadəcə bizim kruqun hamısını işdən çıxarıb, bir az imkanlarım əvvəlki kimi deyil. Dedim bir yerdə olaq bu məqamda, görək nə çıxış yolu tapırıq. O vaxt Rusiyanın ayrı-ayrı ali hərb məktəblərinə yolladığım uşaqların siyahısı olmalıdı Təhsil nazirliyinin arxivində. Görün necə əldə edə bilərsiz onu tez. İndi onların hər biri burda hansısa hərbi hissə komandiri, polk komandiridi. Onları da qoşaq bu işə, heç olmasa hərəsi nə iləsə təsir edə bilər işə.

— Oldu yoldaş Əliyev, mən bu saat uşaqlara məlumat verərəm, dediyinizi də tapıb çatdırarıq.

Dəstəyi yerə qoyur. Ara sıra yadına nəsə düşür, götürüb kiməsə zəng edir. Hardasa 1 saat sonra telefon zəng çalır. Dəstəyin o başından Nemət Pənahovun səsi:

— Yoldaş Əliyev, indicə Etibar bizə məlumat verdi, hamımız yığışmışıq, İsa da burdadı, Etibar da, Rasul da, Hikmət də, başqa uşaqlar da, hamımız br yerdəyik. Bu nə məsələdi, necə ola bilər axı?

— Bilmirəm oğul, bildiyim o ki, 300 minə yaxın qoşun hazırlanıb göndərilir Azərbaycana. Sabah ya birigün yola düşürlər. Onlarla birlikdə yüzlərlə tank, artirreliya, aviasiya, hərbi gəmilər Abşeron yarımadasına 4 bir tərəfdən hücum edib, çoxlu adam qırmağı planlaşdırırlar. Açıq döyüşə girməyin – onlar çox güclüdü, bizim onlara gücümüz çatmayacaq.

Dərbənd sərhədindən Bakıya qədər ərazidə partizan pusquları qurun, qüvvələrini zəiflədin. Camaatımıza deyin evlərində gizlənsinlər, ya da metroda. İmkanı çatan bir müddət Bakıdan kənara getsin. Mən o vaxt Rusiyanın ayrı-ayrı ali məktəblərinə kursantlar yollamışdım. Hər biri indi hansısa hərbi qurumda yüksək vəzifə tutur. Onlardan tanıdıqlarıma xəbər vermişəm, işləyirlər burda qarşısını almaq üçün. Onların tam siyahısını tapın mənə catdırın, burda o uşaqların hamısını tapıb qoşa bilim bu işə, heç olmasa hansısa qoşunların yolunu yarıyolda dayandıra bilsələr, bu da qənimətdir. O vaxt orda olanda xaricə müğənnilər yollayırdım. Onları məhz bu günümüz üçün yollayırdım. Hərəsi bir ölkənin rəhbərliyindən neçə nəfərlə yaxşı əlaqələr yaratmışdılar. Zeynəb o vaxt Pakistanın bütün rəhbərliyi ilə münasibət yaratmışdı, onlardan 4-ü hələ də rəhbərlikdədi. Onu mənim adımdan yollayın, gedib vəziyyəti çatdırsın, bəlkə nədəsə kömək edə bilərlər – bu məsələni beynəlxalq arenaya qaldırmaqda, ya nədəsə. Rəhmətlik Rəşid sağ olsaydı, onun Hindistanla yaxşı əlaqələri var idi, o da onlarla işləyərdi. İmkanı olanınız varsa Türkiyəyə xəbər çatdırın. Mənim burda əl qolum bağlıdı. Burdan çıxmağa imkan vermirlər. Burda da gizlənə-gizlənə yaşayıram. Telefonla da xarici yığa bilmirəm, bu gün telefonla danışdıqlarım, etdiyim zənglər əsasında bəlkə yerimi müəyyən edib, məni də bir azdan gəlib burdan aparacaqlar. Mən yaşadığımı artıq yaşamışam, gördüyümü görmüşəm, oğul. Siz cavansız, enerjiniz də çox, camaatımıza böyükçülük edin orda, mən heç vaxt belə çıxılmaz durumda olmamışdım. Çox aciz durumdayam bu saat. Yenə də görüm nə edirəm.

Bu məqamda telefon əlaqəsi kəsildi. Telefonun ümumiyyətcə səsi tam kəsildi.

Heydər Əliyev dərin fikirlər içərisində gəlib divanda oturdu. Nəfəsi çox ağırlıqla gedib gəlirdi. Əlini ürəyinə qoyub, boğula-boğula çağırdı:

— Sevil, Sevil

Səsə o biri otaqdan qızı Sevil Əliyeva qaça-qaça gəldi.

— Papaaaa, deyib üstünə atıldı. Bu saat həkim çağırıram, gözlə.

**Heydər Əliyev:**

— Olmaz, qəti olmaz, onlar məni axtarırlar, dərhal iynə vurub öldürəsidilər. O gün həkim yazan dərmanı gətir, atım, yəqin ki, keçər.

Sevil Əliyeva dərmanı axtarınca bir anda Heydər Əliyevə boğulma gəlir, boğulma içində qıvrıla-qıvrıla birdən əli boşalır, düşür yanına. Sevil Əliyeva dəhşət içərisində qışqırır:

— İlhaaaam! İlhaaaam!

— O biri otaqdan İlham Əliyev qorxu içərisində qaça qaça gəlir. Kişinin vəziyyətini belə görüb tez onu uzandırıb deyir ki, bu saat "Təcili yardım" çağırıram.

**Sevil Əliyeva:**

— Olmaz, özü dedi ki, iynə vurub onu öldürtdürəcəklər xəstəxanaya getsə.

Nə edəcəyini bilməyən İlham Əliyev divanda uzandırdığı atasının hər iki qolunu tutub var gücü ilə qışqırır:

— Papaaaaaaa!

Bir uşaq qucağında, o birini də titrəyən əli ilə yanına sıxan Mehriban Əlieva bu anda qapının yanında bir heykəl kimi donub qalaraq, bu mənzərəni gözlərindən qeyri-ixtiyari göz yaşları axa-axa şok içində seyr edir

* * *

Həmin vaxtda Rusiyanın bir başqa başında minlərlə tankçı bir komanda ilə qaçaraq üzərində və ya qülləsinə asılmış lövhədə "В Баку!" yazılmış tanklara, hərbi limanlarda matroslar, üzərində eyni yazılar, lövhələr olan hərbi gəmilərə doluşur. Quru yolu ilə tanklar, dəniz yolu ilə donanma Azərbaycana doğru hərəkətə başlayır. Minlərlə tank sürətlə Dagıstan boyu fərqli dağlardan, yollardan keçərək, Dağıstan-Azərbaycan sərhədində üzərində "Азербайджанский ССР", "Добро пожаловать в Азербайджанский ССР", "Азәрбаjҹан ССР", "Азәрбаjҹан ССР-уә хош кәлмишсиниз!" sözləri yazılmış dirəkləri tapdalayıb uçuraraq yer-yerdən Azərbaycan ərazisinə daxil olur, hərbi gəmilər eyni sözlər yazılmış dəniz plakatlarını əzərək Azərbaycan SSR sularına girir, Abşeron yarımadasını üç bir tərəfdən mühasirə əməliyyatına başlayırlar...

## 1-Cİ HİSSƏNİN SONU

# 2-Cİ HİSSƏ

## *XV fəsil:* İlham Əliyev gizli yolla Heydər Əliyevi xəstəxanaya çatdırır

Bir qədər düşünən İlham Əliyev, cəld telefona qaçır. Kiməsə zəng eləmək istəyir, telefon işləmir. Geri qayıdıb halsız vəziyyətdə divanda uzanıb qalmış atasını qucağına götürüb, var qüvvəsi ilə həyətə qaçır. Qarşısına çıxan ilk taksiyə bildirir:

— Təcili, Şeremetovo xəstəxanasına.

Xəstəxanaya çatan kimi sürücü də kömək edir, qəbul otağına çatdırırlar, oradan da dərhal tibbi araba ilə reanimasiyaya. İlham Əliyev xəstənin adını qeydiyyat kitabında Yevgeni Rudenko kimi qeyd etdirir.

* * *

10 gün sonra. 14 yanvar. Şeremetovo xəstəxanasının kardiologiya şöbəsinin 4 saylı palatasında: Heydər Əliyev xəstə paltarında, İlham Əliyev və daha bəzi qohumlar:

— Sən onunla yox, mənim telefon kitabçamda adı var idi bəzi uşaqların, Rafiq, Rüstəm. Onlarla əlaqə saxla. Ondan əlavə yoldaşlar var idi, Sadıqov, Rəhmanov, gör onlar nə deyir.

— Papa, hamısı ilə əlaqə saxlamışam. Hamısı deyir ki, dayandı artıq o məsələ, narahat olma. Özün də görürsən ki, üstündən neçə gün keçib, heç nə yox. Allaha şükr, qəzet-televiziyanı da özün izləyirsən, görürsən ki, heç bir xəbər yox.

— Yox, o manyak belə tez əl çəkən deyil bu plandan, indi alınmadısa da, nə vaxtsa yenidən qayıdacaq bu plana, gərək burdan tez çıxıb, gedib lazımi tədbirlər görüm

— İnşaallah, papa. Şükr yaxşı qurtardın. Ayın axırına inşaallah buraxacaqlar, onda da bir az istirahət edib, davam edərsən işini.

— Əşşi, nə ayın axırı. Mən artıq sap-sağlamam. De ki nə dərman zad var yazsınlar, evdə alıb edərik. Mən öyrənməmişəm belə yeyib-yatmağa, qapalı yerdə qalmağa.

— Narahat olma, papa. Bir az da səbr elə, deyərəm, imkan daxilində tez buraxarlar evə. Sənin üçün bu saat ən təhlükəsiz yer elə buradı

Gülüşürlər

## *XVI fəsil:* **20 yanvar hadisəsi baş verir**

20 yanvar 1990-cı il. Bakı

Gecənin sükutunu qəfildən şəhərin 4 bir tərəfindən Bakıya yağış kimi yağmağa başlayan mərmilərin uğultuları pozur. 4 bir tərəfdən Bakıya qarışqa kimi daraşan minlərlə tank qarşısına çıxan hər şeyi və hər kəsi tapdalayıb keçməkdən sanki bir zövq alır. Bütün Bakını balasını sinəsinə sıxıb qaçan anaların, param-parça olmuş yaralıların, üstünə yeriyən tankdan qaçmağa yeri olmayan qoca və şikəstlərin vəhşət dolu fəryadı lərzəyə gətirir. Kişilər silaha sarılaraq partizan müharibəsi aparırlar.

Əsrin əvvəllərində baş verən eyni vəhşilikdən fərqli olaraq, Bakı əhalisi bu dəfə qabaqcadan xəbərdar edildiyindən əhali dünəndən metroda və digər sığınacaqlarda gizlənmişdi, bu səbəbdən də qadın, qoca və uşaqlar bu vəhşilikdən mümkün qədər xilas ola bildilər.

# *XVII fəsil:* Heydər Əliyevin siyasi blitzkriklə 20 yanvar qırğınını dayandırır

21 yanvar 1990-cı il. Moskva. Şeremetova xəstəxanası. Heydər Əliyevin yatdığı palata. Heydər Əliyev, İlham Əliyev və daha bir neçə yaxınlar.

İlham Əliyev dünəndən bəri ən müxtəlif bəhanələrlə Heydər Əliyevi informasiya vakuumu şəraitində saxlayır. Mətbuat və televiziya onsuz da bu barədə heç nə yazmır, onların əsas mövzusu ancaq Yenidənqurmanın uğurları, Sovet zəhmətkeşlərini gözləyən xoşbəxt gələcək, M.S.Qorbaçovun tərifidir. Bakı hadisələri barədə söhbət ancaq dildən-dilə yayılır, o da Azərbaycanla nəsə ciddi əlaqələri olan adamlar arasında. Nəhayət Heydər Əliyev təsadüfən dəhlizdə kimdənsə bu barədə eşidir. Və bir qədər sonra qap-qara dolmuş vəziyyətdə geri qayıdır. Sakitcə çarpayının kənarında oturur. İlham Əliyev:

— Papa, noolub, nə məsələdi?

Cavab vermir.

Bir də soruşur. Handan-hana H.Əliyev dillənir:

— Sən buna görə dünəndən bəri heç kimi mənim yanıma gəlməyə, məni bayıra çıxmağa qoymursanmış bütün günü?

— Nəyə görə?

Sonra bir qədər pauza verərək:

— Sən bilsən nə edəsi idin? Olan oldu, etdiklərini etdilər. Bir para ürəyinə pis təsir edəcəkdi, halın pisləşəcəkdi. Biz nə edə bilərik bu saat.

Bir az fasilə verərək:

— Amma biləsən ki, istədiklərinə nail ola bilməyiblər. Sənin səylərin sayəsində hücumun qarşısı 90% alındı. O sən əlaqə saxladığın uşaqlarla mən mütəmadi əlaqədə idim sonradan da. Telefonda sənin son yığdığın nömrələri götürmüşdüm. Həmin uşaqlar bir-biri ilə əlaqə yaratdım, belini qırdılar o hücumun. 300 min nəzərdə tutmuşdular Bakıya hücum edəcək qüvvəni. Bundan Bakıya heç 30 min gedib çatammadı. Uşaqlar ən müxtəlif üsullarla pozdular onların planlarını. Bir hissəsinə qış paltarı əvəzinə yay paltarı verdirdilər, onlar da buna görə qiyam qaldırıb getməkdən imtina etdilər, artırreliyaya ancaq tank və təyyarə əleyhinə olan mərmilər verdirdilər, onlar da gedib çatanda yerində gördülər ki, bu qədər tankları, topları demək olar ki, mərmisiz gedibmiş ora sən demə. Texnikalarına yanacaq ancaq Qusara qədər vurulmuşdu, orda da yerli uşaqlar durub gözləyirdi bunları ki, yerlərdə bunlara yanacaq çatdırılmasına imkan verməsinlər. Dağıstanda gecə bütün texnikalarının təkərlərinə qabacadan hazırlanmış dəmir lomlar taxıldı, səhər yerindən tərpədəndə 50 % texnikanın təkəri ordaca sıradan çıxdı. Təsəvvür edirsən, böyük bir tank polkunu Dağıstanda babanın o vaxtkı dostu Ramiz əminin indi orda Polis rəisi işləyən oğlu saxlatdırıb ki, tankın sürücülərinin sürücülük vəsiqəsi yoxdur, buraxammaram. Üstəlik də BMP sürücüləri sərnişin daşıyan statusda olduqlarından, onların ümumiyyətcə “D” kateqoriyalı sürücülük vəsiqəsi olmalıdı. Təsəvvür edirsən, necə gülməli vəziyyət? Beləcə, 15-20 gün gec gedib çatdılar ora, o da ki, cəmisi 10% qüvvə ilə. Onların da mərmiləri yox səviyyədə. Bu vəziyyətlə çətin ki, onlar orda 2-3 həftədən artıq duruş gətirə bilsinlər, qayıdıb çıxıb gedəsidilər. Bir sözlə, düzdü, ölən-itən var, amma onlar istədiyi kimi olmadı, təhlükənin

qarşısını ala bildin sən. Və sağ olsun gənclərimiz, yaba ilə, balta ilə, ən kustar üsullarla parçalayırlar onları orda bu saat.

**Heydər Əliyev:**

— Bunu bəs məndən niyə gizlədirsən 1 aydı? Mən bunları bilsəydim, heç o 10%-ə də imkan verməzdim. Mübarizə işində 1 saniyə də ayıq-sayıqlığını əldən vermək olmaz, dincəlmək, mürgüləmək olmaz, ta ki, düşmənməğlub olmayınca, diz-üstdə çökməyincə. Yoxsa düşmən həmin anı gözləyib məhz o anda vurar sənə zərbəni. Sən nə danışırsan: Bakıda bu gün tanklar gəzir, raketlər uçur, gənclər özünü sipər edib tanklara. Xalqımız orda qeyri-bərabər bir döyüşdə ölüm-dirim savaşındadı. Biz amma burda istirahət edirik?

**İlham Əliyev:**

— Vallah yox, mən istirahət etməmişəm bu 1 ayda. Sənin zəng etdiyin adamların hamısına zəng edib, təzə ünvana köçdüyümüzü bildirdim – burdakılara da Bakıdakı uşaqlara da. Gecə də zəng edirdilər, çalışırdım onların hamısını koordinasiya edim, Bir növ koordinasiya mərkəzi idi bizim ev bu bir ayda. Sənin də vəziyyətin bəlli: neçə gün komada. Ondan sonra da həkimlər dönə-dönə tapşırdı ki, pis xəbər deməyin buna bir müddət. Bundan artıq nə edə bilərdik biz?

**Heydər Əliyev:**

— Desən nə olacaqdı? Öləcəkdim? Bundan belə mənim ömrüm onsuz da elə çox qalmayıb. Mən öz səhhətimi bilirəm. 1 ildən sonra sakit bir vaxtda, sakit bir guşədə ölməkdənsə bu gün düşmənlərin ölkəmizə hücum etdiyi bir gündə xalqın önündə tankın altında qalıb ölməkdən şərəfli bir ölüm olardımı? Mənə sonsuz böyük şərəf olardı o tanklar mənim

meyidimin üstündən keçib girsəydi Bakıya. Ondan sonra məni sevən minlərlə gənc mənim qisasımı almaq üçün qəzəb hissi ilə o tanklara hücum edib yaba-balta ilə parça-parça edəcəkdilər onları, mən də məzarda rahat olacaqdım ki, Bakıya tanklar mənim meyidimin üstündən keçib girdi və hətta ölümümlə də xalqıma xidmət etdim, mənim ölümüm xalqımı düşmənə qarşı birləşməyə və ayağa qalxmağa stimullaşdırdı.

**İlham Əliyev:**

— Papa, özün deyirdin ki, hər kəs anadan olanda bir missiya ilə doğulur. Arı ailəsində hər arının vəzifəsi qabaqcadan beynində proqramlaşdırıldığı kimi, sənin də bu xalqın taleyində rolun olması yazılıbsa, sənin hələ uzun bir ömrün olacaq və bu xalqı tam xilas etməyincə, Allah sənə ömür verəcək.

**Heydər Əliyev:**

— Sən nə danışırsan? Mən nə üzlə çıxacağam onların qarşısına bundan belə – dar günündə xalqımın yanında olmadımsa? Bu saat çalış bilet tap, mən bu gün Bakıya uçmalıyam. O yazıq cavanlar nə bilir döyüş nədir? Xaotik formada hərəsi bir binanın dalından tanka molotov kokteli atmaqla o boyda Sovet ordusuna müqavimət etmək olar? Mən o boyda Hitler müharibəsini, ingilis-alman nizami ordularına qarşı özümdən böyük, təcrübəli generalların necə mübarizə planı cızdıqlarını görmüş bir insanam. DTK-mızda, Polisdə, Ordu sistemində çalışmış nə qədər qabiliyyətli generallarımız, polkovniklərimiz olubsa, hamısını təkcə özüm tanıyıram, çünki özüm vermişəm o rütbələri onlara. Təcili onları tapıb, başıma yığa bilsəm bu müqavimət də xaotiklikdən çıxıb, tam döyüş qaydalarına uyğun nizamlı mübarizə formasına keçə bilər. Azərbaycanda Sovet dövlətinin gizli-aşkar kifayət qədər hərbi-hissələri

var idi, indi də durur onlar. Hər birində də lazımi qədər silah-sursat. Onlara necə daxil olub, silah-sursatını necə ələ keçirməyin yollarını tək özüm bilirəm, çünki onların hər birinin zəif nöqtələri mən hələ



DTK-da işləyən dövrdən bizə bəlli idi. Hər birinin rəhbərliyində də özümün yetirmələrim var, nə lazımdı onlar da kömək edəcəklər daxildən. Gənclərimizi o silah-sursatla silahlandırıb, həmin komandirlərlə təchiz etsək, minimal itki ilə əsl təşkilatlanmış müqavimət onda başlayacaq, indiki kimi başıpozuq partizan hərəkatı ilə bu döyüş Əfqanıstan kimi sonsuzluğa qədər uzanacaq. Sovet Ordusunun da gücünə mən bələdəm – gözləmədikləri müqaviməti görəndə hamısı tankı-topu qoyub qaçasıdılar.

**İlham Əliyev:**

— Papa, mümkünsüzdü sənin bu saat Bakıya getməyin. Mən deməmişdim sənə, səni bura gətirəndən bir gün sonra evimizə DTK basqın etdi, səni axtardılar. Deyəsən telefon danışıqlarına əsasən təyin etmişdilər yerimizi. Mən azdırdım ki, Mərkəzi Xəstəxanaya yerləşdirmişik. Onlar gedəndən sonra tez evimizin yerini dəyişdim. O gün də Bakıdan Calal əmi zəng etmişdi ki, Moskvada tapammayıb, indi də Bakıda axtarırlar Heydəri, tapsalar öldürəcəklər. Yəni heç nə edə bilməyəcəksən, bir para mənasız, dəyərsiz bir ölümlə rastlaşacaqsan yarıyolda. Üstəlik, dünəndən bəri Bakıya uçuşları dayandırıblar.

**Heydər Əliyev:**

— Mən nəsə etməliyəm bu məqamda. Döyüş gedir ölkəmizdə, hücum edib düşmənlər ölkəmizə, başa düşürsən sən? Hər kəs ön cəbhədə olmalıdı, hər kəs öz sahəsi üzrə silaha sarılıb meydana atılmalıdı bu gün. Kim nəyi bacarır onu etməlidir. Daş, torpaq, ağac, hava, su – hər şey silaha çevrilməlidi bu gündə. Dəmirçi bütün başqa işini bir kənara qoyub, bacardığı silahı düzəltməlidi, traktorçu onların yollarında xəndəklər qazmalı, sürücü gecə vaxtı öz avtomobilini yandırıb düşmən düşərgəsinə sürməli, kimyaçı kustar üsulla partlayıcılar düzəltməli, yazıçı-şair qələmi silaha çevirib insanları döyüşə ruhlandırmalı, siyasətçilər söz silahı ilə düşməni iflic vəziyyətinə salmalıdılar. Yadındadır, ölkəsinə hücum olanda Dədə Qorqudun od qalayaraq bütün qonşu tayfalarını öz xalqına köməyə çağırması? Gücü silaha çatmayan bir qoca rabitəçi vəzifəsini öz üzərinə götürüb, döyüşün gedişatına döyüş meydanındakı gənclərin hər birindən daha böyük fayda verir. Mən də bu saat o cür bir zirvə tapıb, elə bir od qalamalıyam ki, bütün dünya bu hadisədən lərzəyə gəlsin, bütün yer kürəsi bizim xalqa köməyə tələssin, düşmənin başına yer-yerdən od ələnsin.

**Bir qədər düşünərək:**

— Onlar bunu ört-basdır etməyə çalışacaqlar, bilirəm – 1986-da Kazaxıstanda əhalini qırıb, ört-basdır etdikləri kimi. Amma mən buna imkan verməyəcəm. Azdan-çoxdan bir az tanınmış adamam, hansısa adi azərbaycanlının səsini heç kim eşitməsə də, mənim səsimə istənilən xarici ölkə səfirliyi, tanınmış dünya qəzetləri eşidəcək, yayacaq. Mən ən azından bu faciəni təcili olaraq bütün dünyanın diqqətinə çatdıra bilərəm ki, bilməyən də bilib, xalqımızın yanında olsun bu çətin anlarında,

Qorbaçovun da, başqalarının da gözü qorxsun, it kimi peşiman olsun bizim xalqa toxunduğu üçün. Gücüm buna çatar ki, bu məsələ ətrafında haray qaldırım, dünyanın diqqətini xalqıma qarşı törədilən bu vəhşiliyə yönəldim ki, gizlədə bilməsinlər bu cinayəti, ölənlərin qanı yerdə qalmasın, bizə dost olanlar dadımıza tələssin. Bəsdir, Rus imperiyası 19-cu əsrdə bir qırdı bizi, 1905-də bir qırdı, 1920-də ildə bir qırdı, 30-cu illərdə bir qırdı. Nəhayət ki, buna son qoyulmalıdı. Qoy bütün dünya bilsin hər şeyi və rusa nifrət edən hər kəs bizə yardıma gəlsin bu ağır anımızda. Get yoldaşlara məlumat ver, təcili xarici ölkələrin səfirliklərinin əməkdaşlarını, jurnalistləri cəmləsinlər bizim Moskvadakı nümayəndəliyinə, mən mətbuat konfransı keçirib, Rusiyanın bizim başımıza açdığı oyunları bütün dünyaya bəyan etməliyəm orda. İnanıram ki, kimsə bizə köməyə gələcək.

2-3 saat sonra artıq SSRİ-nin Azərbaycana hücumu üçün dönüş nöqtəsi olan Heydər Əliyevin Moskvada keçirdiyi həmin məlum brifinq ən müxtəlif dillərdə bütün dünya ölkələrinin mərkəzi televiziya kanallarında nümayiş etdirilirdi:

▣ “Əl-Cəzirə” kanalı (həmin brifinqdən fraqmentlər göstərərək): *“Azərbaycanın keçmiş rəhbəri Heydər Əliyev 1 saat əvvəl Moskvada keçirdiyi Mətbuat konfransında bildirib ki, Sovet dövləti Azərbaycana qoşun yeridib, Azərbaycanda kütləvi qırğın törədib və bu fəaliyyət bu saatlarda da davam etməkdədir. Sovet mətbuatında bu barədə heç nə yazılmır, baş verənlər ətrafında ciddi informasiya vakuumu yaradılıb. Nə baş verdiyini yerində öyrənmək üçün “Əl-Cəzirə” kanalı təcili olaraq öz müxbirlərini hadisə yerinə ezam*



*edir”* (kadrlarda müxbir formalı bir-neçə şəxsin videoavadanlıqla birgə uçmağa hazırlaşan helikopterə sarı qaçdığı görünür).

▣ SNN (həmin brifinqi göstərərək): *“Nə baş verdiyini yerində öyrənmək üçün SNN kanalı öz Türkiyə bürosunun müxbirlərini təcili olaraq Azərbaycana ezam edib və müxbirlərimiz artıq hadisə yerində Heydər Əliyevin verdiyi məlumatları araşdırmaqdadırlar”*

▣ Afrika ölkələrindən birinin televiziyası *“BBC kanalının indicə yayımladığı məlumata görə Azərbaycanın keçmiş rəhbəri Heydər Əliyev Moskvada brifinq keçirərək Sovet imperiyasının Bakıya qoşun yeritdiyini və orada böyük qırğınlar törətdiyini bildirib. BBC kanalının təcili olaraq Bakıya ezam etdiyi müxbirlər hadisə yerindən bu görüntüləri əldə edib” (Bakı küçələrində işğalçılarla yerli əhali arasında (o cümlədən 13-14 yaşlı uşaqlar da iştirak edir) partizan döyüşləri gedir. Gənclər arxadan şığıyıb “molotov kokteyli” ilə tankları partladırlar; Dörd bir tərəfinə dəmir list qaynaq edilərək zirehləşdirilmiş traktorlarla düşmən düşərgəsinə hücum edib silah-sursat dolu avtomobillərini qaçırırlar və s.)*

▣ Pakistanda Kabulun mərkəzi hissələrindən birində quraşdırılmış böyük monitorda həmin brifinq və kadrlararası da SNN və BBC kanallarından əldə olunan Bakı döyüşlərindən kadrlar göstərilir *(tanklar əhalinin sığınacaq yeri olan metroya daxil olub, eskalator aşağı mərmi atır, içəridə qışqırıq və param-parça insanlar. Üstü limonka ilə dolu 15 yaşlı bir kamikadze-gənc özünü arxadan tankın üstünə atıb onu partladır. Başqa bir kadrda pəncərədən evə düşən mərmidən hər iki valideyni rəhmətə getmiş uşaqlar, onların param-parça olan meyidləri üstündə şüvən qoparır),* minlərlə pakistanlı qadın və kişi monitor qarşısında göz yaşını silə-silə izləyir bu görüntüləri: *“Bu dəqiqələrdə qardaş Azərbaycanda baş verənlərlə bağlı Pakistanın dövlət başçısı və hökumət üzvləri təcili toplantı keçirilir. Toplantıda bu hadisə ilə bağlı təcili olaraq BMT-nin Təhlükəsizlik Şurasının iclasının çağırılması məsələsi müzakirə edilir”* (hökumət üzvlərinin iclas otağına keçdiyi göstərilir)



▣ Türkiyə televiziyasında Türkiyənin o vaxtkı baş naziri Süleyman Dəmirəl (Çıxışlar arasında həmin brifinqdən fraqmentlər göstərilə-göstərilə türk dilində danışır): *“Heydər Əliyevin bu çıxışı bizə çatan kimi Sovet imperiyasının NATO-nun birbaşa sərhədinə böyük həcmdə qoşun toplaması və əlahiddə aktivləşməsi barədə dərhal NATO üzrə müttəfiqlərimizi məlumatlandırdıq və hazırda diplomatik kanallarla bir sıra digər işlər həyata keçirməkdəyik. Eyni zamanda Türkiyədə fəaliyyət göstərən bütün informasiya agentliklərinə çağırış edirəm: canı-canımızdan, qanı-qanımızdan olan doğma qardaşımız Azərbaycan bu gün dar gündədir. Heydər Əliyevin bu haray səsini bütün dünya dillərinə tərcümə edərək dayanmadan yayımlamağınızı, bütün dünyanı dar gündə olan qardaşımızın köməyinə çağırmağınızı hamınızdan rica edirəm!”* (kadrlarda əhalini qovaraq arxada qalanları tankın altında əzən tanklar. Əhalinin qaçıb sığınacağa çatmasına macal yaratmaq üçün SNN-Türkiyə kanalının müxbir formasında olan çəkiliş heyəti özlərini tankların yolu üstünə atıb, videoaparatlarını yolun ortasında quraşdırır və əl-qolla işarə edib, qışqırırlar ki, biz müxbirik, bizə müsahibə verin. Bir neçə müxbir də əlində mikrofon artıq dayanmış tanklara yaxınlaşıb, müsahibə verəcək zabit axtarır)



Bakı küçələrində isə gecə vaxtı minlərlə Azərbaycan oğulları əldə avtomat qışqırışırlar:

— Heydər Əliyev bütün dünyanı bizə köməyə çağırdı. Gedin indi, əclaflar, bizi kimsəsiz, köməksiz, sahibsiz, əliyalın bilmişdiz. Rədd olun bizim torpaqlarımızdan. Bura bizim ata-baba yurdumuzdu, onlardan bizə qalmış, bizdən də övladlarımıza qalacaq mirasdı. Ona göz dikənlərinsə məzarı olacaq bu torpaqlar. Alın cəhənnəm payınızı!

Bunu deyib Azərbaycan oğulları “İrəli!” qışqıraraq avtomat və “Molotov kokteylləri” ilə düşmən tankları üzərinə hücuma gedirlər.

1 gün sonra artıq SSRİ rəhbərliyi bu siyasi blitzkriq qarşısında tam şəkildə nokaut vəziyyətinə düşərək, təcili surətdə öz qoşunlarını Azərbaycandan çıxarmağa məcbur qaldı.

# *XVIII fəsil:* Heydər Əliyevin Azərbaycana qayıdışı

5 ay sonra

Moskvadan kənarda binalararası bir yerdə qara bir avtomobil dayanır. Yaxınlıqdakı köhnə bir avtomobildən sadə bir geyimdə və şlyapada Heydər Əliyev düşür və bu avtomobilə yaxınlaşaraq arxa qapını açıb oturur. Sürücü ilə arxa kabinə arası arakəsmə ilə bağlıdır. Heydər Əliyev girib əyləşəndən sonra:

— Salam, Volodya. Mən gəlmişəm, özümü təslim edim. Həbs elə məni.

**Avtomobildəki şəxs:**

— Bu nə sözdü Heydər Əliyeviç. Mən öz dostlarımı heç vaxt satan adam olmamışam – (M.S.Qorbaçova işarə edərək) bəzi adamlardan fərqli olaraq. Problem nədir, xahiş edirəm təmkinlə izah edin. Bu avtomobilimdə dinləmə qurğusu yoxdur. Vaxtilə olduğu kimi, köhnə dostlar kimi dərdləşə bilərik.

— Mən axtarışdayam, izlənilirəm, təqib olunuram, Azərbaycana uçmaq istədim. Dedilər sizin adınıza STOP qoyulub, Siz Rusiyanı tərk edə bilməzsiz və buna cəhd edən kimi də bu barədə lazımi orqanlara xəbər verməliyik, gəlib sizi aparmalıdılar. Mənə hörmət edib, yalnız mən uzaqlaşandan sonra xəbər verdilər lazımi orqanlara. Slezko ilə, Gerasimovla, Puqonun özü ilə danışdım. Hamısı deyir bizlik deyil. Bəs kimlikdi? Nədi bu? Nədi mənim günahım?

— Heydər Əliyeviç, eyni qayda ilə mən də Sizi əmin edirəm ki, mənim də bütün bunlardan xəbərim yoxdur. Bu

axtarışı mən sanksiyalaşdırmamışam. Və dəqiq bilirəm ki, Qorbaçov da belə bir fikirdə olmayıb.

— Bəs kim verib bu qərarı? Nə məsələdi bəs bütün bunlar? Mən niyə öz doğma vətənimə gedə bilmərəm? Mən burda onsuz da heç kimə lazım deyiləm. Pensiyaya çıxmış insanam. Niyə qalmalıyam burda?

— Heydər Əliyeviç, ümumiyyətcə deyim ki, ölkədə nələr baş verirsə, mən özüm də hələ tam anlaya bilmirəm. Ölkəni kim idarə edir – bunu hələ müəyyən edə bilməmişəm. Təkcə onu bilirəm ki, kimsə idarə edir – amma o kimsə Qorbaçov deyil. Hansısa bir gözəgörünməz əldir. Və özü də idarə edə-edə bizi uçuruma aparır. Çox maraqlı və planlı bir oyun gedir ölkədə. Biz sizinlə köhnə DTK məktəbi keçmiş insanlarıq, üzdə olmayan çox şeyləri görüb bilən insanlar olmuşuq. Mənim öz aləmimdə anlayıram ki, bizim neçə illərdir bütün ömrümüzü həsr edib mübarizə apardığımız MKİ qarşısında biz məğlub olmuşuq və artıq bizim bütün sistemimiz addım-addım onun nəzarətinə düşür, ölkə tam şəkildə onun casus şəbəkəsinin əlinə keçir, onlar bütün sferalara nüfuz edib, bizləri, o cümlədən bu ölkənin bütün xalqlarını bir-biri əleyhinə qaldırmaqla, SSRİ-nin öz gücünü özünə qarşı yönəltmək istəyirlər. Mən gələcəyi çox dəhşətli görürəm.

— Mən heç nə bilmirəm, Volodya, mənə kömək elə, öz ölkəmə qayıdım. Mənə çox çətindi burda, öz vətənimdən uzaqda. Mən heç əvvəldən də gəlmək istəmirdim bura. Andropov təkid etdi deyə gəldim. Bu gün çox peşimanam bu qərara görə. Mən heç kimə heç nə etməmişəm. Amma daim hədə, qorxu, risk altında yaşayıram, ölkəmə yolum bağlı, övladlarımın da həyatı təhlükədə.

— Siz bir az da dözə bilərsizmi, yoldaş Əliyev? Siz bizə burda lazımsız. Biz – köhnə Andropov komandasının öz başqa planımız var. Bütün komandamızı bir yerə yığıb, ölkəmizi 70 il mübarizə apardığımız Qərb dövlətləri qarşısında məğlubiyyətdən, onların bizə qarşı hazırladığı dəhşətli planlardan xilas etməliyik. Andropov komandası kimi siz bu işdə bizə çox lazımsız.

— Volodya, mən heç vaxt heç bir komandanın üzvü olmamışam. Düzdü, Andropov DTK-da olanda da, ondan sonra da məni həmişə dəyərləndirib, amma onun məni Moskvaya gətirməsi – məni pis duruma salıb. Bu gün siz öz ölkənizi xilas etmək barədə düşünürsüz. Bəs mənim ölkəmi kim xilas edəcək? Heç olmasa Moskvada atəş, müharibə yox. Mənim ölkəmdə artıq neçə ildir müharibədir və zamanca da bu odalovun şiddəti daha da artır. Bunun qarşısını kim alsın bəs? Siz öz xalqınızın dərdini çəkdiyiniz kimi, mən də öz kiçik xalqımın dərdini çəkirəm, xilasını düşünürəm. Onlara kömək edəcək kimsə yox orda. Mənə orda daha çox ehtiyac var, burda isə mənim kimilər çoxdur.

**Vladimir Aleksandroviç Kryuçkov** bir qədər fikrə dalaraq:

— Siz haqlısız Heydər Əliyeviç. Amma mən bu saat heç nə düşünə bilmirəm, Hər şey çox dolaşıb. Və getdikcə də ancaq xaosa doğru gedir. Ətrafımda sizin kimi insanlar çox ehtiyac duyurdum. Bəlkə birgə düşünüb, çalışıb ölkəmizi, xalqlarımız gözləyən o vahiməli gələcəkdən necəsə qoruya bilərdik.

Bir qədər də pauza edərək:

— Siz nə vaxt getmək istəyirsiz?

**Heydər Əliyev:**

— Günü bu gün, bu saat

**V.A.Kryuçkov:**

— Mənə icazə verin, vəziyyəti 1-2 gün araşdırım, sizin burdan təhlükəsiz çıxa bilməniz üçün şərait yaradım. Həmin yoldaş vasitəsilə sizə vaxtı və yeri məlumat verəcəm. Amma Rusiyadan çıxandan sonra Sizin təhlükəsizliyinizə zəmanət verə bilmirəm, çünki Azərbaycanın özündə də heç nə DTK-nın nəzarətində deyil – heç DTK-nın özü də. Hər şeyi hansısa 3-cü, 4-cü qüvvələr idarə edir.

— Mənim öz vətənimdən qorxum yox, vətənim mənə bura qədər təhlükə törətməz. Mən ölsəm də, qoy orda ölüm, Mən burda hətta təhlükəsiz yerdə qalsam da, özümü ölmüş kimi hiss edirəm.

— Danışdıq, Heydər Əliyeviç. Mən sizə xəbər yollayacam.

Sağollaşıb, ayrılırlar. Heydər Əliyev bayaqdan onu gözləyən üzərində "Такси" sözü və işarəsi olan gəldiyi avtomobilə əyləşib, öz evinə qayıdır.

Bundan bir-neçə gün sonra əlaqə yaradan yoldaşlar xəbər gətirir ki, iyul ayının 20-də Rusiyanı tərk etməsi üçün hər şey hazırlanıb. Heydər Əliyev köhnə kəşfiyyatçı kimi düşəcəyi yerdə – Azərbaycanda vəziyyəti test etmək üçün iyun ayının 1-nə kəşfiyyat məqsədilə bilet aldırır. Bakıdakı tərəfdarları gizli üsulla onun gəlməli olduğu reysin kimlər tərəfindən necə qarşılanması, sərnişinlərin necə yoxlanmasını müşahidə edir. Məlum olur ki, həmin təyyarə Bakıya çatan kimi təyyarə 4 bir tərəfdən terror dəstələri və hətta ələ alınmış aeroportun milis

işçiləri tərəfdən mühasirəyə alınır, birgə Heydər Əliyevi axtarırlar. Axtarış boşa çıxandan sonra, məyus halda geri qayıdırlar. Ondan sonra bir-neçə dəfə də bu cür aldadıcı manevr edilir.

Plana uyğun olaraq iyulun 20-si gecə saat 2:25-də dövlət nömrəli qara Limuzun Heydər Əliyevin yaşadığı mənzilin qarşısında dayandı. Plana görə ilk olaraq Heydər Əliyev, ondan 3 gün sonra oğlu İlham və onun ailə üzvləri Bakıya çatdırılmalı idilər. Heydər Əliyev oğlu, gəlini və nəvələri ilə vidalaşıb, avtomobilə oturur. Avtomobil yola çıxandan sonra, Heydər Əliyev:

— На кладбищу, на пару минут.

**Sürücü:**

— Гейдар Алиевич, у нас мало времени.

**Heydər Əliyev:**

—Знаю, но, должен ехать.

Avtomobil qəbiristanlığın yanında dayanır. Heydər Əliyev maşından düşərək Zərifə Əliyevanın qəbrinə yaxınlaşır, yanında duraraq deyir:

> — Bağışla məni, Zərifə. Bu 36 ildə mən səni 1 gün də tək buraxmamışam, nəzarətsiz qoymamışam. Öz gözümün qabağında olmusan bu 36 ildə daim. Burda olanda da hər gün sənə baş çəkmişəm. Amma indi artıq çıxış yolum yoxdur. Srağagün də dedim, mən səni də, uşaqlarımızı, nəvələrimiz də bu cəhənnəmdən xilas etmək üçün bir müddət səni bu yad yerlərdə tək qoyub getməliyəm. Başqa yolum yoxdur. Bu qədər vaxtda nə qədər düşündüm-daşındım, səni buralarda tək buraxıb getməmək üçün nə qədər gizlənib yaşadım. Amma artıq görürəm ki, mənim bu inadıma görə hamımız itiririk, uşaqlarımız, nəvələrimizin də həyatı uçurma gedir. Sən bu gün haqq dünyasındasan, sənə də agahdı evimizin-ailəmizin, uşaqlarımızın, nəvələrimizin bu dar günü, əziyyəti

> və bilirəm, sən də narahatsan ailəmizin başına gələn bütün bu faciələrə görə. Mən heç vaxt aciz olmamışam, Zərifə. Amma bu gün çox acizəm, çox çıxılmaz durumdayam. Səni burda tək qoyub getmək qorxusu mənim əl-qolumu bağlayıb. Amma hamımızı xilas etmək üçün, bu cəhənnəmdən uşaqlarımızı da, səni də azad etmək üçün mən məcburam səni bir müddət tək qoyum. Yadındadı, hərdən-birdən məni Moskvaya çağırırdılar, deyirdin ki, köynəyini yanıma qoyub yatıram, elə bilirəm yanımdasan. İndi də elə bil bir-neçə müddətlik ezamiyyətə gedirəm, qayıdacam. Bağışla məni. Söz verirəm. Qısa vaxtda səni burdan aparacam vətənimizə, öz yanıma. Burda səni tək qoymayacam. Söz verirəm buna. Bağışla məni.

Bundan sonra keçib, qeyri-ixtiyari axan göz yaşlarını silə-silə bir-neçə dəqiqə də kənardakı skameykada oturur, sonra ayağa qalxıb, baş daşını öpüb, dəsmalla göz yaşını silə-silə bayırda onu gözləyən avtomobilə minir. Avtomobil ildırım sürəti ilə Domodedovo aeroportuna doğru şütüyür. Yol boyu Polis keçid məntəqələri bir-birinə xəbər ötürə-ötürə avtomobil yaxınlaşan kimi yolu təcili açırlar. Planlaşdırıldığı kimi, aeroporta təyyarənin uçuşuna 1 dəqiqə qalmış çatırlar və qabaqcadan anonim adla bronlaşdırılan bilet, çatan kimi Heydər Əliyevin adına rəsmiləşdirilir. Heydər Əliyev təyyarəyə keçən kimi Dispetçer məntəqəsinə lazımi məlumat daxil olur və texniki baxış bəhanəsi ilə 5 dəqiqə ləngiməyə hazır olan təyyarə ehmalla havaya qalxır.

Heydər Əliyevin Rusiyanı tərk etməsi məlumatı, biletinin rəsmiləşdirilməsi məlumatına əsasən təyyarə havaya qalxandan 1 saat sonra NATO-nun bu işə məsul şəxslərinin diqqətinə çatır və dərhal Bakıdakı agentura şəbəkəsinə məlumat verilir. Təyyarə Bakıya çatınca terror qrupları tələm-tələsik Aeroportu mühasirəyə alır, o cümlədən qabaqcadan ələ alınmış Aeroport milisi də onlarla əlbir hərəkət edir. Təyyarə aeroporta enib,

sərnişinlər təyyarədən çıxan kimi, qabaqcadan qurulmuş plana uyğun olaraq boy-buxunca təxminən Heydər Əliyevə oxşar insanların yerləşdirildiyi, pəncərəsi qara plyonka ilə örtülmüş bir neçə bahalı Volqa avtomobili fərqli çıxışlara doğru yön alır və orda avtomobilin salonunu, baqajını yoxlayan milislərlə qəsdən mübahisə yaradılır. Bu müddətdə Heydər Əliyev onun üçün qabaqcadan hazırlanmış köhnə bir Volqa avtomobili ilə aeroportun arxa tərəfində daş hasarın 2-3 metr hissəsinin məhz bu məqsəd üçün 3 gün əvvəl uçurdulmuş hissəsinə doğru şütüyür. Bədbəxtçilikdən, bu yer də terrorçuların diqqətindən yayınmayıb, amma bu yolu sadəcə qarşısında bir yük maşını saxlamaqla qapayıb, özləri əsas diqqəti başqa çıxışlara yönəldiblər. Çıxılmaz vəziyyətdə qalan Heydər Əliyevin sürücüsü, tarana getməyə məcbur qalır – avtomobili var gücü ilə düz həmin daş hasarın sökülməmiş qalan hissəsinə doğru sürüb, avtomobilin sağ ön hissəsini hasarın sökülməmiş qalan hissəsinə çırparaq, daha 1 metr hissəni də uçurub, yük avtomobilinin arxasından özünə güclə keçiləcək yol açır, və qapı və güzgüsü yük avtomobilinə sürtünə-sürtünə şoseyə çıxır.

Heydər Əliyev bir neçə gün Bakıda qardaşının evində yaşayandan sonra Naxçıvana – öz ata yurduna gedir. Həyəti gəzdikcə bu doğma yurdun hər küncü bucağı ona uşaqlığının bir anını yada salır: anasının samovar yanında dördayaq üzərində yuxa yayıb, sacda kətə bişirməsinin və bunların da həyətdə oyanıyib arada gəlib bu kətədən birini yeyib yenə oyunlarına qayıtmalarını, başqa vaxt qardaşları ilə həyətdəki yelləncəkdə yelləndiyi vaxt anasının gəlib bunu çağırmasını ki, “Heydər, gəl gör atan sənə nə alıb, 1-ci sinfə getməyin münasibətilə məktəb paltarı”.....

1991-ci ilin Avqust ayında Kryuçkov və Yanayevin başçılığı ilə Moskvada Qorbaçov hakimiyyətini devirməyə cəhd olunur. SSRİ tarixində “Avqust qiyamı” adı ilə tanınan bu əməliyyat uğursuzluğa düçar olur və onun bütün iştirakçıları “Dövlət çevrilişinə cəhd” maddəsi ilə həbs olunurlar

* * *

## *XIX fəsil:* NATO generalları Heydər Əliyevin Azərbaycana qayıdışını müzakirə edirlər

NATO-nun həmin qərargahı. NATO generalları müşavirə keçirir. Generallardan biri:

— Mən axı Sizə dedim ki, siz bu insanı əli-qolu bağlı vəziyyətdə saxlaya bilməyəcəksiz. Napoleon Yelena adasında o qədər güclü mühafizəni bir andaca dəf edib, ordan qaça bildiyi kimi, bunu da aparıb hətta ucqar Robinzon adasına da atsaz, rahat şəkildə özünə yol tapıb qaça biləcək. Budur, o artıq Bakıdadır. Siz artıq Rusiyanı 4 bir tərəfdən üzük qaşı kimi mühasirəyə alıb, 4 bir tərəfini oda-alova bürümək, cəhənnəmə çevirmək projelərinizdən əl çəkin. Daha doğrusu Gürcüstana qədər apara biləcəksiz bu layihənizi, amma Azərbaycandan Orta Asiyaya keçirə bilməyəcəksiz.

**İclas sədri:**

— Siz bundan narahat olmayın. O zona üzrə hal-hazırda bizim 30 generalımız fəaliyyət göstərir. Bunların sayını bir qədər də artıracağıq. Bu insan Azərbaycana getdisə də, biz onu siyasi ölü vəziyyətinə gətirəcəyik. Ölkəsində və qonşu ərazilərdə elə nüfuzdan salacağıq ki, öz xalqı onun qanına susayacaq, onu öldürəni öz qəhrəmanı hesab edəcəklər. Azərbaycanın hazırkı dövlət aparatısa tam şəkildə bizim əlimizdədi, biz burda hansı qıraracı istəsək, günü sabah orda onu da qəbul edəsidilər. Öz dövlət orqanlarının əli ilə onu həbs etdirib dəmir barmaqlıqlar arasında həmişəlik onu bütün proseslərdən təcrid vəziyyətdə saxlayacağıq. Cüzi vaxt və resurs məsələsidi bu.

**Bayaqkı general:**

— Mən bilmirəm siz hansı Əfqanıstan generalından danışırsız, mənsə Heydər Əliyevdən danışıram. Siz ümumiyyətcə o vaxt Qorbaçovu hakimiyyətə gətirən vaxt Qrişin, Şerbitski, Romanovla yanaşı onun barədə də bu zalda səslənən fikirlərdən savayı onun haqda başqa da nəsə eşitmisizmi, oxumusuzmu, bilirsizmi? Mən bütün ömrümü NATO-nun İncirlik bazasında xidmət etmişəm və onun adı gələndə hətta türk generalları da özlərini yığışdırırdılar. Sizin ora yollayacağınız generallardan fərqli olaraq generallıq bu insanın sənədlərində yox, xislətindədi. O heç bir vəzifəsiz-filansız əli cibində hara getsə, orda milyonları ayağa qaldırıb, arxasınca apara bilən generallardandı. Yeri gəlmişkən, o dediyiniz 30 general Əfqanıstanda uduzub çıxan generallarınız deyil ki, işsiz qalmasınlar deyə indi də bura göndərmisiz?

İclasın sonunda iclas iştirakçıları razılığa gəlirlər ki, yerli əhalini və hakimiyyət orqanlarını Heydər Əliyevin əleyhinə qaldıran fəaliyyətlərə start verilsin.

Sabahdan etibarən əhalidə Heydər Əliyev qarşı əhalidə nifrət aşılayan, onu öldürməyə sövq edən məqalələr Azərbaycanda uzun müddət qəzetlərin əsas mövzularından biri olur

Heydər Əliyev Naxçıvanda blok vəziyyətinə salınıb. Bütün siyasi fəaliyyətdən təcrid edilib, hətta hər an öldürülmək təhlükəsi altında yaşayır. Dəfələrlə ən müxtəlif qüvvələr tərəfindən evinə basqın edilir, özünə qarşı sui-qəsdlər təşkil edilir. Amma Azərbaycanın hər tərəfindən könüllülər axışıb gəlib onun evini 24 saat mühafizə altında saxlayırlar. Azərbaycanın hər yerindən ona ərzaq, və digər yardımlar göndərilir...

# *XX fəsil:* Azərbaycan elitası Heydər Əliyevi ölkə rəhbərliyinə aparır

Rusiyada və əksər Sovet respublikalarında olduğu kimi, Bakıda da hakimiyyət çoxdan xarici qüvvələrin əlinə keçib, hər vəzifəyə zəif, xaraktersiz, siyasi səbatsız, təcrübəsiz, populist, tasadüfi şəxslər yerləşdirilib. Qərb agentləri dövlətin bütün strukturlarına nüfuz edib, bütün vacib vəzifələr, ölkənin bütün hərbi, iqtisadi, siyasi sirləri tam şəkildə onların əlində, bütün yeraltı və yerüstü sərvətləri ancaq ABŞ və İngiltərə şirkətlərinə dəyər-dəyməzinə satılıb. Ölkənin bütün əhalisi tam şəkildə Azərbaycanın bütün qonşularına qarşı: Ermənistana, Rusiyaya, İrana, Türkmənistana və hətta Türkiyəyə qarşı düşmən mövqeyə köklənib, ölkə əhalisi özünün yeganə dostu rolunda ancaq ABŞ-ı görür. "Rusiyanın 4 bir tərəfini od-alova bürümək" siyasəti çərçivəsində Azərbaycan getdikcə quyunun dibinə çökür, 2-ci Əfqanıstan olmaq "şərəfinə" hər gün daha "iri addımlarla" irəliləyir. Ölkə tam xaos içərisində – hakimiyyət böhranı, Ordu dağılmış vəziyyətdə, kriminal ünsürlər bütün ölkə boyu cövlan edir, ölkənin sərvətini talamaq uğrunda müxtəlif mafiyalar arasında gizli bir ölüm-dirim savaşı gedir, ölkənin ərazisi və ayrı-ayrı sektorları, o cümlədən Ordu daxili və xarici qüvvələrin maraq dairələri arasında bölüşdürülüb, fərqli daxili qüvvələr öz təsiri altında olan Ordu hissələrindən öz rəqiblərinə qarşı bir alət kimi istifadə edir. Nəticədə ölkədə hərc-mərclik baş alıb gedir, vətəndaş qarşıdurması başlayır.

Bu məqamda ölkəni bu durumdan xilas etmək üçün ölkə elitası toplaşaraq Naxçıvana – Heydər Əliyevin yanına gedir.

Orta ölçülü bir kənd evində hamı bardaş quraraq yerdə oturub.

Heydər Əliyev səhhətini bəhanə edib onu dinc buraxmalarını xahiş edir. Bakıya gedib abırsız, hörmətsiz vəziyyətə salınmaq istəmədiyini deyir. Bildirir ki, hər şey o qədər pis vəziyyətə gətirilib ki, onları necə düzəltməyin yolunu o da bilmir.

— Bilirsiz, siz gücümdən artıq bir şey tələb edirsiz məndən. Sizin qarşınızdakı o vaxtkı gənc, enerjili Heydər Əliyev, mənim qarşımdakısa o vaxtkı “iri addımlarla addımlayan” Azərbaycan deyil. Bu gün mən bütün gücümü, sağlamlığımı, bir çox əziz adamımı, Rusiyadakı əlaqələrimi, daxildəsə dostlarımı itirmiş, və bütün bunların ağrı-acısını yaşayan bir inşanam. Azərbaycansa tam şəkildə quyunun dibinə sürüklənmiş, hər şeyini itirmiş, daxili və xarici müharibələrə sürüklənmiş bir vəziyyətdə. Qəzetlər, televiziyalar gecə gündüz mənim barədə olmazın yalanını, böhtanını, iftirasını deyib. Bütün bunlardan sonra mən camaatın üzünə necə çıxım, kim mənim sözümü eşidər? Mən axı etməmişəm o mənim adıma yazılan mənfi işləri? Mən abrına, həyasına sığınıb yaşayan bir insan olmuşam, bu xalq üçün canımı qoymuşam. Sonunda bütün bunlar hamısı ayaqlar altına atılıb. Mən hərdən düşünürəm ki, bəs onda mən o boyda əziyyətləri niyə çəkirdim, mənim xalqım bu dərəcədəmi qədirbilməz imiş? Mən bundan sonra da hər nə etsəm, hamısı tərsinə yozulacaq, qədirdə bilinməyəcək. Mənə qarşı xalqımda bu qədər nifrət olduğunu mən bilmirdim. Mən bu gün hər şeyə marağını itirmiş, həvəsdən düşmüş bir vəziyyətdəyəm və öz qalan ömrünü sakit bir guşədə başa vurmaq istəyirəm.

**Bəxtiyar Vahabzadə (Xalq Şairi):**

— Yoldaş Əliyev, kim deyir ki, Azərbaycan xalqı bu cür düşünür, bu cür danışır? Azərbaycan xalqı xaricin o 5-3 agentindən ibarət deyil. Bu xalqın elitası, qaymağı, öndə gedənləri məhz bu insanlardı. Bunlar niyə elə düşünmür? Siz kimlərsə tərəfindən öyrədilərək üstünüzə göndərilən, efirlərə çıxarılan insanlarla niyə ölçürsüz xalqın sizə olan məhəbbətini, inamını? Biz hər gün xalq arasındayıq və xalqın fikrini bilməsəydik, bura gəlməzdik. Siz təsəvvür etməzsiz ki, Milli Məclisdə Sizin Bakıya gətirilməyiniz fikri ortaya qoyulandan sonra insanlar hər gün Milli Məclisin qarşısına, evimizə necə axışırlar ki, o kişisiz qayıtmayın Bakıya!?

**Heydər Əliyev:**

— Bilirsən, Bəxtiyar müəllim, vəziyyət o qədər pisdir ki, həllini mən özüm də görmürəm. Və səhhətim də çox pis. Bilirəm ki, yarıyolda qoyacam sizi, çünki səhhətim nə yerdədisə, özüm yaxşı bilirəm. Ondan sonra olan qalan hörmətimi də itirəcəm, deyəcəklər ki, əlindən gəlmədi, bir para edənlərin də yolunu kəsdi, qoymadı kimlərsə qabağa durub, iş görsün. Bəlkə də mən qocalmışam, dünyada baş verən prosesləri düzgün ölçüb-biçə bilmirəm, yeniliklə ayaqlaşa bilmirəm. Meydanda yeni nəslin nümayəndələri var, hamısı da həvəsli, enerjili, savadlı, dünyada baş verən hadisələri də yaxşı bilirlər. Bəlkə onlar daha ağıllı işlər görə biləcək, dünya ilə daha müasir metodlarla qura biləcəklər hər işi.

**Şahlar Əsgərov (Professor):**

— Yoldaş Əliyev, hələ Sovet dövründən Siz bizə deyirdiz ki, narahat olmayın, bizim öz dövlətimiz olacaq, az qalıb. Biz

müstəqil olub, sonra əsirlikdə qalan o biri qardaşımızı da azad edəcəyik. Budur, oldu. Nə faydası? Bu gün biz daha bir neçə yerə parçalanmaq təhlükəsindəyik. Ondan sonra bizim nəinki Arazın o tayındakı qardaşımızı azad etmək, hətta öz dövlətimiz olmasına olan ümidlərimiz də bu cür parça-parça olasıdır. Heç olmasa SSRİ tərkibində olanda azad olmasaq da, bilirdik ki, hamımız bir yedəyik, parçalanmamışıq. Bu gün biz 1000 illərlə babalarımızın yaşadaraq bizə miras qoyduğu o dövləti əbədi olaraq itiririk. Bu gün onu qoruya bilməsək, deməli artıq bizim öz dövlətimiz olmayacaq heç vaxt. Bu gün siz bizimlə getməsəniz, deməli artıq bundan belə dünya xəritəsində Azərbaycan adlı dövlət olmayacaq heç vaxt. Əbülfəz bəy Elçibəy də deyir ki, mən sadəcə bu vəzifəni məşğul edib saxlamışam ki, yad əllərə keçməsin. Deyir, mən siyasət adamı deyiləm. Gücüm ancaq ona çatır ki, hakimiyyəti xalqımızı bu bəlalardan çıxara bilən bir insana təhvil verim, ürəyim rahatlansın ki, xalqımızın taleyi bundan belə etibarlı əldədir. Onu da ki, deyir, dəfələrlə Heydər Əliyevə demişəm, imtina edir. Başqa da kimsə yox. Nəhayət biz durub gəldik deyək ki, bu nə Elçibəyin, nə də o birilərin fikri deyil. Bu bizim hamımızın birgə qərarımızdı.

**Vahid Əhmədov *(o vaxt Baş Nazirin müavini, sonradan Deputat)*:**

— Deyirsiz gənclər var bu gün meydanda, çox şey oxuyub, çox şey bilirlər. Məgər kitabdan oxumaqla cərrah, pilot olmaq olar? Bilmək və bacarmaq tamam başqa şeylərdir. Siyasət onlardan da qəliz bir sahədir. Cərrah səhv edəndə 1 insan məhv olur. Siyasətçi edəndə – bütün ölkə. Elə indi də hakimiyyətdəkilər hamısı vətənsevər, və özü də hər biri hansısa sahədə universitet bitirmiş şəxslərdilər. Noolsun? Burdan bura onlara

başa sala bilmirəm ki, “Azadlıq” radiosu ailəsini mis, alüminium satmaqla dolandıran, və özü də bunları harada daha baha qəbul etdiklərini deyən bir fəhlənin müsahibəsini, özəlləşdirmə vaxtı müəssisələri su qiymətinə ələ keçirmək üçün müəssisə rəhbərlərinin zavod-fabriklərin işini indidən qəsdən tormozlaması barədə işçilərin etiraz səsini efirə verəndə, əslində xalqımızın dərdini çəkməyib, iqtisadiyyatımıza qarşı bir sabotaj proqramı həyata keçirir, bu üsulla hər kəsə təlimatlar yollayır ki, bax siz də belə edib qazanc götürə bilərsiz. Bundan sonra bilməyənlər də bilib təcili daraşır zavod-fabriklərin mühərriklərinin, transformatorlarının, kabellərinin canına, söküb o boyda zavodu qoyurlar diz üstdə, ayılmayan müəssisə rəhbərləri də ayılıb, işi ləngidir ki, özəlləşmə vaxtı işlək bir zavodu metallom qiymətinə ala bilsinlər. İndi Bakıda oturanlara bunları deyəndə, cavab verirlər ki, burda nə var ki, hansısa fəhlənin sözü ilə durub oturacaqmı zavod direktorları? Əksinə, Azadlıq radiosu düzgün edib yerlərdəki problemləri tapıb üzə çıxarır ki, hökumət bundan xəbərdar olub, qarşısını almaq üçün tədbirlər planı işləyib hazırlasın. Bax, nəzəriyyəçi ilə praktika adamının yanaşma fərqi budur. Bu tipli məsələlərdə hamısında zəngin bilik, həm də zəngin praktika ilə tamamlanmalıdı. Mən də əgər vaxtında uzun müddət istehsalatda çalışmamış olsaydım, müəssisə rəhbəri, birlik rəhbəri işləməmiş olsaydım, Nazirlik təcrübəsi keçməsəydim, təbii ki, bütün bunlara onlar kimi bəsit yanaşardım. Belə şeylər dərsliklərdə, kitablarda yazılmır, onu ancaq iş prosesində öyrənirsən. İndi siz də bu sahənin böyük praktika məktəbini keçmiş, hər incəliyini bilən yeganə insansız Azərbaycanda. Çoxları sizinlə birlikdə çıxmışdı bu yola, amma hamısı bu məktəbin çətinliyinə, imtahanlarına dözməyib yarıyolda döndü bu yoldan. Bütün

imtahanlardan uğurla çıxıb, bu işdə professor, akademik səviyyəsinə yüksələn yeganə siz olduz. Başqası varsa, deyin, gedək onun yanına. Axı biz özümüz də bilirik ki, yoxumuzdu. Olanlar hamısı kitabdan, qəzetdən 1-2 siyasi, iqtisadi yazı oxuyub özünü böyük siyasətçi, iqtisadçı hesab edənlərdi. Nəyimiz var idi, bu müddətdə ələnib, çıxdı ortaya, hamı gördü. Ölkə bu gün iqtisadi diversiya ilə üzbəüzə dayanıb – özü də tam tərkisilah vəziyyətdə. Siz mütləq qayıtmalısız ki, ölkənin bütün imkanlarını səfərbər edib, bu sabotajlara qarşı müdafiə istehkamları yarada biləsiz.

**Arif Rəhimzadə (siyasətçi):**

— Qarabağdakı proseslərlə də, ölkədəki hadisələr arasında bir korrelyasiya var. Ayaz Mütəllibov İrana gedən gün Nüvədini alıb verdilər ermənilərə, Yaqub Məmmədov gedəndə Şuşanı. Bununla bizi başa salmaq istədilər ki, İranla yaxınlaşmayın, yoxsa bütün Azərbaycanı alıb verərik ermənilərə. Əbülfəz Elçibəyə şərt qoydular ki, Azərbaycanın bütün neftini ancaq bizə satmalısan və özü də dünya birjalarındakı qiymətdən 2 dəfə aşağı. Etiraz etmək istəyəndə Qarabağda ermənilər elə aqressivləşdi ki, az qalmışdı bütün Azərbaycan ermənilərin əlinə keçsin. Onlarla neft memorandiumlarını imzalayandan sonra ermənilər də sakitləşdi.  Əbülfəz Elçibəy bu yaxınlarda məsələ qaldıranda ki, Heydər Əliyevi Bakıya gətirmək lazımdır, ondan sonra Azərbaycanın 4 bir tərəfində qiyam baş qaldırdı. Üstəlik də işi görüb günahı atırlar onun bunun üstünə. Güya bizdə nə yaxşı şey baş verirsə, buna görə Qərbə minnətdar olmalıyıq, nə pis bir şey baş verirsə – bunların hamısının günahkarı İran və Rusiyadır, halbuki onların özünə bu saat o qədər  problem yaradıblar ki, heç bizimlə məşğul olmağa heyləri yox. Allahın bapbalaca çeçenləri ilə bacarmırlar, o ki

qaldı bizə əl uzadalar. Bütün bu yollarla bizə çatdırmaq istədikləri əsas şərtlərisə bu: Bizim dostlarımızla dost olun, düşmənlərimizlə düşmən; bütün sərvətlərinizi ancaq dəyər dəyməzə bizə satın; Qərb siyasətinin səmimiliyinə şübhə edən, buna inanmayan şəxsləri vəzifələrə gətirməyin; Ərazinizdə öz hərbi bazamızı yaratmağımıza imkan verin; Rusiya və İranla müharibəyə girişin, biz də sizə nə qədər lazımdısa silah verəcəyik; Kişiləriniz bizim əsgərimiz olub, dünyanın 4 bir tərəfində bizim apardığımız müharibələrdə bizim yerimizə döyüşməlidir; Başsız qalan qadınlarınızı daşıyıb Qərbə aparmalıyıq; Bir sözlə – Rusiyanın müstəmləkəsindən qurtulmusuz, çox yaxşı. İndi də bizim müstəmləkəmiz olun, özü də ondan da betər formada.

**Ziya Bünyadov** ***(akademik, tarixçi)*****:**

— Sizi Bakıya qaytarmaq istəyən bir qrup layiqli övladlarımızı o vaxt Qarakənddə Vertolyotda vurdular, bununla da hamının gözünü qırdılar ki, baxın, Heydər Əliyevi Bakıya gətirmək istəyənlərin aqibəti bu cür olur. Onlar sağ olmuş olsaydılar çoxdan Sizi aparardılar Bakıya və bu neçə ildə xalqımızın başına da bu qədər müsibətlər gəlməzdi. Bu qənaətdə olanların, bu fikrə düşənlərin hamısını bir yerə yığıb, məhv elədilər o vaxt. İndi biz də buraya necə risk altında gəldiyimizi bilirik. Artıq bizim hər birimizin həyatı təhlükə altındadır bundan sonra. Sizin adınızı çəkən hər kəs, sizin tərəfinizdə duran hər kəs xarici qüvvələrin "Qara siyahısına" düşür, və hər vasitə ilə susdurulur. Siz Bakıya qayıdıb, xalqımızın arxasında, önünüdə olmasanız, xalqımızın layiqli övladlarını, xalqımızı xilas etməyə qadir, çıxış yollarını bilən, bu xalqı ürəkdən sevən, ürəyi bu xalqla döyünən kim varsa,

hamısını bir-bir aradan götürəcəklər. Bizi müasir dövrün "37-ci il terrorlarından" ancaq siz qoruya bilərsiz.

**İsmayıl Şıxlı (Xalq yazıçısı):**

— Ziya müəllim düz deyir. Düşmən bizimlə tək Qarabağda və tək tank-topla döyüşmür. Onların agentura şəbəkəsi artıq bütün dövlət orqanlarımıza sirayət edib, Müdafiə Nazirliyimizdən tutmuş, DTK-ya qədər, Prezident administrasiyasına qədər hər yerə doluşublar, bizi içərimizdən didib-parçalayırlar, bizi xilas edə bilənləri də bir-bir aradan götürürlər. Tək siz yox, biz də, və ölkəmizin bütün qaymaqarı, işbilən insanları hamısı onların "Ölüm Siyahısındadır". Necə ki, 20-ci 30-cu ildə milli şüuru oyandıra bilən, xalqı azadlığa səsləyə bilən əsl ziyalılarımızı, liderlərimizi, qaymaqlarımızı ruslar öz içimizdəki "sapı özümüzdən olan baltalar" vasitəsilə axtarıb tapıb istintaq edib aparıb Sibir çöllərində məhv edirdilər ki, bu millətin yaddaşını silsinlər, müqavimətini qırsınlar, eyni qayda ilə bu gün də Qərb əleyhinə fikir bildirən hər kəs eyni baltaların vasitəsilə istintaqsız, məhkəməsiz küçədəcə aradan götürülür. Bu günün də cavidləri, müşfiqləri bizlərik, vertolyotda partladılanlarımız idi. O vaxt siz var idiz, qabağa durub bizləri qoruduz Rusiyanın repressiyalarından, həbslərindən. Yoxsa ki, elə mənim özümü milli adət-ənənələrmizi, dəyərlərimizi dirçəltdiyimə, təsvir, təbliğ etdiyimə görə çoxdan Cavidlərin, Müşfiqlərin, Saxarovların, Soljınitsinlərin gününə salacaqdı Sovet imperiyası. Bəs bu gün kim qorusun bu ziyalılarımızı? Eynilə 20-30-cu illərin ssenarisi gedir: bu milləti sevən, onu ayılda bilən, onu xilas edə bilən hər kəs bu millətin düşməni elan edilib, vətən xaini kimi sapı özümüzdən olan baltaların əli ilə aradan götürülür – eynən 20-30-cü illərdəki kimi. Fərq yalnız bu  ki, o vaxt Rusiyanın işğalına qarşı etiraz səsini ucaldanların, və ya buna qadir

olanların başına açılırdı bu oyunlar, bu gün Qərbin işğalına qarşı müqavimətə səsləyənlərin, bu müqaviməti təşkil edə bilənlərin. Özü də o vaxt heç olmasa formal da olsa Məhkəmə keçirilirdi, iş kitaba salınırdı. İndi hər şey məhkəməsiz-filansız həll edilir. Kimsə vətənpərvərdisə, ziyalıdısa, vətənini, xalqını sevəndisə, və bu milləti xilas etməyə, ona düz yol göstərməyə, ayağa durğuzmağa qadir, buna qabiliyyəti, potensiyalı olan bir inşandısa – deməli artıq fətvası verilib: ya vertolyot, ya avtomobil, ya qatar, ya gəmi qəzası, ya terror, ya da bir başqa bədbəxt hadisə ilə aradan götürülməlidir – o vaxtkı vertolyotdakı uşaqlarımız kimi. Mən hətta Sizi tam əmin edirəm ki, Siz təcili Bakıya gəlib, o vaxt bu millətin qaymaqlarını Rusiya DTK-sının əməllərindən qoruduğunuz kimi, indi də nəhəng Qərb DTK-sının bu mənfur təmizləmə əməliyyatından qorumasanız, cəmisi 1-2 ilə bura gələn insanlardan da heç biri sağ qalmayacaq. Hamısı bir-bir aradan götürüləcək. Mən buna tam söz verirəm. Ondan sonra da yolgöstərənlərsiz, başbilənlərsiz qoyulmuş millətimizsə tam manqurtlaşdırılaraq, kişilərimiz – dünyanın ayrı-ayrı bölgələrində onların apardıqları müharibələrinin ucuz əsgəri qüvvəsinə döndəriləcək, başsız qalan qadınlarımızsa – onların ucuz əyləncə obyektinə.

**Sirus Təbrizli *(AR-nın gələcək Mətbuat və İnformasiya naziri)*:**

— Onlar tək fiziki olaraq öldürmür. Fiziki öldürmədiklərini də mənəvi, siyasi olaraq elə öldürürlər ki, o bundan sonra heç nəyə yaramır. “Mətbuat – dördüncü hakimiyyətdir” deyirlər. Mətbuat işçilərinin həssas təbəqə olduqlarını nəzərə alaraq müxtəlif qrantlar, həvəsləndirici mükafatlar, tədbirlər, təqaüdlər vasitəsilə ilk olaraq onları ələ alıb, hamısını xarici radiostansiyalarla eyni kapellanı ifa etməyə kökləyirlər. Baxırsan

ki, axşam xarici radistansiya kimi tərifləyirsə, səhər bu orkestrin üzvü olan daxili mətbuat xor olaraq onu tərifləyən yazı verir. Pisləyəndə də, o cür. Bunun nəticəsində də bir az saf, sadəlövh insanlarda fikir formalaşır ki, "yanmayan yerdən tüstü çıxmaz, hamı eyni fikri deyirsə deməli nəsə var". Daha bilmirlər ki, bunlar hamısı eyni vaxtda eyni simfoniyanı ona görə ifa edirlər ki, hamısının arxasında eyni bir dirijor dayanıb. Onlar həmin bu kasıb, həssas jurnalist təbəqəsinə müxtəlif ziyansız adlar altında cüzi pul ödəməklə özündən asılı edib, əvəzində onların simasında özlərinə böyük bir rupor, təbliğat kanalı, nəhəng reklam rıçaqları qazanırlar. Sovet vaxtı inzibati üsullarla məcbur edirdilər qəzetləri Moskvanın istəyinə uyğun yazılar yazmağı, indi isə pulla məcbur edirlər Qərbə sərf edən yazılar yazmağı. Reklam – böyük qüvvədir. Bu kanalla isə istənilən şəxsi, lozunqu, ideayanı, baxışı bütöv bir cəmiyyətin gözündə ideallaşdırmaq və ya heçə döndərmək su içimi qədər sadə bir işdir. Nəticədə kimsə öz xalqına hansısa bir ağıllı ideya, çıxış yolu təklif edəndə, xilas yolunu göstərmək istəyəndə həmin kapella xor formasında onun və onun ideyasının üstünə elə gedir ki, onun özünü də, ideyasını da 1 qəpiklik edib, gözdən elə salırlar ki, deyən də peşiman olur, onu dəstəkləyən də. Lazımsız adamları, ideyaları isə elə bəh-bəhlə göylərə qaldırırlar ki, adamlar bilmir həqiqət hardadı, yalan harda? Yaxşı nədir, pis nə? Dost kimdir, düşmən kim? Xeyirli olan hansı yoldur, ziyanlı olan hansı? Əsl lider kimlərdir, saxtaları hansılar? Nəticədə cəmiyyətdə gədələr bəy olur, şorun qiymətisə yağdan baha.

Bunun nəticəsidir ki, bu gün əhalinin böyük bir qisminin gözündə Mirzə Xəzərin hər sözü sanki bir Allah ayəsi, bizim dediklərimizsə cəfəngiyyat kimi görünür, onların gözündə ən

xain, murdar insanlar – siz və bizlərik, əksinə ən “pak”, “müqəddəs”, “vətənini hamıdan çox sevən” insanlar – xarici radiostansiyaların bizdəki orkestri ilə birgə “raskrutka” edib göylərə qaldırdığı yalançı qəhrəmanlar, liderlərdir. Cəmiyyətimizin onların təsiri altına düşən böyük bir hissəsi bu gün onların bir komandası ilə hətta öz anasını öldürməyə, vətəninə qarşı müharibə etməyə, onların sadiq əsgəri olub, dünyanın istənilən yerində onların düşmənləri ilə vuruşub ölməyə hazır vəziyyətə gətirilib.

Təsirə düşməyib, kənarda qalanların isə fikir enerjisinin bir vahid əqidə ətrafında səfərbər olunub, ölkənin düşmənlərinə qarşı yönələ bilməsinin qarşısını almaq üçün isə, ən fərqli informasiya manipulyasiyaları ilə onlar arasında elə parçalanma, fikir ayrılığı, qütbləşmə, ikitirəlik formalaşdırırlar ki, Krılovun “Xərçəng, balıq, qaz və araba” təmsilindəki kimi enerjiləri öz aralarındakı dartışmalara, boş diskussiyalara, bir-birinin enerjisini neytrallaşdırmağa israf olunur. Sabah lazım gələndə isə həmin bu fikir ayrılığını, tərəddüdü, ictimai şüurdakı çatları məharətlə dərinləşdirib konfliktlərə, qarşıdurmalara, hərbi toqquşmalara transformasiya etmək onlar üçün artıq su içimi kimi sadə bir işdir – necə ki, artıq yaradıblar Azərbaycanda.

Gücünü, qüdrətini, ideyalarını, qabiliyyətini nə daxildə, nə də öz sıralarından heç kim və heç nə ilə neytrallaşdıra, balanslaşdıra bilmədikləri, onlar üçün əlçatmaz zirvə olan yeganə insanımız sizsiz. Uzun müddət bu kimi xarici diversiyalara, müdaxilələrə, əməliyyatlara müqavimət üzrə ölkənin ən ali qurumuna – kəşfiyyat və əks-kəşfiyyat sektoruna rəhbərlik etmiş bir şəxs kimi, bunlara necə müqavimət göstərməyin yollarını tək siz bilirsiz. Ölkəmizi qoruyun bu ideoloji diversiyalardan. Şüurların 37-ci ildəki kimi yenidən yuyulması,

silinməsi prosesindən, əhalimizin manqurtlaşdırılmasından. Yazıqdı gənclərimiz.

**Əli Əhmədov *(siyasətçi)*:**

— Bayaqdan bəri yoldaşlar ölkəmizdə Qərb xüsusi xidmət orqanlarının bizi öz alətinə çevirmək üçün bizə qarşı apardığı gözəgörünməz müharibənin bəzi detallarını sadaladılar: Qarabağ vasitəsilə – hərbi diversiya, mətbuat vasitəsilə – ideoloji diversiya, daxilimizdəki onların 5-ci kalonu vasitəsilə – siyasi-diplomatik diversiya, ən fərqli üsullarla – iqtisadi diversiya və b. onların standart hibrid müharibə arsenalıdı və reallıqda onların bu arsenalındakı silahlarının sayı-hesabı bundan yüzlərlə dəfə çoxdur, bu yoldaşlar hələ onların 5-6-sını sadaladılar.

Amma bu meydanda Rusiya və İran faktorunu da tam istisna etmək olmaz. Daxilimizdəki köhnə kommunistlərin bir çoxu hələ də Sovet nostaljisi ilə yaşayıb, ğızlın-aşkar Rusiyaya meyl edir və bəziləri də gizlidə onların xüsusi xidmət orqanları ilə real əməkdaşlıq edir. Radikal şiə dindarların da bir çoxu – eyni qaydada Azərbaycanın İranla birləşməsi arzusu ilə yaşayır və buna da nə cür mümkündüsə, bu işə o cür yardım edir. Təbii ki, Rusiya və İran da bütün bunlara laqeyd qalmır və öz sərhədlərində Qərbin təsirini zəiflətmək üçün bu adamlarla həvəslə əməkdaşlıq edirlər. Ölkəmizin çoxmillətli olması səbəbindən, millətlərarası ədavəti qızışdırıb milli azlıqları öz tərəflərinə çəkmək də qonşu dövlətlərimizin aktiv işlədiyi layihələr sırasındadır.

**Mixail Zabelin:**

— Bayaq hakimiyyətdə savadlı, enerji gənclərin olmasından danışdız. Dövlət idarəçiliyi elə bir sahədir ki, orada ədəbiyyat, tarix, fizika üzrə dərin biliyə malik olmaq yox, məhz siyasət sahəsi üzrə dərin bilik və həm də bu sahə üzrə dərin təcrübəyə malik olmaq tələb olunur. Bayaqdan bəri xarici dövlətlərin ölkəmizdə tüğyan edən diversiya əməllərindən və hakimiyyətdə olan gənclərimizin bunların şifrələrini oxuya bilməmələri ucbatından onların toruna düşüb, bizi də quyuya aparmaları barədə burada yoldaşlar ətraflı danışdılar. Bunların hamısı məhz bu gün hakimiyyətdə olanların siyasət meydanında naşı olmasıdan yaranıb. Bu azmış kimi, hələ üstəlik öz siyasi səhvləri, səbatsız davranış və deyimləri ilə bizi bu torda daha da çox dolaşdırırlar. “Qarabağ problemini həll edib, sonra Cənubi Azərbaycanı azad edəcəyik!” deməklə – İranı, “Dərbəndi azad edəcəyik!” deməklə – Rusiyanı, “Borçalını azad edəcəyik” deməklə – Gürcüstanı qıcıqlandırıb, üstümüzə qaldırırlar. Biri ilə əlbayaxa vəziyyətdə olan hansı ağıllı adam kənarda sakitcə durub tamaşa edən birisinə deyər ki, bunu öldürüb gəlib sonra da səni öldürəcəm? Türkçülüyü Azərbaycan dövlətinin yeganə ideologiyası səviyyəsinə qaldırmaqla bu ölkənin milli azlıqlarının özlərini burada yad, sıxışdırılmış hesab etmələrinə, xaricdən himayədar axtarmalarına təkan verib. Daxili və xarici siyasətdə buraxılan bu tipli çoxsaylı səhvlər, xarici kəşfiyyat orqanlarının aldadıcı tələlərinə sadəlövhcəsinə düşmək, nəinki hücum üçün, hətta müdafiə üçün əks-hərbi, əks-kəşfiyyat, əks-diversiya, əks-diplomatiya üzrə bilik və bacarıqlara malik olmamaq, və s., və i.a. – döv-

lətçiliyimizi, sürücüsü sükan arxasında vəfat etmiş və buna görə də idarəedilməz formada sürətlə dərədən aşağı gedən avtobus vəziyyətinə gətirib. Harada daşa çırpılıb dayanar-dayanar.

Bu ara Mehriban xanım otağa girərək yaxınlaşıb pıçıltı ilə Heydər Əliyevin qulağına nəsə deyir. Heydər Əliyev qətiyyətlə nəyəsə etiraz edir, "bezmişəm onlardan" deyir. Bəxtiyar Vahabzadə Mehriban xanımın boş bir işə görə otağa girmədiyini bildiyindən söhbətə müdaxilə edir:

— Nə məsələdi ki, qızım?

**Heydər Əliyev:**

— Heç..., dərmanları deyir. Deyir ki, stress olmaz sənə, həkim demişdi ki, əsəbi, həyəcanlı olanda dərhal bu dərmanları qəbul etməlisən. Mən də bezmişəm artıq bu dərmanlardan, hər şeydən bezmişəm.

**Bəxtiyar Vahabzadə:**

— Qızım, yox ee, elə olmaz, qaytar ver. Həkim deyibsə, deməli nəyisə bilib deyir. Biz bura gəlməmişik ki, əksinə, sənə daha da ziyan vuraq, stress yaşadaq. Mütləq qəbul elə.

Mehriban xanım 1 stəkan su ilə dərmanı verir. Heydər Əliyev içib, "Çox sağ ol, qızım" deyib, stəkanı qaytarır

**Xəlil Rza Ulutürk (Xalq şairi):**

— Yoldaş Əliyev, ömrü verən Allahdı, bu xalqın, millətin qismətində varsa ki, məhv olmasın, o zaman siz bu ölkəni tam xilas edib, azad bir vəziyyətə çıxarmayana kimi Allah sizə ömür verəcək. Mən də xəstə düşdüm Lafertovoda. Oğlum qurban getdi bu ölkə yolunda, azad olmağımız uğrunda. Biz o azadlığa çıxmayacağıqsa, deməli bütün bunlar hamısı hədər

imiş. Ölkə artıq çoxdan böyük dövlətlərin təsir dairələri arasında bölünüb: Şimal tərəf Rusiyanın, Cənub ərazilərimiz – İranın, neftlə zəngin Abşeron yarımadası isə Qərbin. Qarabağımızsa çoxdan bu işdə onlara ürəklə əlaltılıq etmiş ermənilərə mükafat verilib. Bu günümüzdə bizim öz Atatürkümüzə ehtiyacımız var ki, əyalətdən baş qaldırıb, bütün o böyük dövlətlərin planlarını pozsun, min illərdir babalarımızın qoruyub saxlayıb bizə miras qoyduğu, amma bu gün yadellilərin iştahla öz aralarında böldüyü param-parça ölkəmizi Şah İsmayıl kimi bir yumruq altında birləşdirib, ölkəmizi qüdrətli bir dövlətə çevirsin. Övladımın da ruhu o dünyada onda şad olar ki, qanı batmadı, və mən də bu dünyadan rahat köçərəm ki, bütün ömrüm boyu arzuladığım, uğrunda hər şeyimi qurban verdiyim o Azad Azərbaycanı gördüm...

**Lalə-Şovkət Hacıyeva (AR gələcək dövlət katibi):**

— Düzdür, burada da hamı sizə əlindən gələn yardımı edir, o cümlədən xalqımızın vətənpərvər həkimləri gəlib nə lazımsa qulluq edir. Amma Bakıya gəlsəniz, Siz dövlət təminatında olacaqsız, hətta xaricdən də ən yaxşı həkimlər gətiriləcək. Bu gün Avropaya, Amerikaya yollarımız açılıb. Onlarda tibb sahəsi tam inkişaf edib, Sovet müalicə üsullarından fərqli mütərəqqi üsullar var. Qismətdir, inanıram ki, onlar daha effektiv üsullarla tam müalicə edə biləcək ürəyinizi. Bir də ki, biz özümüz də bilirik ki, sizin ürəyinizi xəstə salan, sizin canınızın, həyatınızın bir parçası olan Azərbaycanın xəstə vəziyyətə düşməsidir. Əgər o sağalsa, mən şəxsən əminəm ki, siz də onunla birlikdə sağalacaqsız, əvvəlkindən də gülərüz, sağlam, gümrah insan olacaqsız. Çünki sizin ürəyiniz Azərbaycanla bir döyünür.

**Bəxtiyar Vahabzadə:**

— O Azərbaycanlı qızının məzarı da qürbətdədi. Mən bilirəm sən onun xiffətini çox çəkirsən, kürlüyünü edirsən onun. Səni bir az da gücdən salan onun səndən uzaqda, qürbət diyarlarda tək qalmasıdı. Bakıda olsan, dövlət adamı olmuş olursan, Cavidin məzarını Sibirdən tapıb bura gətizdirə bildiyin kimi, onun da məzarını Moskvadan bura gətirməyə imkanların yaranar. O sənə yaxın olsa, mən bilirəm ki, sənin ürəyinə də, istənilən həkimdən, dərmandan daha yaxşı təsir edəcək.

Hamı dərin sükuta qərq olur. Xeyli sükutdan sonra Heydər Əliyev Mehriban Əliyevanı çağıraraq:

— Qızım, paltarımı hazırla, mən Bakıya getməliyəm...

* * *

Bu görüşdən bir müddət sonra Heydər Əliyevi Bakıya gətirmiş 91-lər hərəkatının lideri Ziya Bünyadov xarici qüvvələrin təşkil etdiyi terror nəticəsində öz evinin qarşısında qətlə yetirildi

## *XXI fəsil:* Heydər Əliyev 2-ci dəfə hakimiyyətdə

Heydər Əliyev Bakıya gəlir. Xalq onu böyük izdihamla, təmtəraqla, gül-çiçəklə qarşılayır. Üsyan qaldırmış ən müxtəlif liderlərin qapısına gedir *(onunla birlikdə də ölkənin bütün ağsaqqal ziyalıları)*. Üsyançılar hamısı Heydər Əliyevi böyük ehtiramla, ayağının altında qurban kəsməklə qarşılayırlar və durumu izah edirlər ki, *"hakimiyyətdə olanlar o dərəcədə naşı, təcrübəsiz, işbilməzdilər ki, sadəcə hər kəs özü öz kəndini, obasını müdafiə etmək məcburiyyətində qalıb. Bizə lazım deyil onların uşaq ağlı ilə verdiyi qərarları icra edib uçuruma yuvarlanaq. Biz yeganə olaraq Sizə inanırıq. Siz necə desəniz, o cür də hərəkət edəcəyik"*. Heydər Əliyev hamıya təmkinli olmağı, gücü xarici düşmənlərimizə yönəltmək lazım olduğunu deyib, onları danlayıb, üsyanları sakitləşdirir. Bakıda isə artıq əhali və Parlament məsələ qaldırıb onu ölkənin prezidenti seçmək üçün prosedurlara start verir. Daha bir üsyançılar dəstəsi ilə görüş ərəfəsində ətrafındakı insanlardan biri pıçıltı ilə ona çatdırır ki, Siz artıq azərbaycanın Prezidentisinizz, xalq sizi seçdi. Beləliklə Heydər Əliyev yenidən Azərbaycanın rəhbəri olur. Üsyanları sakiləşdiib, Bakıya qayıdandan sonra xarici dövlətlərlə pozulmuş münasibətlərin bərpasına, Azərbaycana beynəlxalq dəstək qazanmaq siyasətinə start verir. Türkiyəyə səfər edərək öz doğma qardaşı Azərbaycana Türkiyədən dəstək istəyir. Rusiyaya səfər edərək öz keçmiş partiya və DTK həmkarlarını, və Rusiya rəhbərliyini Azərbaycanla əməkdaşlığa, Azərbaycanı onların da düşməni olan xarici qüvvələrin məkrli planlarından qorumağa dəvət edir, Rusiyanın düz sərhədində Qərb dövlətlərinin planı ilə ikinci Əfqanıstanın

formalaşmasının onların da marağlnda olmadığını onlara başa salır; Pakistana işgüzar səfər edib, onların 1940-cı illərdə nəşr olunmuş dərs kitablarını da özü ilə götürüb, onların rəhbərliyinə təqdim edir, hansında ki, əsrin əvvəllərində Pakistanda baş qaldıran epidemiyanın qarşısının alınmasında Azərbaycanlı milyonçu Zeynalabdib Tağıyevin öz vəsaiti hesabına alıb ora göndərdiyi 300 min peyvəndin həlledici rol oynaması əks olunmuşdu. Cavabında Pakistanın baş naziri Benəzir Bhitto deyir ki, bizim indiki orta nəsil hamısı sizin Zeynəb xanım Xanlarovanın gözəl mahnılarının təsiri altında böyümüş insanlardılar. Heydər Əliyev Fransaya səfər edib onların rəhbərliyinə xatırladır ki, Sizin milli qəhrəmanınız və 5-ci respublikanızın yaradıcısı Şarl de Qollu 2-ci Dünya müharibəsi zamanı yaralanarkən bizim Azərbaycanlımız, və Fransanın da Milli Qəhrəmanı olan Əhmədiyyə Cəbrayılov xilas edib. İrana səfər edərək həm Azərbaycanın və həm də İranın regionda yeganə şiə dövləti olmasını və bizim bir-birimizə dəstəkçi olmalı olduğumuzu önə çəkir. Məkkəyə ziyarət edərək Azərbaycanın da bir müsəlman dövləti olmasını bütün dünyaya bəyan edərək bütün dünya müsəlmanlarını Azərbaycana köməyə çağırır.

Bütün bunların nəticəsi olaraq regionda qüvvələr balansı sürətlə Azərbaycanın xeyrinə dəyişməyə, ölkədəki xaos və gərginliyin səviyyəsi sürətlə aşağı enməyə başlayır.

Və nəhayət ki, neçə illərdir ürəyində niskil olaraq gəzdirdiyi arzusunu həyata keçirməyə imkan yaranır: Zərifə Əliyevanın məzarını böyük hörmətlə Moskvadan Bakıya köçürür.

## *XXII fəsil:* NATO qərargahında H.Əliyevin 2-ci dəfə hakimiyyətə gəlməsinin müzakirəsi

NATO generalları yenidən yığışıb, bu dəfə müstəqil Azərbaycandakı vəziyyəti müzakirə edirlər. O vaxt Heydər Əliyevi Moskvada olarkən fiziki olaraq onu aradan götürməyin vacibliyini qeyd edən generallardan biri deyir:

— Bəs axı biz o vaxt dedik ki, bunu ancaq öldürmək lazımdı. Əks halda sizin 100 generalınız da qoşulsa bu işə, o təkbaşına onların hamısına qalib gələcək. İndi gördünüz ki, biz bu adamı düzgün tanıyaraq deyirikmiş bunu? Bəs deyirdiz onu öz xalqının əli ilə aradan götürəcəyik, həbs etdirəcəyik. Nooldu? Əksinə, xalqı onu özünə prezident seçdi. O yenə öz işində, öz millətinin başında. İndi baxaq görək siz o neçə vaxtdır hazırladığınız Qafqaz planlarınızdan hansını həyata keçirə bilirsiniz. Cəhənnəmə getdi, gorbagor oldu sizin Rusiyanın Qafqazdan başlayıb, Orta Asiyaya qədər uzanan sərhədlərini oda-alova bürümək, Əfqanıstana döndərmək planlarınız. Nəinki Çeçenistan alovunun bütün Qafqaza yayılmasına imkan verməyəcək bu adam, o hətta onu söndürmək işində Rusiyaya da yardım edəcək ki, əvəzində Rusiya da ona Qarabağ alovunu söndürməkdə yardımçı olsun. Sizin bütün zəhmətləriniz boş və mənasız.

Onun haqlı olduğunu təsdiqləyən digər NATO generallarının bu dəfə qərarı bu olur ki, onu hakimiyyətdən devirmək üçün ölkə hakimiyyətinə qarşı daxili və xarici təzyiqi maksimum həddə qədər artırmağa başlanılmalıdır.

XARİCDƏN:

— Qarabağ kartı Azərbaycanda hər bir prezidentin taleyi üçün güclü kozır olduğundan, Ermənilәri Azərbaycana qarşı tam gücləndirmək

— Türkiyə, İran, Rusiya, Türkmənistan və Gürcüstanı Azərbaycan əleyhinə kökləmək

DAXİLDƏN:

— 5-ci kalonu maddi, ideoloji və hərbi cəhətdən maksimum gücləndirmək,

— 5-ci kalonun fəaliyyətlərinə qarşı dövlətin müqavimət hərəkətlərini maksimum bloklamaq.

ONUN ÖZÜNƏ QARŞI KONKRET TƏDBİRLƏR:

— Onu Azərbaycanın əsas düşmənləri ilə əlaqədə ittiham etmək. O cümlədən, Azərbaycanlıların əsas qan düşməni ermənilərdir – Heydər Əliyevin ata-babasının erməni olduğu şaiyəsini yaymaq; Türkiyənin əsas düşməni radikal Kürdlərdir – bu səbəbdən türksevərləri onun əleyhinə kökləmək üçün Heydər Əliyevin ata-babasının kürd olduğu şaiyəsini yaymaq; Azərbaycan xalqını 180 il əsarətdə saxlayan, onun bütün ziyalılarını, genefondunu məhv edən Rusiya olub – Heydər Əliyevin Azərbaycanı vaxtilə də, indi də Rusiyaya satdığını bəyan etmək, SSRİ DTK-sının generalı olduğundan, indi də Rusiya DTK-sının əli, xətti ilə burada hakimiyyətə gəldiyini və Azərbaycanı yenidən Rusyanın ağuşuna qaytarmaq istiqamətində DTK-dan aldığı tapşırığı icra etdiyi iddiasını irəli sürmək; Onun Azərbaycanda anti-azərbaycan, ermənipərəst, kürdpərəst, ruspərəst obrazını, Türkiyədə – antitürk, İranda anti-İran, Rusiyada anti-rus obrazını yaratmaq.

* * *

Bundan çox az müddət sonra ermənilər Qarabağda indiyə qədər olmamış dərəcədə qüvvətlənib, azğınlaşıb, dalbadal bir-neçə rayonu *(Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlını)* da işğal edirlər, Azərbaycanın bunu beynəlxalq qurumlar müstəvisinə qaldırmaq cəhdi isə ya bloklanır, ya da əhəmiyyətsiz fakt kimi iqnor edilir. Xarici qrantlarla işləyən mətbuat bu hadisəni Heydər Əliyevin vəzifəyə gəlmək üçün ermənilərə daha bir-neçə rayonu vəd etməsi və gələn kimi də bu vədini yerinə yetirməsi faktı kimi təqdim edir Azərbaycan auditoriyasına. Müxalif mətbuat Heydər Əliyevi ən qara damğalarla ləkələyib, əhalinin gözündən salmağa başlayır. Bu məlumatlardan qonşu ölkələrin əhalisini üçün maraq doğuran bir sıra provakasion məzmunlular tərcümə edilərək Qərb kəşfiyyat idarələri ilə əlaqəli olan radiostansiyaların İran, Rusiya, Türkiyə filialları vasitəsilə bu ölkələrin əhalisinin diqqətinə çatdırılır, o ölkələrdə Qərb qrantı ilə yazan qəzetlərdə çap etdirilir, beləliklə qonşu ölkələr də Heydər Əliyevin və ümumilikdə Azərbaycanın əleyhinə kökləndirilir

Türkiyə televiziyası göstərir ki, böyük bir qrup insan mitinq edərək azərbaycan dilində qışqırır: "Rədd olsun Türkiyə, o bizi 1920-ci ildə də satdı, indi də satır".

Eyni insanlar bir az başqa qiyafədə və bir başqa plakatlarla İran televiziyalarında: "Rədd olsun molla rejimi, biz inşaallah Qarabağı azad edəndən sonra Təbrizi Sizdən xilas etmək üçün gələcəyik".

Eyni insanlar bir az başqa qiyafədə və bir başqa plakatlarla Rusiya televizyalarında: "Rədd olsun bizi 200 il istismar etmiş, 20 yanvar qatili faşist Rusiya rejimi. Biz bunun cavabını bu gün Azərbaycanda yaşayan hər bir rusu öldürməklə, Rusiyada yaşayan həmyerlilərimizin əli ilə Rusiyanın hər bir bölgəsində dayanmadan terror törətməklə verəcəyik".

Eyni insanlar bir başqa qiyafədə və bir başqa plakatlarla Azərbaycan qəzetlərində: "Rədd olsun 30 il bizi Rusiyanın müstəmləkəsi etmiş, bütün sərvətlərimizi daşıyıb Rusiyaya yedirtmiş, rus agenti Heydər Əliyev. Azərbaycan xalqı sənə nifrət edir!".

Ölkədə müxalifətin "İstefa" tələbli mitinqlərinin ardı-arası kəsilmir, hərəkatlar getdikcə daha çox beyinlərə sirayət edərək ətrafına getdikcə daha çox adam yığır

Ölkədə, bir ucu xarici kəşfiyyat orqanlarına gedib çıxan, bir-neçə hərbi hakimiyyət çevrilişi cəhdi baş verir, hamısının qarşısı alınır

Bütün bunların cavabı olaraq Heydər Əliyev Əbülfəz Elçibəy dövründə Qərb şirkətləri ilə tam şəkildə onların diqtəsinə uyğun bağlanmış bütün müqavilələri ləğv edir və Azərbaycana qarşı təzyiqlərini dayandırmasalar, ümumiyyətlə onları əbədi olaraq Azərbaycandakı bütün layihələrdən kənarlaşdıracağı və onların əvəzinə bu layihələri Rusiya və İranla işləyəcəyi ilə hədələyir.

* * *

NATO generallar; əsəb və şok içərisində bütün bu baş verənləri müzakirə edirlər:

— Mənə sadəcə maraqlıdı, siz bu qərarı verəndə həm də hansı cavab addımları atıla biləcəyini də düşündünüzmü? Yoxsa ki, elə belə, ağlınıza nə gəldisə, onu da həyata keçirdiz? Bəs siz düşünmədiz ki, bu insan Qorbaçov, Yeltsin, Elçibəy kimi siyasətdə təsadüfi insan deyil, DTK generalıdı və o hər bir daşı, çöpü siyasət alətinə çevirərək mübarizə aparmaq ustasıdır? Siz bilirsizmi ki, onun Neft müqavilələrini pozması xəbəri yayılan günün sabahısı mənim əlaqəli olduğum Neft Şirkətinin aksiyaları 10% dəyərini itirdi və dayanmadan da itirməkdə davam edir?

**Digər general:**

— Eynilə də mənim əlaqəli olduğum tikinti şirkətinin aksiyaları. Tenderdə qalib gəlib, Yunanıstanda neft emalı zavodu tikməyə başlamışdıq. Bu gün məlum olur ki, həmin

zavoda ehtiyac olmaya bilər. İnvestorlarımız az qala üsyan qaldırsın bizə qarşı.

**Digər general:**

— Mənim əlaqəli olduğum bankların da aksiyaları sürətlə enməyə başlayıb. Biz də bu müqavilələrə arxayın olub səxavətlə kredit paylamışdıq. Bu gün məlum olur ki, o kreditlər böyük risk altına düşüb.

**Digər general:**

— Neftlə ən əlaqəsiz şirkət bizimki idi, amma artıq biz də müflis olmaq barədə sənədlərimizi ölkənin maliyyə nazirliyinə təqdim etməyə hazırlaşırıq. Biz çox səxavətlə bu iş üçün götürülən kreditləri və qoyulan sərmayələri sığortalayırdıq. Çünki bizi əmin etmişdiniz ki, Azərbaycan rəhbərliyinə öz adamımızı gətirmişik, elə bilin ki, artıq Azərbaycan bizim 51-ci ştatımızdı, nə istəsək onlarla edə biləcəyik. Hətta bu zalda o fikirlər də səslənmişdi ki, orada bundan belə mümkün deyil milli kadrlar, milli maraqları dərk edən və onu qorumağı bacaran kimsə gəlsin hakimiyyətə, çünki hamısını artıq ya fiziki olaraq, ya siyasi olaraq aradan götürmüşük. Sən demə, ən vacibindən başqa. Burda 1 il əvvəl ötəri fikir səsləndirildi ki, bəs axı bir qoca kişi var idi orda, vaxtilə oranın rəhbəri olmuşdu, ondan nə xəbər? Cavab verilmişdi ki, vaxtilə Sovet hakimiyyətinin bütün qaymaqlarını, ziyalılarını, iş bilən elitasını, 1-ci Dünya Müharibəsi qəhrəmanlarını, generallarını öz əli ilə, güllələtdiyimiz, Sibirə sürgün etdirdiyimiz kimi, burada da əhalini və ölkə rəhbərliyinə gətirdiyimiz şəxsləri elə kökləmişik ki, özləri hər yanda öz xilaskarlarının, qaymaqlarının ovuna çıxıb, qanına susayıb, onları öldürməyi özlərinə qəhrəmanlıq hesab edəcəklər. O cümlədən, bu qocanı da. Hətta metafora ilə ifadə etmişdiz ki, lazımi virusları canlarına elə yeritmişik ki, xərçəng

kimi içindən didib-parçalayacaq bunları və getdikcə də metastaz mərhələsinə qədəm qoymaqdadır. Hanı bəs o metastaz? Əksinə, ölkənin milli immun sistemi aktivləşərək sizin bütün yad müdaxilələrinizi neytrallaşdıra-neytrallaşdıra getməyə başlayıb. Ya o qoca kişiyə "Nobel mükafatı" vermək lazımdı ki, xərçəngin müalicəsini tapıb, ya da ki, deməli sizin viruslar "kitayski" imiş. Biz sığorta müqavilələrində qeyd etməmişdik ki, Azərbaycanda anti-milli qüvvələrin devrilib, hakimiyyətə milli kadrların gəlməsi də Fors-Major hadisəsi kimi dəyərləndirilməlidir. Bizi niyə əmin edirdiz orada qurduğunuz sistemin dayanıqlılığına? Biz indi hardan alıb verəcəyik o boyda sığortanı? Biz sadəcə məhv olmuşuq.

Digər generallar da çıxış edib bildirirlər ki, təcili olaraq bir yol tapılmasa biz hamımız bankrot olasıyıq.

Həmişə Heydər Əliyevi fiziki olaraq aradan götürməyin tərəfdarı olan 2-3 general yenidən dillənir: *"Biz axı sizə dedik ki, əlinizdə 100 tuzunuz olsa da, bu elə bir generaldı ki, cəmisi bir Valetlə sizin bütün Tuzlarınıza qalib gələcək. Sizə hələ də çatmır ki, biz bu adamı dəqiq tanıyaraq deyirikmiş bunu?"*.

NATO generalları qərara gəlirlər ki, nə cür mümkünüsə qısa vaxtda Heydər Əliyevi fiziki olaraq aradan götürmək lazım. Amma yaxın 1 ayda bu da mümkün olmasa, məcburdular onun bütün şərtləri ilə razılaşıb, Qarabağda müharibəni dayandırsınlar və Neft müqavilələrini onun şərtlərinə uyğun imzalasınlar – çünki seytnot vəziyyətindədilər. Əks halda hər birinin əlaqəli olduğu şirkətləri müflis olmaqdan heç kim xilas edə bilməyəcək.

## *XXIII fəsil:* Heydər Əliyevə qarşı terror

Bakı. "Mərdəkan → Koroğlu metrosu → Prezident administrasiyası" marşrutu. Səhər saat 08:30. Həmişəki kimi 3 zirehli avtomobildən ibarət Prezident karteji bir neçə DYP avtomobillərinin müşayiəti ilə sürətlə orta yolla şəhərə doğru irəliləyir, köməkçi yollarda isə avtobuslar və sıravi vətəndaşların avtomobilləri hərəkət edir.

Heydər Əliyev Prezidentə məxsus avtomobilin geniş salonunda ARDNŞ-nin o vaxtkı vitse-prezidenti Xoşbəxt Yusifzadə və Milli Məclisin o vaxtkı sədri Rasul Quliyev ilə birgə.

**Heydər Əliyev:**

— Mənə qalsa, şəxsən mən heç istəmərəm bu müqavilələri imzlamaq. Amma məcburuq. Həm pula görə, və həm də siyasi məsələlərə görə. Özümüz nefti emal edib, ondan nə qədər məhsul əldə edib, o məhsulu sata bilərik. Onda qazanc 10 qat artıq olar, əhalimiz də hamısı işlə təmin olunar. Amma ki, buna bu gün nə siyasi, nə maliyyə imkanlarımız yoxdur. Siz ikiniz də neftçisiniz. Nə fikirləşirsiz, nə edə bilərik?

**Xoşbəxt Yusifzadə:**

— Siz tam düz buyurursuz, yoldaş Əliyev. Hələ öz vaxtında rəhmətlik Mendeleev deyirdi ki, "neftdən yanacaq kimi istifadə etmək cinayətdir". O bir qızıldı. Neft və qazdan 500-dən çox məhsul alınır. Plastmasdan, karbolitdən, kauçukdan, rezindən, polietilendən əmələ gələn nə məhsul tanıyırsınızsa, hamısı neft və qazdan alınır. Neçə-neçə növ yuyucu tozlar, boyalar, kosmetik və tibbi vasitələr, dərmanlar – hamısı neft məhsullarıdı. Bizdə, vallah, bir az yaxşı-yaxşı axtarsaq bunların hamısını həyata keçirə bilən savadlı-qabiliyyətli kadrlar da var.

**Rasul Quliyev:**

— Yoldaş Əliyev, mən nəinki sizinlə tam razıyam, hətta bu məsələni mən NBNZ-də olanda da dəfələrlə qaldırırdım Azneftin qarşısında. Biz bu gündən sonra iqtisadiyyatımızı nə avtomobil istehsalı üzərində, nə qatar, nə təyyarə, nə peyk, nə silah istehsalı üzərində qura bilmərik. Çünki bu sahələrdəki bazarları bizdən əvvəl kimlərsə çoxdan tutub və özü də ən müasir, keyfiyyətli məhsul istehsalı ilə. Biz onlarla rəqabətə girə bilmərik bu məsələlər üzrə, çünki bu rallidə onlar bizdən 100 il əvvəldən start götürüb. Biz öz iqtisadiyyatımızı nəsə onların əli çatmayan, onlara rəqib olmayan, məhz bizim üstün olduğumuz bir sahədə qura bilərik ki, hansılar ki, onlar üçün əlçatmazdır. Bunlardan da ən birincisi elə neftdi. Xoşbəxt müəllim sadaladı. Biz gücümüzü bu sahəyə yönəltsək, bizə başqa iqtisadiyyat, xarici investor-zad lazım deyil. Elə özümüzün Rusiyadakı imkanlı uşaqlarımız qayıdıb gəlib, biri öz kəndində kukla istehsalı sexi, o biri plastmas vanna-vedrə istehsalı sexi, üçüncüsü kosmetika, dördüncüsü – boya sexi və s. açıb, ətrafına da 5-10 qohumunu yığsa, bütün ölkə əhalisi işlə təmin olunar, hamı büdcəyə vergi ödəyər və biz regionda hamını bu məhsullarla təmin etməklə ölkəyə böyük həcmdə valyuta gətirərik daim. Yəni biz iqtisadiyyatımızı sırf neft ətrafında, neftin emalından alınan məhsullar üzərində qurmaqla, bütün ölkə əhalisini işlə təmin edə bilərik, və büdcəmizə də böyük məbləğdə qanuni vergi cəlb edə bilərik, dövriyyəmizə də xarici valyuta.

**Heydər Əliyev:**

— Bunlar çox gözəl səslənir, Rasul. “Kəlilə və Dimnə” kitabında deyildiyi kimi, pişiyin boynuna zınqrov asmaq – gözəl bir ideya. Amma əsas məsələ onu necə həyata keçirtməkdi. Bunu kim edə bilər və hansı üsulla etmək olar? Bax budu

işin ən vacib tərəfi. Yolu nə? Buna bizim imkanımız varmı? Varsa günü sabahdan başlayaq

**Xoşbəx Yusifzadə:**

— Bilirsiz, yoldaş Əliyev....

Bu məqamda yolda sürətlə şütüyən Prezident kartejindəki 3 avtomobildən ikisi partlayış və od-alova büründü. Prezident kartejindən sağ qalan arxa avtomobil də cəld tormoz verdi və onun üçün gələn mərmi də yolunu azıb bayaqkı mərmidən sonra od-alov içində olan orta avtomobilə dəydi. Bir anda köməkçi yolda da tıxac yarandı və panika aləmi başına götürdü.

Bayaqdan söhbətə başı qarışan H.Əliyev sürücüsünə:

— Nə baş verib orda?

— Yoldaş Əliyev, Prezident kartejinə hücum olub, daha doğrusu deyəsən bomba qoyublarmış, avtomobillərdən qarşıda gedən 2-si partlayıb.

Heydər Əliyev özünəməxsus zarafatları ilə:

— Get bax gör ölüb eləməmişəm ki?

Sürücü həyəcan içində:

— Biz təcili burdan uzaqlaşmalıyıq

Bunu deyib avtomobili arxaya vermək istədi. Amma öndə olduğu kimi, arxada da tıxac yaranmışdı.

3-cü mərminin hədəfdən yayındığını görən yaxınlıqdakı yarımtikili hündürmərtəbəli binanın 10-cü mərtəbəsində gizlənən terrorçu sağ qalan 3-cü avtomobilə dalbadal 2 raket atır. Raketlərin hər ikisi qaçmağa can atan 3-cü avtomobili oda bürüyür.

Bu anda **Heydər Əliyev:**

— Pəncərəni aç görüm nə baş verir orda

Köməkçi yolla hərəkət edən köhnə bir furqonlu avtomobilin pəncərələrinin jalüzləri ehtiyatla aşağı enir və jalüzün arasından Heydər Əliyev əsas yolda yanan Prezident kartejinin 3 avtomobilinə, sonra əks tərəfdə raketin atıla biləcəyi Sabunçu körpüsündən bir qədər aralıdakı yarımtikili binalara baxır.

Bundan sonra H.Əliyev ABŞ və İngiltərə ilə neft sazişlərinin imzalanmasına birdəfəlik qadağa qoyur və həmin sazişin onlara rəqib olan Türkiyə (TPAO), Norveç (Statoil), Səudiyyə Ərəbistanı (DELTA), Yaponiya (Itochu) Rusiya (Lukoil) və ən nəhayət İran (NIOC) şirkətləri ilə imzalanması barədə göstəriş verir. Qərb dövlətləri təcili olaraq Qarabağ müharibəsini dayandırır, Heydər Əliyevin ad gününə hədiyyə olaraq (9-12 may radələrində) – ermənilləri Azərbaycanla atəşkəs müqaviləsi imzalamağa məcbur edir *("Bişkək protokolu")* və Azərbaycanın təhlükəsizliyi üçün lazımi tədbir görür, təminat verirlər. Bundan sonra Heydər Əliyev 1994-cü ilin 20 sentyabr tarixində adıgedən şirkətlərlə imzalanması nəzərdə tutulan "Əsrin Müqaviləsi" kimi tanınan neft sazişindən İranı çıxararq onun yerinə ABŞ və İngiltərə şirkətlərinin daxil edilməsinə razılıq verir *(Bunun əvəzində İranla Şahdəniz yatağı üzrə ayrıca Saziş imzalanır).*



## *XXIV fəsil:* Heydər Əliyevin müxbirlərlə görüşü

Prezident administrasiyasının iclas zalı. Dəyirmi stol ətrafında əyləşib müxtəlif partiyaların və mətbuat orqanlarının rəhbərləri. Heydər Əliyev otağa daxil olur, hamı ayağa qalxır, keçib yerində oturandan və hamı ilə ötəri zarafatlaşandan sonra, iclası açıq elan edir. Bildirir ki, sizi bura cağırmaqda məqsədim, ölkədəki vəziyyəti və bundan sonra sizlərlə qarşılıqlı əməkdaşlığın formalarını müzakirə etməkdir. Bundan sonra köməkçisi əməkdaşlardan xahiş edir ki, paylayın o hazırladıqlarımızı. Köməkçilər əyləşən bəzi yoldaşların qarşısına vərəqlər paylayırlar. Ondan sonra Heydər Əliyev deyir:

— Bunlar sizin qəzetinizdə son dövrlərdə çap olunmuş bəzi yazılardır. Baxın görün həqiqətənmi bunlar sizin yazılarınızdır?

Müxbirlər bunların onlara aid olduğunu təsdiqləyirlər.

Bundan sonra Heydər Əliyev:

— O yazıların hər birində bəzi abzasları mən çərçivəyə almışam. Sizdən xahiş edirəm hər kəs öz yazısında mənim fərqləndirdiyim fraqmenti oxusun.

Jurnalistlər sıra ilə oxumağa başlayır:

“Heydər Əliyev əslən Naxçıvandan yox, Ermənistanın Sisyan rayonundandır. Bildiyiniz kimi oraların da əksər əhalisi ermənilərdir. Demək ki Heydər Əliyev də onlardandır”

“Azərbaycanda söz azadlığı boğulur. Məşhur bir məmurun arvadının sürücüsü ilə eşq macərasından yazdığımız

üçün bizim qəzeti boş yerdən 100 min manat cərimə etdilər. Adi bir sözə görə”

“Azərbaycanda demokratiya yoxdur. Diktatura hökm sürür”

“Millətçi ziyalılara qarşı Stalin repressiyaları Azərbaycanda hələ də davam edir. Belə ki, Heydər Əliyev hakimiyyətə gələndən sonra minlərlə əsl ziyalı ölkəni tərk edib gedib – hansıların ki, yetişdirilməsinə, təhsilinə dövlətimiz milyonlarla manat vəsait xərcləmişdi. Əvəzində isə ölkəmizdə kənd təsərrüfatımızı, iqtisadiyyatımızı ayağa qaldırmağa mütəxəssis çatışmır, çünki bu işləri bilənlər ölkədən qovulub, onların yerinə iş bilməyənlər doluşub vəzifələrə”

Hər kəs öz yazısından seçmə fraqmentləri oxuyub qurtarandan sonra Heydər Əliyev:

— Mən bilən, mənə qarşı ən əsas iradlarınız, ittihamınız bunlardı. Başqa da nəsə varsa, deyə bilərsiz.

Ortaya ani sükut çökür. Heydər Əliyev:

— Yaxşı, hələlik bunlara cavab verim. Başqa nələrsə də qalıbsa, və ya söhbət əsnasında nəsə yadınıza düşərsə, deyərsiz, sonda onları da cavablandıraram.

Deməli deyirsiz ki, Sisian rayonu ermənilərdən ibarətdir. Siz bilirsinizmi ki, “Qafqaz” sözü kimi “Qafan” sözü də Qaf dağının adından götürülüb, və Azərbaycan nağıllarındakı Simurq quşunun vətəni olub? Həmin Qaf dağı məhz o Qafandakı Qapıcıq dağının qədim adıdır. Mənim əslim köküm  də ondan bir qədər aralı olan indiki Sisyan rayonunun Coomərdli kəndindəndir, amma regionun hamısının tarixi demək olar ki,

eynidir. Bəli, bu gün orda, əlalxüsus da mənim-ata baba yurdum olan Coomərdli kəndində ermənilər yaşayır və hətta düz yazırsız ki, Heydər Əliyev doğulduğu ildə də orda ermənilər yaşayırdı. Tamamilə doğru yazırsız. Amma mənim doğulduğum 1923-cü ildə orda ermənilərin yaşamasının mənə nə aidiyyəti? Mənim ata-babalarım axı həmin vaxt çoxdan oranı tərk edib Naxçıvana köçmüşdülər. Bəs həmin kənddə ermənilər nə vaxtdan məskunlaşıb? Yəqin ki, hamınız ali təhsillisiniz, və hətta aranızda tarixçi olanınız da var. Araşdırın görün Andranik öz quldur dəstəsi ilə o kəndə hücum edən vaxta qədər – yəni 1918-ci ilə kimi orda bir nəfər də olsa erməni yaşayırdımı? Bizim nəslin çoxu elə həmin o müharibədə qırıldı – kəndimizi el-obamızı Andranikin hücumlarından qoruyan vaxt. Bizim nəslimiz erməni olsaydı niyə müharibə edirdik 1918-ci ildə Andraniklə, niyə köç edirdik ondan sonra oradan? Elə qalıb yaşayardıq daa. Lazımsa sizə şərait yaradaram, bu barədə bizim arxivlərdə sənədlərlə tanış olarsız, aranızda bir az ürəkli olanınız varsa hətta Ermənistan arxivindəki sənədləri araşdırmağa şərait yaradaram – Sizi hansısa Rusiya alimlərinə, mətbuat işçilərinə qoşub, onlarla birgə Ermənistana yollamaq yolu ilə. Mənim ata-babam, nəslim-köküm məhz 1918-ci ilə kimi orda yaşayıb, ta ki, Andranik öz qoşunları ilə ora hücum edib, orda kütləvi qırğın həyata keçirənə kimi. O vaxt mənim atamgil uzun müddət onlarla vuruşdular, hətta əmilərimdən bəziləri o döyüşlərdə həlak oldular. Axırda görəndə ki, kəndi saxlaya bilmirlər, bütün kənd kişiləri ailələrini də götürüb vuruşa-vuruşa da kəndi tərk etdilər. Ermənilər ilk dəfə məhz ondan sonra ora axışıb gəlib və bizim qohum-əqrəbanın evlərində məskunlaşıblar və oralara Sisyan adını da məhz ondan sonra veriblər, bizimkilər orda olanda yox. Mən o

hadisələrdən 5 il sonra dünyaya gəlmişəm. Sovet vaxtı bunları açıb-ağartmaq olmurdu, indi Allaha şükr azadıq, deyə bilərik və deməliyik ki, siz nəsil də sonrakı nəslə ötürə bilsin bu qanlı tariximizi. Siz elə bilirsiz məni yandırmır 1000 illərdir orda yaşamış ulu babalarımın qəbirlərinin ermənilər tərəfindən dağıdılması, izlərinin oralardan silinməsi? Amma bunlar baş verib, bu saat nəyisə dəyişməyə gücümüz yox. Amma bilin ki, mən özüm o yerləri qaytara bilməsəm, mən öləndən sonra kimsə o işi görüb, oraları özümüzə qaytarsa, bilin ki, məzarda mən də xoşbəxt olmuş olacam ki, nəhayət ki, ulu babalarımın məzarı, ruhu düşmən tapdağı altında deyil.

Yazırsız ki, *"Heydər Əliyev Qarabağın işğaldan azad edilməsini istəmir, və nümunə üçün 1-2 xarici təşkilatın da adını yazırsız ki, onlar bu işdə öz köməkliyini təklif edib, Heydər Əliyev qəbul etməyib"*. Yəni siz o boyda Lissabon Sammitindən sonra da sizdə hələ şübhə qalıb ki, mən bunu istəməyə bilərəm? Bütün dünya gəldi mənim üstümə ki, sənədə imza at, mən atmadım ki, "Qarabağ Azərbaycandır!" fikri ora daxil edilməyincə imza atmayacam. Dedilər onda da Ermənistan qol çəkməyəcək. Axırda məcbur olub, həmin sənədin əlavəsi olaraq bu sözün yazıldığı başqa bir sənəd hazırladılar, ona qol çəkdilər, və onu da bu sammitin sənədi kimi yaydılar. Ona qədər hamı elə bilirdi ki, Qarabağ Ermənistan ərazisidi və biz onlara hücum etmişik. Siz dediyiniz o 1-2 xarici şirkətsə nəinki beynəlxalq, heç regional səviyyədə tanınmayan hansısa əldəqayırma təşkilatlardı. Siz onlardan 1-2-sini tanıyırsız. Amma Prezident Aparatının mətbuat xidmətinə müraciət etsəniz, sizə 100-lərlə bu cür fırıldaqçı kooperativ vasitəçilərin siyahısını verəcəklər, hansıların ki, xidmətindən mən imtina etmişəm. 3 gündən bir kimsə 3-4 nəfərdən ibarət bir təşkilat yaradıb, durub

gəlir ki, bəlkə bir az pul soya biləlvalər bizdən. Mənə hər dəfə bu cür daha bir xarici təşkilat müraciət edəndə bilirsiz yadıma nə düşür? Məşədi İbad filmindəki o epizod, hansında ki, Məşədi İbadın işləri düzəlməyəndə, dələduzların hərəsi bir tərəfdən gəlir ki, *"Məşədi 5 manat ver gedim o işi düzəldim"*. İndi bunlar da bizim ağrılı yerimizi bilib, pul qazanmaq istəyirlər bunun üzərində. Hər gələnə də başa salıram ki, ay qardaş, o boyda BMT, ATƏT, Minsk qrupu bu işlə məşğul olub ortaya bir şey çıxarammırsa, siz nə edəcəksiz? Qalırlar baxa-baxa.

Deyirsiz *"Heydər Əliyevin Qarabağı geri qaytarmaq istəməməsinin bir sübutu da o ki, biz – 10 milyonuq, ermənilər – 3 milyon. Bir fərmanla Səfərbərlik elan edib, nəinki Qarabağı, hətta bütün Ermənistanı ermənilərdən azad edə bilərik"*. Bilirsiz, siz jurnalistsiz, belə deyə bilərsiz. Dərd ondadır ki, bunu hətta bir sıra özünü siyasətçi adlandıranlar da deyir. Və elə bu tipli məsələlərə münasibət mənim üçün bir növ siyasi testdir ki, bunu deyən adamın siyasətdən nə dərəcədə uzaq olduğunu anlayım. Siz necə anlayırsız, dünya o dərəcədəmi ədalətli, özbaşına, azaddır ki, kim harda kiminlə nə istəsə edə bilər? Siz elə bilirsiz ki, qəfildən filan ölkədə xalq ayağa qalxıb, yaba-balta ilə hücum çəkib öz rəhbərini dəyişirsə, bu həqiqətən də onların öz ağlı, əli, planı ilə baş verir? Bilin ki, hətta Afrikanın ucqar bir meşəsində də baş verən 2 qəbilənin toqquşması, və ya qəbilə başçısının dəyişdirilməsi özbaşına baş vermir. Təkcə siyasətçilər aydın bilir ki, hansı dağın ətəyində baş verən hansı şər işlərdə, hansı dağın başında oturan hansı Şeytanın barmağı var. Rusiyanı üzük qaşı kimi mühasirəyə alıb, 4 bir tərəfdən onun sərhədlərini od-alova bürümək, cəhənnəmə döndərmək istəyən nəhəng güclər bu saat göz-gözə dayanıb məqam gözləyirlər ki, Rusiyanın qulağının

dibində balaca da olsa bir qığılcım baş versin ki, üstünə benzin töküb oranı 2-ci Əfqanıstana, Çeçenistana çevirsinlər və beləcə Rusiya ilə illərlə qarşıdurmaya getməyə özlərinə plaşdarm yaratsınlar. Yazıq deyil bizim gənclər, balalar ki, o oyunların qurbanı etmək istəyirsiz, bu ölkəni böyük dövlətlərin alətinə çevirib xarabaya döndərmək istəyirsiz? Mən illərimi vermişəm bu ölkəni bu vəziyyətə gətirib çıxartmağa, qurmağa-yaratmağa, balalarımızın azad-firavan yaşamasına. Siz bunun hamısını bir anda cəhənnəmə çevirmək istəyirsiz? Biz məqam gözləməliyik ki, böyük dövlətlərin başı bizdən daha vacib olan hansısa qlobal problemlərinə qarışsın, və ya bizdən hava-su kimi asılı vəziyyətə düşsünlər. O zaman özləri bizə şərait yaradacaqlar ki, gedin adi yaba-balta ilə erməniləri qovun çıxardın ordan, heç silah işlətməyə ehtiyac olmayacaq, və ya lazım olsa özləri gəlib bizim yerimizə vuruşacaqlar onlarla. Siyasətdə məqam – ən güclü silahlardan biridir və hər şeyin məqamını duyan siyasətçi dahidir. Mən bəzən özümü yenə də xoşbəxt hiss edirəm ki, nə yaxşı ki, Allah mənə imkan yaratdı, bu məqamda hakimiyyətdə oldum, xalqımla bir yerdə oldum, böyük dövlətlərin öz yerlərinə mənim xalqımı qabağa verib qırdırmasına, ölkəmizi Çeçenistana, Əfqanıstana çevirmələrinə imkan vermədim. Bu gün onlar sizlərdən mənə qarşı bir təzyiq aləti kimi istifadə edirlər ki, siz ictimai rəyi təcili müharibəyə kökləməklə, məni vaxtından əvvəl müharibəyə girməyə sövq edəsiniz. Çünki onlar bilirlər ki, mən dediyim həmin məqamda girsəm müharibəyə, onlar heç nə qazanmırlar. Mənsə bu müddətə boş dayanıb həmin məqamı gözləmirəm, gecə-gündüz yatmayıb dediyim həmin o məqamı yetişdirmək üzərində işləyirəm: addım-addım daxili və xarici resursları bu iş ətrafında səfərbər etməklə məşğulam. Mən Azərbaycanın

böyük oyunların kiçik peşkası olmasına heç vaxt yol verməmişəm və indi də verə bilmərəm. Sizə söz verirəm ki, bu işlərin nəticəsi olaraq Azərbaycan gec-tez elə pilləyə qalxacaq ki, o özü kimlərəsə oyun qaydalarını diqtə edəcək, bu oyunlarda fiqur yox, oyunçu rolunda çıxış edəcək. Bunu görmək mənə nəsib olmasa da, amma siz bunu mütləq görəcəksiz.

Yazırsız ki, *"Azərbaycanda demokratiya, insan azadlığı yoxdur, diktatura hökm sürür"*. Siz ümumiyyətcə bilirsizmi ki, Azərbaycanda demokratiyanın olması sizin hamınızdan çox mənim özümə lazımdır və buna görə də onu təmin etmək üçün mən sizin hamınızdan çox çalışıram və nail də olmuşam?! Bilirsiz niyə görə? Hər bir cəmiyyət ən fərqli qüvvələrin, baxışların, mədəniyyətlərin, ideologiyaların hegemonluq uğrunda daimi mübarizə apardığı bir meydandır və burada daxili yox, xarici qüvvələrin, mədəniyyətlərin, ideologiyaların dominantlıq qazanması o millətin məhvi deməkdir. Müxtəlif ölkələrdə xarici təsirləri zəiflətmək üçün ən fərqli üsullardan istifadə olunur. Kimlərsə buna qarşı o ölkənin öz milli dəyərlərini qoymaqla mübarizə aparır – məsələn İrandakı kimi; kimlərsə öz şəxsi baxışlarını, qərarlarını qoymaqla mübarizə aparır – məsələn Stalin kimi. Mənsə hələ gəncliyimdən heç vaxt bu kimi qarşıdurmalarda tərəf rolunda çıxış etmək tərəfdarı olmamışam, birinin qüvvəsini ona əks olan bir başqasının gücü, qüvvəsi ilə balanslamağa üstünlük vermişəm. Belə olan halda düşmənin sənə yönələn zərbəsi başqasına dəyir və onun tərəfdən cavablandırılır. Məhz buna görə 92-də əvvəlki hakimiyyət tək ingilisdilli ölkələrlə imzalamaq istədiyi neft müqavilələrini pozub, ora həm də onların rəqibi olan Rusiyanı, bizim qardaşımız olan Türkiyəni qoşdum ki, tərəfdaşlarımız bizə qarşı birləşə bilməsin, bir-birinin maxinasiyasını o birisi

tez çatdırsın bizə. Tək Qərbə yönələn xarici siyasəti şaxələndirdim və cəmiyyətdə Qərbyönümlülərlə birlikdə həm də Rusiya, İran təfəkkürlü insanlara meydan yaratdım ki, cəmiyyətimizdə Qərbin təsirini bunlar zəiflətsin. Beləliklə məşhur Azərbaycan misalında deyildiyi kimi: it-itlə vuruşur, yolçunun işi irəli düşür. onlar bir-biri ilə vuruşur, bir-birinin təsirini özləri zəiflədir, kompensasiya edir, əvəzində bizim öz milli baxışlarımızı, dəyərlərimizi, mənəvi sərvətlərimizi sərbəst şəkildə irəli aparmağımız yolunda heç bir maneə olmur. Nəticədə öz oyunlarını rahat şəkildə həyata keçirə bilməyən Qərb də, İran da, Rusiya da bütün bu uğursuzluqlarının günahını atır mənim üstümə ki, Heydər Əliyev diktatordu, bizim əl-qolumuz bağlayər. Siz hansı diktaturadan danışırsız, əgər Azərbaycanda yüksək vəzifələrdə bütün regionlardan və bütün millətlərdən nümayəndələr varsa? Mütləq azadlıq dünyanın heç yerində yoxdur və olması da mümkünsüz. Hər kəsin azadlığının sərhədi bir başqalarının azadlığının sərhədinə qədərdi. Dünyanın heç bir ölkəsində adam öldürmək, başqalarının əmlakını oğurlamaq, başqalarına ziyan vurmak, vergidən, bir sıra dövlət mükəlləfiyyətlərindən yayınmaq, rüşvət almaq, dini, irqi, irsi, cinsi, siyasi və s. radikalizmi, zorakılığı, narkotikanı, əxlaqsızlığı, müharibəni təbliğ etmək, kimlərsə barədə təhqir, şər, böhtan yaymaq, imicinə ziyan vuran yalan məlumat yaymaq və s. azadlığı yoxdur. Əgər kimsə bunlara qarşı mübarizəni insan azadlığını məhdudlaşdırmaq kimi yozursa, bu onun ancaq subyektiv fikridir. Qalan hallarda kimin kimlə nə işi var bizdə? Bakı küçələrində eyni vaxtda çarşablı xanımlar da görə bilərsizsə və avropasayağı geyinənləri də! Bakının bir tərəfində məscidlər, o biri tərəfində müxtəlif əyləncə obyektləri, hər ikisi də gecə gündüz açıq. Kim istəyir buna gedir,

kim istəyir ona. Kim kimi məcbur edir bu işlərə, və ya qadağa qoyur? Kimsə məcburi aparırsa və ya qadağan edirsə – ona qarşı sərt tədbir görülür – o da bunu öz əqidəsinə zorən insanları cəlb etmək azadlığının məhdudlaşdırılması kimi dəyərləndirirsə, bu da azadlıq məhdudlaşdırılması sayılmır. Azərbaycanda kifayət qədər geniş Qərbpərəst şəbəkə fəaliyyət göstərir, aktiv şəkildə Azərbaycanda Qərb dəyərlərini, baxışlarını müdafiə edir, yayırlar, eyni qədər də Rusiya, İran, Türkiyə, və Ərəb mədəniyyətini, ideologiyasını, dəyərlərini dəstəkləyən və yayan təbəqə. Bütün bunlar azadlığın, rifahın, təhlükəsizliyin və nəhayət demokratiyanın nümunələri deyilmi? Hələ onu demirəm ki, səhərə kimi insanlarımız küçələrdə, parklarda qorxmadan, hürkmədən gəzişir. Niyə və necə? Çünki mən bütün sferalarda balans yaratmağa nail olmuşam, bir təbəqənin, klanın, şəbəkənin, ölkənin təsirini burada o birisininki ilə balanslaşdırmışam. Bir tərəf üstünlük qazanmaq ümidi ilə öz təsirini, təzyiqini bir az da artırmaq istəyəndə, əks qüvvə də öz əks təsirini bir o qədər artırmaqla onun gücünü kompensasiya edir, nəticədə biz bu kimi işlərə əlavə güc və enerji sərf etmirik, gücümüzü öz işlərimizə yönəldirik.

Bunları idarə etməyi bacarmayan ölkələrdə ya anarxiya hökm sürür, ya da onlar gec-tez hansısa xarici qüvvələrin təsiri altına düşüb, öz müstəqilliklərini itirirlər. Məni diktaturada günahlandıranlar da məhz bu kimi şablon siyasi epitetlərlə və başqa növ təzyiqlərlə bütün bu işlərdən əl götürməyə məcbur etmək istəyirlər ki, ölkəmizdə anarxiya yaradıb, boşluqdan istifadə edərək öz təsirlərinə və öz tərəfdarlarına üstünlük qazandıra bilsinlər. Ümumiyyətcə o qüvvələrin iş prinsipinə mən hələ Sovet dövründən bələdəm: Onlar beynəlxalq kontraktlarda kimlərisə rüşvət vermək və almaqda ittiham

edirlər ki, başqaları rüşvətlə kontraktları uda bilməsin, bunların şirkətləri rüşvət verib uda bilsin; Başqalarını beynəlxalq səviyyədə silah, narkotika ticarətində günahlandırıb, bununla aktiv mübarizə aparırlar ki, bazardan öz şirkətlərinə rəqib olanları sıxışdırıb çıxarsınlar, bu işlə ancaq onların özlərinin şirkəti məşğul ola bilsin; Ölkələri diktaturada günahlandırırlar ki, onlar xarici təsirlərə qarşı öz müqavimətini zəiflətsin, əvəzində bunlar öz təsirlərini rahat yaya bilsinlər orda; Ölkə rəhbərlərini Rusiyaya, İrana satılmaqda günahlandırırlar ki, əhali bu ölkələrin təsirinə qarşı etiraza qalxsın, bununla da o məkanda öz rəqiblərinin təsirini bu ölkənin əhalisinin əli, dili ilə zəiflədib, rəqabətdə öz agentlərinə yaşıl işıq yandırtsınlar;

Onlar ümumiyyətcə bir çox halda siyasətlərini, addımlarını, məqsəd və məramlarını həmişə gəlişigözəl epitetlərlə maskalayırlar. Hardasa "demokratiya yaradırıq" deyəndə onu nəzərdə tuturlar ki, orada anarxiya yaratmaq istəyirlər, "Demokratlar" deyəndə ancaq öz tərəfdarlarını, anti-demokrat deyəndə yerlərdə onların agentlərinin işinə mane olan şəxsləri, terrorçu deyəndə – ancaq onların özünün işinə, adamlarına silahlı müqvimət göstərən şəxsləri nəzərdə tuturlar, hardasa bunların planı ilə baş tutan üsyanı – xalq azadlıq hərəkatı, bunlara aid olmayan qüvvələrin üsyanını – separatçı qüvvələrin pozucu fəaliyyəti adlandırırlar; və s. Və i.a.

O ki qaldı xarici təsirlərə qarşı niyə görə öz milli dəyərlərimizi, mədəniyyətimizi, ideologiyamızı gücləndirməklə cavab verməyib, bunun əvəzində ölkəni ən müxtəlif mədəniyyətlərin, təsirlərin, toqquşma poliqonuna çevirməklə cavab verməyimizə və bunun nə dərəcədə yaxşı və ya pis olmasına, mən həmişə rəngarəngliyin, hərtərəfli inkişafın

tərəfdarı olmuşam. Babalarımız qopuz çalıb deyə, bu o demək deyil ki, biz də ömürlük qopuz çalmalıyıq və pianodan imtina etməliyik, babalarımız qılıncla döyüşüb deyə, biz tüfəngi qəbul etməməliyik. Xeyr. Regionumuz ta qədimdən ən müxtəlif ticarət marşrutlarının üstündə yerləşdiyindən daim ən fərqli mədəniyyətlərin, ideologiyaların kəsişdiyi yer olub, buna görə də daim hər növ millətlə, adət-ənənə ilə, təsirlə rastlaşmış bir xalq kimi, bizdə başqalarına, yad təsirlərə, mədəniyyətlərə dözümlülük – ticarət yollarının sonunda yerləşən Qərb ölkələri ilə müqayisədə həmişə güclü olub. İndi antisemitizmin, islamofobiyanın, xolokostun, neçə-neçə dünya müharibələrinin vətəni olan ölkələrin durub bizə – yəni onlarla xalqın min illərdir bir dam altda yaşadığı bir ölkəyə deməsi ki sizdə fərqli xalqlara, mədəniyyətlərə qarşı bir dözümsüzlük var – bu artıq siyasi böhtandır. Ölkəmizdə fərqli mədəniyyətlərin, ideologiyaların toqquşması o halda təhlükəli olardı ki, bu proses xaotik olardı. Dövlət nəzarətində olanda və lazımi orqanlar tərəfindən idarə olunanda, bundan insanlarımız ancaq bəhrə götürə bilər, zənginləşə, müdrikləşə bilər.

Deyirsiz *“Azərbaycanda söz azadlığı yoxdur, Sovet senzurası Azərbaycanda fəaliyyətini hələ də davam etdirir”*. Yenə də təkrar edirəm: Ölkəmizin informasiya məkanı daim xarici qüvvələrin hücum obyektidir. İctimai rəyi idarə etmək, çaşdırmaq, azdırmaq üçün onlar ən müxtəlif üsullardan istifadə edirlər. Son məqsəd isə sadədir: cəmiyyətimizdə ziyanlı ideyaları hakim etsinlər, dəyərsiz adamları zirvələrə qaldırsınlar, düzgün, lazımlı olanları isə heçə endirsinlər, bununla da İblis kimi insanlarımızı daim yanlış yollara yönləndirsinlər, azdırsınlar, uçuruma yuvarlasınlar. Bu üsullarla onlar yalançı, saxta elmi ideyaları, kəşfləri, düsturları reklam edirlər,

hamıya ən böyük kəşf kimi qəbul etdirirlər, əsl kəşfləri, düsturlarısa dövlət sirri kimi özlərində gizli saxlayırlar, Onlar üçün strateji əhəmiyyət kəsb edən mövzular üzrə məqalələrin yolunu beynəlxalq jurnallara bağlayırlar, həmin mövzular üzrə azdırıcı məqalələri isə həvəslə çapa buraxdırırlar ki, qabaqcıl silahlar, texnologiyalar axtarışında rəqiblərini çaşdırsınlar, azdırsınlar, bunun əsl açarları isə ancaq onların özündə olsun; Ölkələrdə yalançı alimləri tərifləyib, mükafatlar verib göylərə qaldırırlar, əsl alimlərisə aşağılayıb, bu ölkədə sıxışdırılmasına nail olurlar ki, onlar da gec-tez onlarla Qərbə getməyə, onlara işləməyə razı olsunlar; Digər hər bir sahədə də lazımsız, dəyərsiz, qabiliyyətsiz kadrları sizlərin və bir başqalarının dili, əli ilə təriflədib, dəstək verib göylərə qaldırırlar ki, ölkənin bütün sektorlarında ancaq qabiliyyətsiz adamlar çalışsın, o yerə layiq əsl qabiliyyətli insanları isə bütün ən müxtəlif üsullarla aşağılayırlar, "vururlar", əzirlər, sıxışdırırlar ki, o cür şəxslər cəmiyyətimizdə layiqli yerini tutub, bizi xilas edə bilməsin, bizə fayda verə bilməsinlər, əlacsız qalıb onlara işləməyə razı olsunlar; Əsl liderləri aşağılayırlar, gözdən salırlar, ləkələyirlər, əvəzində gücsüz, zəif, yararsız şəxsləri sizlərin və bir başqalarının dili, əli ilə göylərə qaldırırlar, bütləşdirirlər, ideallaşdırırlar ki, əhalimiz səhv bütlərə ibadət etsin, yanlış adamların arxasınca gedib, quyuya düşsün; Cəmiyyətimizi xilas edə bilən əsl güclü ideyaları, baxışları, dəyərləri sizlərin və başqalarının dili, əli ilə vurub, əzib, tənqid, təhqir edib aşağılayırlar, onlara sərf edən, beləsi olmasa da bizi uçuruma aparan yanlış ideyaların, baxışların, dəyərlərin həmin kanallarla cəmiyyətimizdə hakim olmasına, dominant olmasına, baxışlara təsir etməsinə çalışırlar. Və s., və i.a. Bunların üzərində minlərlə institutlar, yüz minlərlə kadrlar işləyir. Və

özü də bu dezinformasiyaları öz adamlarının dili ilə, əli ilə, yalan, yad olduğu açıq-aşkar bilinə-bilinə ötürmürlər. Xeyr. Bizim adamlarımızın, yəni sizlərin dili ilə, milli kaloritlə bəzəyərək, və cəmiyyətimizdəki hansısa bir həqiqətə bənzədərək ötürürlər. Həqiqətə bənzər yalan – özü də, xalqın öz içindən çıxan, onların etibar etdiyi insanların dili ilə ötürüləndə isə, – bombadan daha dəhşətli silah olmuş olur. Üstəlik də özlərinin 1-2 saxta alimlərinin, siyasətçilərinin dili ilə onu dəstəkləyən sifarişli fikirlər də yayırlar, ondan sonra ona inanmamaq artıq heç cür mümkün olmur. Dövlətin immun sistemi də aktivləşib, bunlarla mübarizə aparmağa başlayanda, sizləri qızışdırıb atırlar meydana ki, guya bizdə fikir azadlığı yoxdur. Bizimkilərdən də kimsə sizə həqiqəti başa salmaq istəyəndə, bu yolun, bu mövqeyin yanlış olduğunu izah edəndə isə, başlayırsız ki, iqtidar öyrədib bunları. Çünki əsl həqiqəti deyənləri, vətəni sevib, vətəndaşlarımızı düz yola apara bilənlərimizi çoxdan ləkələyib, hörmətdən salıblar, onlara əhalimizin inamını, etibarını qırıblar ki, gənclərimiz öz ağsaqqalarımızın düzgün fikrinə yox, xarici qüvvələrin hiylələrinə inansın, bu cür konfrontasiyada siz özünüzə daxildən yox, xaricdən arbitrlər axtarasız. Daha fərqində olmursuz ki, bu kimi maraq toqquşmalarında bizim hər birimizin yeganə arbitrimiz – yalnız və yalnız bizim gələcək nəsillərimizin mənafeyi, rifahı, təhlükəsizliyi olmalıdır.

Bir şeyi nəzərdə saxlayın ki, siyasətçilər heç vaxt həqiqəti, ədaləti, haqlı-haqsızı, günahkarı axtarmırlar, onlar bunları təyin edirlər. Siz məntiqlə, riyaziyyatla, dilçiliklə siyasəti bir-birinə oxşatmayın. Onlarda 2 x 2-nin ancaq bir cavabı varsa, burada o cavablar ancaq şəraitdən asılı olmuş olur. Onlarda hər şeyin öz adı, hər sözün öz konkret mənaları

varsa, burada ifadə üçün düzgün zaman, məkan, şərait, deyim tərzi, kontekst seçməklə eyni sözə 100 fərqli məna vermək olur. Dünya həqiqət, haqq-ədalət üstündə bərqarar olmuş olsaydı, dünyanın hansısa bir başındakı bir agentinin həbsinə görə hay-həşir qaldıran güclər, çoxdan bizim 1 milyon qaçqın və məcburi köçkünlərimizin haqqının tapdalandığını da görərdilər və onların haqlarını bərpası uğrunda hər şey edərdilər, qanuni torpaqlarımızı özümüzə qaytarardılar. Hanı bəs bu işlərdə siz dediyiniz həmin o haqq-ədalət? Rəy və zövqə etalon olmur deyirlər, buna görə də yaxşı və pis, doğru və yalan məsələsində çoxlu fərqli mövqelər ola bilər. Dövlətçiliyimizə aid fikir ayrılığında hər bir Azərbaycanlı üçün əsl həqiqət yalnız o ola bilər, hər bir azərbaycanlı da məhz o həqiqətin yanında olmalı, onun tərəfini tutmalıdır, hansı ki, bizim gələcək nəsillərimizin rifah və təhlükəsizliyini təmin edə bilər. Əgər düşmənə qalib gəlmək üçün bizdən Günəşə Ay, Ayasa Günəş demək tələb olunursa, burada fikir ayrılığı yaradanlar düşmən dəyirmanına su tökənlər olacaq. Bu torpaq üzərində yaşamaq hüququmuzu bizim babalarımız tarix səhifələrinə öz qılıncı ilə, ermənilərin babalarısa saxta qələmlərlə yazıb. Bugünkü dünyada isə qələmin dili qılıncın dilindən daha iti qəbul olunur – baxmayaraq ki, onun bir çox halda yalançı olduğu hamıya bəlli olsa da. Buna görə də biz bu gün qılıncımızla qələmimizi birləşdirməyi bacarmalı, qılıncımızın dediyini qələmimizin təsdiqləməsinə nail olmalıyıq. Bu hər 2 silahın bütün imkanlarının düşmənə qarşı səfərbər olunması – bizim rifah və təhlükəsizliyimizin yeganə açarıdır. Düşmənlərimizin də istəyi məhz o ki, bizə bu 2 silahı birləşdirməyə macal verməsinlər, bunlar arasında daim uçurum yaratsınlar: qılıncımız deyəni qələmimiz tənqid etsin,

döyüş meydanında və söz meydannda hücumumuz sinxron olmasın. Bu hər 2 silahı düşmənə qarşı, yoxsa özümüzə qarşı yönəltmək uğrunda daim xarici qüvvələrlə bizim xüsusi xidmət orqanlarımız arasında mübarizə gedir. Çalışın bu işdə düşmənlərə alət olmayasız. Ölkənin söz silahı üzərində hakimiyyət kimin əlindədirsə, ictimai şüuru üzərində, və deməli bütövlükdə cəmiyyət üzərində hakimiyyət də onun əlindədir. Bu silahın düşmən həqiqətlərinə işləməsi, həmin cəmiyyətin sonunun başlanğıcı deməkdir.

Qaldı ki, ölkəmizin problemlərindən yazmağınıza, buna görə kim nə deyir ki, sizlərə? İstənilən naziri, onun fəaliyyətini tənqid edirsiz, hətta mənim özümün hansısa fəaliyyətimi də. Hətta gəlib mənim üzümə oxuyursuz bunları, kim sizə nə deyir? Hələ mən özüm sizə məsləhət verirəm ki, daha çox problem axtarın tapın cəmiyyətimizdə, yazın, göstərin. Mən özüm sizə bu işdə dəstəkçiyəm. “Bakılı oğlanlar” komandası hətta mənim özümün qarşımda, məni də, nazirləri də tənqid edən parodiyalar göstərirdilər. Əksinə, özünüz də gördüz ki, verilişdən sonra onları kabinetimə dəvət edib mükafatlandırdım. Amma boş-boş qeybətlər yox, konkret faktlar yazın. Məmurların işini tənqid edin, özünü və ya ailəsini yox. Siz bəzən tənqidlə təhqir, faktla şaiyə, tənqidlə şər-böhtan arasında heç bir fərq görə bilmirsiz, o halda da qanunla toqquşmanız yaranır, adını qoyursuz ki, adi sözə görə bizi həbs edirlər.

Yazırsız ki, *“Heydər Əliyev əsl qabiliyyətli insanları ölkədən uzaqlaşdırır, qabiliyyətsiz insanlarısa irəli çəkir”*. Yenə də həmin məsələ. Bizdə olan bütün qiymətli şeylər uğrunda xaricilərlə bizim aramızda daim savaş gedir. Onlar çalışır ki, hamıda qiymətli nə varsa hamısını qarət etsinlər, edə bilmədiklərini də elə duruma salırlar ki, dəyərini tam itirsin və

su qiymətinə alsınlar. Bunu da edə bilməyəndə elə vəziyyətə salırlar ki, onlar heç bizim özümüzə də lazım olmasın. Vaxtilə Qarabağ kartından istifadə edib neftimizi də o cür dəyərsizləşdirib, su qiymətnə almaq istəyirdilər, yaxşı ki mən buna imkan vermədim. Ondan sonra yada düşən bütün strateji məhsullarımızın, obyektlərimizin siyahısını tərtib etdirib, hər birinin istismarı ilə bağlı xalqımız üçün maksimum uduşlu müqavilələr bağlanmasına nail oldum. İntellektual məhsullarımız və onların istehsalçılarısa bir qədər mücərrəd obyektlərdi deyə, onların dəyərini müəyyən etmək, reyestrini aparmaq bir qədər çətin məsələdi. Bir alimi, mütəxəssisi yetişdirmək üçün dövlətimiz neçə il bağçada, 11 il orta məktəbdə, 4-5 il ali məktəbdə, daha sonra doktoranturada, rezidenturada nə qədər xərc çəkir. Ən axırda hazır bir mütəxəssisi gəlib hansısa bir xarici ölkə pulsuz-parasız götürüb aparıb, ondan nə qədər mənfəət götürür. Özünüz bilirsiz, mən daim istedadlı şəxslərimizi tapıb üzə çıxarıb onlara hər cür diqqət, qayğı göstərmisinə xüsusi önəm vermişəm. Amma görünür onların bu sahə üzrə bizdə olmayan daha dəqiq ölçmə texnologiyalrı, testləri, seçim proqramları var ki, buna əsasən də bizim layiqli kadrlarımızı bizdən əvvəl müəyyən edib, xaricdə ona cənnət vəd etməklə, və ya burda həyatını bizimkilərin əli ilə cəhənnəmə döndərməklə onu bizim və özünün gözündə tam dəyərsiz bir məxluqa çevirib, lazımsız bir kadr kimi pulsuz-parasız götürüb aparırlar. Aparandan sonra da ya bizi necə parçalamaq, dağıtmaq tipli proqramlara cəlb edirlər, çünki bizim zəifliklərimizi, həssas nöqtələrimizi öz içimizdə yaşamış, bizimlə bir tarixi, psixologiyanı bölüşən insanlardan yaxşı heç kim bilə bilməz. Ya da bizim hansısa bir problemimizi necə həll etmək barədə proqramlara cəlb etsələr də, sonda o proqramı özümüzə baha

qiymətə satırlar. Bunların əvəzində isə bizdə lazımsız, korrupsioner, istedadsız, avantüraçı şəxsləri sizlərin əli, dili ilə reklam edib, vacib kadr kimi tanıdırlar və belələrinin vəzifələrə daraşması üçün də nə dəstək lazımsa, onu onunla təmin edirlər. Nəticədə dövlət idarəetmə aparatının faydalı iş əmsalı minimum, xəta faizi isə maksimum olmuş olur. Amma şükr ki, özünüz şahidsiz ki, bu nisbət ilbəil bizim xeyrimizə dəyişir. Siz də bu işdə öz dövlətimizə yardımçı olsanız, çox az bir vaxtda hər şey tam şəkildə bizim xeyrimizə olar.

Yazırsız ki, *"Azərbaycanda məmur özbaşınalığı var"*. Bilirsiz, siz hər şeyin ancaq üzdə olanını görürsüz, amma mən bütün şüurlu həyatımı kəşfiyyata, dövlət işlərinə həsr etdiyimdən, bu kimi məsələlərin siz görmədiyiniz arxa mətbəxindən də xəbərdaram. Bizim vaxtlarımızda dövlətlər bir-birinə qarşı kəşfiyyat işi həyata keçirirdilər, bir-birinə qarşı açıq-gizli müharibələr aparırdılar – iqtisadi, siyasi, mədəni və s. sferada. Bu gün dünya o qədər kiçilib, texnika o qədər inkişaf edib ki, dövlətlər artıq bir-birinə qarşı yox, qarşı tərəfin ayrı-ayrılıqda hər bir sektoruna, təşkilatına və lazım gələndə hətta vətəndaşına qarşı müharibə aparırlar. Hər bir dövlətin, dövlətdə hər bir sektorun zəif nöqtələrini araşdırıb, tapıb, oradan hücum edirlər ona. Onlar bu gün bütün dövləti deyil, "qamçı və kökə siyasəti" ilə artıq onun hər bir vətəndaşını bir-bir özlərinə sarı çəkmək üçün, hər bir vətəndaşın öz sahəsində onlara işləməsi üçün bütün imkanlarını hər bir ayrıca fərdə qarşı yönəldirlər. Prezidentdən tutmuş, nazirə, nazir müavininə, idarə müdirinə, adi işçiyə, müxbirə, alimə qədər hər biri ilə ayrıca işləyirlər, hər biri ayrıca olaraq onların atəş hədəfindədir, "mükafat və cəza" metodu ilə hər kəsi bir-bir onlara işləməyə vadar vəziyyətə qoyurlar. Onlara işləməyə razı olan kəs

– ruhunu İblisə satmağa razılıq vermiş insan kimi qəfildən böyük güc-qüdrət sahibi olur: işlədiyi yerdə dövləti necə soyub-talamaq barədə ona o sahənin zəifliklərini əks etdirən təlimat ötürürlər, digər vəzifələrdəki öz adamlarının şəbəkəsinə bunu da qoşub, arxa-dayağını möhkəmlədirlər, vəzifədə irəli getməsi üçün yuxarı instansiyaya nə qədər rüşvət lazımsa onu tapıb verirlər, təzyiq lazımsa təzyiq edirlər, bütün şəbəkələrini, kəşfiyyatlarını bu işə qoşurlar, başqa da nə dəstək lazımsa, onu edirlər. Bu bir növ sığorta şirkətinə üzv olmaq kimi bir şeydir: öz həyatını və gələcəyini, karyeranı risklərdən sığortalamaq istəyirsənsə, mütəmadi olaraq bu fondun ümumi büdcəsinə əlində olan imkanlar çərçivəsində nəsə "üzvlük haqqı" ödəməlisən. Bu haqq isə, imkan sahibisənsə – pul formasında, vəzifə sahibisənsə – şəbəkənin tapşırıqlarına, maraqlarına uyğun adamların irəliləməsinə, qərarların qəbuluna, icrasına qol çəkmək, olmayanları bloklamaq formasında, jurnalistsənsə – vaxtaşırı olaraq həmin tapşırıqlara, maraqlara uyğun yazılar dərc etdirmək, əks yazıları "vurmaq" formasında, sistem işçisisənsə – bu şəbəkənin marağında olan dövlət və hökumət sirlərini onlara ötürmək formasında, bütün bunların heç birinə malik deyilsənsə – şəbəkəyə daha çox üzv tapıb qoşmaq formasında ola bilir. Sabah da sənin özünə dəstək lazım olanda, özünü sığortaladığın, büdcəsinə neçə ildir "haqq" ödədiyin bu şəbəkənin bütün imkanları sənin arxanda olur: heç üzünü görmədiyin, adını bilmədiyin neçə prokuror, polis rəisi, nazirlik əməkdaşı sənin işinə görə kimlərəsə zəng edir, qərar verditdirir, neçə biznesmen sənin işinə görə pul yollayır, neçə mətbuat sənə dəstək, rəqibininsə əleyhinə kompromat dolu yazı dərc etdirir. Çünki hamısı bu şəbəkənin üzvüdür, vaxtilə sənin ümumi fonda ödədiyin analoji "üzvlük

haqqından" bunların da hamısının işinə pay çatmışdı, onlar tutduqları vəzifələrə görə bu kanalın imkanlarına borcludurlar. Yəni qədim romalılar hökm sahibi olmaq üçün tək rəqiblərini parçalamaq üzərində düşünürdülərsə, bunlar həm də öz cəbhələrini daha da sıx necə birləşdirmək, mütəşəkkilləşdirmək üzərində işləyirlər: istər bunlarla işləyən fərdlərin cəbhəsini olsun, istərsə də dövlətlərin. Nəticədə məşhur filmimizdə deyildiyi prinsip yaranır: birinin xışı var öküzü yox, o birinin öküzü var torpağı yox, üçüncünün də torpağı var, qalan şeyləri yox. Bunları birləşdirməklə əvvəlcə birinin işini həll edirlər, sabah o birinin, birigün üçüncünün.

Onlara işləməyə razı olmayan, o cümlədən ölkəsinin Komissar Kattanisi olub, onların şəbəkəsini ifşa etmək istəyən, bunların vəzifələrdə irəli çəkmək istədiyi antimilli konsepsiyaların, yaramaz insanların irəli getməsinə əngəl törədən, və ya ölkənin hansısa sahəsini sağlamlaşdıra, xilas edə biləcək şəxslərə qarşı isə onların qəzəbi, nifrəti amansız olur: onların bütün kəşfiyyat strukturunun, maliyyə imkanlarının, agentura şəbəkəsinin gücü yönəlir ona qarşı. Siz anlayırsız böyük bir dövlətin nəhəng imkanlarının adi bir fərdə qarşı yönəlməsinin necə dəhşətli bir iş olduğunu? Əvvəlcə, rüşvətlə yola gətirmək istəyirlər. Pula satılmayanları xaricdən hansısa şirnikləşdirici təkliflə aldadıb ölkədən çıxarırlar, orda da çatan kimi aldadıb, həvəsləndirib hansısa çirkin, anti-milli, anti-iqtidar davranışlara, bəyanatlara, tədbirlərə, əməllərə sövq etməklə əleyhinə kompromat yaradıb geriyə yolunu birdəfəlik bloklayırlar. Bütün bunlara duruş gətirib getməyənləri isə artıq yerindəcə ən sərt formada məhv edirlər: telefonundakı yazışmaları, danışıqlarını izləmələri bəs edir ki, əllərində daim hər kəsə qarşı ailəsini dağıdan, işində problem yaradan, cəmiyyətdə rüsvay

edən, onu həbsə atdıra biləcək kompromatlar olmuş olsun. Hansısa jurnalistin əli ilə gətirib qoyurlar stolunun üstünə ki, filan məsələyə qol çəkirsən, yoxsa bunu yayım? Razılaşmayanın həyatını elə sizlərin əli ilə məhv edirlər. Sizlərin əli ilə alınmayanda polisdəki, prokurorluqdakı, filan nazirlikdəki adamlarının əli ilə tapşırtdırıb, və ya qurama qurub, tələyə və hətta həbsə saldırırlar, işsiz qoyurlar. O da bu oyunların, haqsızlığın günahını məndə görüb, keçir müxalifət dəstəsinə.

Bu siyasəti istər dövlətin özünə tətbiq edirlər, istər dövlət və hökumət başçılarına və istərsə də hər bir səlahiyyət sahibinə, və vətəndaşına qarşı. Mən çoxdan bunların təzyiq hədəfindəyəm, – xaricdə və daxildə tutduqları muzdlu əlaltılarının dili ilə əleyhimə min şaiyə yaydırırlar, təhqir, böhtan yağdırırlar, camaatımızı mənim əleyhimə qaldırırlar, terrorlar planlaşdırıblar neçə dəfə və s. – bunlar tamam başqa söhbətin mövzusudur. Və hər dəfə bunların marağında olmayan hansısa bir göstəriş verəndə, qərar qəbul edəndə isə, mənə gücləri çatmadığından başlayırlar zəncirvari prinsip üzrə üstdən aşağı bu tapşırığın, qərarın icrasına məsul olan hər bir kəsə təzyiq etməyə ki, ən yuxarı pillədə dayandıra bilmədilər bu qərarın qəbulunu, heç olmasa bunlar vasitəsilə aşağılarda mane olsunlar onun icrasına.

Bilirəm, deyəcəksiz ki, bəs biz niyə eyni siyasət yürütmürük onlara qarşı? Əvvəla onların əsl idarəetmə aparatı sualtı qayıq kimi çoxdan qərq olub siyasət okeanının dərinliyinə. Onların üzdə olan, siz tanıdığınız nazirləri, prezidentləri, tanınmış şəxsiyyətləri – hamısı maketlərdir, o dövlətləri idarə edən əsl nazirlərin, prezidentlərin avatarlarıdılar. Hərbiyyədə ən güclü texnikaları, siyasətdə hansısa addımları, diplomatiyada əsl niyyətləri ən fərqli maketlərlə, imitasiyalarla,

dezinformasiyalarla komufulyaj etdikləri kimi, onlar kadr işində də, ən vacib personlarını strateji obyekt kimi yalançı prezidentlər, nazirlər, rəhbərlər və s.-lə komufulyaj edirlər. Bu səbəbdən də, üzdə görünən kəsləri nə qədər təhdid, şantaj edən olsa da, dövlətin ümumi siyasətinə heç bir təsiri yox. *İkincisi isə,* bu meydanda nəinki onlarla qarşıdurmaya getmək, əks-hücum həyata keçirmək üçün, hətta müdafiə üçün bizim texnoloji imkanlarımız yox səviyyəsindədir. Bu səbəbdən də o cür ekspansiyalara qarşı öz dövlətimizin immun sistemini gücləndirmək üçün biz bir-biri ilə rəqabət aparan ən fərqli qütblərlə əməkdaşlıq etməyə məcburuq ki, üst-üstə düşən maraqlardan irəli gələrək qabaqcıl müdafiə texnologiyalarını bizlə bölüşməyə razı olsunlar. Yəni birinin bu tipli virusuna qarşı antivirusu o birisi versin bizə. Bunusa sizlər Rusiyaya, Ermənistana, İrana işləmək kimi, Azərbaycanı Rusiyaya, İrana satmaq meyli kimi dəyərləndirirsiz.

Bax, belə-belə işlər olur dünyada.

Bilirəm, bəziləriniz gözləyirsiz ki, sözümü bitirim və mənə provakasion sual verəsiniz ki, hansı dövlət edir bunu bizə qarşı, hansı dövlət durur bunun arxasında? Mən cavab verə bilərəm: Regionumuzda marağı olan hər bir dövlət. Hər birinin bizim hakimiyyət orqanlarının daxilində öz paralel hakimiyyəti var, şəbəkəsi var. Bilirəm, bundan sonra da deyəcəksiz ki, bəs mən bunu bilirəmsə, niyə mübarizə aparmıram bununla? Bizim dövlət orqanlarımız kifayət qədər effektli mübarizə aparır bununla. Amma bu, tək dövlət orqanlarının bacaracağı iş deyil, buna qarşı hamı əlbir mübarizə aparmalıdı. İnsanların, ələlxüsus da bu sahə üzrə xüsusi təlim keçmiş agentlərin maska altındakı əsl simalarını müəyyən etmək o qədər də asan məsələ deyil. Siyasət adamları, Taleyranın dediyi kimi, tək dili

ilə deyil, həm də davranışları ilə məharətlə maskalaya bilirlər öz əsl simalarını, niyyətlərini, mövqelərini. Buna görə çox çətindi insanları tanımaq, onun hansı məzhəbə, əqidəyə qulluq etdiyini müəyyən etmək - ələlxüsus dövlət işlərində. Mən özüm bu zallarda çox insanlar görmüşəm ki, üzdə arxasını mənə çevirib oturub, amma arxada mənimlə üz-üzə, əl-ələ, yan-yana olub həmişə. Və ya əksinə – üzdə mənimlə bir cəbhədə olub, arxada, daldada isə 10 illərdir mənim əleyhimə işlərlə məşğul olduğu üzə çıxıb çox-çox sonra. O dediyimiz tipli adamlar da, sadəcə bizim məmurların qiyafəsi ilə özünü məharətlə maskalamış xarici ölkə agentləridi, əsl milli məmurumuz deyil. Biz onu bir başqa tərəfdən tanıyırıq deyə, görməyə bilərik hansısa məmurun əsl maskaaltı simalarını, amma siz tamam başqa tərəfdən baxdığınız üçün görə bilərsiz. Neçəsi olub ki, siz tərifləyib göylərə qaldırmısız, dilindən "vətən", "Qarabağ" sözü düşmür, axırda gəlib çıxıb ki, sən demə, hansısa xarici dövlətin agenti imiş, bayaq dediyim üsullarla irəli çəkibmiş onlar bunu. Və ya daxildəki hansısa klanın muzdlu trollu imiş, o biri klan da bunu neytrallaşdırıb. Siz də məni günahlandırmağa başlayısız ki, kim üzə çıxırsa, parlayırsa, Heydər Əliyev onu vurur ki, yerinə rəqib yetişməsin. Nə rəqib? Onun mənim səviyyəmə çatması üçün bir ömür təcrübə yığması lazımdı. 2-3 televiziyada müsahibə verməklə böyük siyasətçi olmaq olur? Pisləyəndə də vicdanla pisləyin kimisə, tərifləyəndə də, rüşvətlə, saxta yollarla tərifləyib bizi çaşdırmayın. Dövlətin işinə aid nəsə yazı yazanda, iş görəndə çalışın bu dövlətin Komissar Kattanisi rolunda hiss edəsiniz özünüzü, ruhunu İblisə satmışların rolunda yox.

Bax belə-belə işlər baş verir, mən hamısını bir-bir danışa bilmirəm. Gün uzunu yüzlərlə bu cür işlər olur. İndi nəsə sualı olan varsa, verin, yadıma düşdükcə bəzilərini də danışaram

**“Konstruktiv müxalifət”** qəzetinin baş redaktoru söz alaraq deyir:

— Bilirsiz, yoldaş Əliyev. Bu gün bizim inkişafımıza ən çox mane olan məsələ – hələ də Sosialist idarəçilik modelinin təsirindən, rudimentlərindən tam qurtula bilməməyimizdi. Kapitalizmə, rəqabətli idarəçilik modelinə alternativ hələ ki kəşf olunmayıb. Sosializm isə bütün növ rəqabəti boğan, hər sahəni hansısa bir dövlət orqanınının monopoliyasına verən bir quruluş idi. Nəticədə biz hələ də elə bilirik ki, təhsilə aid hər şey ancaq bir orqanın tabeçiliyində olmalıdı, səhiyyə aid hər şey bir orqanın, nəqliyyata aid bir orqanın və s. Qərbdə isə Səhiyyə nazirliyi – tibbi xidmətlə, Təhsil nazirliyi – təhsilvermə xidməti ilə, Nəqliyyat nazirliyi – nəqliyyat xidməti ilə məşğul olsa, və ya öz nəzdində bu xidmətləri göstərən qurumlar saxlasa  onların bütün işçilərini həbs edərlər. Onlarda nazirliklər – ancaq və ancaq idarəetmə funksiyası ilə məşğul olur. Tibbi xidmət, təhsilvermə, elmi-tədqiqat və s. işləri ilə ancaq və ancaq özəl sektor məşğul ola bilər. Onlarda nazirliklərin vəzifəsi tender və müsabiqə yolu ilə bu xidmətləri bazardan – yəni ayrı-ayrı özəl şirkətlərdən əhali və ya dövlət üçün almaq, bu məsələlər üzrə bazarı canlandırmaq, rəqabətli mühit yaratmaq, bazarda haqsız rəqabət yaranmasının qarşısını almaqdır. Bizdə isə Səhiyyə nazirliyi bir qrup xəstəxananı götürüb öz balansına ki, mən dövlətin ayırdığı pulları ancaq bunlara, bunlarda müalicə alanlara xərcləyəcəm; Təhsil nazirliyi bir qrup məktəbi götürüb öz balansına ki, mən dövlətimizin təhsil üçün ayırdığı vəsaiti ancaq bu məktəblərə və onlarda təhsil

alanlara xərcləyəcəm; Elm nazirliyi bir sıra elmi-tədqiqat institutlarını götürüb öz balansına ki, dövlətin elmə ayırdığı vəsaiti ancaq bunlara xərcləyəcəm, və s. Halbuki onların hər biri əhalinin və ya dövlətin marağında olan, bunların ehtiyacını ödəmək üçün olan bütün bu məhsul və xidmətləri bazardan tender yolu ilə almalı idi. Həmin xəstəxanalar, məktəblər, elm müəssisələri də bu tenderi uda biləcəkdisə fəaliyyət göstərəcəkdi, uda bilməsə ləğv olunacaq, yerini daha uğurlu olanlar tutacaqdı. Dövlət əhalini niyə özü sığortalayır və özü də kiminsə monopol sığorta şirkətində? O pulu çıxarmalı idi tibbi sığorta bazarında tenderə, kimlər o məbləğə uyğun daha ucuz və keyfiyyətli xidmət təklif edə biləcəkdisə, tenderi də o sığorta şirkətləri udub, əhaliyə tibbi xidmət verəcəkdi. Dövlət əhaliyə niyə özü təhsil verir? Nazirlik dövlət məktəblərinə çəkdiyi xərci çıxarmalı idi təhsil bazarına, hansı təhsil müəssisəsi tenderi udacaqdısa, uşaqlara, gənclərə də təhsili o verəcəkdi, udmayanlar çıxacaqdı bazardan. Bu tenderinsə qaydası çox sadə - uşaqlar hansı məktəbi, hansı məktəbdə hansı müəllimi seçəcəkdisə, dövlətin məxsusən o şagirdin/tələbənin təhsil hesabına yatızdırdığı vəsaitin 1 müəllim üçün olan hissəsi gedəcəkdi həmin müəllimin hesabına. Məktəb və müəllim seçimində azadlıq verilmiş uşaqlar hansı müəllimi və hansı məktəbi seçəcəkdisə, o da qalacaqdı bazarda, seçilməyənlər gedəcəkdi başqa işə. Belə olan halda repetitorlar hamısı məktəbə qaçıb, 50:50 faizlə məktəblə işləməyi daha üstün biləcəkdi, dövlətə vergi ödəyəcəkdi, daha çox şagird və deməli daha çox dərs saatı və deməli daha çox pul uğrunda müəllimlər və məktəblər arasında rəqabət gedəcəkdi. Yoxsa ki, bizdə təhkimli kəndli kimi, hamı konkret bir məktəbə və müəllimə təhkim edilir, nə müəllim – xoşuna gəlməyən şagirddən, nə də

şagird – xoşuna gəlməyən müəllimdən canını qurtara bilmir. Qurtarmaq üçüncəmisi bir yol var, o da paket formada bütün sinfi dəyişmək. Bir sözlə, hansısa nazirliyin öz balansında idarə etdiyi sahə ilə bağlı xidmət şəbəkəsi saxlaması, o cümlədən Təhsil nazirliyinin – məktəblər, Səhiyyə nazirliyinin – xəstəxanalar, Elm nazirliyinin – institutlar, İqtisadiyyat nazirliyinin – zavod, fabriklər, Nəqliyyat nazirliyinin – təyyarələr, qatarlar, gəmilər, avtobuslar və s. saxlaması birmənalı olaraq dövlətdən pul yemək üçün özünə əlyeri saxlamaq mənası verir.

Xaricdə ümumiyyətcə bütün nazirliklər il boyu qrant müsabiqəsi keçirir və ölkənin ziyalıları, yaradıcı insanları bu qrantlar uğrunda mübarizə aparır. Nəticədə ölkənin bütün intellekt potensiyalı dövlət maraqları ətrafında səfərbər olunur – hər kəs, hətta xarici vətəndaşlar da bu ölkənin hansısa sektorunda problem tapıb, onu həll etmək üçün bir-biri ilə rəqabətə girişirlər. Nəticədə bütün ölkə layihələrlə idarə olunur. Professorlar öz tələbələri ilə bu qrantları udub, onu işlədikcə tələbələrinə həm pul və həm də təcrübə qazandırır, Akademiklər alimləri başına yığıb, institutlar yaradır. Bizdə isə bütün ölkə hələ də hansısa iclaslarda, büro yığıncaqlarında ortaya çıxan təkliflərlə idarə olunur, bütün sahələr hələ də Sovet sistemində olduğu kimi, ancaq və ancaq dotasiya və maaş prinsipi üzərində dayanır. Ona görə də heç kimin işləməyə marağı yox, çünki bilir ki, işləsə də, işləməsə də ayın axırında eyni maaşı alasıdır. Qanunvericiliyə görə də dövlət orqanları 1-2 mal və xidmət istisna olmaqla qalan bütün məhsul və xidmətləri bazardan tender üsulu ilə almalı, bazar subyektlərindən heç birinə üstünlük verməməli, özünə bazarda favorit tərəfdaşlar müəyyən etməməlidir. Bütün xidmət və

məhsulları, o cümlədən elmi layihələri daimi olaraq konkret müəssisələrdən almaq – açıq-açığına qanun pozuntusu və mürəkkəb korrupsiya sxemi deməkdir.

Bilirsiz, şairlər arasında belə deyim var: hər bir böyük şair öz fəaliyyətinə nəzirəçiliklə başlayıb. Biz də inkişaf etmiş ölkələrin sırasına çıxmaq üçün bir müddət onları təqlid etməliyik. Heç bir sahədə yeni velosiped axtarışına ehtiyac yox. Bizim əksər problemimizi bizdən əvvəl böyük dövlətlər hamısını yaşayıb və uğurlu həllini tapıb ki, ondan xilas olub bura qədər irəliləyə biliblər. Bizə də əksər problemlərimiz üzərində baş sındırmağımıza ehtiyac yox, onların çoxu üzrə onların qurduğu idarəçilik modelini olduğu kimi kserokopya edib gətirib bizdə tətbiq etmək bəs edir ki, o sahə inkişaf etmiş ölkələr səviyyəsinə gedib çıxa bilsin – heç bir detalı "artıqdı", "mentalitetimizə ziddir" deyərək çılxarıb atmadan. Məgər ABŞ-da Nyu-Cersi ştatnın hanısıa bir kənd müəllimi gedib Vaşinqtonda imtahan verib işə düzəlir? Məgər Almaniyanın hansısa əyalətindəki həkimləri hər il Berlindən gələn komissiya attestasiya edir? Bu qədər xaricdə təhsil alanlarımız var. Niyə kimsə onları yığıb soruşmur ki, orda təhsil sistemi necə qurulmuşdu ki, nə müəllim seçiminə, nə direktor təyinatına təhsil nazirliyi qarışmır? Məktəb müəllimin, ölkə həkimlərinin maaşları hansı formada, hardan formalaşır? Onlarda repetitor niyə yoxdur? Niyə "одноклассник" saytı Amerikada, Avropada, Çində yox, məhz postsosialist ölkələrində yaranıb? Adicə dərslikləri deyim: məgər Qərb ölkələrinin fizikası, riyaziyyatı, biologiyası, onların insanlarının anatomiyası bizimkindən fərqlidi? Həmin Nyutondur, həmin Eynşteyndir, həmin skeletlərdi – onlar da öyrənir, biz də. 1-2 milli sahəni – ədəbiyyatı, tarixi, dilçiliyi istisna etməklə qalan dərsliklərin müəllif

hüququnu ödəməklə inkişaf etmiş ölkələrin dərsliyindən tərcümə edib tədris etsək nə pis bir iş ola bilər? Necə ki, Sovet vaxtı rus dilindən tərcümə edirdik əksər dərsliklərimizi. Biz niyə avtomobili, telefonu, olduğu kimi onlardan götürüb istifadə etməyi özümüzə eyib bilmirik, amma idarəetmə modelini onlardan əxz etməyi qəbahət bilirik? Bu kimi məsələlərdə şəxsən mənim öz fikrim bundan ibarətdir ki, keçmişdə və ya indiki dövrdə kimdə yaxşı nə olubsa və ya varsa, yəni bizim inkişafımıza kömək edən, yaşamaq uğrunda mübarizəmizdə bizi qələbəyə aparan nə varsa – bunlar hətta ermənidə də olsa, düşünmədən götürüb istifadə etməli, pis şeylərdən, yəni ki, inkişafımıza mane olan, yaşamaq uğrunda mübarizəmizə əngəl törədən nə varsa, – bunlar hətta ulu babalarımızdan bizə miras qalan dəyərlər içərisində olsa da, uff demədən onlardan imtina etməliyik. Ümumiyyətlə, məişətimizi, milli düşüncəmizi, şüurumuzu vaxtaşırı saf-çürük edib, zəmanə ilə uzlaşmayan, inkişafımıza, yaşamaq uğrunda mübarizəmizə mane olan elementlərdən təmizləməli, həmin məqsədə xidmət edən faydalıları qoruyub saxlamalı, daha da inkişaf etdirməli, başqalarında görüb-götürdüyümüz müsbət şeylərlə daim zənginləşməliyik.

Mənə ümumiyyətcə həmişə maraqlı olub: Niyə görə Allahın evi olan Məscidlərin, İblisin evi olan bəzi-bəzi əyləncə mərkəzlərinin qapıları gecə-gündüz hamının üzünə açıqdır, amma məktəblərin qapıları günü-gündən daha da daraldılır, qəbullar çətinləşdirilir? Niyə açıb qoymuruq ki, kim nə vaxt nə istəyir gedib öyrənsin? Kimə 3 aylıq ingilis dili kursu lazımdı – qoy gedib dövlət hesabına öyrənsin, kiməsə ali riyaziyyatı öyrənmək lazımdı, qoy gedib dövlət hesabına 6 aylıq kurs keçsin, kiməsə bunların hamısı lazımdırsa – gedib adını yazdırsın

ali məktəbə ali təhsil alsın və s. Oxuya bilməyəcək, davranışı düzgün olmayacaq – bu artıq bir başqa filtr mərhələlərinin problemidir. Bütün ölkə əhalisi riyaziyyatçı, kimyaçı, aqronom, arxitektor, konstruktor, mühəndis olsa dövlətə nə ziyanı ola bilər? Cənubi Koreyada ölkənin 98 %-i Ali Təhsillidir.

Bizdə ümumiyyətcə bütün sistem tərsinədir: İnkişaf etmiş ölkələrdə dövlət rəhbərini təyin edib, rayon rəhbərlərini seçdikləri halda, bizdə əksinə - dövlət rəhbərini seçib, rayon rəhbərlərini təyin edirlər. Nəticədə, xaricdə hansısa problemə görə hər kəs öz Merini günahkar bilib, seçki vaxtı onu dəyişməklə problemi həll edə bildiyi halda, bizdə əhali istənilən məmurla olan probleminin yeganə həllini ancaq bütün sistemi dəyişməkdə görür. Yəni onlarda əhalinin narazılığı, aqressiyası regionlar üzrə differensasiya olduğu halda, bizdə hamısı ölkə rəhbərinə qarşı konsentrasiya olmuş olur.

Mən başqa da çox məsələləri deyə bilərəm, məsələn....

Bu məqamda **"Radikal Müxalifət"** qəzetinin baş redaktoru onun sözünü kəsərək:

— Xahiş edirəm reqlamentə riayət edin, burada sizdən savayı söz üçün növbə gözləyən 100 insan var, bizə də öz fikrlərimizi ifadə etmək üçün vaxt saxlayın. Üstəlik də "kserokopya etmək" yox, "surətini çıxarmaq". Bəli, yoldaş Əliyev, siz tamamilə düz buyurdunuz ki, Qərb dövlətləri hər addımını qabaqcadan sığortaladığı, güclü tərəflərini, vacib kadrlarını aldadıcı fiqurlar, imitasiyalarla məharətlə maskaladığı kimi, bizim aramıza yeritdiyi trollarını, agentlərini də o qayda üzrə məharətlə milli qiyafə ilə yaxşı-yaxşı komufulyaj edirlər ki, biz onları özümüzdən seçə bilməyək, özümüzdən biri hesab edib daxilimizə buraxaq və onlar da rahat şəkildə

burada öz xarici ağaları üçün "Troya Atı" vəzifəsini icra etsinlər. Bax, o cür sapı özümüzdən olan baltaların tipik nümunələrindən biri də bu yoldaş: "Passiv duraq, heç nə üzərində baş sındırmayaq, nə lazımdı bizim yerimizə Qərb edəcək, taleyimiz tam şəkildə onların və ya onlarda təhsil alıb gələn tələbələrin ixtiyarına verək, hər sahədə özümüzü onlara oxşadaq" və s. və i.a. Siyasətlə şeir yazmaq arasında heç bir fərq görə bilməyən bu tip anti-milli ünsürlərin əsas vəzifəsi Qərbdən aldıqları qrantla bütün ali dəyərlərimizi, mental özünəməxsusluğumuzu ayaqlar altına alıb, dəyərsizləşdirib, gözdən salmaqla əhalimizdə bizim heç nəyə qadir olmayan natamam bir millət olmağımız təsəvvürü, "qul psixologiyası" formalaşdırmaq, Qərbin bütün sferalardakı ekspansiyasına qarşı əhalimizin müqavimət hissini daxildən öldürməkdir. Daha demir ki, "Pulsuz pendir ancaq tələdə olur" – xaricilərin pulsuz-parasız aparıb təhsil verib bizə geri qaytardığı tələbələrin neçə faizi onların agentura şəbəkəsinə cəlb edlərək geri qaytarılır? Bu insan öz qəzetində Məlikməmməd nağılını araya qoyur ki, orda hələ uşaqlıqdan əhalimizin beyninə qardaşın-qardaşa qənim kəsilməsi psixologiyası aşılanır; Qazan xan, Beyrək kimi el qəhrəmanlarımızı idarəçilikdən başı çıxmayan, arvad hesabına "başlarına şahlıq quşu qonan" əyyaşlar, qohumbazlar və belə işlərinə görə də ölkəsini zəiflədib düşmən qarşısında diz çökdürən elçibəylər adlandırır, əvəzində vətənini, xalqını şəxsi maraqlarına satan, xarici kəşfiyyat agenti Arusu əsl kişi adlandırır; Koroğlu, Qaçaq Nəbi, Qatır Məmməd kimi el qəhrəmanlarımızı o dövrün "Qanuni Oğruları", öz xalqını qarət edən mütəşəkkil kriminal qruplaşmalar adlandırır. Yəni ki bu insanlar tək iqtidara yox, hər şeyə bir "mız" qoymaqla, hər şeyi tərsinə yozmaqla

məşğuldular, iqtidar da onların bu tərsəməzhəb sayıqlamalarını qəbul etməyəndə adını qoyurlar diktator, özlərinisə adlandırırlar müxalifət. Daha etiraf etmək istəmirlər ki, bizim elə bu gün başımıza gələnlərin 90%-i Qərbin nə cürsə imkan tapıb aramıza sızdırdığı fikirlərin, elementlərin bəhrəsidir: abır-həyamız, əxlaqımız, milli dəyərlərimiz hamısı itib gedib, dövlət orqanlarımız dolub onların bayaq siz dediyiniz tipli agentləri ilə, mətbuatımızsa bu cür trolları ilə.

Mən belə nağılları bir kənara qoyub, söhbətin məcrasını konkret faktlara və siyasi müstəviyə yönəltmək istəyirəm ki, daha praqmatik olsun müzakirəmiz. Məsələn, bizdə məlumatlar var ki, istər Sizin özünüzün, və istərsə də oğlunuzun adına banklarda bir neçə hesablar var. Lazım olarsa, mən hətta o hesabları da açıqlaya bilərəm, amma ki, müəyyən səbəblərə görə açıqlamıram. Nə deyə bilərsiz bu barədə?

**Heydər Əliyev:**

— Niyə görə açıqlaya bilmirsiz ki? Mən özümdən arxayınam. Nə məlumat varsa əlinizdə, təqdim edin bu saat da araşdırılsın. Varmı o məlumatlar əlinizdə?

Müsbət cavab alandan sonra kənarda gözləyən köməkçilərdən birinə deyir ki, onu götür, tez zəng elə Maliyyə nazirliyinə, Milli Banka və başqa da hara mümkündüsə ora, gör nə hesablardı bunlar. Bu iclas başa çatana kimi çalış cavab hazır olsun ki, mən yoldaşlara açıqlama verə bilim.

Ondan sonra iclas iştirakçılarına:

— Bilirsiz, mənim nə öz keçmişimlə bağlı, nə indiki dövrümlə bağlı heç bir qorxacaq yerim yoxdur, nəyi bilirsizsə yazın, deyin, amma yazanda da insafla yazın, ona başqa məna

verərək yox. Siz hər yalan yazınızla bir para Azərbaycanın beynəlxalq imicinə ziyan gətirirsiz, bizimkilərdən çox düşmənlərimizin işinə yarayır. İndiki dövrümdə də nə içən-çəkən bir insan deyiləm ki, buna görə lazım olsun mənə pul, nə də yaşım o yaş deyil ki, zövq-əyləncə işlərinə xərcləyim. Mənə pul ancaq bir qarın yemək üçün lazımdı, onu da heç burda işləməsəm də, Allaha şükür, vaxtı ilə yaxşılıq etdiyim adamlar Naxçıvanda olanda da artıqlaması ilə yollayırdılar, indi də lazım olsa bu gün də mənə canını da əsirgəməyən insanlar yetərincədir. Mən bu vəzifəyə gəlmişəm ki, hamınızı başıma yığım, problemlərdən birgə çıxış yolu tapaq, ölkəmizi ayağa durğuzaq. Ağıllı bir təklifiniz varsa, buradaca deyin, hamınızla birgə müzakirə edək, hamı görsə ki, ağlabatan fikirdi və sabah mən onu həyata keçirməsəm, gedin hamınız yazın ki, Heydər Əliyev qəsdən müsbət işlər görmür. Amma görürəm ki, sizdə də heç bir konstruktiv təklif yox. Yoxdusa gedin o hakimiyyət iddiasında olan şəxslərdən soruşun. Onlarda da belə bir fikir yoxdusa, bəs o zaman hakimiyyətə gəlmək onların nəyinə lazım, və ya onlar bu xalqın nəyinə lazım? Yox əgər varsa və özləri hakimiyyətə gələnə kimi gizli saxlamağı üstün bilirik desələr – demək ki onları ancaq özləri maraqlandırır, xalq yox. Amerikada hər partiyanın platforması hələ hakimiyyətə gəlməmişdən hamıya bəlli olur. 90-cı ildə 20 yanvar günü mən hətta xəstəxanada idim. Moskvada bütün vəzifələrdən getmişdim, burda isə nə vaxtsa yenidən hakimiyyətə gələcəyimi, ümumiyyətcə ondan sonra neçə ay sağ qalacağımı heç ağlıma gətirmirdim. Amma biləndə ki, mənim xalqımın başına bu oyunu açıblar, gücüm ancaq ona çatdı ki, tez xəstəxanadan qaçıb gedib boynuma kəfənimi

sarıyıb, düz Rusiyanın paytaxrında bütün səfirliklərin nümayəndələrini, jurnalistləri toplayıb həmin məlum çıxışı edim. Çünki bilirdim ki, o əclaflar xalqımızı informasiya blokadasına alıb, şəhidlərimizin qanını batıracaqlar və azğınlaşıb daha da çox irəli gedəcəklər. Buradakı uşaqlarınsa heç birinin elə imkanı yox idi ki, səsini xaricə çıxara bilsin. Siz anlayırsız SSRİ-nin qılıncının dalı-qabağı kəsən bir dövrlərdə düz SSRİ-nin paytaxtında hansısa bir tanınmış siyasətçinin ona qarşı etiraz etməsinin nə demək olduğunu? Mən 100% əmin idim ki, ondan sonra məni sağ buraxmayacaq Moskva və neçə ay da gizlənə-gizlənə yaşadım. Hələ ondan əvvəl bu qırğının qarşısını almaq üçün də nələr etmişdim, bunu sizlər heç vaxt bilməyəcəksiz. Nəyimə lazım idi mənim bütün bunlar? Sadəcə, qaranquş dimdiyində 1 damcı su gətirib odun üstünə atdığı kimi, mənim də o məqamda gücüm ancaq ona çatdı ki, haray çəkib bütün dünyaya car çəkim bu hadisə barədə, bəlkə kimsə eşidib bizə köməyə gələr və Rusiya da qorxub geri çəkilər. Balasına hücum çəkən olanda, hətta ən zəif canlı da heç bir təhlükəni göz önünə almadan quzğunla, canavarla döyüşə girib balalarını qoruduğu kimi, içində vətən qeyrəti olan hər kəs də dar məqamında boynuna kəfəni bağlayıb vətənin müdafiəsinə qalxmalıdı – heç bir mənfəət güdmədən, qalib gəlib-gəlməyəcəyini fikirləşmədən. Buna kimsənin əmri, tapşırığı gərək deyil. İnsanın içindən gəlməlidi bu hiss. Mən də bu cür etdim. Eynilə də Bəxtiyar Vahabzadə: nəyinə lazım idi onun ki, həmin günlərdə gecələri də yatmayıb xalqla birlikdə oldu, xalqı arxasınca apardı, risk edib Milli Məclisin iclasını çağırdı, Rusiya əleyhinə bəyanatlar verdirdi? Nə onda vəzifəsi yox idi, nə də ondan bəri heç bir vəzifəyə getmədi. Niyə edirdi? Çünki ona vəzifə yox, xalqının azadlığı, təhlükəsizliyi,

rifahı, gələcəyi lazım idi. Eynilə də rəhmətlik Xəlil Rza Ulutürk. Oğlu şəhid oldu bu vətən yolunda, özü Lafertovoda həbsdə yatdı, xəstə düşdü bu ölkənin azadlığı, bugünükü duruma gəlib çatması uğrunda. Baxın, bu cür kişilərin çiynində qurulub bu dövlət, bu cür olmaq gərək. Mən orda, burdakılar da burada – hər kəs gücü nəyə çatırdı, nə bacarırdı onu edib qoruduq bu dövləti, qurduq, bu səviyyəyə gətirdik. Yoxsa ki, *"mən hər şeyin həllini bilirəm, amma vəzifəyə gəlməsəm açıqlayammaram"* demək, o deməkdir ki, o insanın həmin planları da mənəviyyatı kimi cılızdı, boşdu, dəyərsizdi...

Bu ərəfədə köməkçi zala daxil oldu:

— Yoldaş Əliyev, araşdırdım. Onlardan biri Sizin maaş hesabınızdır, digəri pensiya hesabınız. İlham müəllimin adına olan 3 hesabdan biri Dövlət Neft Şirkətində, digəri Milli Olimpiya komitəsində, üçüncüsü isə Milli Məclisin deputatı işi ilə bağlı maaş hesabıdır.

**Heydər Əliyev:**

— Araşdır gör hansında nə qədər pul var?

**Köməkçi:**

— Məlumatda bunlar hamısı var, amma burda demək nə dərəcədə düzgündü?

Razılıq alandan sonra:

— Sizinkilərdə 6105 manat. İlham müəlliminkilərdə hamısında birlikdə 7418 manat

**Heydər Əliyev:**

— Ay yalançı, bəs o gün gəlinlə gedib mənə kostyum alanda deyirdi ki, 4 min manat qaldı?! Bax, Allah adamın sirrini belə açır.

Hamı gülüşür. **Köməkçi:**

— Yoldaş Əliyev, Siz kostyum alan vaxtdan bəri ay yarım vaxt ötüb. Bu müddətə o karta 2 dəfə maaş oturub da, xərclənib də. ☺

Hamı yenidən gülüşür.

**Heydər Əliyev:**

— İnsanlar öz incikliyini, şübhəsini bir-biri ilə müzakirə etdikcə, əsl həqiqət ortaya çıxır, insanlar arasındakı inamsızlıq, narazılıq da aradan qalxır. Nə şübhəniz, narazılığınız var idi, birgə araşdırdıq, gördünüz ki, hamısı mənasız inciklik, şübhə imiş. Əl-ələ verib bir yerdə bu ölkəni bütün növ böhranlardan xilas edə bilərik. Bu işlərdə təkliflərinizlə, tənqidlərinizlə, qanunsuzluqları vaxtında tapıb aradan qaldırmaqla mənə kömək edin, mən də sizlərə yardımçıyam həmişə. Bilirəm, çoxunuzun evi yoxdur, tapşırmışam, ən aktiv jurnalistlərə ev verilsin, qrantlar ayrılsın. Birgə bu ölkəni daxili və xarici düşmənlərdən qoruyaq.

Sonda sağollaşıb dağılışırlar.

Görüşün sabahısı günü “Radikal müxalifət” qəzetinin **“Heydər Əliyev jurnalistlərin aşkara çıxardığı faktları öz DTK adəti üzrə yenə də məharətlə maskalamağa çalışdı (amma alınmadı)”** başlqılı yazısından fraqment: *“Bildirdi ki, mənim əslimin-kökümün ermənilərlə bağlı olub-olmamamsı barədə əsl faktlar Ermənistan arxivlərindədir, gedib ordan araşdıra bilərsiz – bilə-bilə ki, bu, cənnətdən alma gətirmək qədər mümkünsüz bir işdir. Dedi ki, bütün ölkədə korrupsiyanın geniş yayılmasını dilinizə belə gətirməyin, bu bizim beynəlxalq imicimizə ziyan gətirir. Ən yaxşı halda hansısa JEK-də və ya aşağı idarədə kiçik rüşvət halları barədə*

*yazın. İşarə elədi ki, baxın, sizin yazılarınız mənim nəzarətim altımdadı. Bu görüş barədə olan yazılarınıza da o qaydada diqqət verəcəyəm. Mənim diqqətimi çəkən tərif yazsanız, ola bilər sizi haradasa dövlət idarələrində irəli çəkərəm, ev verdirərəm. Çıxanda da hər bir jurnalistə rüşvət olaraq bir Notebook hədiyyə verdirdi. Di gəl bundan sonra o görüşdə olan jurnalistlərdən həmin görüş barədə mənfi yazı gözlə"*

Bundan 1 ay sonra "Konstruktiv müxalifət" qəzetinin baş redaktorunun evi və avtomobili xarici qüvvələrin təşkil etdiyi terror qruplaşmalarının əli ilə yandırıldı. Hadisə elə peşəkarcasına təşkil edilmişdi ki, polis cinayətkarı müəyyən edə bilmədi. Bu hadisə barədə sabahısı gün "Radikal müxalifət" qəzetində dərc olunan **"Prezidentlə görüşdə ağzını açıb danışan 2-ci jurnalist də belə susduruldu"** başlıqlı məqalədən:

*"Yəqin oxucuların yadındadır ki, ölkə Prezidenti ilə görüşdə cəmisi 2 nəfər ağzını açıb ölkədəki vəziyyət, problemlər barədə danışmışdı. Bunlardan birinə – yəni mənə qarşı 10 gün əvvəl təşkil edilən terror hadisəsi və onun polis tərəfindən cidd-cəhdlə ört-basdır edilməsi barədə artıq 10-cu gündür ki, bütün ölkə mətbuatı yazır. Qəbələdə meşədə nömrəsiz dövlət avtomobilindən düşüb, "niyə prezidentin yanında ağzını açıb danışdın?" deyərək məni ölümcül döyən harınlamış məmur köpəklərini Polis himayə edərək saxta rəy hazırlatdırdılar ki, bu xəsarətləri güya mən özüm-özümə vurmuşam. Bu boyda haqsızlıq bir yana dursun, dünən də əziz dostumuz və həmkarımız "Konstruktiv müxalifət" qəzetinin Baş redaktorunun evi və maşını yandırıldı. Bəs buna nə deyirsiz?! İntəhası bu iqtidardan nə desən gözləmək olar. Sizi əmin edirəm ki, ona da Rəy*

*veriləcək ki, özü yandırıb evini və avtomobilini. Və mənim işimdə olduğu kimi, burada da heç bir günahkar tapılmayacaq".*

Başına gətirilən bu müsibətdən sonra "Konstruktiv müxalifət" qəzetinin baş redaktoru düşdüyü ağır maddi durum səbəbindən öz qəzetini nəşr etdirə bilmədi və əlacsız qalıb, ailəsini dolandırmaq üçün bir müddət sonra "Radikal müxalifət" qəzetində rubrika aparıcısı vəzifəsinə getməyə məcbur qaldı.

## *XXV fəsil:* NATO Heydər Əliyevin aradan götürülməsi barədə son və qəti qərar verir

1999-cu ildə Rusiyada V.Putin hakimiyyətə gəlir və Çeçenistana hücum edir. NATO generalları var qüvvələri ilə H.Əliyevi bu münaqişəyə cəlb etmək istəyirlər ki, orada qazandıqları uğurları əldən verməsinlər. Heydər Əliyevə təklif olunur ki, NATO bu məsələdə nə lazımdısa Azərbaycana dəstək verəcək, o cümlədən hər növ müasir silahlar, bu döyüşə cəlb olunmuş hər bir azərbaycanlıya ayda 3 min dollar maaş və Heydər Əliyevin özünə isə 30 milyard dollar birdəfəlik nağd qonorar. Heydər Əliyev bunun Azərbaycanı 2-ci Əfqanıstana, 2 dünya nəhənginin toqquşduğu meydana çevirmək olduğunu anlayıb bu plandan imtina edir. Bundan əlavə Heydər Əliyev Bakı-Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı Qərb ölkələrinin təklif etdiyi 2 milyard dollara başa gələcək Bakı-Qarabağ-Ermənistan-Ceyhan marşrutundan qətiyyətlə imtina edir *(şərt qoyur ki, Qarabağ münaqişəsi bizim şərtlərə uyğun həll edilsin, o halda bu proyektə razı olaram)*, əvəzində Qərb şirkətlərinə 3 milyard dollara başa gələcək Bakı-Tbilisi-Ceyhan marşrutunu israrla müdafiə edir. Qərb dövlətləri birmənalı olaraq Heydər Əliyevi aradan götürməkdən başqa özgə çıxış yolu olmadığını anlayıb, onu fiziki olaraq aradan götürmək barədə Qərar verirlər.

NATO generallarının iclasından:

> — Biz hansısa plan qururuq və ona Heydər Əliyevin verə biləcəyi 100 cavabı nəzərə alıb, buna qarşı 100 cavab tədbiri düşünürüksə, o bizim nəzərə almadığımız 101-ci addımı atır. Elə bil ki, onun ətrafı bizim casuslarla yox, bizim ətrafımız onun casusları ilə doludur: biz burda nə addım planlaşdırırıqsa, onun hansı siyasi gedişinə nə ilə cavab

verəcəyimiz qərarlaşdırırıqsa, elə bil fikirlərimizi oxuyur, qabaqcadan proqnozlaşdırıb, tamam buna əks addım atır. Beləlləri ilə heç bir oyun oynamağına dəymir, o heç bir oyun qaydalarına riayət etmir, daha doğrusu bizim özümüzün yaratdığımız oyunların qaydalarını o bizə diqtə edir, gec-tez biz də onun qaydaları ilə oynamağa məcbur qalırıq. Bunun fikri deyəsən SSRİ-yə gedib ki, orda Moskvanın xoşuna gəlməyən rəhbərləri sadəcə işdən azad edib, ev dustaqlığına yollayırdılar. Unudub ki, bizim qaydalarla oynamaq istməyənlərin axırı Bhuttolar kimi, Nəcbullah kimi, Çauşevski kimi bitir.

NATO-nun bütün strukturları Azərbaycana qarşı hibrid-müharibəyə cəlb edilir: dövlətin bütün strukturlarındakı ləyaqətli, savadlı kadrları ən müxtəlif metodlarla şərləyib, ləkələyib vəzifələrdən uzaqlaşdırırlar, əvəzində bütün sferalarda korrupsioner, bisavad kadrların vəzifələrə daraşması, onların bir-biri ilə korrupsiya şəbəkəsi yaratması üçün bütün rıçaqlar işə salınır, onların hər birinə işlədiyi sektorun zəiflikləri, bu zəifliklərdən necə istifadə edib pul qazanmağın yollarına dair təlimatlar çatdırılır; Heydər Əliyevin özü, əzizləri barədə şərəf və ləyaqəti alçaldan təhqirlər, böhtanlar Qərb qrantları ilə işləyən daxili və xarici mətbuatı bürüyür; Ölkədə mitinqlər, terrorlar, hakimiyyət çevrilişləri törədilməsi üçün milyardlarla dollar vəsait ayrılır; Bütün bu təzyiqlərə dözməyən Heydər Əliyev 2003-cü ildə təkrar infarkt keçirərək dünyasını dəyişir. **Azərbaycan xalqı əbədi olaraq öz qoruyucu mələyini itirir.**

# *XXVI fəsil:* NATO-nun Azərbaycan və Türkiyə qarşısında öz məğlubiyyətini etiraf etməsi

Yasdan xeyli sonra Azərbaycan xalqı onun əvəzinə Azərbaycan rəhbərliyinə onun oğlu İlham Əliyevi seçir. İlham Əliyev atasının qəbri üstünə gedərək and içir ki, onun xalqımızla bağlı bütün arzularını həyata keçirəcək. İlham Əliyev təhlükəsizliyin diversifikasiyası siyasəti çərçivəsində Rusiya kəşfiyyatı ilə – ABŞ və İran kəşfiyyatına qarşı, İran kəşfiyyatı ilə – Rusiya və ABŞ kəşfiyyatına qarşı, ABŞ kəşfiyyatı ilə – Rusiya və İran kəşfiyyatına qarşı və nəhayət Türkiyə kəşfiyyatı ilə bunların hamısına qarşı gizli əməkdaşlıq müqavilələri imzalayaraq, ABŞ, Rusiya və İranın Azərbaycandakı bütün agentura şəbəkəsini ifşa edib neytrallaşdırır, Türkiyə ilə qardaşlıq müqavilələri imzalayır, 2 qardaş dövlət birləşərək hər ikisinin düşmənlərinə qarşı birgə mübarizəyə başlayırlar, Qarabağ işğaldan azad olunur, ABŞ və Rusiya birdəfəlik regiondan uzaqlaşır, İlham Əliyev və Rəcəb Tahip Ərdoğan açıq şəkildə Qərblə diplomatik savaşa girişir, birlikdə bütün türk dövlətlərinin NATO, Avropa İttifaqı, Avropa Şurası tipli hərbi-siyasi-iqtisadi blokunu yaratmağa, Türk dövlətlərinin Suriya, İrak, İran,





Rusiya və Çin tərəfindən işğal olunmuş keçmiş ərazilərinin azad olunması uğrunda fəaliyyətlərə başlayırlar.

Regionda bütün təsir rıcaqları tamamilə zəifləyən NATO, vəziyyəti ABŞ və onun müttəfiqlərinin xeyrinə dəyişmək üçün təcili əks tədbirlər axtarır.

NATO generallarının yığıncağı. **Generallardan biri:**

— Amerika dövləti öz hərbi qüdrətini artırmaq üçün hər il büdcəsindən 1 trillon dollara yaxın vəsait ayırır. Biz yer üzündə yaşayan hər bir insanın əlində gəzdirdiyi telefon, evində saxladığı televizor, arxasında oturduğu kompüter və daha nələr vasitəsilə bütün dünyanı total nəzarət altında saxlayırıq. Biz istənilən ölkədə bizə lazım olan insanları vəzifələrə gətirmək, bizə lazım olmayanları isə ləkələmək, qaralamaq, yollarımızdan uzaqlaşdırmaq üçün rüşvətə və şantaja milyardlarla dollar vəsait xərcləyirik. Yerlərdə ictimai şüuru idarə etmək üçün ən müxtəlif ziyansız adlar altında maskaladığımız müxtəlif "ictimai" fondlar vasitəsilə yerli QHT-lərə, onların da vasitəsilə yerli ziyalılara və yerli trollara milyardlarla dollar qrant ayırırıq ki, bizə lazım olan baxışların, fikirlərin, mövqelərin tapılıb üzə çıxarılmasına, o ölkədə yayılmasına və müdafiəsinə can qoysunlar, bunlara zidd olanları bloklasınlar, aşağılasınlar, dəyərsizləşdirsinlər. Hanı bütün bu işlərin nəticəsi? Orda bütün bunların heç birinə malik olmayan 2 türk dövləti bizim o regionda əldə etdiyimiz bütün nailiyyətləri öz ata-baba üsulu ilə bir andaca heçə döndərir, bizi evinə soxulmuş oğru-bandit kimi tutub atır oralardan bayıra və bizimlə də ultimatum dilində danışır. Mənim şəxsən bütün bu baş verənlərdən çıxardığım nəticə ikidir: ya bizim üsullarımız səhvdir, biz indiyə qədər səhv üsullardan istifadə etmişik, amma bu 2 türk dövləti biz

bilmədiyimiz elə üsullar, siyasi, diplomatik texnologiyalar, və ya bəlkə də elə qədim Şərq tilsimləri bilirlər ki, bizim bu qədər pulumuza, silahımıza, kəşfiyyatımıza ehtiyac olmadan da qələbə qazanmaq, irəli getmək mümkün olurmuş. İkinci ehtimalımsa ondan ibarətdir ki, deməli bizim o sahələrə cavabdeh olan sektorlarımızda nəhəng korrupsiya şəbəkəsi formalaşıb və hər il bizə yalançı hesabatlar veriblər ki, filan ölkənin də bütün sektorlarına öz adamlarımız yerləşdirmişik, pul verin o biri ölkənin də bütün sektorlarına bizə lazım olan adamları yerləşdirməyə başlayaq. Hərbçilərimiz gündə bir fantastik filmdən götürdükləri silah maketini gətirib göstərirlər ki, bu bizim yeni icadımızdır, pul verin kütləvi istehsalına başlayaq; Mən artıq tam inanmağa başlayıram ki, bizə indiyə kimi verilən hesabatlar hamısı dezinformasiyalar imiş, biz yalanlarla dolu bir matritsa içərisində yaşayırıqmış, bizim Amerikanın qüdrətinə dair inamımız bir illüziya imiş. Bizi arxayın salan həmin o nəhəng agentura şəbəkəsi, sayı hesabı bilinməyən nəhəng raketlər, texniki nailiyyətlər – hamısı maketlər imiş. Bunlar hamısı büdcədən pul qoparmaq üçün feyk hesabatlardır. Amerika gil ayaqlar üzərində dayanan bir nəhəng imiş.

**Bir başqa general:**

— Siz çox ümumi dediniz. Mən problemi bir az da konkretləşdirmək istərdim. Təkcə bu 2 ölkənin özündə hakimiyyət çevrilişi törədib, və ya rəhbərləri terror yolu ilə aradan götürüb, onlarda bizə lazım olan adamları hakimiyyətə gətirmək üçün bu 30 ildə ABŞ-ın 1 illik hərbi büdcəsi qədər vəsait ayrılıb. Hanı nəticə? Nə əldə olundu? 2013-də bütün Yaxın Şərqdə heç bir problemsiz-zadsız normal qaydada əlvan inqilablar həyata keçirə-keçirə gəlib çatmışdıq Türkiyəyə. Nə oldu? 5-6 nəfəri güclə çıxara bildik hansısa bir parka, onlar da oralarda 1-2 gün

Çapulinglə məşğul olub, dağılışdılar evlərinə. Bu metod alınmayanda çalışdıq elə həmin ildəcə Türkiyə rəhbərlərini bizim İrana qarşı tətbiq etdiyimiz sanksiyaları rüşvət hesabına gizli pozmaqda ittiham edib, öz qanun keşikçilərinin əli ilə də Türkiyənin bütün rəhbərliyini həbsə atdıraq. Nə oldu? Əhali ayağa durub öz rəhbərlərini müdafiə etdi ki, *"Əcəb ediblər. Sizin İrana qarşı sanksiyalarınızın Türkiyəyə nə aidiyyəti?! Bizim rəhbərlərimiz də sizlə İranın öz aranızda olan intriqanızdan istifadə edib bizim dövlətimizin büdcəsinə pul gətiriblər. Əcəb ediblər!"* Deməyə sözümüz qalmadı. 2016-da Mərmərisdə Ərdoğanın özünü aradan götürmək üçün hətta NATO-nun İncirlik bazası da işə qoşulmuşdu. Nəticə? Yenə də boş və mənasız bir iş. Gedib boş bir oteli bombalayıb qayıdıb gəldilər, məlum oldu ki Ərdoğan heç orda yox imiş. Bu həmin Türkiyədir ki, bizim adi bir işarəmizlə 1960, 1971, 1980, 1997-ci illərdə onlarda hakimiyyət çevrilişi baş vermişdi. Belə çıxır ki, bu müddətdə onlar güclənib, biz artıq zəifləmişik ki, indi heç bir vəziyyətə nəzarət edə bilmirik. Halbuki, həmin bu gedişatla, Türkiyəyə bu boyda təsir imkanlarımızla biz onu çoxdan özümüzün bir ştatımıza çevirmiş olmalı idik. Bütün şansları tam əldən buraxmışıq.

Eyni qayda ilə də Azərbaycan: Milyardlarla dollar vəsait xərclədik ki, indiki Prezidentin atası o vaxt hakimiyyətə gəlməsin, amma yenə də gəldi. Gələndən sonra müxalifətə, QHT-lərə, terrorçulara, fundamentalistlərə, dini fanatizm yayanlara, bizlə işləyən politikanlara, jurnalistlərə, trollara, itə-qurda milyardlarla dollar qrant ayırdıq ki, bu insanı gözdən salsınlar, nifrət aşılasınlar, əhalini onun əleyhinə qaldırsınlar. Boş və mənasız işlər! Əhali yenə də onu seçdi. Milyardlarla pul xərclədik ki, hakimiyyət çevrilişi törədək orda, üsyan, mitinq ölkəni

başına götürsün, 100 dənə terror planı cızdıq. Eyni şeyləri də onun oğluna qarşı. Hanı nəticə? Sanki milçək vızıltısı idi bizim bütün bu gördüyümüz işlər onlar üçün, rahat şəkildə hakimiyyətə də gəldilər, bildiklərini etdilər də.

**Başqa bir general:**

— Mən buraya bir başqa məsələni də əlavə etmək istəyirəm. Biz hələ SSRİ-ni dağıtmamışdan əvvəl burada müzakirə edirdik ki, SSRİ dağılandan sonra fərqli respublikalar bir-biri ilə, və ya bizim marağımızda olmayan qonşuları ilə qruplaşa bilərlər, bunun qarşısını vaxtında alaq. O cümlədən, burada hətta müzakirə də olunmuşdu ki, Azərbaycanda pantürkizm, Türkiyəyə, türkçülüyə meyl həmişə aktual olub, hətta Stalin də həbslərlə, güllələnmələrlə, Sibirlə bunun qarşısını ala bilmirdi. Biz axı bunu əzbər bilirdik, və vaxtında da nəzərə almışdıq ki, SSRİ dağılan kimi Azərbaycan Türkiyəyə meyl edəcək, onunla ya birləşəcək, ya da hansısa formada bir ittifaq yaradacaq, çünki qanı, canı bir xalqdılar. Bunun qarşısını almaq üçün, onların arasında soyuqluq, nifrət, yadlıq yaratmaq üçün biz milyardlarla dollar vəsait xərclədik, işlər gördük. Hanı nəticə? Onlar yenə bütün bunları bir kənara atıb, bir-biri ilə qovuşdular. Siz təsəvvür edirsiz, 16-cı əsrdə elmin-texnologiyanın, imkanların bundan milyonlarla dəfə aşağı olduğu bir dövrlərdə İspaniya onları bir-birinə düşmən edib, hətta bir-biri ilə müharibəyə sövq edə bilmişdi, amma biz 21-ci əsrdə bunun heç yarısını da edə bilmədik. Biz bu gün 16-ci əsrin İspaniyası qədər də yoxuq? Deməli İspaniya 500 il əvvəl bu millətlərin psixologiyasını, zəif cəhətlərini, aralarındakı çatları bizdən daha yaxşı öyrənibmiş. Hanı bizim bu qədər müddətə bu işlərə sərf etdiyimiz pulların nəticəsi? Kim verəcək bunun hesabatını bizə? Bu qədər müddətə biz öz-özümüzü aldadırıqmış.

**Başqa bir general:**

— Biz burada sizlərlə hər şeyi tam ətraflı müzakirə edib normal planlar qurmuşduq: Hansısa bəhanə iləsə Türkiyəni Rusiya ilə açıq toqquşmaya cəlb edib, NATO-nun kollektiv təhlükəsizlik öhdəliyini bəhanə edərək, ardı ilə də bütün NATO üzvü dövlətləri Türkiyəyə köməyə yollamaqla, nəhayət ki, NATO Rusiaya ilə açıq konfrontasiyaya çıxmaq şansı qazanacaqdı. Qarabağı alovlandırdıq ki, bəlkə Türkiyə canıyananlıq edib öz qardaşına köməyə tələsər, onun ardınca da Rusiya məcbur olub bu müharibəyə qoşular və biz yenə də normal qaydada öz planlarımızı gerçəkləşdirə bilərik. Birində Putin, o birində Ərdoğan, o birində də, Əliyev hardansa peyda olub gəldilər hakimiyyətə, bizim bütün planlarımız oldu alt-üst. 2015-ci ildə Suriyada Rusiya təyyarəsinin Türkiyə adından vurduğumuz vaxt biz Rusiya-Türkiyə qarşıdurmasının başlanmasının bir addımlığında idik. Nə etdi bu şərəfsiz? NATO-nun tərəfini tutub, bəyanat verməkdənsə ki, “Əcəb etmişik, bütün Rusiyanı bu cür darmadağın edəcəyik!”, durdu getdi Pitinin ayağına ki, “bu bizim əməlimiz deyil, bunu bizim adımızdan NATO edib”. Bu artıq bütün NATO-ya tüpürmək demək idi. Belə xəyanət ancaq qanla yuyulmalı idi və güya ki, bizimkilər də başqa xainlərə də dərs olsun deyə plan qurdu: 2016-da İncirlikdən qalxan təyyarələrlə Mərmərisdə bunu yatdığı yerdə bombaladılar. Nə baş verdi? Bir para özümüzü biabır etdik, öz kəşfiyyatımızın zəifliyini dünyaya car çəkdik. Ərdoğanın çoxdan tərk etdiyi boş Oteli bombalayıb, qayıtdıq geri, və bir para Türkiyənin idarəetmə aparatınını immun sisteminin oyanmasına və aktiv şəkildə bizim oradakı bütün agentlərimizi neytrallaşdırmasına səbəb olduq. Bizə şərt qoydu ki, mənə zəmanət verin ki, mən Rusiya ilə müharibəyə başlasam, arxamda

duracaqsız. Təklif etdik ki, 1939-cu ildə Almaniyaya yaratdığımız kimi, Türkiyəyə də imkan yarada bilərik ki, bütün Avropanı qısa vaxtda ələ keçirsin, harada ki, elə NATO-nun əsas dövlətləri yerləşir və hansıların ki, hamısının təhlükəsizlik sisteminin açarı tam şəkildə bizim əlimizdədir. Cavab verdi ki, bəli, eynən İkinci Dünya Müharibəsində olduğu kimi də, yarıya qədər bizə, yarıyoldan sonra da Rusiyaya dəstək verib, axırda da məni Hitlerin, Türkiyənisə Almaniyanın gününə salacaqsız. Axırda məcbur qalıb xaçpərəst Ukrayna ilə başlamalı olduq bu prejeni. İndi bizə deyin: Hanı bəs bu neçə ildə Ukrayna projesini Türkiyə ilə başlamaq işinə qoyduğumuz investisiyaların nəticəsi?

Eynilə də Azərbaycan. Biz milyardlarla dollar vəsait xərcləyib SSRİ rəhbərliyinə, bundan sonra da onun başıboşluğundan istifadə edib bütün 15 respublikanın və Varşava bloku ölkələrinin hamısının rəhbərliyinə öz adamlarımızı gətirdik: idman müəllimi, ədəbiyyat müəllimi, artist, müğənni, alverçi, alkaş, avara, daha nə bilim kimləri ki, hər biri gələcəkdə bu ölkənin başına açacağımız oyunlarda bizə mane ola bilməsin. Hər birində də səliqə ilə müəyyən ağrılı nöqtələr yaratdıq ki, hansı birisi baş qaldırsa bu düyməsindən basmaqla onlara haqqın yerini başa sala bilək. Planlaşdırırdıq ki, bu 15 respublikanın 100 milyondan artıq əhalisi varsa, bunların heç olmasa ən azı 5-6-sını Əfqanıstan gününə salsaq, yetər ki, bu işə qoyduğumuz milyardlarla dollar sərmayə artıqlaması ilə bizə geri qayıtsın. Hətta burada bizə hesabat da təqdim olunmuşdu ki, bu respublikaların nə həcmdə yeraltı, yerüstü sərvətləri var və oraları Əfqanıstanın, Suriyanın gününə salsaq özləri ölməyib sağ qalmaq üçün o sərvətləri öz əlləri ilə çıxarıb su qiymətinə,

İŞİD qiymətinə bizə verəsidilər. Dünyanın ayrı-ayrı regionlarında apardığımız müharibələr bu respublikalardakı aclıqdan, səfalətdən baş götürüb qaçan, hardansa ailəsinə bir tikə çörək tapıb yollamaq istəyən kişilərin hesabına ucuz əsgər qüvvəsi ilə, fahişəxanalarımız ərsiz, başsız, ac qalan qadınların hesabına, insan orqanı bazarlarımız, tibbi eksperiment sektorlarımız bu ölkələrin ac-yalavac qoyduğumuz, bir qarın yeməyə hər şeyini satmağa razı olacaq insanların hesabına əməlli-başlı dolacaq. Buna həvəslənib Amerika dövləti rekord həcmdə borclanmalara getdi. Hanı nəticə? Nə qazandıqsa Ərəb ölkələrindən qazandıq: ucuz əsgəri qüvvə də, ucuz insan orqanı donorları da, fahişə bolluğu da və s. Bəs bu biri ölkələrə qoyduğumuz investisiyaları kim qaytaracaq bizə? Hardansa bir qoca kişi peyda olub, Azərbaycanda hakimiyyəti necə ələ keçirdisə, heç özümüz də anlamadıq ki, bu adam bizim hansı planımızda var idi? Planımızda yox idisə bəs hara baxırdı bizim o zonaya cavabdeh olan general heyətimiz? Hakimiyyətə gələn kimi də bizim əziyyət çəkib orada neçə illərə yaratdığımız bütün ağrılı nöqtələri, onları idarə etmək üçün yaratdığımız bütün düymələri elə xarab etdi ki, özümüz də anlamadıq ki, hansı düymə Dağlıq Qarabağı qızışdırmaq üçündür, hansı sakitləşdirmək üçün, hansı düymə – 5-ci kalonu qızışdırmaq üçündür, hansı düymə qonşuları onların əleyhinə qaldırmaq üçün. Gələn kimi hamısını neytrallaşdırdı. Qarabağ düyməsi da işləksiz bir vəziyyətə düşdü, 5-ci kalon da, və başqa hamısı bu cür. Gələn kimi Rusiya ilə, onun düşməni ABŞ-la, onun düşməni İranla, onun düşməni İzraillə, daha kimlərlə elə dost münasibəti yaratdı, hamısını elə neytrallaşdırdı ki, ondan sonra heç kimi bunların, bunları da heç kimin üstünə qızışdırıb qaldırmağa imkan yeri qalmadı. Yəni biz bu qədərmi aciz idik ki, bir qoca

kişi bizim hamımızın başının üstündən hakimiyyətə gəldi, gözümüzün qarşısında bizi barmağına doladı, ya o sehrbaz idimi ki, gözbağlayıcı üsullarla bizim hətta kompüterlərlə, proqramlarla hesablayıb atdığımız addımları blokladı, bizim hamımızı mat vəziyyətinə saldı? Nəticədə onlar borc içində, ABŞ-sa onların hesabına qazanc içində olmalı olduğu halda, hər şey tərsinə oldu –ABŞ borc girdabında sürətlə quyunun dibinə yuvarlanır və bu gün o borcu da nə ilə qaytara biləcəyimizə ümid yerimiz yox, onlarsa inkişafda, qələbələrdə, irəliləməkdə.

Bizim belə zəifliyimizdən istifadə edib Ərdoğan öz ölkəsində, o qoca kişinin oğlu da öz ölkəsində bizim bütün dayaqlarımızı darmadağın elədilər, əziyyət çəkib yaratdığımız o cür effektiv ağrılı nöqtələri uşaq oyuncağı boyda təyyarəciklərlə kökündən müalicə elədilər. İndi də ikisi birləşib orda NATO-ya alternativ "Turan bloku" yaradırlar. Onların öz NATO-su olsa o zaman biz kimə lazımıq? Elə Rusiya özü də gedib qoşulacaq o bloka, çünki kökündən elə rusların özünün də geni türk genidi.

Biz yalanlar matritsası içərisində, alternativ reallıqda yaşamışıq indiyə kimi, nəhayət ki, yuxudan ayılıb anlamalıyıq ki, Don Kixot kimi Yel Dəyirmanları ilə vuruşmuşuq bu günəcən, əsl dostlar və düşmənlər tamam başqa tərəfdə imiş sən demə. Kimsə bütün bunların izahını verə bilərmi bizə? Hanı bizim o boyda raketlərimiz, atomlarımız, peyklərimiz, kəşfiyyat şəbəkəmiz, kompüterlərimiz, kiber ordularımız, institutlarımız, xərclərimiz? Bunlar heç biri bizə üstünlük gətirmirdisə, dünya ağalığımızı təmin etməyəcəkdisə, niyə lazım idi bütün bunlar bizə? Kimsə deyə bilərmi ki, nə baş verir?

**Xeyli sükutdan sonra İclas Moderatoru olan general söhbətə başladı:**

— Mən verə bilərəm cavabı. Mən Sizə bütün bu baş verənlərin sizin bilmədiyiniz tamam başqa tərəflərini açıqlaya bilərəm – hansıları ki, bütün ömrüm boyu bir sirr kimi ürəyimdə saxlamışam. Və onda siz özünüz anlayacaqsız ki, bu gün nələr baş verir və mən niyə görə bu qədər müddətdə danışmırdım.

Bu zalda bir neçə dəfə mənə qarşı ittiham səsləndirilib ki, niyə görə mən həmişə Azərbaycana qarşı sərt qərarların əleyhinə olmuşam. Mənə ittiham irəli sürülüb ki, Azərbaycanın nə indiki prezidentini, nə də onun atasını yaxşı tanımıram, ona görə Azərbaycan məsələsinə bu cür diletantcasına yanaşıram. Bəzi kolleqalarımız burda öz fikirlərini əsaslandırmaq üçün bəyan edirdilər ki, Azərbaycanın indiki Prezidentini hələ Moskva Dövlət Universitetində çalışdığı dövrdən, bəziləri bildirirdilər ki, hətta onun atasını 1980-cı illərdən tanıyırlar. Mənsə heç nə deməyib sadəcə sizin qəbul etdiyiniz qərarlarla, sakitcə razılaşmaq məcburiyyətində qalmışam. Bilirdim ki, etiraz etsəm təklikdə qalacam, məni Amerika ideallarına xəyanətdə süçlayacaqsınız. Amma bu gün sizin bu neçə illərdə verdiyiniz qərarların fiaskoya uğradığını görüb, və bunu sizin özünüzün də etiraf etdiyinizə görə, mən bu gün bəzi məqamları açıqlamağı özümə borc bilirəm. Biləsiz ki, sizin səhvləriniz harda olub, bizim dövlət harada yanılıb və bəlkə bundan sonra yuxudan ayılıb, nəhayət ki reallığı düzgün qiymətləndirib, ona uyğun adekvat qərarlar qəbul edə bilərsiniz.

Mənim ata-babam əslən İranın Nişapur şəhərindəndilər, və hətta 1918-ci ildə ingilislər İranı işğal edəndə əmim Nişapur şəhərinin Valisi təyin edilmişdi. 1921-cu ildə Rza-Şah Pəhləvi

hakimiyyəti ələ alanda bütün nəslimiz İranı tərk etdi, o cümlədən mənim valideynlərim də bir müddət İngiltərədə yaşayandan sonra ABŞ-a köçdü. Orda da mən doğuldum və Amerikada doğulmağım faktına görə Amerika vətəndaşı oldum. 1941-ci ildə Müttəfiq qoşunları İrana müdaxilə edərkən, mən də ata-babamın vətənini görmək arzusu ilə ABŞ Hərbi Dəniz Qüvvələri sıralarına yazıldım və Lend-Liz proqramı çərçivəsində İrana, oradan da SSRİ-yə yükdaşıma əməliyyatlarında iştirak etdim. Həm ingilis, həm fars və həm də türk dilini yaxşı bildiyimdən, həmçinin regiona yaxşı bələd olduğumdan bir neçə nəfərlə birlikdə mənə MKİ tərəfindən leytenant rütbəsi verilərək sovetlərə, ingilislərə, eləcə də İranın özünə qarşı kəşfiyyat işlərinə cəlb edildim. Biz o vaxt orada bir çox əməliyyatlar həyata keçirdik, amma onlardan biri heç vaxt mənim unuda bilmədiyim bir əməliyyat oldu.

1944-cü ildə məlumat aldıq ki, İran hökuməti ingilislərin nəzarəti altında olan Huzistan vilayətindən dövlət arxivini təxliyə edə bilməyib, oradakı muzeylərdən birinin zirzəmisində gizlədir, və sonradan da lazımi məxfi dövlət sənədlərini arxiv olaraq oraya daxil edir. Bu arxivdə İranın indiyə qədər yaxın əməkdaşlıq etdiyi hər bir dövlətlə, o cümlədən Almaniya, İngiltərə və nəhayət Sovetlərlə gizli əlaqələri barədə, həmçinin ABŞ-ın özünə qarşı planları barədə, eləcə də 1943-cü il Tehran Konfransı barədə zəngin informasiyalar olmalı idi. Mən yerli dilləri, o cümlədən həm fars və həm də türk dilini çox yaxşı bildiyimdən arxivi oğurlamaq işinə rəhbərlik mənə həvalə edildi və biz həmin informatoru o muzeydə sürücü işinə düzəltməklə, onun əli ilə arxivi oğurladıq. Amma yarıyolda plan pozuldu, belə ki, İran polisi bizim izimizə düşdü və biz arxivi yandıraraq hərəmiz bir tərəfə qaçmağa məcbur qaldıq. Sonradan da mən bir sıra

əməliyyatlarda iştirak etdim və bütün bu təcrübəmi, regiona yaxşı bələd olmağımı, həmçinin tarixən İranın Azərbaycanla konfrontasiyada olmasını nəzərə alaraq Müharibədən sonra bir fars kimi məni İranın tarixi düşməni olan Azərbaycana qarşı kəşfiyyat bölməsinin rəhbəri təyin etdilər. Həmin vaxtlarda məlumat əldə etdik ki, elə bu dövrlərdə Azərbaycanda da əks-kəşfiyyat idarəsinə gənc bir kadr rəhbər təyin olunub. Və onun şəklini əldə edəndə gördüm ki,... o, bizimlə birlikdə Huzistan arxivini oğurlayan həmin "iranlı" sürücü...

Qeyd edim ki, mən türk dilini bildiyimdən, bunların o vaxt avtomobildə öz aralarındakı söhbəti və bu insanın ləhcəsi də məndə müəyyən şübhə doğurmuşdu, və sonradan bizim yarıyolda yandırdığımız arxivin hansı yollasa sağ-salamat Sovet kəşfiyyatının əlinə keçməsi barədə məlumat alanda isə, mən tamamilə şok olmuşdum. Sən demə bu insan adi sürücü yox, həmin əməliyyatın Sovetlər tərəfindən təyin edilmiş rəhbəri imiş və bizdən də bu əməliyyat işində bir alət kimi istifadə edib, arxivi sağ-salamat özününkülərə çatdıra bilibmiş. Bunu necə etmişdi, bu mənə hələ də qaranlıqdı.

Beləcə, ABŞ-ın Azərbaycana qarşı kəşfiyyat sektorunun rəhbəri mən, Azərbaycanın ABŞ kəşfiyyatına qarşı əks-kəşfiyyat sektorunun rəhbəri – o. Eyni cəbhənin bir tayında mən, o biri tayında o. İki keçmiş həmkar, eyni meydanda hələ uzun illər bir-biri ilə ölüm-dirim savaşında olmağa məhkum imiş.

Fəaliyyətim müddətində mən xeyli uğurlar qazandım, İranda qalan bütün qohum-tanışları Azərbaycana qarşı diversiya-kəşfiyyat işlərinə cəlb etdim, onların və onalrın dost-tanışının vasitəsilə ABŞ-ın Azərbaycan sektorunda casus şəbəkəsini əhəmiyyətli dərəcədə genişləndirdim, SSRİ-nin Azərbaycandakı strateji əhəmiyyətli bir sıra hərbi və mülki obyektlərinin

yerini, şəklini, iş prinsipini öyrəndik. Hərçənd ki, bu məlumatların bir çoxunun dezinformasiya olması çox-çox sonra üzə çıxdı, amma həmin dövrdə bu məlumatların MKİ-nin özünün digər informatorları vasitəsilə əldə etdiyi informasiyalarla üst-üstə düşməsi, bizi çox ürəkləndirmişdi. Məhz bu insanın kurasiyası altında bizim heç gözləmədiyimiz halda 1979-cu İranda məlum inqilab baş verəndən sonra anladıq ki, mənim nəzarətimdə olan, eləcə də MKİ-nin digər kanallarla ora göndərdiyi Casusların hamısı çoxdan ifşa edilibmiş və onların hamısına bir vahid mərkəzdə hazırlanmış saxta məlumatlar ötürülürmüş. Yəni ki, əməliyyat koordinasiya edilirmiş. Məhz ona görə hamısı üst-üstə düşürmüş. Və məhz buna görə biz SSRİ-nin İran projesindən ən son məqama qədər xəbər tutmamışıq. Çünki bu insan hələ gəncliyindən İranda inqilab yaratmaq məktəbi keçmiş, orada ABŞ və İngiltərə kəşfiyyatını necə aldatmaq təcrübəsinə malik idi.

Qayıdaq əsas məsələyə. Amma o informatorlar içərisində cəmisi bir nəfər var idi ki, əvvəldən də onun məlumatları ən səhihi idi, sonradan da zaman keçdikcə onun məlumatlarının ən dəqiq olduğunu gördük. Bu informatorun bizə ötürdüyü məlumatlar nəinki SSRİ-nin Azərbaycandakı dayaqlarını zəiflətməyə, hətta Ermənistan və Moskvanın özündə bir sıra nüfuzlu partiya və dövlət xadimini lazımi kompromatlarla həbs etdirməyə, bütün Qafqaz regionu üzrə ifşa olunub həbs edilən casuslarımızın saxlanılma yerini, həbs vəziyyətini, müstəntiqinin kim olmasını öyrənməyə bizə imkan vermişdi. O cümlədən NATO dövləti olan Türkiyənin düz sərhədində SSRİ-nin ikili təyinatlı bir atom elektrik stansiyası tikməyi planlaşdırdığını, onun Ermənistandakı dəqiq koordinatını, çertyojunu bizə ilk olaraq məhz bu informator ötürmüşdü.

Bu informatorun informasiyaları ötürmə texnologiyasının özü də kəşfiyyat işinin yüksək pilotajı idi. O heç vaxt məlumatları hansısa ayama kod adı ilə ötürmürdü. Heç vaxt heç bir agentimizlə özü görüşmürdü. Hər dəfə fərqli şifrələmə metodundan, fərqli üsuldan istifadə edirdi. Məsələn bir dəfə perfolent hazırlamaq üçün olan düsturları yollayırdı və bir də "Kommunist" qəzetinin nömrə və səhifəsini. O düsturlar əsasında hazırladığımız trafareti abunəliklə əldə etdiyimiz "Kommunist" qəzetinin deyilən nömrəsinin, deyilən səhifəsinin üzərinə qoyanda bütöv bir mətn alırdıq. Və ya Qərbi Almaniyadakı bizim əməkdaşımız olan hansısa bir müharibə veteranına "9 may" Qələbə günü münasibətilə Azərbaycandakı hansısa təsadüfi cəbhə yoldaşından gələn təbrik açıqcasındakı sözləri xüsusi kimyəvi məhlulla yuyanda, altından əsas mətn üzə çıxırdı; Turist adı ilə Azərbaycana yolladığımız agentlərimizə qaldığı "İnturist" mehmanxanasında hansısa bir xadimənin əli ilə Azərbaycan müğənnilərinin mahnılarından ibarət maqnitofon kaseti çatdırırdı, mahnıların xışıltılı hissələrini deşifrə edəndə, burda audio yox, bizə vacib olan video məlumatlar ortaya çıxırdı və s.

Ən fərqli üsullar, texnologiyalar, kanallar, kodlar, dalğalar vasitəsilə yollasa da, amma biz bu informatorumuzu sadə bir imzaya əsasən bütün digər informatorlarımızdan dərhal seçə bilirdik: o bütün məlumatlarının arxasında, aşağısında, küncündə və ya harasındasa SSRİ xəritəsini qoyurdu, xəritənin aşağısında da Türkiyədən başlayıb Çində qurtaran bir qılınc şəkli. Hətta Qərbi Almaniyadakı veterana yolladığı açıqcanın da üstündə çap olunmuş formada həmin xəritə, xəritənin də Avropa tərəfində monqola oxşar bir əsgər, əlində də Türkiyədən Monqolustana qədər uzanan bir qılınc. Məhz bu

xəritəyə görə biz həmin informatorumuzu "Azərbaycan qılıncı" adlandırırdıq. İllər sonra Azərbaycan müğənniləri bir sıra xarici ölkələrdə konsert proqramları ilə çıxış etdilər və SSRİ-dən olduqları üçün onların səfəri daim MKİ-nin nəzər-diqqətində olurdu. O müğənnilərdən birinin ABŞ-ın yaxın müttəfiqləri olan Türkiyə və Pakistanda konsert proqramından sonra həmin ölkələrin rəhbərliyinə verdiyi hədiyyə kasetlərinin də üzərində SSRİ xəritəsi var idi və həmin müğənni aftoqraf olaraq xəritənin həmin yerində qələmlə həmin qılıncın şəklini çəkib vermişdi onlara. Biz məhz o məqamda anladıq ki, bizim "Azərbaycan qılıncı" adlandırdığımız həmin informatorumuz əslində Azərbaycanda hansısa bir dövlət orqanında çalışır və bu qastrollarla da əlaqəli bir şəxsdir. Üstəlik də o dərəcədə məxfi məlumatlara, şifrələmə üsullarına malikliyi də bizdə bu insanın hansısa dövlət orqanında yüksək vəzifədə çalışması barədə çoxdan fikir formalaşdırmışdı. Amma kim idi o? – bu sual bizi həmişə düşündürürdü.




İllər ötdü, SSRİ dağıldı və müstəqil Azərbaycanın prezidenti Heydər Əliyev görüşlərindən birində ABŞ-ın o vaxtkı prezidenti Bill Klintona "Turan qılıncı" adlandırdığı böyük bir xəritə bağışladı, hansının ki, aşağısında Türkiyədən başlayıb, Çin səddində bitən həmin qılınc əks olunmuşdu. Biz yalnız onda anladıq ki, sən demə bu şəkli biz o vaxtlar səhvən «Azərbaycan qılıncı» adlandırmışıq, əslində isə "Turan qılıncı" adlandırmalı imişik və həmin anonim informatorumuz da

məhz bu insan imiş. Bu görüşdə o ilk dəfə olaraq həmin qılıncın mənasını Bill Klintona açıqladı:

— *Siz köhnə Sovet respublikalarına qarşı qisasçılıq edib onları əzmək, parçalamaq, zəif salmaqdansa, vahid dili, dini, mədəniyyəti olan həmin bu Turan zolağı boyu yerləşən dövlətləri birləşdirmək və onları gücləndirməklə regionda əsas rəqibləriniz olan Rusiya, Çin, Hindistan və İran ittifaqının düz ürəyinin ortasına bizim timsalımızda bir xəncər yeritmiş olarsımız və qonşuluğunda güclü Turan hərbi-siyasi-mədəni blokunun yaranmasını görən həmin dövlətlərin tərkibindəki türklər də, bundan ruhlanaraq öz dövlətlərinin əleyhinə qalxar, Rusiyanı, İranı, Çini daxildən parçalayar. Əks halda, bu zolaqdakı dövlətlər zəif qaldıqca, Rusiya gec-tez məqam tapıb yenidən onları bir-bir işğal edəcək.*




Sən demə bu insan bu xəritə ilə bu neçə 10 illərdə bizə məhz bu layihəni anlatmaq istəyirmiş ki, bizi azad edib birləşdirsəniz, regionda özünüzün əsas rəqiblərinizə qarşı bizim timsalımızda güclü müttəfiq əldə etmiş olarsınız. “Parçala hökm sür” siyasətindən savayı özgə siyasət tanımayan bizimkilərsə məhz buna görə indiyə qədər burdan heç nə anlaya bilmirlərmiş, çünki bizimkilərin düşüncələri hər yerdə olduğu kimi burada da ancaq parçalamaq, əzmək, zəiflətmək, rəhbərliklərə zəif şəxsləri gətirmək üsuları axtarmağa köklənmişdi, burda isə onlara tamamilə yad olan birləşdirməkdən, gücləndirməkdən söhbət getdiyindən bunlar nə qədər baxsalar da bir şey anlaya bilməyib burdan. Bizimkilər heç cür anlaya bilmirdilər ki,

kimlərinsə birləşməsi, güclənməsi, hansısa ölkənin rəhbərliyində güclü liderlərin olması bizə necə fayda verə bilər? Fikri, xəyalı saksafonun və qadınların yanında olan Klintonsa onlardan uzağa getməyib elə oradaca bu söhbəti birdəfəlik qapadı:

— *Bu məsələ bu saat ABŞ dövləti üçün prioritet deyil. Bizə bu saat aktual olan Azərbaycanın zəngin karbohidrogen ehtiyatları, onların daha tez və daha səmərəli hasilatı, Avropaya daha ucuz yolla tranziti və bölgənizdə sülh olmasıdır ki, bizim buraya yatırdığımı sərmayələrimiz təhlükə altına düşməsin. Ona görə çalışın Qarabağınızla bağlı reallıqla barışın. O halda təhlükəsiz bölgə kimi sizə daha çox xarici sərmayə axacaq. Rusiyaya qarşı isə biz lazımi işləri hələlik Şərqi Avropa istiqamətdə başqa vasitələrlə daha uğurla həyata keçirə bilirik.*

30 ildir beynində gəzdirdiyi bu layihəyə, ən yuxarı instansiyadan da bu cür laqeyd münasibət görəndən sonra, ümumiyyətcə heç kim tərəfindən anlaşılmadığını görəndən sonra, bu insan özünə qapıldı və infarkt keçirərək dünyasını dəyişdi. Bu gün onun oğlu öz ölkəsini gücləndirib digər türk dövlətləri ilə birgə məhz həmin o layihəni gerçəkləşdirməklə məşğuldur, amma artıq bizsiz. Yəni o insan 10 illərlə bizə layihə təklif etdi ki, bunu birgə işləyək, investisiyanı da birgə qoyaq, mənfəəti də birgə bölək. Sərmayə olaraq biz bu layihəyə fiziki imkanlarımızı, yəni əsgəri qüvvəmizi və bir də coğrafi imkanlarımızı – yəni geostrateji mövqeyimizi qoyuruq, sizsə hərbi, siyasi, iqtisadi dəstək qoyun. Pay bölgüsü mərhələsində də bizə çatan öz tarixi ərazilərimiz olacaq, Sizinsə qazancınız regiondakı bütün rəqiblərinizin çöküşü və bir də bizim kimi müttəfiq. Bizimkilərsə dedi ki, bizə şərik lazım deyil. Biz hamı ilə özümüz təkbaşına vuruşub, bəhrəyə də təkbaşına sahib olmalıyıq. Və öz əqrəb xislətimizdən əl çəkə bilməyib, hələ də hamını eyni

səviyyədə əzməkdə, zəiflətməkdə, zəhərləməkdə davam etdik: varını-dövlətini aldığımız Azərbaycanı da, Türkiyəni də, İranı da, Çini də və yerdə qalan hamını da. Nəticəsi isə bu günkü durumumuz: Borc girdabında boğuluruq, əvvəlki hegomonluğumuzdan əsər-əlamət yox, sürətlə hamı dollardan imtina edir, özümüzü də dünyanın hər yerindən sıxışdırıb çıxarırlar, indi də bu regiondan. Biz bütün gücümüzü Şərqi Avropaya yönəldib, 100 illərdir Rusiya ilə orda baş-başa gəlməkdənsə, bu kişinin dediyi plana qulaq asıb, gücümüzü Rusiyanın o kişi



deyən zəif cənub cinahına yönəltmiş olsaydıq, trillyonlarla dollar vəsaitə qənaət edərdik və Rusiyanı da, İranı da bəlkə də çoxdan sıradan çıxarardıq – əgər hələ 20-25 il bundan əvvəl o zonada o kişinin dediyi kimi güclü Turan bloku yaratmış olsaydıq. Hamı ilə ancaq bomba dilində, sanksiya dilində, ittiham dilində danışmağa adət etdiyimizdən, biz ona heç qulaq belə asmaq istəmədik. Nəticəsi isə göz önündə: biz geriləyirik, onlarsa irəliləyir.

Siz indi anlayırsızmı ki, biz hər dəfə burada Cənubi Qafqaz problemini müzakirə edəndə və siz o kişini mütləq fiziki olaraq aradan götürmək lazım olduğunu deyəndə, mən niyə görə bunun əleyhinə olurdum? Çünki mən onu Sizin hamınızdan çox yaxşı tanıyırdım və qabiliyyətinə də birbaşa iş praktikamdan bələd idim. Mən həmişə arzulayırdım ki, bizimkilər onunla əməkdaşlıq etsin. İstər Rusiya, İstər İran və istərsə də Orta Asiya regionunu çox yaxşı tanıyan, bunların hər biri üzrə böyük təcrübəsi, əlaqələri olan bir şəxs kimi o bizə bu zonalar











üzrə siyasətimizi düzgün formalaşdırmaqda əvəzsiz faydalar verə bilərdi. Bu insan Sovet vaxtı hakimiyyətdə olduğu müddətdə 1 nəfəri belə siyasi motivlərə görə həbsə düşməyə qoymadı, halbuki həmin vaxt digər respublikaların həbsxanaları dissidentlərlə dolu idi. Bu insan hətta casusları belə həbs etdirmirdi, onlardan xalqının, respublikasının maraqları üçün necə istifadə etməyin yollarını tapırdı. Bizsə nə edirik? Casuslara, əsirlərə Quantanamoda olmazın işgəncələrini veririk. Bu insan sonradan hakimiyyətə gələndə də, nəinki heç bir siyasi rəqibini öldürmədi, hətta ümumiyyətcə ölkəsində ölüm cəzasını ləğv elədi. Bizdə isə nəinki xoşumuza gəlməyən hər kəsi aradan götürmək, küçədə atıb öldürmək adi haldır, hətta elektrik stulu ilə ölüm hökmü icra etməyi fəxrlə humanist cəza növü kimi təqdim edirik hamıya, hətta uşaqlara ölüm cəzası verməyi qanunlara salmışıq. Bu insan hakimiyyətə gələndən sonra ölkəsində bizim təşkil etdiyimiz neçə-neçə hakimiyyət çevrilişi cəhdini qansız-qadasız neytrallaşdırdı. Mən həmişə arzulayırdım ki, nə zamansa bəlkə onunla görüşəm və onda da ondan bütün bunların

sirrlərini soruşum ki, sən bütün bunları necə etmisən? Ümumiyyətcə soruşum ki, Amerikanı necə xilas etmək olar? Amma bu müddətə subordinasiya heç vaxt imkan verməyib ki, mənim kimi adi bir hərbi zabit hansısa ölkənin Prezidenti ilə təkbətək görüşsün. Mən ümumiyyətlə arzulayardım ki, nə zamansa bizim də belə bir prezidentimiz olsun. Elə olsaydı Amerika bu gün belə bir duruma düşməzdi. Yoxsa ki, bunlar kimi *(kənardakı tumbaların üstündə düzülmüş portretlərə işarə edir, hansılarda ki, ABŞ prezidentləri – Klinton, Buş, Obama, Tramp, Bayden ən uyğunsuz pozalarda, mimikalarda əks olunublar),* – şoumenlər yığıncağıdı elə bil. Biz öz təkəbbürümüzün, müştəbehliyimizin, hamı ilə tank, top, bomba, sanksiya, təhqir, hədə dilində danışmağımızın, kiçik xalqları gücsüz qarışqa timsalında görməyimizin qurbanıyıq bu gün.

İclas iştirakçıları dərin bir sükut içində başlarını aşağa salaraq dinləyir bu acı həqiqəti...



Həmin vaxt okeanın o biri tayında isə, Azərbaycan Prezidenti İlham Əliyevin dəmir yumruqla verdiyi "İrəli" komandası ilə minlərlə əsgər qaçaraq, üzərində Boz Qurd şəkli çəkilmiş, qülləsində Azərbaycan və Türkiyə bayraqları dalğalanan, pəncəsi ilə yer eşən qana susamış canavar kimi irəli sığımağa hazır vəziyyətdə duran saysız-hesabsız tanklara doluşur və hansısa mücərrəd bir ölkəyə doğru hücuma gedirlər...

* * *

“Qurdlar Vadisi” kimi yarımqaranlıq bunkerdə 6 ahıl insan dünyada baş verənləri müzakirə edir:

— Necə düşünürsüz, ABŞ-ı ləğv edib, bütün kapitalı bura keçirməyin vaxtı çatmayıb ki?

Digər iştirakçı siqarı ağzından çıxararaq:

— Hələ gözləyək. Görək sonda ABŞ bunlardan, ya bunlar ABŞ-dan bir alət kimi istifadə edə biləcək. Ola bilər, meyvə toplayan uşaqlar budaqları silkələyib meyvələri yerə tökdüyü kimi, burada da kimsə I və II Dünya Müharibələrinin ssenarisini tətbiq edib, bütün dünya ölkələrinin kapitalını hürküdərək öz ölkəsinə qovmaq siyasəti yürüdür. Ortaya da yeni dövrün “ari” ideyasını atıb. Baxaq…

# SON

# Bütün fəslllərin qısa xülasəsi

# 1-ci HİSSƏ

## I fəsil: Əziz Əliyevlə tanışlıq

İranda baş qaldıran Pişəvəri hərəkatına siyasi dəstək məqsədilə 1944-cü ildə SSRİ tərəfindən göndərilən çekistləri müəyyən sorğu-sualdan, filtrasiyadan keçirib, rəy vermək üçün Azərbaycanın müxtəlif vəzifəli şəxslərını qəbul edir ki, H.Əliyev də bu məqsədlə 3 il əvvəl eyni tapşırıqla İranda fəaliyyət göstərmiş Sovet qrupunun rəhbəri Əziz Əliyevlə görüşüb, sənədlərinə ondan viza almalı olur. Əziz Əliyev ən müxtəlif diplomatik suallarla bu namizədin milli hisslərini yoxlayır və razı qalır. Bu fəsildə qarşılıqlı olaraq həm Əziz Əliyevin və həm də Heydər Əliyevin diplomatik söhbətləri arxasında qatı millətçi şəxs gizləndiyi üzə çıxır.

## II fəsil: Heydər Əliyev İranda

### ▣ Huzistan arxivinin ələ keçirilməsi əməliyyatı

1941-ci ildə Sovet və İngilis qoşunları İrana daxil olarkən İran hökuməti vacib dövlət obyektlərinin ölkənin Şərqi və mərkəzi ərazilərinə təxliyyəsini həyata keçirir, buna imkan olmayanları isə müxtəlif ad altında maskalayır. Belə komufulyaj edilən obyektlərdən biri də Huzistan vilayətinin dövlət arxivi idi ki, təxliyyəsi mümkün olmadığından məxfi dövlət sənədləri ingilislərin əlinə keçməsin deyə şəhərin muzeyinin zirzəmisində gizlədilmiş və sonradan da burada öz fəaliyyətini gizli olaraq davam etdirmişdi. Sovet kəşfiyyatı bundan xəbər tutur, lakin o ərazi ingilislərin nəzarətində olduğundan arxivin ələ keçirilməsi mümükünsüz kimi görünür. Gənc leytenant Heydər Əliyev bu işi həmin sənədlərdə marağı olan digər bir dövlətin – ingilislərin müttəfiqi olan Amerikanlıların əli ilə ordan çıxarıb, sonra yolda onlardan da oğurlamaq təklifini verir. Sovet rezidensiyası bu planı dəyərləndirr və gənc leytenantı həmin əməliyyata rəhbər təyin edir. Həmin muzeyin keçmiş sürücüsü qiyafəsində amerikanlılarala əlaqəyə girən Heydər Əliyev onları bu işdə maraqlandıra bilir və onların əli ilə orda işə düzəlib, amerikanlıları bu muzeyə basqın edərək arxivi oğurlamalarına və onun öz avtomobilinə də yüklənib ordan qaçırılmasına aktiv yardım edir.

Sonda məlum olur ki, amerikanlılara təhvil verilən avtomobil əslində başqa imiş, əsl sənədlər muzeyin həyəindəki başqa avtomobilə yığılaraq, başqa yolla oradan çıxarılıb.

### ▣ Əməliyyatın nəticəsinin SSRİ rezidensiyasında müzakirəsi

Əməliyyatın nəticəsi rəhbərlik tərəfindən yüksək qiymətləndirilir və bu, və kitabda birbaşa təsvir olunmayan daha bir neçə başqa uğurlu əməliyyatlarına görə gənc H.Əliyevin orden və medallarla təltif olunur (Heydər Əliyev həqiqətən də İrandakı bir sıra əməliyyatlarda uğurli xidmətinə görə 1945-ci ildə 2 medalla təltif olunub)

## III fəsil: Kislovodskidə Zərifə Əliyeva ilə tanışlıq

Gənc Heydər Əliyev qardaşı Həsən Əliyevlə Kislovodskidə istirahət edərkən təsadüfən orda Həsən Əliyevin dostu Tamerlan Əliyevlə rastlaşırlar və Tamerlan Əliyev onun yanındakı bu gənc oğlanın bir neçə il əvvəl onların evində olması və onun atası Əziz Əliyevin bu oğlanın hansısa işinə köməklik göstərdiyini xatırlayır. Bu müddətə Əziz Əliyev bütün vəzifələrdən gedib, amma buna baxmadan Heydər Əliyev Bakıya qayıdan kimi mütləq Əziz müəllimi görmək, ona İran təəssüratlarını, macəralarını bölüşmək istədiyini təkid edir

## IV fəsil: Əziz Əliyevin evində

Bakıya qayıdan kimi Heydər Əliyev Tamerlan Əliyevlə birlikdə onlara gedir, Əziz Əliyevi ziyarət edir və bu müddətə başına gələnləri, İranda Əziz Əliyevgilin bunlardan əvvəl gördükləri işlərin nəticəsi, onun ordakı yetişdirmələrinin Heydər Əliyevə necə kömək etməsi və s. barədə ağızdolusu danışır. Söhbətin sonunda Əziz Əliyev karyerasını qorumaq üçün onunla əlaqəni dayandırmağı Heydər Əliyevə tövsiyyə etsə də Heydər Əliyev dostları ağır gününə görə tərk etməyin ona yad xüsusiyyət olduğunu bildirib, xalq üçün bu qədər böyük işlər görmüş bu cür insanla heç vaxt əlaqəni kəsməyəcəyini bildirir. Beləliklə vaxtaşırı əlaqə saxlayır və bu müddətdə də evin qızı Zərifə Əliyeva ilə xoş münasibət formalaşır

## V fəsil: Əziz Əliyev ailəsi ilə əlaqəyə görə Heydər Əlievin işində problem

Gənc kapitan Heydər Əliyev Yuqoslaviyaya ezamiyyətdən yenicə qayıdıb, oradan Mixaylo barədə topladığı sənədləri, şahid ifadələrini şöbə yoldaşları ilə müzakirə edir. Bu məqamda DTK rəhbəri Yemelyanov onu yanına çağırır. Dəvətin ezamiyyətlə bağlı olduğunu zənn edən Heydər Əliyev gətirdiyi materiallarla birlikdə onun yanına qalxır, amma gözlədiyinin əvəzinə Yemelyanov onun qarşısına 1 həftə əvvəl İngilis Bağı deyilən parkda Zərifə Əliyeva ilə olan görüşlərinin gizli çəkilmiş şəklini qoyur və bildirir ki, mən axı sənə qəti xəbərdarlıq etmişdim ki, o ailədən uzaq dur. Yenə davam edirsən görüşü? Əvəzində Heydər Əliyev Əziz Əliyevin vətənə, partiyaya xəyanət etmədiyini, günahının yalnız bəy-xan nəsli ilə qohumluğunu gizilətmək olduğunu, bunu da yalnız Sovet dövlətinə ürəklə xidmət edib, nəslinin adını bəraətləndirmək məramı ilə etdiyini deyir. Qızın bütün işlərdə heç bir günahı olmadığını bildirir. Onun qızınınsa bütün bu işlərə heç bir aidiyyəti olmadığını və aralarında dərin sevgi bağlılığı olduğunu bildirir. Onun fikrini yumşaldandan sonra Yuqoslaviyadan gətirdiyi materialları evdə işləmək üçün icazə alıb çıxır.

## VI fəsil: Zərifə Əliyeva ilə parkda romantik görüş

Yemelyanovla söhbətə görə görüşə gecikən Heydər Əliyev tralleybusla Çaparidze bağında onu gözləyən Zərifə Əliyeva ilə görüşə gəlir. Bəzi romantik söhbətlərdən sonra ona hazırladı sürprizi ortaya qoyur: Yuqoslaviya materiallarını evdə işləmək bəhanəsi ilə işdən çıxardığı mini maqnitofonu, içərisində də, Zərifə Əliyevanın xoşladığı mahnıların toplandığı kaset. 2 gənc parkın qaranlıq bir güşəsində gecə yarısına kimi bir-birindən gözəl Azərbaycan mahnılarına qulaq asırlar *(bu fəsildə bu hər 2 gəncin ürəyinin bir-biri ilə və Azərbaycanla döyündüyü, onların hər ikisinin ruhunun Azərbaycan mədəniyyətindən, tarixindən, musiqisindən qida aldığını ortaya çıxır)*

## VII fəsil: Heydər Əliyev Azərbaycan DTK-sının rəhbəri kimi

Heydər Əliyev bu vəzifəyə təyin edilən kimi vaxtilə alman ordusu tərkibində SSRİ-yə qarşı vuruşduğuna görə həbs edilmiş keçmiş legionerləri həbsdən azad etdirib əks-kəşfiyyat orqanları ilə əməkdaşlığa cəlb edir və onların sənədlərini saxtalaşdıraraq, xüsusi təlimatla Avropanın ən müxtəliif ölkələrinə atır. Fərqli bəhanə ilə onlar orda özünü polisin diqqətinə salır, və həbs qorxusundan SSRİ-yə getməyib burda qaldıqlarını bildirirlər. Polis də bunların keçmişini öyrənəndən sonra yerli xüsusi xidmət orqanlarına təhvil verir, onlarsa Heydər Əliyevin proqnozuna uyğun olaraq onları əməkdaşlığa cəlb edib sənədlərini təkrar saxtalaşdıraraq (guya legionda yox, müxtəlif partizan dəstələrində döyüşüblər) xüsusi təlimatla yenidən geriyə – Azərbaycana atırlar. Burada isə onları həmin ölkənin digər casusları qarşılayıb, öz şəbəkələrinə qoşurlar. Beləliklə Azərbaycan əks-kəşfiyyatı Azərbaycanda fəaliyyət göstərən bütün xarici ölkələrin casus şəbəkəsini aşkar edir. Lakin... Heydər Əliyevin təşəbbüsü ilə onlar da həbs edilmirlər. Onlar Qərb ölkələrinə dezinformasiya ötürmək üçün qorunub-saxlanır. Nəticədə Heydər Əliyev bu kanaldan Azərbaycanın hakimiyyət orqanlarını zəbt etmiş rus və ermənilərdən təmizləyib, milli kadrların gəlməsi məqsədilə istifadə edir *(Qərbə düşmənlər barədə kompromat, dostlar barədə dezinformasiya ötürməklə).*

## VIII fəsil: Heydər Əliyev Az. SSR KP MK I katibi kimi

Hakimiyyətə gələn kimi Heydər Əliyev aktiv quruculuq işlərinə başlayır, zavod-fabriklər, məktəblər, körpülər tikdirməyə başlayır; “2-yə bölünmüş Azərbaycan” ideyasını Azərbaycan ədiblərinin və mədəniyyət xadimlərinin əsas kredosuna çevrilir, incəsənət xadimlərinin vasitəsilə Azərbaycan adını, dilini, mədəniyyətini bütün dünyaya car çəkdirir; hakimiyyətdə olduğu müddətdə Azərbaycan SSR-də 1 nəfər də olsa siyasi motivlərə görə həbs olunmadı, Moskva tərəfdən həbs edilən olsa da (məs. Ə.Elçibəy), azad etdirdi – baxmayaraq ki, həmin vaxtda qonşu respublikalarda dissidentlərin sayı 10 minlərlə idi *(Soljinitsin, Saxarov, Qaliç, Qamsaxurdiya və b.)*, qürbətdə dəfn

edilən Azərbaycanın böyük oğullarının məzarının Azərbaycana köçürülməsi istiqamətində işlər görüldü və s.

## IX fəsil: Heydər Əliyev millətçi fəaliyyətinə görə Moskvaya çağırılır

Respublikada millətçi fəaliyyətinə görə Heydər Əliyevin başı həmişə ağrıyıb və belə problemlərin, ittihamların hamısı bu fəsildə ümumiləşdirilib. Heydər Əliyevə Moskvaya çağırılır və ona qismən aşağıdakı ittihamlar irəli sürülür: Heydər Əliyev respublikada ayrıca hərbi məktəblər açdırmaqla və SSRİ-nin digər respubliklalarının ali hərbi məktəblərində kursantlar yollamaqla nə etmək istəyir? Respublikada ayrıca ordu yaratmaq? Heydər Əliyev vaxtilə pantürkist fəaliyyətinə görə həbs edilib güllələnmiş şəxsləri (H.Cavid, M.Müşviq və b.) bəraətləndirib onların həmin pantürkist məzmunlu əsərlərini dərsliklərə saldırır; Vaxtilə Azərbaycanın Rusiyaya birləşdirilməsi əleyhinə əsər yazdığına görə həbs edilən, təqib edilən şəxsləri (məs. Bəxtiyar Vahabzadə) himayə edib, onların əsərlərini çap etdirir, özünə Ali Məktəblərdə iş verir ki, "zəhərli" ideyalarını daha ali tribunadan daha çox insanın beyninə yeridə bilsinlər; Azərbaycanın 2-yə bölünməsi əleyhinə yüzlərlə əsər yazdırıb; Azərbaycanın SSRİ-dən ayrılıb müstəqil olması ideyalarını yayan şəxsləri (Məsələn Əbülfəz Elçibəyi) DTK ifşa edib həbs etsə də, Heydər Əliyev bütün dissidentləri həbsdən azad etdirib ki, belə "çirkin" fikirlərini daha rahat yaya bilsinlər; Onun dövründə çəkilən filmlər sanki hamını bir üsyana, müstəqilliyə, işğalla mübarizəyə səsləyir, Məsələn Babək filminin qəhrəmanı "1 gün azad yaşamaq, 10 il müstəmləkə altında yaşamaqdan daha üstündür" deyib axıra qədər Azərbaycanın müstəqilliyi uğrunda yadellilərə qarşı vuruşur və axırda öləndə də "Azad Azərbaycan" deyib ölür. Bütün bunlarla Heydər Əliyev gənclərin beyninə hansı "zəhərli" fikirləri aşılamaq istəyir? Və s.

Heydər Əliyevin cavablarından bəziləri: Vaxtilə pantürkist damğası vurularaq həbs edilib güllələnmiş şəxsləri o yox, SSRİ Ali Məhkəməsi bəraətləndirib, Və hökm çıxarılarkən də özləri bəraətləndirib, əsərləri üzərində həbs saxlanılmayıb. Demək ki əsərləri də bəraətlənib. "2-yə bölünmüş Azərbaycan" ideyası SSRİ-nin İrana ərazi iddiası etməsinə

zəmin hazırlamaq məqsədi daşıyır; Dissidentlərlə Stalin üsulu ilə yox, yoldaş Leninin tövsiyyə etdiyi üsullarla – yəni düzgün maarifləndirmə üsulu ilə mübarizə aparılır, ona görə Azərbaycanda dissidentlər yoxdur; Babək Utopik Sosializm ideyalarını hələ 1000 il bundan əvvəl yayan hamının bərabər, hər şeyin ümumi olduğu bir cəmiyyəti hələ 1000 il bundan əvvəl yaratmış bir şəxsdir və o filmin də əsas qayəsi məhz bunu insanlara çatdırmaqla, yoldaş Leninin ideyalarını sovet Azərbaycanı insanlarına sevdirmək, doğmalaşdırmaqdı, filmin qayəsinə məhz bu kontekstdən baxmaq lazımdı, hansısa detalları kontekstdən ayıraraq yox. Və s.

Sonda komissiya üzvləri Heydər Əliyevin dəmir məntiqi qarşısında acız qalaraq iclası yekunlaşdırılar

## X fəsil: 1977-ci ildə Moskva tərəfindən Dağlıq Qarabağın Ermənistana verilməsi qərarına qarşı Heydər Əliyevin mübarizəsi

### ▣ Həmin qərarın Bakıda Heydər Əliyevin bağında Azərbaycanın bir sıra rəsmi dövlət xadimləri ilə müzakirəsi

Respublika rəhbərləri ilə qapalı iclasda bəlli olur ki, Moskvanın Qarabağı Ermənistana vermək Qərarı Ermənistanda tikilən Bərgüşad (Vorotan) Elektrik Stansiyası ilə bağlıdır. Neçə ildir tikilən və əsas hədəfinin Qarabağı enerji ilə təchiz etmək olan bu elektrostansiya tikilib təhvil verməyə az qalmış, bəlli olur ki, həmin əraziləri enerji ilə təchiz etmək üçün Azərbaycan özü də gizlicə bir elektrostansiya (Sərsəng SES) tikirmiş və plandan da 1 il əvvəl təhvil verərək, bütün Qarabağı artıq elektrikləşdirməkdədir. Bununla da Bərgüşad SES yararsız dəmir yığnağına çevrilir. Moskvanın Sərsəngin enerjisini Zərdab-Yevlax zonasına ötürüb, Qarabağ üçün elektriki yeni SES-dəm yarı qiymətə Ermənistandan almaq təklifindən H.Əliyev qətiyyətlə imtina etdiyindən Moskva, iqtisadi rentabellik baxımından Sərsəng SES də daxil olmaqla bütün Qarabağı Ermənistana vermək barədə qərar verir.

## ▣ Həmin qərarın Moskvada Heydər Əliyevin Brejnevlə müzakirəsi

Heydər Əliyev Brejnevin qəbuluna düşərək hadisələrin əsl motivlərini dəyişdirərək, hər şeyi bəzi partiya funksionerlərin korrupsiya maraqları, Əliyevinsə özünü belə çirkaba bulaşdırmaq istəmədiyinə görə ona daim təzyiq edilməsi, amma daha dözə bilməməsi ilə əlqələndirir. İstənilən zavod-fabrikin açılışına icazə almaq üçün Moskvadan gələn komissiyaya nəsə verməlidir, indi də Azərbaycanda kifayət qədər enerji olduğu halda, niyə görəsə enerjini böyük maliyyə maxinasiya hesabına maya dəyərindən xeyli aşağı satan qonşu Ermənistandan almalıdı və beləliklə bu cür maxinasiyaların iştirakmısına çevrilməlidir. Sonda H.Əliyev eyni zamanda Qarabağın alınıb Ermənistana veriləcəyi təqdirdə özünün istefa verəcəyi və bununla da cəmisi 2 il sonra baş tutacaq İran İslam Respublikası proyektindən çıxacağı hədəsi ilə Brejnevi şantaj edir *(1979-ci ildə baş tutacaq İran İslam İnqilabının SSRİ üzrə region üzrə əsas kuratoru H.Əliyev olmuşdu)*. Brejnev bu arqument və hədələrdən qorxuya düşərək Ponomoryova zəng edib dərhal belə oyunları dayandırmağı tələb edir

## ▣ Həmin qərarın Moskvada Heydər Əliyevin Ponomoryovla müzakirəs

Ponomoryovla müzakirədə H.Əliyev təklif edir ki, SSRİ-nin o elektrostansiyaya qoyduğu vəsait batmaması üçün o, həmin SES-in istehsal etdiyi bütün enerjini Qarabağ üçün yox, Naxçıvan üçün almağa hazırdı, amma məhz Qarabağ üçün nəzərdə tutduqları güzəştli tarif üzrə. Bütün planı pozulan Ermənistanın belə mənfəətsiz planla razı olmaqdan savayı çıxış yolu qalmır. *(PS: 1977-ci ildə Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi həqiqətən olub və bunun səbəbi də mən yazdığım kimi həmin elektrostansiya məsələsi olub. H.Əliyev də öz çıxışlarının birində bu məsələyə ötəri toxunur və problemi Brejnev və Ponomoryovla təkbətək görüşüb həll etdiyini deyir. Mən sadəcə öz fantaziyamdan istifadə edib onların dialoqunu və hadisələrin gedişatını qurmuşam)*

Moskvanın bu qərarından hiddətlənən ermənilər *(Stepan Zatikyan, Akop Stepanyan, Zaven Baqdasaryan)* 1977-ci ildə Moskvada silsilə terror aktları həyata keçirdilər, hər 3-ü güllələnmə cəzasına məhkum edildilər

## XI fəsil: 1985-ci ildə SSRİ rəhbərliyinə kimin gətirilməsi ilə bağlı NATO Qərargahında müzakirə

Çernenkonun ölümündən bir müddət əvvəl NATO generalları dairəvi masa ətrafında SSRİ-dəki vəziyyəti və Çernenkodan sonra SSRİ rəhbərliyinə öz namizədlərini – M.S.Qorbaçovu necə gətirmək yollarını, o cümlədən bu məsələdə onların namizədinə əsas rəqib olan Şerbitski, Romanov və H.Əliyevi aradan necə götürmək yollarını müzakirə edirlər. Hər bir namizəd üçün konkret kompromatlar təklif edilir, o cümlədən də H.Əliyev barədə təbliğat kanalları vasitəsilə rus elitası arasında Millətçi və anti-rus obrazının yaradılmasına qərar verilir. Müşavirə iştirakçılarından biri sual verir ki, bəs o Baş katib olmasa, sonra nə baş verəcək: qayıdacaq öz ölkəsinə və orda da bizim Cənubi Qafqaz üçün nəzərdə tutduğumuz planları pozacaq. Biz nəzərdə tutmuşuq ki, burada zəif şəxsi hakimiyyətə gətirəndən sonra Rusiyanın bütün 14 respublikasını Əfqanıstana çevirib, Rusiya əleyhinə qaldıraq, onların resurslarınasa özümüz sahib olaq. Bu insan Bakıya qayıtsa bizim həmin proyektlərimizə Cənubi Qafqaz hissəsinə aktiv mane olacaq, bu plan orda baş tutmasa, biz onu Orta Asiyaya yaya bilməyəcəyik. Ona görə təklif edirəm ki, o biri namizədləri siyasi öldürsək də, bunu imkan düşən kimi həm də fiziki olaraq aradan götürmək lazımdı. İclas rəhbəri bəyan edir ki, buna görə narahat olmağına dəyməz. Bu – cəmisi 1 generaldısa, deyilən gələcək Cənubi Qafqaz projesi üçün NATO ndidən 30 general ayırıb və onlar Heydər Əliyevi orda da aciz bir duruma sala biləcək. İclasın bəzi iştirakçıları Heydər Əliyevi yaxşı tanıdıqlarını və o Azərbaycana qayıtsa həmin 30 generalın hamısının zəhmətinin puça gedəcəyini bildirirlər.

## XII fəsil: Zərifə Əliyevanın ölümü. Qürub.

Bu hissədə qəhrəmanın zəif, sentimental, duyğusal hissləri büruzə verilir, onun ən əziz insanını itirməsindən çəkdiyi izirablar təsvir

edilir. Bununla da onun həyatının qürub mərhələsi başlayır. O hər şeyə marağını itirir, karyerası sönməyə doğru gedir. İşdən azad olunur. Depressiya keçirir.

## XIII fəsil: 20 yanvarda Bakıya qoşun yeritmək planı ilə bağlı Qorbaçovla Əliyevin müzakirəsi

Heydər Əliyev Qorbaçovun Bakıya qoşun yeritmək planından xəbər tutan kimi dərhal onun qəbuluna gedir, ən müxtəlif hədələr, şantajlar üsulu ilə onu bu fikrindən daşındırmağa nail olur. Qorbaçov Yazova zəng edərək planı təxirə salmaq tapşırığı verəndən 5 dəq. sonra arvadı Raisa Qorbaçova zəng edib ona ağzına gələni deyir ki, niyə özbaşına qərar verirsən? Heydər Əliyev söhbəti davam etdirməyin mənasızlığlnı anlayıb kabineti tərk edir.

## XIV fəsil: Vədinə rəğmən Qorbaçovun Bakıya qoşun yeritmək əmri Heydər Əliyevə çatır

Bir neçə gün sonra Heydər Əliyev Moskvada oğlu İlham Əliyev və onun ailəsi ilə birlikdə gizli yaşadığı evində Qorbaçovun Bakıya qoşun yeritmək əmri verdiyini eşidir. Telefonlarına nə Qorbaçov, nə Yazov, nə Kirienko nə də heç bir vəzifəli şəxs cavab vermir, özünü qəbul etmir *(qabaqcadan bilirlər niyə gəlmək istədiyini)*. Heydər Əliyev aktiv şəkildə Moskvadakı bütün əlaqələrini bu işə qoşmağa çalışır ki, bu əmri dayandırsınlar. Lakin cəhdlərinin 90%-i boşa çıxır, belə ki, bu müddətə Qorbaçov demək olar ki, Heydər Əliyevin əlaqəsi olan bütün köhnə partiya işçilərini işdən çıxarıb. Yeganə ümid Heydər Əliyevin vaxtilə Rusiyanın ayrı-ayrı ali hərbi məktəblərinə yolladığı kursantlara qalır, hansılar ki artıq çoxdan təhsilini bitirib, hər biri hardasa mayor, polkovnik, hərbi hissə komandiri vəzifəsində, rütbəsində çalışırlar. Heydər Əliyev onlardan əlaqəsi olan 1-2-sinə zəng edib bildirir ki, sizi vaxtilə məhz bu günümüz üçün bu məktəblərə yollamışdım. Bu gün vətənimiz dar gündədi, 20-ci ildəki kimi üstümüzə böyük Ordu yollayırlar, bizimsə heç bir Ordumuz yox. Bir-birinizə xəbər ötürün, kim nə ilə bacarır buna mane olsun. Qısa vaxtda o uşaqlar bir-birinə xəbər ötürür, onlardan bir-neçəsi Heydər Əliyevə zəng edib həqiqətən də onların da hərbi-hissəsinə bu göstəriş

gəldiyini, təsdiq edir, ondan gələcək fəaliyyət üçün təlimat istəyir. Sonra H.Əliyev Bakıya Etibar Əliyev, Rasul Quliyev, Nemət Pənahov və b.-na zəng edib vəziyyət barədə xəbər verir, özü Moskvada var qüvvəsi ilə çalışıb bunun qarşısını almağa çalışdığını deyir, onların da Bakıda nə etmək mümkündüsə edib, bunun qarşısını almaları üçün bəzi tövsiyyələrini verir, həmçinin o vaxt Rusiya hərbi məktəblərinə göndərdiyi uşaqların siyahısını əldə edib ona çatdırmalarını xahiş edir ki, burda o uşaqların hamısını tapıb bu iə qoşa bilsin. DTK danışığı dinləyib, bu məqamda onun telefonunu kəsir, sözü ağzında yarımçıq qalır. Vətəninin belə dar günündə əli-qolu bağlı vəziyyətdə aciz durumda qalan Heydər Əliyev bütün günü çıxış yolu axtarıra-axtara infarkt keçirir. Köməyə gələn ailə üzvlərinə bildirir ki, təcili yardım çağırmaq olmaz, DTK onun yerini bilsə öldürəcəklər, xəstəxanaya getsə iynə vurub öldürəcəklər. Bunu deyib tamamilə huşunu itirir.

Həmin vaxtlarda Rusiyanın o biri başında Moskva, Leninqrad və Qafqazdan olan hərbi hava, dəniz və quru qoşunlarına, desant briqadalarına, tank diviziyalarına Bakıya hücum əmri verilir.

* * *

# 2-Cİ HİSSƏ

## XV fəsil: İlham Əliyev gizli yolla Heydər Əliyevi xəstəxanaya çatdırır

İlham Əliyev qucağına götürüb, gizli yollarla, başqa ad altında Heydər Əliyevi Moskva ətrafındakı sıravi bir xəstəxanaya çatdırır. Bir neçə gündən sonra ayılandan sonra da ailə üzvləri və yaxınları onun səhhətini qorumaq məqsədilə Qorbaçovun Bakıya qoşun yeritmək əmrini geri götürdüyü bildirilir ona

## XVI fəsil: 20 yanvar hadisəsi baş verir

Heydər Əliyevin Moskvada bu işə qoşduğu adamların, ələlxüsus da həmin keçmiş kursantların fəaliyyəti sayəsində Yeni il gecəsində Bakıya çatmalı olan Sovet Ordusu 20 gün ləngiməklə Bakıya çatır, o da planlaşdırdığından 10 dəfə az qüvvə ilə

## XVII fəsil: Heydər Əliyevin siyasi blitzkriklə 20 yanvar qırğınını dayandırır

Bu müddətə Heydər Əliyev xəstəxanada səhhətinə görə ailə üzvləri tərəfindən informasiya blokadasında saxlanılsa da, 20 yanvar hadisəsini sabahısı gün palata yoldaşlarından eşidib çox sarsılır və ailə üzvlərinə bildirir ki, bu məqamda mən xalqımın yanında olmalıyam. Sovet rəhbərliyi bu faciəni ört-basdır etmək istəyəcək, xalqımın qanı batacaq. Amma məni çox yerdə tanıyırlar deyə xalqımın bu faciəsi barədə mənim harayımı bütün dünya eşidəcək, kimlərsə bunun davam etməsinin qarşısını almaq üçün bizə köməyə gələcək. Həqiqətən də keçmiş Sovet rəhbərlərindən birinin Sovet dövləti rəhbərliyinin bu əməlinə qarşı bu cür kəskin etiraz bəyənatı dünya mətbuatında böyük rezonans yaradır və bütün dünya bu aqressivliyi dayandırmaq üçün SSRİ-yə təzyiqlərə başlayır. Nəticədə Sovet rəhbərliyi təcili olaraq qoşunları geri çağırmağa məcbur qalır.

## XVIII fəsil: Heydər Əliyev Azərbaycana qayıdır

Heydər Əliyev bir müddət Moskvada gizli yaşayandan sonra gizli kanallarla Azərbaycana qayıdır. NATO generalları bundan xəbər tutub Bakı rezidentlərinə xəbər yollayır ki, onu Bakıya buraxmasınlar, çatan kimi ya öldürülsün, ya həbs edilsin. Tərəfdarlarının köməyi ilə o ən detektiv üsullarla o aeroportdan qaça bilir. Bir müddət Bakıda, qardaşının evində yaşayandan sonra gedib Naxçıvanda öz ata-baba yurdunda yaşayır.

## XIX fəsil: NATO generalları Heydər Əliyevin Azərbaycana qayıdışını müzakirə edirlər

O vaxt H.Əliyevi fiziki olaraq aradan götürmək tərəfdarı olan general bildirir ki, *"gördünüzmü, mən sizə dedim ki, Napoleon Yelena adasından necə qaçdısa, siz də bunu təcrid vəziyyətdə saxlaya bilməyəcəksiz. İndi artıq Siz Qafqazı ikinci Çeçenistana çevirmək planınızdan, ümumiyyətcə bütün Qafqaz planlarınızdan əl çəkin"*. Sonda NATO generalları onu siyasi arenadan uzaqlaşdırmaq planına start verir: Azadlıq radiostansiyası gecə gündüz işləyib onun anti-milli, rusпərəst bir insan olması, köhnəlik qalığı olması, köhnə fikirli olub, yeni dünya

nizamından çox uzaq bir qoca olması ideyasını təlqin edir hamıya. ABŞ-dan qrant alan trollar efirlərə çıxıb onu söyür, təhqir edir,

## XX fəsil: Azərbaycan 1991-1993-cü illərdə

İllər ötür. Azərbaycan öz neftini dəyər dəyməz qiymətə ancaq ABŞ və İngiltərə şirkətlərinə satır. Ölkənin bir hissəində Rusiya ilə əlaqəli olan, digər hissəsində İranla bağlı olan qüvvələr baş qaldırır. Ölkə daxilində hər şey xaos içərisində və ölkə sürətlə 2-ci Əfqanıstan olmaq təhlükəsinə doğru yuvarlanır. Bu məqamda ölkənin bir sıra ziyalıları, ağsaqqları yığışıb gedib Naxçıvanda Heydər Əliyevin qonağı olub ondan xahiş edirlər ki, Bakıya gəlib, bütün bunlara son qoysun. Heydər Əliyev səhhətini bəhanə edib onu dinc buraxmalarını xahiş edir. Bakıya gedib abırsız, hörmətsiz vəziyyətə salınmaq istəmədiyini deyir. Bildirir ki, hər şey o qədər pis vəziyyətə gətirilib ki, onları necə düzəltməyin yolunu o da bilmir. Ölkənin qaymağı olan bu insanlar *(Bəxtiyar Vahabzadə, Şahlar Əsgərov, Arif Rəhimzadə, Ziya Bünyadov, İsmayıl Şıxlı, Əli Əhmədov, Mixail Zabelin, Xəlil Rza Ulutürk, Lalə-Şövkət Hacıyeva, Vahid Əhmədov və b.)* ən müxtəlif arqumentlərlə onu fikrindən döndərməyə nail olurlar. Ən sonda Heydər Əliyev onlarla birlikdə Bakıya getməyə razılıq verir. Bu fəsildə həmçinin həmin ziyalıların dilindən o dövr Azərbaycanının ədaxili və xarici siyasətdəki n aktual problemləri sadalanır.

## XXI fəsil: Heydər Əliyev 2-ci dəfə hakimiyyətdə

Heydər Əliyev Bakıya gəlir. Xalq onu böyük izdihamla, təmtəraqla, gül-çiçəklə qarşılayır. Üsyan qaldırmış ən müxtəlif liderlərin qapısına gedir *(onunla birlikdə də ölkənin bütün ağsaqqal ziyalıları)*. Üsyançılar hamısı Heydər Əliyevi böyük ehtiramla qarşılayır və durumu izah edirlər ki, *"biz yox, hakimiyyətdə olanlardı xarici ölkələrin agentləri, onlar ölkəni satır, biz də bu səbəbdən üsyan qaldırmışıq. Biz yeganə olaraq Sizə inanırıq. Siz necə desəz, o cür də hərəkət edəcəyik"*. Heydər Əliyev hamıya təmkinli olmağı, gücü xarici düşmənlərimizə yönəltmək lazım olduğunu deyib, onları danlayıb, üsyanları sakitləşdirir. Bakıya qayıdandan sonra artıq əhali və Parlament məsələ qaldırıb onu ölkənin prezidenti seçmək üçün

prosedurlaar start verildiyini bəyan edir. Heydər Əliyev yenidən Azərbaycanın rəhbəri olur. Sürətlə regionda qüvvələr balansı Azərbaycanın xeyrinə dəyişməyə başlayır

## XXII fəsil: NATO Qərargahında Azərbaycandakı vəziyyətin müzakirəsi

NATO generalları yenidən yığışıb, bu dəfə müstəqil Azərbaycandakı vəziyyəti müzakirə edirlər. O vaxt Heydər Əliyevi Moskvada olarkən fiziki olaraq aradan götürməyin lazım olduğunu təklif edən Generallardan biri deyir: “Biz axı o vaxt sizə dedik ki, bunu ancaq öldürmək lazımdı. Əks halda sizin 100 generalınız da qoşulsa hansısa bir işə, o təkbaşına onların hamısına qalib gələcək. İndi gördünüz ki, biz bu adamı düzgün tanıyaraq deyirmişik bunu?”. Onun haqlı olduğunu təsdiqləyən digər NATO generallarının bu dəfə qərarı bu olur ki, onu hakimiyyətdən devirmək üçün ən fərqli prosedurlara start verilməlidir. O cümlədən Qarabağ kartı Azərbaycanda hər bir prezidentin taleyi üçün güclü kozır olduğundan, Ermənləri Azərbaycana qarşı, 5-ci kalonu Heydər Əliyevə qarşı tam gücü ilə silahlandırmaq, işə salmaq. Həmçinin qərar alınır ki, qonşu dövlətlərin Azərbaycanın yardımına gəlməsinin qarşısını almaq üçün Türkiyə-Azərbaycan, İran-Azərbaycan, Rusiya-Azərbaycan münasibətlərinə maksimum xələl gətirmək. Sabahdan etibarən Türkiyə, İran və Rusiya televiziyalarında sifarişli-provakasiona reportajlar gedir. Paralel olaraq Qarabağda ermənilər heç vaxt görünməmiş dərəcədə azğınlaşır və sürətlə bir-neçə rayonu işğal edir. Bütün bunların cavabı olaraq Heydər Əliyev Elçibəy dövründə ABŞ və İngiltərə şirkətləri ilə tam şəkildə onların diqtəsinə uyğun bağlanmış bütün müqavilələri ləğv edir və Azərbaycana qarşı təzyiqlərini dayandırmasalar, ümumiyyətlə onları əbədi olaraq Azərbaycandakı bütün layihələrdən kənarlaşdıracağı və onların əvəzinə bu layihələri Rusiya və İranla işləyəcəyi bəyanatı ilə hədələyir

Generallar hamısı əsəb və şok içərisində. Hər biri Azərbaycana qarşı təzyiq kimi bir ağılsız qərarın kim tərəfindən verildiyini soruşur. Hər biri bildirir ki, bu ağılsız qərara Heydər Əliyevin verdiyi gözlənilməz cavab – yəni Neft müqavilələrini pozması, onların hər birinin əlaqəli

olduqları şirkətlərin aksiyalarının sürətlə aşağı düşməsinə səbəb olub. Bildirirlər ki, təcili olaraq bir yol tapılmasa biz hamımız bankrot olasıyıq. Həmişə Heydər Əliyevi fiziki olaraq aradan götürməyin tərəfdarı olan 2-3 general yenidən dillənir: *"Biz axı sizə dedik ki, əlinizdə 100 tuzunuz olsa da, bu elə bir generaldı ki, cəmisi bir Valetlə sizin bütün Tuzlarınıza qalib gələcək. Sizə hələ də çatmır ki, biz bu adamı dəqiq tanıyaraq deyirikmiş?"*. NATO generalları qərara gəlirlər ki, nə cür mümkünüsə qısa vaxtda onu fiziki olaraq aradan götürmək lazım. Amma yaxın 1 ayda bu da mümkün olmasa, məcburuq onun bütün şərtləri ilə razılaşıb, Müharibəni dayandıraq və Neft müqavilələrini onun şərtlərinə uyğun imzalayaq.

## XXIII fəsil: Heydər Əliyevə qarşı terror

Bu müddətə Heydər Əliyevə qarşı bir-neçə terror törədilir. Amma hamısı boşa çıxır. Təzyiqin mənasız, vəziyyətinsə seytnot olduğunu anlayan Dünyanı idarə edən güclər Qarabağda müharibəni təcili dayandırmaq və neft müqavilələrini Heydər Əliyevin şərtlərinə uyğun imzalamağa məcbur qalırlar. Heydər Əliyev Azərbaycanın yeraltı və yerüstü sərvətlərini, tranzit və geosiyasi imkanlarını bir silaha çevirərək, Azərbaycanın bütün düşmənləri ilə müharibəyə yönəltdi.

## XXIV fəsil: Heydər Əliyevin müxalifət liderləri və müxbirləri ilə görüşü

Burada H.Əliyevə qarşı mütəmadi səsləndirilmiş bir sıra ittihamlar *(H.Əliyev erməni kökənli olması, Rusiyaya, Ermənistana, başqa dövlətlərə xidmət etməsi, Azərbaycanda demokratiyanın, söz azadlığının olmaması və s. tipli qarayaxmalar)* müzakirə edilir və onlara onun öz dilindən izahatlar verilir. Burada ümumiyyətlə Azərbaycanın bir sıra aktual problemləri müzakirə olunur və onların bir çoxunun hibrid müharibələr çərçivəsində ölkəyə xaricdən idxal edildiyi vurğulanır.

## XXV fəsil: Heydər Əliyevin aradan götürülməsi barədə son və qəti Qərar verilir

1999-cu ildə Rusiyada Putin hakimiyyətə gəlir və Çeçenistana hücum edir. MATO generalları var qüvvələri ilə H.Əliyevi bu münaqişəyə cəlb etmək istəyirlər ki, orada qazandıqları uğurları əldən verməsinlər. Heydər Əliyevə təklif olunur ki, NATO bu məsələdə nə lazımdısa Azərbaycana dəstək verəcək, o cümlədən hər növ müasir silahlar, bu döyüşə cəlb olunmuş hər bir azərbaycanlıya ayda 3 min dollar maaş və Heydər Əliyevin özünə isə 30 milyard dollar birdəfəlik nağd qonorar. Heydər Əliyev bunun Azərbaycanı 2-ci Əfqanıstana, 2 dünya nəhənginin toqquşduğu meydana çevirmək olduğunu anlayıb bu plandan imtina edir. Bundan əlavə Heydər Əliyev Bakı- Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı Qərb ölkələrinin təklif etdiyi 2 milyard dollara başa gələcək Bakı-Qarabağ-Ermənistan-Ceyhan marşrutundan qətiyyətlə imtina edir (şərt qoyur ki, Qarabağ münaqişəsi bizim şərtlərə uyğun həll edilsin, bu proyektə razı olum), əvəzində Qərb şirkətlərinə 3 milyard dollara başa gələcək Bakı-Tbilisi-Ceyhan marşrutunu israrla müdafiə edir. Qərb dövlətləri birmənalı olaraq Heydər Əliyevi aradan götürməkdən başqa özgə çıxış yolları olmadığını anlayıb, fiziki olaraq aradan götürülməsi barədə Qərar verirlər. NATO-nun bütün strukturları bu işə qoşulur: dövlətin bütün strukturlarındakı ləyqaqətli, savadlı kadrları ən müxtəlif metodlarla şərləyib, ləkələyib vəzifələrdən uzaqlaşdırırlar, əvəzində bütün sferalarda korrupsioner, bisavad kadrların vəzifələrə daraşması, onların bir-biri ilə korrupsiya şəbəkəsi yaratması üçün bütün rıçaqlar işə salınır, onların hər birinə işlədiyi sektorun zəiflikləri, bu zəifliklərdən necə istifadə edib pul qazanmağın yollarına dair təlimatlar çatdırılır; Heydər Əliyevin özü, əzizləri barədə şərəf və ləyaqəti alçaldan təhqirlər, böhtanlar Qərb qrantları ilə işləyən daxili və xarici mətbuatı bürüyür; Ölkədə mitinqlər, terrorlar, hakimiyyət çevrilişləri törədilməsi üçün milyardlarla dollar vəsait ayrılır; Bütün bu təzyiqlərə dözməyən Heydər Əliyev 2003-cü ildə təkrar infarkt keçirərək dünyasını dəyişir. Azərbaycan xalqı əbədi olaraq öz qoruyucu mələyini itirir.

## XXVI fəsil: NATO-nun Azərbaycan və Türkiyə qarşısında öz məğlubiyyətini etiraf etməsi

Xeyli yasdan sonra Azərbaycan xalq yekdilliklə onun yerinə Azərbaycan rəhbərliyinə onun oğlu İlham Əliyevi seçir. İlham Əliyev atasının qəbri üstünə gedərək and içir ki, onun xalqımızla bağlı bütün arzularını həyata keçirəcək. İlham Əliyev təhlükəsizliyin diversifikasiyası siyasəti çərçivəsində Rusiya kəşfiyyatı ilə Azərbaycanda – ABŞ və İran kəşfiyyatına qarşı, İran kəşfiyyatı ilə – Rusiya və ABŞ kəşfiyyatına qarşı, ABŞ kəşfiyyatı ilə – Rusiya və İran kəşfiyyatına qarşı və nəhayət Türkiyə kəşfiyyatı ilə bunların hamısına qarşı gizli əməkdaşlıq müqavilələri imzalayaraq, ABŞ, Rusiya və İranın Azərbaycandakı bütün agentura şəbəkəsini ifşa edib neytrallaşdırır, Türkiyə ilə qardaşlıq müqavilələri imzalayır, 2 qardaş dövlət birləşərək hər ikisinin düşmənlərinə qarşı birgə mübarizəyə başlayırlar, Qarabağ işğaldan azad olunur, ABŞ və Rusiya birdəfəlik regiondan uzaqlaşdırılır, Türk dövlətləri aktiv şəkildə vahid siyasi, iqtisadi, hərbi blok formasında qruplaşmağa başlayırlar. Regiondan tam sıxışdılıb çıxarılan, region üzrə nəzarəti tam itirən NATO generalları pessimistliklə etiraf edirlər ki, H.Əliyev və İ.Əliyev səbəbindən ABŞ və NATO-nun Cənubi Qafqaz və Orta Asiya siyasəti tam fiaskoya uğrayıb. Belə ki, onların əsas planı Rusiyanın 4 bir tərəfini cəhənnəmə - Əfqanıstana, Çeçenistana, Liviyaya, Suriyaya, Ukraynaya döndərmək olduğu halda, H.liyev və İ.Əliyev bu planı Cənubi Qafqazda bloklayaraq, onun alovunun Orta Asiyaya yayılmasına imkan vermədilər. Nəticədə ABŞ-ın bu projeyə yatırdığı trilyonlarla dollar investisiya batdı. Söhbət əsnasında məlum olur ki, H.Əliyev hələ SSRİ dövründə də DTK-ya rəhbərlik edərkən ABŞ və NATO-ya SSRİ-nin Azərbaycandakı dayaqlarını zəiflədən informasiyalar ötürürmüş. Həmçinin Sovet vaxtı və ondan sonra ABŞ-a məxfi kodlar ötürürmüş ki, əgər ABŞ və NATO Turan zolağı boyu yerləşən respublikaları azad edib, vahid Turan hərbi-siyasi-iqtisadi bloku formasında birləşmələrinə yardım etsə, onların timsalında regionda özlərinə müttəfiq qazanar və Rusiya, Çin, Hindistan və İran kimi ABŞ-ın ənənəvi rəqiblərinin düz ürəyinin ortasına bir xəncər kimi sancıla bilərlər ("Turan qılıncı!"). Lakin bu ağıllı proyekti ABŞ və

NATO rəhbərlərinin vaxtında düzgün dəyərləndirə bilmədiklərindən, bu gün ABŞ və NATO böyük ziyan çəkir. Onların əvəzində bu layihəni bu gün H.Əliyevin oğlu digər türk qardaşları ilə birgə gerçəkləşdirir, ABŞ və NATO-nusa regiondan sıxışdırıb çıxarırlar.

Söhbət əsnasında həm də o fakt üzə çıxır ki, sən demə 30 ildir həmin bu NATO iclasına sədrlik edən, və həmişə də H.Əliyevə qarşı sərt tədbirlərin əleyhinə olan general – hələ gəncliyində H.Əliyevlə birgə İranda Huzistan arxivini oğurlayan 4 amerikanlı kəşfiyyatçılardan biri imiş. Sonradan karyera pilləsində yüksələrək əvvəlcə MKİ-də, daha sonra isə NATO-da Cənubi Qafqaz regionu üzrə kəşfiyyat sektorunun rəhbəri təyin olunub.

## REZYÜME

1944-cü ildə H.Əliyev NKVD-dən DTK-ya işə keçirilir və çekist qrupunun tərkibində Pişəvəri hərəkatına dəstək üçün İrana ezam edilir. İranda bir sıra riskli və uğurlu əməliyyatlarda iştirak edir, bu uğurlarına görə o 1945-ci ildə dalbadal 2 medalla təltif edilir. Müharibədən çox sonra H.Əliyev Kislovodskidə istirahətdə olarkən qardaşının yaxın dostu Tamerlan Əliyevlə, onun vasitəsilə də onların bütün ailəsi ilə görüşür, məlum olur ki, o, neçə il əvvəl H.Əliyevin İrana göndərişinə imza atmış, rəy və xeyir-dua vermis, o vaxtkı Ali Sovet sədri, indi isə "vurulmuş" olan Əziz Əliyevin oğludur. Özünün dövlət adamı, Əziz Əliyevinsə "qara siyahıda" olan şəxs olmasına baxmayaraq H.Əliyev onunla görüşür, İran əməliyyatındakı uğurlarını, onun etimadını doğrultduğunu həvəslə ona danışır, ondan məsləhətlər alır və bu dostluq davamlı xarakter alır və ailənin qızı ilə məhəbbət və izdivaclailə sonunclanır – baxmayaraq ki, bütün bunlar o vaxt DTK zabiti olan H.Əliyevin işində lap əvvəldən ciddi problemlərlə müşayətlənir. H.Əliyev Az. SSR DTK rəhbəri təyin ediləndən sonra həbsdə yatan bütün keçmiş legionerləri həbsdən azad edib Əks-kəşfiyyatla əməkdaşlığa cəlb edir. Bunun nəticəsində Azərbaycandakı bütün xarici casus şəbəkəsini ifşa edir, amma onları da həbs etməyib, onları da əks kəşfiyyatla əməkdaşlığa cəlb etməklə NATO kəşfiyyatı ilə birbaşa kontakt yaradır, hansı kanaldan ki, gələcəkdə Moskvanın Azərbaycandakı dayaqlarını zəiflətmək işində peşəkarlıqla istifadə edir. Az. SSR KP MK-nın I katibi təyin ediləndən sonra 2 Azərbaycanı birləşdirmək, Azərbaycanda milli şüuru oyatmaq, Azərbaycanı dünyaya tanıtmaq istiqamətində xeyli işlər görür, millətçi fəaliyyətinə görə dəfələrlə Moskvaya çağırıllr, hər birində də uğurlu diplomatik debatlarla Azərbaycanın maraqlarını qoruyur, 1977-ci ildə Moskvanın Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək planının qarşısını Brejnev və digər vacib şəxslərlə şəxsi münasibəti hesabına alır. 1985-ci ildə SSRİ rəhbərliyinə kimin gətirilməsi ilə bağlı NATO-da müzakirə gedəndə, onların namizədi olan Qorbaçova ən güclü rəqib H.Əliyev hesab edilir və onu neytrallaşdırmaq üçün NATO generalları xüsusi plan hazırlayır. 20 yanvarda Qorbaçov Bakıya qoşun yeritdərkən bütün kanallarını işə salaraq hücumun nəticələrinin

onlarla dəfə zəiflətməyə və Moskvadakı məlum brifinqi ilə tam dayandırmağa nail olur. Azərbaycanı Rusiya əleyhinə qaldırmaq və 2-ci Çeçenistana, Əfqanıstana çevirmək işinə mane olmasın deyə NATO H.Əliyevin Moskvadan Bakıya dönüşünə özünün Rusiyadakı agentura şəbəkəsi vasitəsilə ciddi mane olur, gizli yolla Bakıya qayıtdıqdan sonra isə onun NATO-nun buradakı fəaliyyətinə mane olmasının qarşısını almaq üçün ona siyasi və bəzən hətta fiziki terror planları həyata keçirilir və bu təzyiq xalqın H.Əliyevi özünə rəhbər seçməsindən sonra daha da şiddətlənir. Bütün bunlara baxmayaraq H.Əliyev Azərbaycanı xarici qüvvələrin bütün məkrli planından uğurla qoruyur, ən sonda bu təzyiqlərin nəticəsi olaraq infarkt keçirərək xalq uğrunda şəhid olur. Xalq onun yerinə onun oğlunu özünə rəhbər seçir. İ.Əliyev atasının yolunu davam etdirərək atasının başlamış olduğu Türkiyə ilə hərbi-siyasi ittifaqı maksimum dərinləşdirərək, onunla birlikdə ABŞ və Rusiyanı regiondan sıxışdırıb çıxarırlar, Qarabağı azad edirlər və Turan proyektini gerçəkləşdirməyə start verirlər. Qafqaz və Orta Asiyanın əldən çıxmasından qəzəblənən NATO generalları sonda Azərbaycan qarşısında öz məğlubiyyətlərini etiraf edirlər və bildirirlər ki, Azərbaycanla təzyiq dilində danışmaqdansa, ABŞ və NATO onunla əməkdaşlıq etsəydi daha çox şey qazanardı. Bu məqamda üzə çıxır ki, H.Əliyev sən demə hələ Sovet dövründən Azərbaycanı SSRİ müstəmləkəsindən azad etmək, sonradan da bütün türk dövlətlərini vahid hərbi-siyasi-iqtisadi blok şəklində birləşdirmək üçün ən müxtəlif formalarda ABŞ və NATO-dan dəstək istəyib, onlar bundan imtina edib. NATO generalları bu imtinanın ABŞ və NATO-nun ən böyük səhvlərindən biri adlandırırlar. Sonda həm də o fakt üzə çıxır ki, sən demə 50 ildir bu NATO iclasına rəhbərlik edən və həmişə də H.Əliyev əleyhinə sərt qərarların əleyhinə olan general hələ 1944-cü ildə İranda onunla bir-neçə əməliyyatda iştirak edib, uduzub, sonradan da H.Əliyev Azərbaycan SSR DTK-sının rəhbəri olanda o da MKİ-nin Cənubi Qafqaz regionu üzrə kəşfiyyat sektorunun rəhbəri olubmuş.